# 11

# AZƏRBAYCAN TARİXİ

METODİK VƏSAİT



 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ

Elnur Hüseynov, Sevil Bəhrəmova

# AZƏRBAYCAN TARİXİ

# 11

*Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün*
*Azərbaycan tarixi fənni üzrə dərsliyin*
**METODİK VƏSAİTİ**

LAYİHƏ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2018

# MÜNDƏRİCAT


Dərslik və metodik vəsait haqqında ..... 5
11-ci sinif Azərbaycan tarixi fənni üzrə məzmun standartları ..... 10
11-ci sinif Azərbaycan tarixi fənni üzrə alt standartların şərhi ..... 12
11-ci sinif Azərbaycan tarixi fənni üzrə məzmun standartlarının inteqrasiya imkanları 15
Təlim prosesində oxunun rolu ..... 17
Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi ..... 24
Fəndaxili və fənlərarası inteqrasiyanın zəruriliyi ..... 38
Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr ..... 40
Təlim prosesində şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması ..... 40
İnteraktiv tədris haqqında ..... 42
Fəal dərsin quruluşu. Planlaşdırma ..... 58
Perspektiv (illik) planlaşdırma ..... 60
Dərslərin icmalı ilə bağlı tövsiyələr ..... 65

## I AZƏRBAYCAN XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

### I fəsil. Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən istilası

**Mövzu 1.** Azərbaycan torpaqlarının işğalının başlanması ..... 66
**Mövzu 2.** Cənubi Qafqaz uğrunda Rusiya–Qacarlar müharibələri ..... 68

### II fəsil. Şimali Azərbaycan Rusiya işğalı dövründə

**Mövzu 3.** Müstəmləkə idarə üsulu və onun sosial-iqtisadi, siyasi həyata təsiri ..... 72
**Mövzu 4.** XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda keçirilən islahatlar ..... 75

### III fəsil. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanın sosial-iqtisadi və siyasi inkişaf xüsusiyyətləri

**Mövzu 5.** Kapitalizmin inkişafı, yeni sosial münasibətlərin meydana gəlməsi ..... 78
**Mövzu 6.** Şimali Azərbaycanda iqtisadi inkişaf ..... 81
**Mövzu 7.** Müstəmləkəçilik əleyhinə çıxışlar. Milli demokratik hərəkat ..... 84
**Mövzu 8.** Çarizmin milli qırğın siyasəti ..... 88
**Mövzu 9.** Şimali Azərbaycan Birinci Dünya müharibəsi illərində ..... 91


LAYİHƏ

**IV fəsil. Cənubi Azərbaycanın sosial-iqtisadi inkişaf xüsusiyyətləri**

**Mövzu 10.** Cənubi Azərbaycan XIX əsrdə ........ 94

**Mövzu 11.** Cənubi Azərbaycan XX əsrin əvvəllərində. Məşrutə hərəkatı........ 96

**V fəsil. Azərbaycan mədəniyyəti**

**Mövzu 12.** Azərbaycan mədəniyyəti XIX əsr – XX əsrin əvvəllərində........ 99

**II AZƏRBAYCAN 1917–1920-ci İLLƏRDƏ**

**VI fəsil. Azərbaycan Xalq Cümhuriyyəti**

**Mövzu 13.** Rusiya imperiyasının dərin siyasi böhranı dövründə Şimali Azərbaycan ........ 103

**Mövzu 14.** Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasəti ........ 105

**Mövzu 15.** Şimali Azərbaycan milli dövlətçiliyin bərpası və möhkəmləndirilməsi yolunda ........ 108

**Mövzu 16.** Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasəti ........112

**Mövzu 17.** Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti ........116

**Mövzu 18.** Azərbaycan Xalq Cümhuriyyətinin süqutu........ 120

**VII fəsil. Cənubi Azərbaycan 1917–1920-ci illərdə**

**Mövzu 19.** Cənubi Azərbaycan 1917–1920-ci illərdə........ 123

**III AZƏRBAYCAN XX ƏSRİN 20–80-ci İLLƏRİNDƏ**

**VIII fəsil. Azərbaycan XX əsrin 20–40-cı illərində**

**Mövzu 20.** Bolşevik istilası və onun nəticələri........ 127

**Mövzu 21.** "Müstəqil SovetAzərbaycanı" şüarının iflası. Ərazi bütövlüyümüzün pozulması ........ 129

**Mövzu 22.** Bolşevikyönümlü sosial-iqtisadi və mədəni islahatlar........ 132

**Mövzu 23.** Sovet totalitar rejiminin təşəkkülü. Kütləvi repressiyalar ........ 135

**Mövzu 24.** Azərbaycan İkinci Dünya müharibəsi illərində........ 137

**Mövzu 25.** Cənubi Azərbaycan 1920–1940-cı illərdə. 21 Azər hərəkatı ........ 141

LAYİHƏ

## IX fəsil. Azərbaycan SSR İkinci Dünya müharibəsindən sonrakı dövrdə

**Mövzu 26.** Azərbaycan SSR XX əsrin 40-cı illərin ortaları 60-cı illərdə ........ 144
**Mövzu 27.** İdarəçiliyin möhkəmləndirilməsi. 70–80-ci illərdə sosial-iqtisadi uğurlar . 146
**Mövzu 28.** “Yenidənqurma” və “aşkarlıq” siyasətinin iflasa uğraması.
Qarabağ münaqişəsinin başlanması ........ 149
**Mövzu 29.** Xalq hərəkatı ........ 153
**Mövzu 30.** Cənubi Azərbaycan İslam inqilabı və sonrakı dövrdə........ 156
**Mövzu 31.** XX əsrin II yarısında mədəniyyət........ 158

# IV AZƏRBAYCAN RESPUBLİKASI

## X fəsil. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasının ilk illərində

**Mövzu 32.** Dövlət müstəqilliyinin bərpası ........ 161
**Mövzu 33.** Birinci Qarabağ müharibəsi ........ 165
**Mövzu 34.** Xocalı soyqırımı........ 169
**Mövzu 35.** Müstəqilliyin ilk addımları. Hakimiyyət uğrunda çəkişmələr ........ 172
**Mövzu 36.** Milli Qurtuluş........ 176

## XI fəsil. Hüquqi demokratik dövlət quruculuğu yolunda

**Mövzu 37.** Hüquqi islahatlar və demokratik dövlət quruculuğu........ 180
**Mövzu 38.** XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatlar ........ 184
**Mövzu 39.** Azərbaycan Respublikasının xarici siyasəti ........ 188
**Mövzu 40.** Yeni minilliyə yeni liderlə ........ 192
**Mövzu 41.** Qarabağ münaqişəsi müasir mərhələdə. Qətiyyətin nümayişi ........ 196
**Mövzu 42.** Mədəniyyət........ 199

**Summativ qiymətləndirmə vasitələrinə dair nümunə** ........ 204
**İstifadə olunmuş ədəbiyyat** ........ 206

LAYİHƏ

## DƏRSLİK VƏ METODİK VƏSAİT HAQQINDA

Ölkəmiz sürətlə, hərtərəfli inkişaf edərək dünya sivilizasiyasına inteqrasiya etməkdədir. Müasir inteqrasiya prosesinin mürəkkəbliyi ilə əlaqədar ölkə rəhbərliyi inteqrasiya siyasətini həyata keçirərkən prosesin bütün detallarına diqqət yetirir. Digər dövlətlərin təcrübələri nəzərə alınır, buraxılan səhvlər nəzərdən qaçırılmır, ölkənin inkişafı istiqamətində səmərəli yollardan istifadə edilir.

İnteqrasiya qloballaşma kimi böyük bir prosesin ayrılmaz komponentidir. Mədəni və mənəvi dəyərlərin özünəməxsusluğunun qorunub saxlanılması, varislik prinsipi əsasında gələcək nəsillərə çatdırılması gərgin zəhmət tələb etməklə bərabər, hər zaman böyük aktuallıq kəsb etmişdir. Müstəqillik illərində ən mühüm uğurlarımızdan biri Azərbaycanda milli-mədəni köklərə qayıdış, milli tariximizə, milli-mənəvi dəyərlərə hörmətin qorunmasıdır. Dövlətçilik sisteminin formalaşması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu baxımdan Ulu öndər Heydər Əliyevin dövlətimizin inkişafı istiqamətində reallaşdırdığı tədbirlər, milli-mənəvi dəyərlərin qorunması və təbliği, tolerantlığın və dinlərarası dialoqun təşviq edilməsi təhsil sahəsinin inkişafına da təkan verdi.

Hazırda Azərbaycan Respublikasında müstəqil dövlətçilik təlimi dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə həyata keçirilir. Ölkəmizin Prezidenti İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli yanaşması, analitik təfəkkürü, müdrik siyasəti sayəsində müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır. Bu gün Azərbaycanda dövlət və xalq münasibətlərinin effektiv tənzimlənməsi Ümummilli lider Heydər Əliyevin və onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Daxili və beynəlxalq siyasətdəki yeniliklər, iqtisadi dəyişiklik, texnologiyanın təkmilləşməsi həyatımıza öz təsirini göstərməkdədir. Bu təsir dərsliklərin hazırlanmasında nəzərə alınmış, müasir dövrün tələblərinə uyğunlaşdırılmışdır. Azərbaycan tarixi fənn kurikulumu diqqət mərkəzində saxlanılmaqla dərslik və metodik vəsait hazırlanıb sizə təqdim edilmişdir.

Bildiyiniz kimi, tarix fənni cəmiyyətdə gedən dəyişiklikləri, onun səbəb və nəticəsini öyrənməklə yanaşı, baş vermiş proseslərin ideyaverici qüvvəsinin nədən ibarət olduğunu, ideyaların tarixdə qoyduğu izi, onu qoruyub saxlayan şərait və qüvvələri öyrədir.

Sizə təqdim edilən dərslik vasitəsilə Azərbaycan tarixi fənninin spesifik xüsusiyyətlərini şagirdlərinizə çatdırmaq üçün müxtəlif ictimai, iqtisadi və siyasi problemlərin araşdırılıb həll edilməsi üçün şərait yaratmışıq. Müxtəlif vasitələrdən istifadə etməklə onların mühüm və mühüm olmayan anlayışları fərqləndirmək bacarığına yiyələnməsinə kömək edə bilərsiniz. Şagirdlərin Azərbaycan Respublikasının vətəndaşı kimi öz tarixi keçmişlərini bilməsi və dünyada gedən prosesləri araşdırması üçün təkcə dərslikdə tarixi materialları yerləşdirməklə kifayətlənməmiş, müxtəlif inkişafetdirici və araşdırma bacarığı yaradan tapşırıqlardan da istifadə etmişik. Dərsliyin tərtibi zamanı qarşımıza qoyduğumuz əsas məqsəd şagirdlərə vətəndaşlıq hisləri aşılamaq, demokratik cəmiyyətimizdə fəal rol oynamalarını və dəyişikliklər etməyi bacarmalarını təmin etmək olub.

Azərbaycan tarixi fənn kurikulumunun obyekti şagirdlərimizin hazırda və gələcəkdə düşünülmüş şəkildə fəaliyyət göstərmələri üçün lazım olan bilik və anlayışlardır. Bu sənəd

LAYİHƏ

fərdi və ictimai düşüncəni inkişaf etdirmək, şagirdlərə məsuliyyətli vətəndaş olmağı öyrətmək, qlobal qarşılıqlı münasibəti başa düşmək, keçmiş, indiki və gələcək zaman arasındakı zəruri əlaqələri anlamaq baxımından mühüm əhəmiyyət kəsb edir. Onlar bu fənnin öyrətdiyi bilikləri mənimsəmədən anlaşılmaz dəyişikliklər qarşısında tərəddüd edəcəklər. Lakin tarix və bu kimi digər fənlərdən dərin biliklər əldə etməklə həyatda düzgün seçim bacarığına yiyələnəcək, dövlətimizdə və dünyada baş verən sürətli dəyişiklikləri anlaya biləcəklər.

Müstəqillik qazandığı gündən inkişaf etməkdə olan Azərbaycan dövləti bütün sahələrdə fəaliyyət göstərərək dünyanın qabaqcıl ölkələri ilə bərabər səviyyədə addımlamağa çalışır. Qloballaşan dünyada inteqrativliyin qorunub saxlanması, nailiyyətlərə doğru irəliləmək, uğurlar əldə etmək üçün təhsilin, əsasən də, dərsliklərin rolu əvezedilməzdir. Şəxsiyyətyönümlü inteqrativ məzmuna əsaslanan yeni təlim strategiyalarından istifadə etməyə şərait yaradan dərslik hazırlamaq müasir dövrün tələblərindən biridir. Təhsilə yeni yanaşma və bu yanaşmanın nəticəsi olaraq öhdəyə düşən vəzifəni layiqincə yerinə yetirmək bir sıra işlərin həyata keçirilməsini zəruri edir. Hər bir tarix müəllimi tədris etdiyi fənnə uyğun olaraq tədris resurslarının yaradılmasında maraqlı olmalı, dərsin gedişində əyaniliyə üstünlük verməklə yanaşı, fəal-interaktiv təlim mühiti yaratmalıdır. Bunun üçün də 11-ci sinif Azərbaycan tarixi dərsliyi hazırlanarkən ölkədə həyata keçirilmiş təhsil islahatlarına, xüsusən də dərsliklə bağlı qarşıya qoyulan tələblərə xüsusi diqqət verilmişdir. Təlim və tərbiyənin daim nəzarətdə saxlanılması və bu sahədə aparılan işin mühüm hissəsi kimi dövlətin qoyduğu təhsil standartlarının tələbinə uyğun dərsliklərin hazırlanması vacib hesab edilmişdir. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün 11-ci sinif Azərbaycan tarixi dərsliyi və eləcə də Metodik vəsait Azərbaycan tarixi fənn kurikulumu əsasında tərtib olunmuşdur.

Bildiyiniz kimi, müasir dövrdə təhsil sistemində dərslik məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biri hesab edilir. Şagird şəxsiyyətinin formalaşdırılmasında və inkişafında onun rolu əvəzsizdir və tələblərə uyğun hazırlanması mütləqdir. Sizə təqdim etdiyimiz dərslik komplekti öz funksiyasına, məzmun və strukturuna görə fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış, nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izahı verilərək təqdim olunmuşdur. İdraki təhsilin əsas resurslarından biri hesab edilən dərslik özünəməxsus, orijinal xüsusiyyətləri ilə maraq doğuracaqdır. Ən zəruri informasiyaları, tapşırıq, sual və çalışmaları əks etdirən 11-ci sinif Azərbaycan tarixi dərsliyi istiqamətverici, yönəldici, düşündürücü funksiyaları özündə birləşdirir. Dərslikdə artıq informasiya yükünə yer verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuşdur. Fənn kurikulumlarına uyğunluq onun əsas xüsusiyyətlərindən biri kimi qeyd edilə bilər. Bunu nəzərə alaraq hazırlanmış dərslik fəal təlim prosesində şagirdləri idraki fəallığa sövq edəcək, təqdim olunan şəkil və illüstrasiyalar, sual və tapşırıqlar isə tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirəcəkdir. Dərslik təkcə bilik vermək, məlumatlandırmaq funksiyasına deyil, şəxsiyyətin formalaşmasına da yardım edəcək, şagirdlərin öz üzərlərində çalışmasına, onlarda tənqidi, məntiqi və yaradıcı təfəkkürün formalaşdırılaraq inkişaf etdirilməsinə şərait yaradacdır.

Bildiyiniz kimi, şagirdləri fəaliyyətə sövq etmək, həmçinin praktik olaraq işin icrasına imkan yaratmaq müasir dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir. Bacarıqları

LAYİHƏ

formalaşdıra bilmək imkanı üstün cəhət kimi dəyərləndirilir və bunun üçün müxtəlif növ çalışma və tapşırıqlardan kifayət qədər istifadə edilməsi tələb olunur.

Bu tələbləri nəzərə almaqla dərslikdə, eləcə də Metodik vəsaitdə əsas nüanslara yer ayrılmışdır. Bununla yanaşı, inteqrativ bacarıqların inkişafına imkan yaratmaq, onu şəxsiyyətin ümumi keyfiyyətinə çevirmək üçün dərslik komplektində yetərincə imkanlar açılmışdır. Şagirdlərin dünyagörüşünün formalaşdırılması da diqqət mərkəzində saxlanılmış, bunun üçün lazımi məlumatlardan, şəkil və illüstrasiyalardan, eləcə də digər öyrədici və düşündürücü vasitələrdən istifadə edilmişdir.

Yeni dərslikləri kurikulumun tələblərinə uyğun səviyyədə hazırlamaq üçün bir sıra mühüm pedaqoji prinsiplərin gözlənilməsi zəruridir. Düzgünlük prinsipi dərsliyi qeyri-ciddi faktlardan uzaqlaşdırır, inandırıcı, stimullaşdırıcı mənbəyə çevirir. Şagirdlər dərsliyə etibarlı tədris vəsaiti kimi yanaşırlar. 11-ci sinif Azərbaycan tarixi dərsliyi hazırlanarkən təlim standartlarına uyğunluq, faktların dəqiqliyi, orfoqrafik, durğu işarələrinin, qrammatik qaydaların gözlənilməsi, mübahisəli faktların olmaması kimi əsas məqamlar diqqətdə saxlanılmışdır.

Əyanilik ön plana çəkilmiş, dövrə aid hadisələri özündə əks etdirən sxem, şəkil, illüstrasiya, fotoşəkil və s.-dən istifadə edilmişdir. Dərsliyi şagirdin ən yaxın müsahibi kimi dəyərləndirmək, eləcə də stimullaşdırıcı vasitəyə çevirmək üçün əyaniliyə mühüm didaktik prinsip kimi müraciət olunmuşdur. Azərbaycan tarixi dərsliyi hazırlanarkən onun özünəməxsus cəhətləri, xüsusiyyətləri əsas götürülmüş, zəruri hesab edilən müvafiq əyani vasitələr seçilib təqdim edilmişdir. Dərsliyin ən mühüm atributlarından biri onun yeniliyi, müasirliyi, dövrün, zamanın tələb və ehtiyaclarını özündə əks etdirməsi, şagirdlərdə yenilik əhvali-ruhiyyəsi yarada bilməsidir.

Dərsliyin müasir olması üçün fakt və hadisələrin inkişafla bağlılığı, onu əks etdirməsi əsas şərtlərdəndir. Bununla yanaşı, yeni texnologiyalara istinad edilməsi və onların dərsliyin məzmununa gətirilməsi müasirliyin əlamətlərindən biri kimi vacib tələblərdəndir. Ölkəmizin keçmişini özündə əks etdirən Azərbaycan tarixi dərsliyi bütün bu tələblər nəzərə alınmaqla şagirdlərin, müəllimlərin, valideynlərin, eləcə də dərsliklə maraqlananların nəzərinə təqdim edilmişdir.

Tədris vəsaitlərindən biri kimi, dərsliyin bütövlüyü, tamlığı onun məzmununda aşağıdakı müəyyən komponentlərin olmasını tələb edir:

1) nəzəri materiallar;
2) praktik materiallar;
3) təsviri materiallar;
4) qiymətləndirmə materialları.

Dərsliyin məzmununda verilməsi nəzərdə tutulan bu materialların hər biri mühüm didaktik əhəmiyyət daşıyır. Bundan başqa, şagirdlərin təlim fəaliyyətinə sövq olunması, öyrənmə prosesinin təşkili və bacarıqların dəyərləndirilməsi baxımından geniş imkanları ilə seçilir. Ona görə də 11-ci sinif üçün Azərbaycan tarixi dərsliyi hazırlanarkən bu prinsipə əməl olunmuş, mühüm tələblərin gözlənilməsi vacib hesab edilmişdir. Dərslikdəki materialların sıralanmasında məzmun baxımından ardıcıllıq mühüm prinsiplərdən biri kimi gözlənilmişdir. Dərslikdə əksini tapan təlim materialları şagirdlərin psixoloji inkişafının təmin edilməsi baxımından seçilmişdir. Bu materiallar hafizə, təfəkkür və təxəyyülün formalaşmasına yönəldilərək onların müstəqil düşünməsinə və tətbiqi icra ilə məşğul olmasına imkan yara-

LAYİHƏ

dacaqdır. Dərsliyin məzmun baxımından işlənilməsi zamanı təlim materialları sadədən mürəkkəbə doğru sıralanmışdır. Kurikulumda nəzərdə tutulan sadədən mürəkkəbə prinsipi dərsliyin hazırlanması zamanı diqqət mərkəzində saxlanılmışdır.

Təlim materiallarının miqdarı və ağırlığı müəyyənləşdirilərkən dərs üçün ayrılan vaxt nəzərə alınmışdır. Bu zaman nəzəri və praktik materialların balansı gözlənilmiş, standartların reallaşdırılması zəruri hesab edilmişdir. Həmçinin məntiqi baxımdan ardıcıllıq nəzərə alınmaqla sadədən mürəkkəbə prinsipi qorunmuş, verilən məzmun, eləcə də tapşırıq və suallar məntiqə uyğun seçilmişdir.

Sizə təqdim edilən 11-ci sinif üçün Azərbaycan tarixi dərsliyi şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanmışdır. Bu zaman iki əsas tələb diqqət mərkəzində saxlanılmışdır: a) dizayn; b) təlim materiallarının məzmunu, həcmi, maraqlılığı. Bu da şagirddə ölkəmizin tarixinə marağı daha da gücləndirərək onun layiqli vətəndaş kimi yetişməsinə xidmət edəcəkdir.

Dərslik hazırlanarkən şagirdin sinif mühiti ilə yanaşı, müstəqil işləməsinə şərait yaradan amillərə diqqət verilmiş, motivasiya imkanları gücləndirilmiş, vaxt nəzərə alınmaqla verilən materiallarda zəruri və düşündürücü məqamlara yer ayrılmışdır. Oxunaqlılığın təmin olunması üçün məzmunun maraqlı olması vacib hesab edilmişdir. Belə materiallar şagirdlərin diqqətini çəkir, onları öyrənməyə sövq edir. Təlim materiallarının lakonikliyi, aydın üslubda, sadə dildə yazılması öyrənmə prosesinin səmərəliliyini artırır ki, bu tələb də maksimum gözlənilmiş, hadisələrin şərhi aydın və anlaşılan şəkildə verilmişdir.

İnklüzivlik prinsipi əsasında yazılmış dərslik təlim prosesində yalnız bir səviyyəni deyil, müxtəlif səviyyələri özündə ehtiva edir. Onun həm istedadlı, həm də müəyyən səbəblərdən geridə qalan şagirdlərin təlim maraqlarını ödəyə bilməsi üçün təlim materiallarının seçilməsinə və dərsliyə daxil edilməsinə diferensial yanaşılmışdır.

Dərslikdə inklüzivlik dövrün əsas tələbi kimi diqqət mərkəzində saxlanılmışdır. Şagirdlərin inkişafı üçün zəruri olacaq imkanlar dərslik vasitəsilə müəyyən olunmuşdur. Dərsliyin yazılmasında inklüzivlik əsas meyar kimi götürülmüşdür. İnklüzivliklə yanaşı, fəal təlim müasir təhsil prosesinin əsas istiqamətlərindən hesab edilir. Onun qurulmasında bir çox amillərlə bərabər, dərslik də həlledici rol oynayır. Nəticəyönümlü kurikulumlar məhz belə dərsliklərin hazırlanmasını tələb etdiyi üçün biz də bu tələbə uyğunluğu qoruyub saxlamağa çalışmışıq. Ona görə də dərslik hazırlanarkən fəal təlim üçün şəraitin yaradılmasına mühüm didaktik prinsiplərdən biri kimi önəm verilmişdir. Hər bir paraqrafda təlim materialları fəal təlim prosesinə uyğunlaşdırılmış, təlim marağının formalaşdırılması, problemin qoyuluşu, həll edilməsi, təqdimolunma və qiymətləndirmə üçün şəraitin yaradılması əsas götürülmüşdür.

Dərslik komplektinin hazırlanması zamanı mənbələrin göstərilməsi, təlim materiallarında kütləvi informasiya vasitələrindən istifadə imkanlarının nəzərə alınması diqqət mərkəzində saxlanılmışdır. 11-ci siniflər üçün Azərbaycan tarixi dərsliyi bütün bu tələblərə uyğun şəkildə formalaşdırılmışdır.

Müxtəlif psixoloq və pedaqoqların fikrinə görə, fəaliyyətlər üç istiqamətdə qruplaşdırılır: idraki, informativ-kommunikativ, psixomotor. Dərslik bu fəaliyyətləri formalaşdırmaq və inkişaf etdirmək məqsədini əsas tutaraq verilən tələblərə uyğun işlənmişdir.

11-ci sinfin Azərbaycan tarixi dərsliyi sadədən mürəkkəbə, xronoloji və məntiqi ardıcıllığı nəzərə almaqla 42 paraqraf və 4 bölmədən ibarətdir. Paraqraflar tərtib olunarkən

LAYİHƏ

standartlar və onların reallaşdırılması üçün mənbələr, xəritələr, illüstrasiyalar, sxemlər, cədvəllər, sual və tapşırıqlar və s. nəzərə alınmışdır. Metodik vəsaitdə standartlar, inteqrasiya cədvəli, dərslərin icmalı, açıq dərs nümunələri, qiymətləndirmə və qiymətləndirmə vasitələri öz əksini tapmışdır. İstifadə edilmiş mənbə və ədəbiyyat, internet resurslarının siyahısı təqdim edilmişdir. Tərtib olunmuş paraqrafların hər biri qruplaşdırılmış, forma və üsullar müəyyən olunmuş işin texnologiyasına aydınlıq gətirilmiş, dərslikdən istifadənin bütün mexanizmləri işıqlandırılmışdır. Bir sözlə, dərslik komplektinə daxil olan dərslik və metodik vəsait dövlətin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin qoyduğu tələbləri maksimum səviyyədə gözləməklə tərtib olunmuşdur.

LAYİHƏ

## 11-ci SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**11-ci sinfin sonunda şagird:**

- mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır;
- tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir, müxtəlif baxışları dəyərləndirir;
- Azərbaycan xalqının formalaşmasını tarixi dövrlərlə əlaqələndirir;
- Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir, təqdimatlar hazırlayır;
- Azərbaycanda müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir və proqnozlar verir;
- qlobal problemlərin həllində Azərbaycanın mövqeyini dəyərləndirir;
- tarixi inkişafda şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir və layihələr hazırlayır;
- dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir;
- Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələrini təqdim edir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

### 1. Tarixi zaman

Şagird:

1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

1.2. Mənbələr üzərində tədqiqat bacarığını nümayiş etdirir.

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

### 2. Tarixi məkan

Şagird:

2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

LAYİHƏ

### 3. Dövlət

Şagird:

3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

### 4. Şəxsiyyət

Şagird:

4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.

### 5. Mədəniyyət

Şagird:

5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.

5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.

LAYİHƏ

## 11-ci SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ ALT STANDARTLARIN ŞƏRHİ

| 1. Tarixi zaman | | |
|---|---|---|
| **Standartlar** | **Şərhlər** | **Açar sözlər** |
| 1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır. | Azərbaycan tarixinin keçmiş və müasir dövrünün mürəkkəb və ziddiyyətli olmasını, ölkənin həmişə xarici dövlətlərin maraq dairəsində xüsusiyyətlərini, Şərqin müsəlman və türk dünyasında ilk dəfə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın tarixinə hüquqi dövlətçilik və siyasi demokratiya ənənələrini bəxş etməsini, 1920-ci il 28 aprel işğalından sonra 70 ildən çox bir müddəti əhatə edən dövrdə Azərbaycanın, əslində, Moskva tərəfindən idarə edildiyini, totalitar rejimin və bolşevik ideologiyasının təsiri altında yaşamasına baxmayaraq, müəyyən iqtisadi və mədəni tərəqqi yolu keçdiyini dəyərləndirir. Azərbaycanın ikinci Respublika – müstəqil Azərbaycan Respublikası dövrünün xalqımızın tarixində xüsusi yer tutmasını, xalqın çağırışı ilə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi nəticəsində respublikada hərc-mərcliyə son qoyulmasını, dönməz sosial-siyasi sabitlik yaradılmasını, dinamik iqtisadi və siyasi inkişaf prosesinin başlanmasını, xarici siyasətdə uğurlar qazanılmasını, bu gün həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsini əks etdirən təqdimatlar hazırlayır. | Müstəqil Azərbaycan, sosial-siyasi sabitlik, iqtisadi və siyasi inkişaf |
| 1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır. | Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrünə aid siyasi, iqtisadi, sosial, mədəni məsələlərə dair müqayisəli cədvəllər hazırlayır. | Siyasi, iqtisadi, sosial və mədəni inkişaf |
| 1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir. | Mənbədəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları müəlliflərin milli dövlətçilik maraqları, şəxsi mövqeyi, tədqiqatçılıq bacarıqlarının səviyyəsi baxımından dəyərləndirir. Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, inkişafı, süqutu, totalitar bolşevik rejiminin qurulması və s. məsələlərə həsr olunmuş problemlərlə bağlı sovet tarixçilərinin əsərlərindəki baxışları müasir Azərbaycan tarixçilərinin həmin problemlə bağlı əsərlərindəki və xatirələrindəki baxışlarla müqayisə edərək yaranmış fərqlərə dair mülahizələrini bildirir və onları dəyərləndirir. | Mənbə, dövlətçilik maraqları, şəxsi mövqe, totalitar rejim |

LAYİHƏ

| | | |
|---|---|---|
| 1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir. | Dövrə aid maddi və yazılı mənbələrdən (Azərbaycan tarixçilərinin əsərləri, qeydləri, hakimiyyət orqanlarının qərar və sərəncamları, kütləvi informasiya materialları, internet resursları) lazım olan tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq olanları seçir və izah edir. | Yazılı və maddi mənbələr, ilkin sənədlər, kütləvi informasiya vasitələri, internet resursları |
| 1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir. | Hər bir xalqın formalaşması zəruri olan şərtlər yarandıqda mümkün olur. Həmin vacib şərtləri – dil birliyini, ərazi bütövlüyünü, mədəniyyət vahidliyini, məhəlli-iqtisadi əlaqələrin ümumiliyini, tarixi-siyasi hadisələrin gedişindən asılı olaraq bu şərtlərin inkişafının ləngiməsini və ya sürətlənməsini açıqlayır, Azərbaycanın qədim zamanlardan geniş əraziləri əhatə etməsini, türk və qeyri-türk etnoslarının qaynayıb-qarışmasını, onları birləşdirən ümumi cəhətləri, eyni ideologiyanın təsiri altında olmalarını, tabe olduqları imperatorluğa və yadelli hücumlarına qarşı birgə mübarizə aparmalarını Azərbaycan xalqının təşəkkül prosesini sürətləndirən əsas cəhətlərlə əlaqələndirir və əsaslandırır. | Xalqın formalaşması, tarixi keçmişimiz |
| **2. Tarixi məkan** | | |
| 2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir. | Ölkəmizin əlverişli geosiyasi mövqeyinin əhəmiyyətini, onun təbii ehtiyatlarından – relyef, iqlim, torpaq, su, faydalı qazıntılardan, əmək ehtiyatlarından, mövcud maddi və sosial infrastrukturlardan vətənimizin gələcəyi naminə daha yaxşı istifadə etmək haqqında mülahizələrini söyləyir və dəyərləndirir. | Geosiyasi mövqe, təbii ehtiyatlar, infrastruktur |
| 2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. | İnternetdən, ensiklopediyalardan, tarix və coğrafiyaya aid lüğətlərdən istifadə etməklə Azərbaycanın geosiyasi mövqeyini, fiziki-coğrafi şəraitini, təbii ehtiyatlarını, mövcud maddi və sosial infrastrukturlarını təhlil edir və təqdimatlar hazırlayır. | Azərbaycanın geosiyasi mövqeyi, fiziki-coğrafi şəraiti |
| **3. Dövlət** | | |
| 3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir. | Azərbaycan xalqının öz dövlətçilik ənənələrini və sivilizasiyaları tarix boyu qorumasını, inkişaf etdirməsini və təkmilləşdirməsini, tariximizin müxtəlif dövrlərində müəyyən səbəblər üzündən müvəqqəti olaraq müstəqilliyini itirməsini, torpaqları başqa imperiyaların tərkibində olsa da, xalqın öz dövlətçilik ənənələrini unutmamasını, şərait yarandıqda onu yenidən bərpa etməsini, XX əsrin əvvəllərində və sonlarında yaranmış tarixi şəraitdən istifadə edərək öz dövlət müstəqilliyini elan etməsini, dünyəvi, demokratik dəyərlər uğrunda mübarizədə nailiyyətlər qazanmasını dəyərləndirir. | Dövlətçilik ənənələri, sivilizasiyalar, XX əsrin əvvəllərində və sonunda dövlətçiliyimizin bərpası, dünyəvi demokratik dəyərlər |

LAYİHƏ

| | | |
|---|---|---|
| 3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir. | Ekoloji tarazlığın pozulması, işsizlik, korrupsiya, terrorizm, müharibə təhlükəsi, dini münasibətlərdə ayrı-seçkilik və s. problemlərin həllində Azərbaycanın mövqeyinin və apardığı siyasətin həmişə düzgün və ədalətli olmasını dəyərləndirir. | Qlobal problemlər, ekoloji tarazlığın pozulması, korrupsiya, müharibə, dini ayrı-seçkilik |
| 3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir. | İnternetdən, ensiklopediyalardan, tarixi sənədlərdən əldə etdiyi materialların tədqiqi nəticəsində Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparmaqla ölkəmizdə qədim dövrdən bu günə kimi mövcud olmuş dövlətçilik tarixini xarakterizə edir və müsbət proqnozlar verir. Öz fikirlərini son illərdə Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlərlə əsaslandırır və onu qonşu dövlətlərlə müqayisə edir. | Dövlətçilik tarixi, dövlətçilik tariximizin keçdiyi yol, Azərbaycan Respublikasının dövlət quruculuğu |
| | **4. Şəxsiyyət** | |
| 4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir. | Şərqin müsəlman və türk dünyasında ilk dəfə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin və b.-nın, SSRİ-nin tərkibində totalitar rejim və bolşevik ideologiyasının təsiri altında yaranmasına baxmayaraq, Azərbaycan SSR-in müəyyən iqtisadi və mədəni tərəqqi yolunu keçməsində Nəriman Nərimanovun, Cənubi Azərbaycanda milli dövlətçiliyin bərpasında Şeyx Məhəmməd Xiyabaninin, Azərbaycan Xalq hərəkatında Əbülfəz Əliyevin, respublikada tüğyan edən hərc-mərcliyə son qoyulmasında, milli dövlətçiliyimizin bərpası və inkişafında, dönməz sosial, siyasi sabitliyin bərqərar edilməsində, dinamik iqtisadi və siyasi inkişaf prosesinin başlanılmasında, xarici siyasətdə uğurlar əldə edilməsində Heydər Əliyevin, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsində, onun Cənubi Qafqazda aparıcı dövlətə çevrilməsində, hərbi qüdrətinin artırılmasında İlham Əliyevin fəaliyyətini dəyərləndirir. | Şəxsiyyətə verilən tələblər, fərd və şəxsiyyət, cəmiyyət və şəxsiyyət, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları, Azərbaycan Respublikası, Cənubi Azərbaycanda Milli hökumətin nümayəndələri |
| 4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır. | Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı, sosial-iqtisadi və siyasi tərəqqisi, müdafiə qüdrətinin artırılması və s. məsələlərlə bağlı fəaliyyətlərinə aid layihələr hazırlayır. | Dövlətçiliyin möhkəmləndirilməsi, tarixi şəxsiyyətlərimiz |
| | **5. Mədəniyyət** | |
| 5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir. | Dünya mədəniyyətinin inkişafında Ü.Hacıbəyli, Q.Qarayev, Y.Məmmədəliyev, Lütfi Zadə və başqalarının timsalında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir. | Yeni kəşflər, Azərbaycanın yeni və ən yeni dövr mədəniyyəti |

LAYİHƏ

| | | |
|---|---|---|
| 5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir. | Sovet rejimi şəraitində proletar mədəniyyəti adı altında milli-mənəvi dəyərlərə, xalq musiqisinə, musiqi alətlərinə, ərəb əlifbası ilə yazılmış nadir əsərlərə qarşı hücumlar olsa da, Azərbaycan xalqının özünüdərkini, milli-mənəvi dəyərlərinə olan məhəbbət hissini öldürməyin mümkünsüzlüyünü və xalqın onları dünya mədəniyyətinə töhfə kimi qoruyub saxladığını dəyərləndirir. | Xalqın milli-mənəvi dəyərləri, sovet rejimi |
| 5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir. | İnternetdən, ensiklopediyalardan, ilkin sənədlərdən, dərsliklərdən topladığı materiallar əsasında Azərbaycan mədəniyyətinin elm, təhsil, incəsənət, milli-mənəvi dəyərlər sahəsində dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələrini təhlil edib ümumiləşdirir və təqdim edir. | Azərbaycan mədəniyyəti, milli-mənəvi dəyərlər |

## 11-ci SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARININ İNTEQRASİYA İMKANLARI

| Standartlar | Digər fənlərlə əlaqəsi |
|---|---|
| **1. Tarixi zaman** | |
| 1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir. | |
| 1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır. | Ümumi tarix – 1.1.2 |
| 1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır. | Ümumi tarix – 1.1.3 |
| 1.2. Mənbələr üzərində tədqiqat bacarıqları nümayiş etdirir. | |
| 1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir. | Azərbaycan dili – 1.2.4<br>Ümumi tarix – 1.1.2 |
| 1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir. | İnformatika – 3.3.2<br>Ədəbiyyat – 1.1.4 |
| 1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir. | |
| 1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir. | Ümumi tarix – 2.1.1 |
| **2. Tarixi məkan** | |
| 2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir. | |
| 2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir. | Ümumi tarix – 2.1.1<br>Coğrafiya – 3.2.3 |
| 2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. | Ümumi tarix – 2.1.2<br>Coğrafiya – 3.2.4 |
| **3. Dövlət** | |
| 3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir. | |

LAYİHƏ

| | |
|---|---|
| 3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir. | Ümumi tarix – 3.1.1<br>Coğrafiya – 3.2.1 |
| 3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir. | Ümumi tarix – 3.1.2<br>Azərbaycan dili – 1.1.1 |
| 3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir. | Ümumi tarix – 3.1.3<br>İnformatika – 4.1.2 |
| **4. Şəxsiyyət** | |
| 4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir. | |
| 4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir. | Ümumi tarix – 4.1.1<br>Azərbaycan dili – 1.2.4 |
| 4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır. | Ümumi tarix – 4.1.2<br>İnformatika – 4.1.2<br>Azərbaycan dili – 3.1.2<br>Ədəbiyyat – 3.1.2 |
| **5. Mədəniyyət** | |
| 5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir. | |
| 5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir. | Ümumi tarix – 5.1.1<br>Azərbaycan dili – 3.1.2 |
| 5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir. | Ümumi tarix – 5.1.2<br>Azərbaycan dili – 2.2.3 |
| 5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniy-yətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir. | Ümumi tarix – 5.1.3<br>Ədəbiyyat – 3.1.2<br>Azərbaycan dili – 1.1.2, 2.2.3<br>İnformatika – 4.1.2 |

LAYİHƏ

## TƏLİM PROSESİNDƏ OXUNUN ROLU

Şagirdlərimizin oxu bacarıqlarını necə yüksəltmək olar? Məlumdur ki, bunun yolu uşaqları ardıcıl şəkildə oxu ilə məşğul edib məktəbin digər fəaliyyətlərindən təcrid saxlamaqda deyil. Nə də şagirdləri kitabxanaya göndərməklə buna nail olmaq olar. Müəllimlərimiz bir məsələni qəbul etməlidirlər ki, şagirdlərə oxumağı öyrətmək yalnız Azərbaycan dili müəllimlərinin vəzifəsi hesab edilə bilməz. Hər bir fənn müəllimi öz fənni üzrə mətnlərin oxu texnikasını uşaqlara mənimsətməli və onları inandırmalıdır ki, strategiyalı oxu yalnız fənnin daha yaxşı təliminə xidmət göstərməyəcək, həm də yaşadıqları bu mürəkkəb həyatda onların uğura nail olmasını təmin edəcəkdir.

Təlimi oxudan kənarda təsəvvür etmək qeyri-mümkündür. Odur ki müvafiq strategiyalardan, metod və üsullardan istifadə etmək və mətnin oxusunun düzgün təşkilinə nail olmaqla şagird fəaliyyətinin məhsuldarlığının artırılmasına, oxu üzrə təlim nəticələrinin yüksəldilməsinə geniş imkanlar yaradılır. Anlayaraq, dərk edərək təşkil edilmiş oxuya cəlb olunmaqla şagirdlərin strategiyalı oxusu təmin edilir.

Strategiyalı oxu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi mütəxəssislər hesab edirlər ki, strategiyalı oxu – düşünərək oxudur. Bəziləri isə strategiyalı oxunun şagirdə daha məharətlə düşünməyi öyrətdiyini güman edirlər. Üçüncülər isə hesab edirlər ki, strategiyalı oxu təhsilin məqsədidir, yəni oxu təlimə, tətbiqə və təhlilə aparan əsas yoldur. Bununla oxucu çevik düşünmək, sual vermək, keçmiş biliklərə əsaslanan yeni biliklər əldə etmək, fikir mübadiləsinə nail olmaq, nəticədə fikri dəqiq müəyyənləşdirmək və onlardan həyati problemlərin həllində bəhrələnmək kimi bacarıqlara yiyələnir. Bütün bunlardan çıxış edərək mütəxəssislər strategiyalı oxunu üç mərhələdə təsnif etmişlər.

Strategiyalı oxu şagirdlərin öz oxu fəaliyyətini təşkil və idarə etməsidir. Yəni onlar oxu üçün təqdim olunan mətnin mənasını dərk etməyi problem, mətnin oxusunu isə problemi həlletmə forması kimi dəyərləndirir, məqsədə nail olmaq üçün fəaliyyəti düşünülmüş şəkildə təşkil edir, deməli, strategiyanı qururlar. Oxuya strategiyalı yanaşma ona xidmət edir ki, şagird gözlənilən nəticəni mətnin oxusuna başlamazdan əvvəl aydın təsəvvür etsin. O, dəqiq bilir:

- Hansı suallar cavablandırılmalıdır?
- Hansı plana əsasən oxu təşkil edilməlidir?
- Bu haqda artıq nələri bilir?
- Uğura nail olmaq üçün nələr etmək lazımdır?

Strategiyalı oxu şagirdlərə müstəqil olaraq öz oxu nəticəsini yoxlamaq imkanı verir. Şagirdlər oxu zamanı gəldikləri qənaətlər üzərində düşünürlər. Bu vaxt onların mühüm idraki bacarıqları inkişaf etdirilir: əsas məsələnin aşkar olunması, oxudan əvvəl mövcud biliklərlə əlaqələndirilməsi, digər mətn materialları ilə müqayisə edilməsi, mətnin ssenarisinə uyğun xəyalların qurulması. Bu, təfəkkürün inkişafının yüksək mərhələsi olaraq təxəyyülə doğru atılan ilk addım kimi dəyərləndirilə bilər. Bu zaman şagirdlər yalnız mətndəki mənanı dərk etmir, həm də mənanın dərk edilməsi prosesini şüurlu şəkildə təşkil edirlər.

Strategiyalı oxu materiallar əsasında oxunun təşkili, idarə edilməsi və nəticənin qiymətləndirilməsi mərhələlərindən sonra məzmundan əldə edilən qənaətlərin müxtəlif həyati problem və tapşırıqların həllində istifadə olunmasına və şagirdin dünyagörüşünün zənginləşdirilməsinə xidmət edən vasitə kimi dəyərləndirilə bilər.

Yuxarıda göstərilənlər belə nəticəyə gəlməyə əsas verir ki, strategiyalı oxu “oxu qaydaları”nın praktik tətbiqi ilə düşünmə mühitinin yaradılması deməkdir.

LAYİHƏ

**Şagirdyönümlü sinfin yaradılması.** Təhsildə şagirdyönümlülük strategiyalı oxucuların inkişafında xüsusilə əhəmiyyətli məsələdir. Strategiyalı oxunun inkişafı o deməkdir ki, şagirdlər zehinlərində ilkin düşüncələrini təlimlə əlaqələndirməyi öyrənməlidirlər.

Hər fənn üzrə oxunun özünəməxsus cəhətləri olduğundan şagirdlərə öncə fənlər üzrə materialları oxumağın yolları öyrədilməlidir. Müəllimlər uşaqlara, sadəcə, “Kitablarınızı açın və mətni oxuyun!” deməməli, onları oxudan əvvəl, oxu zamanı və oxudan sonra mühüm təlim strategiyalarının tətbiqinə istiqamətləndirməlidirlər.

Şagirdyönümlü sinifdə təlimin səmərəliliyinə nail olunmasında öyrənənlərin mətnlə, başqa şagirdlərlə, müəllimlə qarşılıqlı fəaliyyəti böyük əhəmiyyət daşıyır. Təlimin təşkilində müəllimin vəzifəsi yeni prizmadan təqdim edilir. Müəllim şagirdin əvəzinə mətnin məzmununu başa düşə bilməz. Şagird bunu özü etməlidir. Tədqiqatlar göstərir ki, şagirdyönümlü sinifdə müəllim mühüm səkkiz prinsipə əsaslanmaqla təlimi təşkil edirsə, bu zaman təlim üçün məsuliyyəti şagirdlərin öz üzərlərinə götürməsinə şərait yaratmış və onları mühüm vəsaitlərlə təmin etmiş olur.

Tədqiqatçılar strategiyalı oxunun səkkiz prinsipini müəyyənləşdirmişlər. Belə ki strategiyalı öyrənən:

1) idraki və yüksək idraki bacarıqları əlaqələndirir;
2) məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür;
3) yeni məlumatları mövcud bilikləri ilə əlaqələndirir;
4) mətnin mənasının dərk edilməsində fəal iştirak edir;
5) təşkilati işarələrdən istifadə edir;
6) fərdi oxu üslubunu faydalı hesab edir;
7) təlim zamanı özgələri ilə əməkdaşlıq edir;
8) düşünmənin üç mərhələsinə cəlb edilir.

**Strategiyalı oxucu idraki (koqnitiv) və yüksək idraki (metokoqnitiv) bacarıqları əlaqələndirir.**

Yüksək idraki bacarıqlara malik olan şəxs bacarıqları nəzarətdə saxlayır. Strategiyalı oxucu avtomatik olaraq təlimdən əvvəl, təlim zamanı və təlimdən sonra baş verən idraki bacarıqları bir-biri ilə əlaqələndirir. Şagird əvvəl mövcud bilikləri üzərində düşünür, sonra bilik və bacarıqlarını genişləndirir. Strategiyalı öyrənən təlim zamanı problemləri görür və strategiyalardan istifadə edərək onları aradan qaldırır.

Strategiyalı oxucu oxu zamanı strategiyalardan düşünərək istifadə edir. Mətnin hər hansı hissəsini dərk edə bilməyən şagird bələd olduğu oxu strategiyalarını tətbiq edərək həmin hissənin mənimsənilməsinə nail olur. Məsələn, “Ucadan düşünmək” strategiyası mürəkkəb mətnlərin məzmununun dərk olunması üçün çox faydalıdır. Şagirdlərin “Oxudan əvvəl mülahizələr yürütdüm”, “Oxu zamanı özümə suallar verdim”, “Mətnin hissələri arasında əlaqə yaratdım” kimi fikirləri onların yüksək idraki bacarıqlardan istifadə etdiklərindən xəbər verir. Ümumiləşdirmək, sual vermək, mətndən nəticə çıxarmaq və yekunlaşdırmaq kimi bacarıqlar metokoqnitiv bacarıqlardır. Şagirdlər metokoqnitiv bacarıqları nə qədər çox istifadə edirlərsə, o qədər tez təlim materiallarını mənimsəyirlər.

**Strategiyalı oxucu məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür.**

Strategiyalı öyrənənlər məqsədlərini müəyyənləşdirməyi bacarır və öz təlimlərini idarə edirlər. Onlar bilirlər ki, məqsədləri müəyyənləşdirən öyrənənlər həyatda daha çox müvəffəqiyyət qazananlardır. Məqsədlərini dəqiq müəyyənləşdirən insanın həmin tapşırığı yerinə yetirmək ehtimalı yüksəkdir, yəni məqsədlər nə qədər dəqiq olarsa, tapşırıqların da keyfiyyəti o qədər yüksək alınar.

LAYİHƏ

Məqsədin müəyyənləşməsində seçmək bacarığı mühüm amildir. Şagirdlər dəqiq biləndə ki, əsas fikri nəyə yönəltməlidirlər, tapşırıqların icrasını daha maraqla və ruh yüksəkliyi ilə həyata keçirir, sərf olunan səylər ilə nəticələr arasında əlaqəni görürlər. Məqsədlərə o zaman nail olunur ki, strategiyalı öyrənənlər ardıcıl şəkildə öz inkişafları üzərində işləyir, lazım gəldikdə müvafiq düzəlişlər aparırlar.

Strategiyalı oxucular məqsədi dəqiqləşdirdikdən sonra oxu fəaliyyətinə başlayır, nəyin və necə oxunmasının səmərəli olduğunu müəyyən edirlər. Bu zaman BİBÖ və digər məqsədləri müəyyənləşdirmə strategiyaları intensiv şəkildə istifadə edilir. Kollektiv sinif əməkdaşlıq şəraitində oxuya şərait yaradır. Şagirdlər təlim qrupunun üzvü olduqda onların təlim prosesində iştirakı daha da fəallaşır.

**Strategiyalı oxucu yeni məlumatları mövcud biliklərlə əlaqələndirir.**

İstənilən yeni təlim ilkin biliklərə əsaslanır. İlkin biliklər öyrənənin mövzu baxımından bildiyi və tətbiq etdiyi bütün məsələlərlə əlaqələndirilir.

Strategiyalı oxucular avtomatik olaraq mövcud biliklərini oxu materialı ilə əlaqələndirirlər. Onlar bilirlər ki, oxunun əsasını hansı ilkin təcrübələr təşkil edir. Bilmək oxunun məqsədi olub oxu müddətində diqqəti istiqamətləndirir. İlkin bilikləri qiymətləndirmək oxucunun diqqətinin ən mühüm məsələlərə yönəldilməsində mühüm rol oynayır. İlkin biliklərin oxunan mətnin başa düşülməsində böyük rolu olduğundan şagirdlər mövcud biliklərini qiymətləndirməyin yollarına da bələd olmalıdırlar. Bunun üçün bir çox strategiyalar mövcuddur. Bunlardan “Anlayışları müəyyənləşdirmək üçün xəritə tərtib etmək” strategiyası diqqəti cəlb edir. Bu strategiya yeni sözlərin mənasını öyrənməkdə çox yararlıdır. Məsələn,




Əgər oxucu öz ehtiyacına cavab verən strategiyanı düzgün seçib tətbiq edirsə, deməli, o, strategiyalı oxucudur.

**Strategiyalı oxucu mətnin mənasının dərk edilməsində fəal iştirak edir.**

Məna müəllimin izahı və ya yazılı mətn kimi başa düşülməməlidir. Məna dinlənilən və ya oxunan məlumatlarla qarşılıqlı fəaliyyət əsasında yaranır. Mənalı olmayan məlumat tezliklə unudulur. Ən son toplantılarınızı yadınıza salın. Orada siz çox insanlar gördünüz. Lakin onların hamısı yadınızda deyil. Yadınızda qalanlar hər hansı qarşılıqlı fəaliyyətdə olduğunuz insanlardır.

Mənanı dərk etməyə yönəldən nədir? Şagird təlim materialının öyrənilməsində maraqlı olanda və ya hər hansı məlumatı almağa ehtiyac duyanda mənanı dərk edir. Oxucu mənanı dərk etmək üçün məzmunu əlaqələndirməli, nəticə çıxarmalı və məzmunla bağlı

LAYİHƏ

şərhlər verməlidir. Strategiyalı oxucu bilir ki, suallar tərtib etmək, məsələ haqqında digərləri ilə söhbət etmək və düşündürücü yazılar yazmaq mənanı dərk etməyin yollarıdır.

Oxu mətn vasitəsilə düşünmək deməkdir. Oxucu mətnlə qarşılıqlı fəaliyyət nəticəsində mənanı dərk edir. Bu, əlbəttə ki, yazılmış işarələrin üzərinə göz gəzdirmək deyil. Hər bir oxucu oxuduğu materialdan anladığı mənanı yazıçının yazdığı və ya nəzərdə tutduğu məna ilə müqayisə edir. Bu zaman mənanın dərk edilməsi üçün ilkin biliklər cəlb olunur və müvafiq strategiyalardan istifadə edilir. Strategiyalı oxucu intensiv olaraq bacarıq və strategiyaların köməyi ilə mənanı başa düşür. Məsələn, strategiyalı oxucu oxudan əvvəl bütün ilkin biliklərini səfərbər edir. Məlumatlarla rastlaşdıqca bu haqda fikirlərini başqaları ilə müzakirəyə çıxarır. Aydın olmayan və sual doğuran fikirlərlə bağlı kitaba bənd etdikləri vərəqlərdə qeydlər aparır.

**Strategiyalı oxucu mətnin təşkili quruluşundan istifadə edir.**

Strategiyalı oxucu bilir ki, düşünmək və öyrənmək üçün məlumatların təşkil edilməsi mühüm şərtdir. O, təşkilati quruluşdan istifadə edərək fikirlərini həm konsepsiyalar, həm də yazılmış mətn şəklində formalaşdırmağın yollarını öyrənir. Məsələn, strategiyalı oxucu, Venn diaqramında verildiyi kimi, oxşarlıqları və fərqləri müəyyən edə bilir.

Şagirdlərə quruluşdan, strukturdan düzgün istifadənin yolları öyrədiləndə məlumatların yaddaşda mühafizəsinin təşkili keyfiyyəti də yüksəlir. Müəllim müxtəlif təşkilati işarələrdən düzgün istifadə etməyi nümunələr əsasında ardıcıl olaraq göstərəndə şagirdlər onları məqsədyönlü düşünmək, məlumatları qiymətləndirmək, yadda saxlamaq, fərqli şəraitlərdə istifadə etmək sistemi kimi qavrayırlar.

Oxu zamanı mətnin quruluşunu müəyyən etmək çox faydalıdır. Məlumatlandırıcı və hekayə xarakterli mətnlərin quruluşu fərqli olduğu kimi, bu, fərqli düşünmə tərzi də tələb edir. Hekayə xarakterli mətnləri oxuyarkən oxucu hekayənin başlanğıc, əsas hissə və nəticəsi kimi elementləri ilə bağlı məlumatlar alır. Məlumatlandırıcı mətn isə əsasən aşağıdakı ardıcıllığı tələb edir:

- Səbəb
- Müqayisə etmək
- Anlamaq
- Məqsəd
- Problem
- Sübut etmək
- Ardıcıllıq

Hər təşkilati strukturun unikal xüsusiyyəti var və düşünməni də fərqli yollarla təşkil edir. Bu strukturlarla tanışlıq yeni anlayışların öyrənilməsini maksimum dərəcədə yüksəldir. Bəzən mətnlər struktur baxımından zəif və qeyri-mütəşəkkil olduğundan oxucuların onu anlaması çətinləşir. Belə mətnlərin oxusu və dərk edilməsi üçün şagirdlər həmin materialların təşkili strukturunu müəyyən etməyin və məzmunu aydınlaşdırmağın yollarını bilməlidirlər. Strategiyalardan istifadə etməklə oxucu hətta ən zəif təşkil olunmuş mətnin strukturunu belə müəyyənləşdirə bilir.

LAYİHƏ

**Strategiyalı oxucu fərdi oxu üslubunu faydalı hesab edir.**

Öyrənmə arzusu və bacarığı yaranışdan insanların xislətində olan xüsusiyyətlərdir. Lakin oxucuların öyrənmə üslubları fərqlidir. Bəzi şagirdlər mənzərəni dəqiqliklə təsəvvür edərək məsələni bütövlükdə, digərləri isə problemi kiçik hissələrə ayıraraq dərk edirlər.

Hovard Qardner (1982) dərketmənin müxtəlif növlərini tədrisin təşkilində əhəmiyyətli hesab edir. O inanır ki, hər bir şagird müəyyən qabiliyyətlərə malikdir və müəllim həmin qabiliyyətləri aşkarlayaraq təlimi müvafiq şəkildə təşkil etməlidir. Bəzi şagirdlər tədqiqatların nəticələri haqqında yazmağa, digərləri isə şifahi təqdimatlar etməyə üstünlük verirlər. Elələri də var ki, problemlə bağlı şeir yazmağı, mahnı qoşmağı və ya film çəkməyi xoşlayırlar. Təlim zamanı dərketmənin bütün imkanlarının nəzərə alınması öyrənənlərin müvəffəqiyyəti ilə nəticələnir. İnsanlar müxtəlif olduğu kimi, onların öyrənmə tərzləri, öyrənmənin təşkili və bilikləri nümayişetdirmə yolları da fərqlidir.

Hər kəs bu haqda düşünə bilər: “Mən necə oxucuyam?”, “Mən hansı şəraitdə oxumağı sevirəm?”, “Mən hansı vərdişlərə sahibəm?”

Siz söz, fikir və obrazlar haqqında götür-qoy edərək oxuyursunuz, ya oxuduğunuzu bir film kimi təsəvvür edirsiniz? Bəlkə də, sürətlə oxuyursunuz, fikirləri çevik müəyyənləşdirərək irəliləyirsiniz?

Kinestik oxucular aramla və mətni emosional şəkildə əlaqələndirməklə oxuyurlar. Onlar oxu zamanı bədənlərini hərəkətə gətirir və barmaqları ilə izləməyi xoşlayırlar. Sətiraltı əsas fikirlərə böyük əhəmiyyət vermək və yapışqanlı qeyd vərəqlərindən istifadə etmək kinestik oxucuların əsas göstəricisidir.

Vizual intellekti yüksək olan oxucular oxuduqlarını filmlər kimi yadda saxlayır və ya mövcud biliklərindən istifadə edərkən xəyallarındakı filmləri sözlərlə ifadə edirlər. Bu oxucular oxuduqlarını sxem və ya qrafiklər şəklində də yaddaşlarında mühafizə edirlər.

Dinləmə intellekti yüksək olan oxucular, əsasən, sürətli oxucular kimi səciyyələnir və materialları ucadan təkrar-təkrar oxumağı sevirlər. Onlar məlumatları tez fəhm edir və suallara çevik cavab verirlər.

Bütün bunlar yalnız şagirdlərin öyrənmə üslubu haqqında məlumatlı olması deyil, həm də oxu zamanı onlara köməyin təşkil edilməsi üçün yararlıdır. Müxtəlif oxu üslublarının modelləşdirilməsi, şagirdlərə oxu zamanı boyalardan istifadə etmək şəraitinin yaradılması strategiyalı oxucuların formalaşması istiqamətində görülən mühüm işlərdir. Boyalardan istifadə etməyin yolunu, qrafiklər hazırlamağı, təlim materiallarını ucadan oxumağı şagirdlərə öyrətmək onların oxu bacarıqlarını yüksəldir. Mürəkkəb mətnlərin oxusu zamanı anlamaq məqsədinə nail olmaq üçün müxtəlif strategiyalardan istifadə etməklə şagirdlər daha da təkmilləşirlər.

**Strategiyalı oxucu öyrənmək üçün başqaları ilə əməkdaşlıq edir.**

Təlim ictimai baxımdan interaktiv bir fəaliyyətdir və şagirdlər öyrənmək məqsədilə bir-biri ilə qarşılıqlı fəaliyyətdə olmağa ehtiyac duyurlar. (Resnikç 1987) Qrup fəaliyyətləri təlimin təşkilində böyük əhəmiyyət daşıyır. Həyatda da insanların birlikdə fəaliyyət göstərməsinə tez-tez ehtiyac duyulur. Birlikdə çalışan şagirdlər bu cür fəaliyyətdən necə faydalanırlar:

- Mövzu ilə bağlı düşünməyin müxtəlif yollarını aşkar edirlər;
- Mürəkkəb tapşırıqların yerinə yetirilməsində bir-birinə köməklik göstərirlər;
- Başqa şagirdləri hörmətlə dinləməyi öyrənir və eşitdikləri fikirlərdən yararlanırlar;
- Qarşılıqlı şəkildə faydalanmağın yollarını aşkar edirlər;
- Məsələ ilə bağlı rəylərini dəlillərlə müdafiə, eləcə də müxtəlif baxışları təsdiq etməyi öyrənirlər.

LAYİHƏ

Əməkdaşlıq təlimini əhatə edən siniflərdə şagirdlər öyrənən icmaların üzvünə çevrilirlər. Bir yerdə işləyərkən onlar bir-birinin istedadına hörmətlə yanaşmağı və qarşılıqlı şəkildə bəhrələnməyi mənimsəyirlər.

Strategiyalı öyrənənlər mətnin kəsb etdiyi məzmunu fərdi və qrup şəklində müəyyənləşdirirlər. Onlar bir-biri ilə əməkdaşlıq edərkən müəllifin ismarıclarını anlamaq və ya dünyagörüşlərinin formalaşmasına nail olmaq məqsədi daşıyırlar.

Şagirdlərə qruplarda təlimi öyrətmək çox əhəmiyyətlidir. Onlar digərlərinin təlimini təşkil edənlər olanda öz təlimləri üçün də böyük məsuliyyət daşımağa başlayırlar. Çünki hər hansı məsələni kiməsə öyrədəndən sonra o insanın özünə daha aydın olur. Strategiyaya əsasən, şagirdlərdən biri ucadan oxuyur, digəri isə onu dinləyir və oxunanları ümumiləşdirir. Mətnin oxusu başa çatdıqdan sonra cütlər vəzifələrini dəyişirlər. Digər “Kitab müzakirələri” strategiyasına əsasən isə şagirdlər qruplarda oxuduqları kiçik və ya böyük mətnləri, eləcə də kitabları təhlil edirlər. Müzakirə zamanı onlar məzmunu daha yaxşı anlayır, biliklərini digər şagirdlərin bilikləri ilə müqayisə edir, qiymətləndirirlər.

**Strategiyalı oxu şagirdi düşünmənin hər üç mərhələsinə cəlb edir.**

Uğurlu təlim düşünmənin üç mərhələsində baş verir: təlimdən əvvəl, təlim prosesi zamanı və təlimdən sonra.

- I mərhələ – “Planlaşdırma mərhələsi” beyni təlimə hazırlayır.
- II mərhələ – “Qarşılıqlı fəaliyyət mərhələsi” təlim zamanı düşünərək yadda saxlamağı təmin edir.
- III mərhələ – “Düşünmə mərhələsi” təlimdən sonra inteqrasiya edir, əlaqələndirir və fikirləri tətbiq edir.

Planlaşdırma mərhələsi təlimin ilk addımı olduğundan ən məsuliyyətli mərhələdir. Öyrənən tapşırığı təhlil edib təlimin daha səmərəli təşkili üçün planlaşdırma aparır. İlkin hazırlıq nə qədər keyfiyyətli olarsa, şagirdin uğuru da o qədər yüksək alınar.

“Təlim prosesi” mərhələsi şagirdlərin düşünməsini və təliminin nəticələrinin qiymətləndirməsini təmin edən metokoqnitiv (yüksək idraki) strategiyaların tətbiqini tələb edir. Şagird təlim zamanı düşünməsini təmin edən qrafiklər tərtib edir və ya icmal hazırlayır. Bu vaxt müəllim nümayiş etdirilən filmi, aparılan təcrübəni saxlamaqla şagirdlərin diqqətini xüsusi məqamlara yönəldə bilər. İnformasiyalardan birini və ən mühümünü vurğulamaq üçün təlim prosesində şagirdləri saxlamaq, yoxlamaq, bilikləri möhkəmləndirmək və ümumiləşdirmək çox əhəmiyyətlidir.

“Təlimdən sonra” mərhələsində tətbiq edilən strategiyalar təlimdən sonra şagirdin düşünməsinin təşkilinə yönəldilir. Bu mərhələdə nail olunan nəticələrin təhlil və müqayisəsi, məsələ ilə bağlı şagirdlərin daha əhatəli düşünməsi, qənaətlərin ümumiləşdirilməsi əsas məqsəd kimi dəyərləndirilir.

Strategiyalı oxucu təlimin bu üç mərhələsi ilə yalnız tanış olmur, həm də onları oxu zamanı tətbiq edir, çünki oxu materialı oxudan əvvəl lazımi fəaliyyətlər yerinə yetiriləndə daha yaxşı dərk edilir. Təlim o zaman başlayır ki, oxucu məqsədi müəyyənləşdirsin, ilkin biliklərini təşkil etsin və təlimlə bağlı proqnozlaşdırma aparsın.

Strategiyalı oxucu bilir ki, oxunun interaktiv mərhələsi şagirdlərin oxu materialı ilə bağlı fikirlərinin yoxlanması və nizamlanması deməkdir və bu, dərketmənin yüksəldilməsinə xidmət edir. Əgər hər hansı bir hissə anlaşıqlı deyilsə, şagirdlər oxunu saxlayır, həmin hissəni yenidən, aramla və ya ucadan oxuyur, kənarda sadə qələmlə qeydlər edirlər. Şagirdləri oxuduqları materiallarla bağlı suallar verməyə istiqamətləndirmək təlim prosesinin nizamlanmasında onlara kömək edir. Oxu zamanı indicə öyrənilmiş məsələlərin

LAYİHƏ

artıq bilinən və ya proqnozlaşdırılan məsələlərlə müqayisə etmək imkanları yaranır. Strategiyalı oxucu təlim prosesinin əngəlləndiyi məqamı hiss edir və problemi aradan qaldırmağın yollarını bilir.

Con Dyui demişdir: “Biz gördüyümüz işlər haqqında düşünən zaman öyrənirik”. Strategiyalı oxucu oxuduğu materiallar üzərində düşünür, məqsədə çatıb-çatmadığı haqqında qərar qəbul edir, tapşırığı yerinə yetirir, əldə edilmiş yeni bilikləri mövcud biliklərlə əlaqələndirir.

Oxu prosesinin istiqamətləndirilməsi üçün təlimin göstərilən səkkiz prinsipinin düşünülmüş şəkildə əlaqələndirilməsindən şagird əhəmiyyətli dərəcədə faydalana və strategiyalı oxucuya çevrilə bilər.

LAYİHƏ

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu üzə çıxaran ən etibarlı mənbədir. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan prosesdir. Təlim prosesinin təkmilləşdirilməsində, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində qiymətləndirmə bir mexanizm kimi əvəzolunmaz mövqeyə malikdir. Bu sistem hüquqi cəhətdən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyasının təsdiq edilməsi barədə” 13 yanvar 2009-cu il tarixli 9 nömrəli, “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramlarında (kurikulumlarında) dəyişikliklər edilməsi haqqında” 03 iyun 2010-cu il tarixli 103 nömrəli qərarları və onların icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq olunan “Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair Müvəqqəti təlimat”ı və “Təlimatda dəyişiklik edilməsi barədə” 07 iyul 2014-cü il 782 nömrəli əmri ilə tənzimlənmişdir.

### Məktəbdaxili qiymətləndirmə:

- Diaqnostik;
- Formativ;
- Summativ.

Əslində, bunlar yeni qiymətləndirmə sisteminə daxil olan və bir-birindən asılı olmadan fəaliyyət göstərən alt sistemlərdir. Onların arasında ən əhatəli və əhəmiyyətlisi məktəbdaxili qiymətləndirmədir. Məzmunca öyrənənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir, şagird irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi); təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir.

### Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:

- Təlim nəticələrinin standartlarının mənimsənilməsi;
- Şagirdlərin təlimə marağının yüksəldilməsi;
- Şagirdin güclü və zəif cəhətlərinin müəyyən edilməsi;
- Şagird nailiyyətinin dəyərləndirilməsi;
- Şagirdin nəyə nail olduğuna əminliyin əldə edilməsi;
- Şagirdin gələcək uğurlarının maksimallaşdırılması.

### Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsinin növləri:

- Şagird nailiyyətlərinin qiymətləndirilməsi – şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir.

### Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:

- Məqsədəuyğunluq;
- Nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- Toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;

LAYİHƏ

- Qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- Təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Prosesin tamlığı üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi biri digərinin mövcudluğunu təmin edən və aparılmasına zəmin yaradan üç növ üzrə həyata keçirilir:

- Diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi);
- Formativ (irəliləmə və geriləmələrin izlənməsi);
- Summativ (yekun).

### Diaqnostik qiymətləndirmə

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirməklə müəllim üçün məktəblilərin potensial imkanlarını, meyil və maraqlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. O öyrədənin təlim strategiyasını müəyyənləşdirməsində əvəzolunmaz rola malikdir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır. İlkin səviyyənin dəyərləndirilməsi zamanı müəllim aşağıda təqdim olunan konkret məzmunlu suala cavab tapmağı qarşısına məqsəd kimi qoymalıdır:

### Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi?

Siniflərdə həyata keçirilən qiymətləndirmə hər ilin şagirdə bəxş etdiyi xüsusiyyətlərə görə tamam başqa məzmun kəsb edir. Sinfə qədəm qoyan məktəblinin ilkin səviyyəsinin dəyərləndirilməsi digərlərindən kəskin şəkildə fərqlənir, şagird nailiyyətlərinə görə deyil, inkişaf sahələrinə (şəxsi inkişaf, sosial-emosional inkişaf, fiziki inkişaf, idraki inkişaf) uyğun olaraq qiymətləndirilir. Bu həmin şagirdlərlə iş zamanı müəllimə pedaqoji fəaliyyətini tənzimləməyə, planlaşdırmağa yardım edir. Prosesin reallaşdırılmasında üsul və vasitələrin seçimi birbaşa müəllimdən asılıdır. Onu da nəzərə almaq lazımdır ki, siniflər üzrə onlardan istifadə eynilik təşkil edə bilməz. Təlimə başlamazdan öncə aparılan səviyyə müəyyənetmə ilə ilin davamında, yeri gəldikcə aparılan diaqnostik qiymətləndirmə məzmunca fərqlənir. Məhz bu səbəbdən həmin üsul və vasitələrin seçimi müəllimdən xüsusi diqqət və yaradıcılıq tələb edir. Məsələn, birinci sinifdə diaqnostik qiymətləndirmə aparılarkən daha çox tapşırıqvermə, müsahibə, valideynlər və müəllimlərlə əməkdaşlıq üsulundan, çalışma, müəllimin qeydiyyat vərəqi, söhbət və müəllimin sorğu vərəqi vasitələrindən istifadə olunursa, digər siniflərdə uyğunluq aşağıdakı formada tənzimlənir: üsullar – şifahi sual-cavab, yazı, oxu, tədqiqat, test, sorğu, özünüqiymətləndirmə, rollu oyunlar; vasitələr – müəllimin müşahidə vərəqləri, bacarıqlar üzrə qeydiyyat vərəqi, imla, inşa, ifadə, məsələ, misal həlli, yoxlama yazı işləri, mətnlər, ayrı-ayrı şagirdlərin hazırladığı layihə, test tapşırıqları və sorğu vərəqləri, özünüqiymətləndirmə vərəqləri, meyar cədvəli. Şagird nailiyyətlərinin diaqnozunun digərlərindən əsas fərqi müəllimin əvvəlki sinfin təlim standartlarından çıxan məqamları ön plana çəkə bilməməsidir.

Diaqnostik qiymətləndirmə ilə bağlı bir məqamı xüsusi vurğulamaq lazımdır: onun nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yalnız müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır. Yekunlar barədə valideynlər, sinif rəhbəri və digər fənləri tədris edən müəllimlər məlumatlandırılır.

LAYİHƏ

O, formativ və summativ qiymətləndirmələr üçün bazis, zəmin rolunu oynayır. Düzgün diaqnoz nəticəsində sonrakı fəaliyyətin aspektləri konkret olaraq müəyyənləşir.

**Formativ qiymətləndirmə:** Formativ qiymətləndirmə şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı istiqamətləndirmək məqsədilə aparılır, dərsi müşayiət edən proses kimi qəbul olunur. İrəliləmə və geriləmələrin izlənməsi zamanı müəllim özlüyündə konkret məzmunlu bir sualı cavablandırmağı qarşısına məqsəd qoymalıdır: “Standartların mənimsənilməsinə doğru məktəblilər kifayət qədər irəliləyə bilirlərmi?”

Yaxın keçmişə qədər şagirdin məktəbli kitabçasında rəqəmli qiymət görməyə öyrəşən valideynin formativ dəyərləndirmənin mahiyyətini öz məzmununda dərk etməsi məsələsi hələ də müasir qiymətləndirmənin problemi olaraq qalır. Bunun həlli müəllimin pedaqoji ustalığından asılıdır. Prosesin düzgün tənzimlənməsi həm şagird, həm müəllim, həm də valideyn üçün hərtərəfli əlverişlidir. Yeni sistemin tətbiqinəqədərki dövrdə təhsilalan gündəlikdə aşağı qiymət gördükdə təlimə marağı azalır və dərsdən uzaqlaşırdı. “Qiymətsiz” qiymətləndirmə isə müəllim və valideynin birlikdə fəaliyyət göstərməsi ilə bu tip problemlərin aradan qalxmasına zəmin yaradır və şagirdin irəliləməsini təmin edir. Belə ki məktəbli kitabçasında qeyd olunan “tarixi faktları şərh edir” ifadəsi (verbal dəyərləndirmə) özlüyündə hər üç tərəfin qarşılıqlı əlaqəsinin düzgün qurulmasına təkan verir, çatışmazlıqların aradan qaldırılmasına zəmin yaradır.

Formativ rəsmi qiymətləndirmə olmadığından nəticələr məktəbli kitabçasında şagirdin idraki və hərəki fəaliyyətinin səviyyələrinə uyğun sözlərlə ifadə olunur. Heç bir rəqəm və ya simvollardan, “mənimsəyir”, “mənimsəmir”, “bilir”, “bilmir”, “yaxşı”, “orta”, “zəif” və sair bu kimi ifadələrdən istifadə edilmir. Müəllim formativ qiymətləndirmədə şagirdin fəaliyyətini bütün dərs boyu izləyir, nəticələri yazmaq üçün dərsin sonunda 6 dəqiqəyədək vaxt ayırır.

Formativ qiymətləndirməni həyata keçirən müəllimin aşağıda qeyd olunanları bilməsi məqsədəuyğundur:

- Fənn üzrə hər bir dərs müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir;
- Hər dərsdə müəllim təlim prosesini şagirdlərin məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməsinə yönəltməlidir;
- Şagirdlər fəaliyyətlərində potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər.

Müəllim əvvəlcədən hazırladığı qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyət səviyyəsini qruplaşdırmalı və şagirdin adının qarşısında fəaliyyətinə uyğun müvafiq qeydlərini yazmalıdır. Formativ qiymətləndirmədə müəllim əvvəlcədən proqnozlaşdırmadığı və dərs prosesində müşahidə etdiyi fəaliyyətləri də uyğun ifadələrlə təsvir edə bilər. “Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması barədə Təlimat”ın 3.3. bəndinə uyğun olaraq, şagird bacarığa yiyələnməni müəyyən məzmun üzərində icra edir. Bacarığa yiyələnmənin məzmunla vəhdətdə qiymətləndirilməsi müəllimin öz yaradıcılığının məhsulu olmalıdır. Verilən nümunələrdə müəllim şagirdlərin fəaliyyət səviyyələri üzrə qeydlərini məzmun üzərində yazılı şəkildə izah edə bilər.

**Summativ qiymətləndirmə:** “Ümumi təhsil müəssisələrində, peşə liseylərində məktəbdaxili qiymətləndirmə və şagirdlərin sinifdən-sinfə, səviyyədən-səviyyəyə keçirilməsi Qaydaları”nın layihə variantında göstərilir ki, summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə (bəhs və ya bölmənin, yarımilin sonunda) yekun vurmaqla şagir-

LAYİHƏ

din nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır. Bu zaman müəllim özlüyündə belə bir sualı cavablandırmağı bacarmalıdır: “Şagirdlər verilmiş standart qrupunda müəyyən edilmiş məqsədlərə çatırlarmı?”

**Summativ qiymətləndirməni aparmaq üçün müəllim aşağıda qeyd edilən bilik və bacarıqlara malik olmalıdır:**

- Summativ qiymətləndirməni tətbiq etmək;
- Qiymətləndirmə standartlarının mahiyyətini nümunələrlə şərh etmək;
- Qiymətləndirmə standartlarından istifadə yollarını bilmək.

Summativ qiymətləndirmə kiçik və ya böyük olur.

Kiçik summativ qiymətləndirmə bəhs və ya bölmələrin sonunda bir dərs saatı və ya dərs saatının bir hissəsi müddətində aparılır. Onun keçirilməsi üçün vaxtı da fənni tədris edən müəllim təyin edir, asan, orta, çətin olmaqla qiymətləndirmə vasitələrini hazırlayır. Asan tapşırıqlar idrakın bilmə mərhələsinə aid olub məktəblinin hər hansı bir məlumatı bilməsini və yadda saxlamasını ölçür. Orta səviyyəli tapşırıqlar idrakın anlama, tətbiq və təhlil mərhələsinə aid olub şagirdin səbəb-nəticə əlaqələrini anlamaq, tətbiq etmək, müqayisə etmək və fərqləndirmək kimi bacarıqlarını qiymətləndirir. Çətin səviyyəli tapşırıqlar idrakın sintez və dəyərləndirmə mərhələsinə aid olub öyrənənin sintez etmək, qarşılaşdırmaq, dəyərləndirmək, qərar qəbul etmək bacarıqlarını ölçür.

Böyük summativ qiymətləndirmə isə 1-ci və 2-ci yarımilliyin sonunda həyata keçirilir. Təhsil Nazirliyinin qiymətləndirmə ilə bağlı verdiyi müvəqqəti təlimata dəyişikliklərlə əlaqədar olaraq BSQ-nin keçirilməsi təhsil müəssisələrinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdim etdiyi qiymətləndirmə vasitələrindən istifadə etməklə fənni tədris edən müəllim tərəfindən aparılmalıdır.

Yekun qiymətləndirmə təhsil səviyyələrinin sonunda buraxılış imtahanları şəklində keçirilir.

Summativ şagird nailiyyətinin rəsmi qiymətləndirilməsidir, bu da onu digərlərindən fərqləndirən əsas cəhətdir.

Şagird nailiyyətlərinin dəyərləndirilməsinin ən səmərəli və optimal mexanizmi olaraq “portfolio” (hərfi mənada, ingilis dilindən tərcümədə portfel, mühüm sənədlər üçün qovluq) sistemindən istifadə edilir. Kurikulumun tətbiqi ilə əlaqədar bütün siniflərdə hər bir şagirdin belə bir qovluğu mövcuddur.

**“Portfolio”nun tərkibinə daxildir:**

- Qiymətlər;
- Şagirdlərin dərs fəaliyyəti, əhvali-ruhiyyəsi, iş qabiliyyəti, yaşıdları və yaşlılarla münasibəti üzərində gündəlik müşahidələr;
- Meydana çıxan problemlərin təsviri və təhlili;
- Müəllimin şagirdə fərdi yanaşmağa düzəlişlər etməsi haqqında onun təliminin fərdiləşməsi istiqamətləri barədə qeydləri və proqnozları;
- Valideynlərin məktəblə əlaqələrinin qeydiyyatı, müəllimin onlarla müzakirə etdiyi mövzular, şagirdin ailə şəraiti barədə qeydlər;
- Psixoloqun tədqiqatların nəticələri əsasında rəyi.

Qiymətləndirmənin reallaşdırılmasında “Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan

LAYİHƏ

Respublikası Nazirlər Kabinetinin 9 nömrəli 13 yanvar 2009-cu il tarixli qanunu hüquqi əsas kimi götürülür.

“Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”nın 1.3. bəndində (1.3. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər) mövcud problemlərdən biri kimi qiymətləndirmə vasitələrinin texniki keyfiyyətlərinə diqqət yetirilməməsi və qeyri-standart vasitələrdən istifadə olunması göstərilir. Bu da məsələyə diqqətin təzahürü kimi dəyərləndirilməlidir.

Konsepsiyanın 1.4. (1.4. Konsepsiyanın yaradılması üçün zəruri səbəblər) bəndində isə onun yaradılmasını labüd edən səbəblər sırasında vasitələrin hazırlanması ilə bağlı əlavələr edilib: “Təhsil sisteminin səmərəli fəaliyyətini təmin edən məktəbdaxili qiymətləndirmə sisteminin yaradılması məqsədilə müasir məzmun standartlarına cavab verən yüksək keyfiyyətli qiymətləndirmə vasitələrinin hazırlanması, təhsil pillələri üzrə buraxılış imtahanları üçün müvafiq prosedurların daha ədalətli və şəffaf tətbiq edilməsi və bu məsələlərin tənzimlənməsi üçün normativ hüquqi bazanın yaradılması”.

“Qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması” adlı 1.8. bəndin ikinci hissəsi isə işin tənzimlənməsi istiqamətini tam aydın şəkildə təqdim edir.

Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:

- Qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması prosesində onların məqsədəuyğunluğu (məhz “nəzərdə tutulanı” qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);
- Səmərəlilik üçün hər sinif üzrə nisbətən az (<10) və nisbətən çox (>10) məzmun standartına malik olan iki fənn qrupunun müəyyənləşdirilməsi;
- Yekunda (summativ) bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin edilməsi;
- Yekunda (summativ) bütün səviyyələr üzrə də reprezentativ seçimin təmin edilməsi (1-ci səviyyə üzrə suallar 20%, 2-ci səviyyə üzrə suallar 30%, 3-cü səviyyə üzrə suallar 30%, 4-cü səviyyə üzrə suallar 20%).

Müasir qiymətləndirmə vasitələrinin hazırlanmasını, nəticələrin təhlili üsullarını və hesabatlar hazırlanması qaydalarını öyrənmək də (4.1. Beynəlxalq qiymətləndirmə Proqramının əsas məqsədləri) Konsepsiyada öz əksini tapmışdır.

Xüsusi qeyd etmək lazımdır ki, qiymətləndirmə vasitələri (eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, yardımçı tədris materialları) nümunələrə və müvafiq təlimatlara əsasən müəllimlər tərəfindən hazırlanır, məktəbin rəhbərliyi tərəfindən təsdiq edilir.

Qiymətləndirmə vasitələrinin hazırlanması zamanı əvvəlcə qiymətləndirmənin hansı növünün aparılacağı müəyyənləşdirilməlidir, yalnız bundan sonra prosesi icra etmək olar. Vasitələr qiymətləndirmənin hər bir növü üzrə (həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmə), onların məzmununa uyğun aparılmalıdır ki, nəticədə qarşıya qoyulmuş məqsədə çatmaq mümkün olsun.

LAYİHƏ

**Diaqnostik qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr:**

- Çalışmalar;
- Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq;
- Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq.

**Formativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr:**

- Müşahidə vərəqləri;
- Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi;
- Çalışmalar;
- Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq);
- Dinləmə üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyarlar cədvəli;
- Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası;
- Meyarlar cədvəli;
- Test tapşırıqları;
- Özünüqiymətləndirmə vərəqləri.

**Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr:**

- Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyarlar cədvəli;
- Şifahi sorğu üzrə qeydiyyat vərəqi;
- Test tapşırıqları;
- Tapşırıq, çalışma;
- Rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri.

Hazırda test tapşırıqları qiymətləndirmə vasitəsi kimi genişmiqyaslı şəkildə tətbiq olunsa da, müəllim diaqnostik, formativ və hətta summativ qiymətləndirmədə yalnız bir üsula məxsusi aludəçilik göstərməməli, şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını, məntiqi təfəkkürünü, müstəqil düşünmə qabiliyyətini inkişaf etdirən üsullardan – layihə (qiymətləndirmə vasitəsi – şagirdlərin təqdimatı və müəllimin tərtib etdiyi meyarlar cədvəli), şifahi sorğu (qiymətləndirmə vasitəsi – şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), yoxlama yazı işlərindən (imla, inşa, esse, məsələ və misal həlli) də istifadə etməlidir.

Test tapşırıqlarının yalnız davamlı şəkildə deyil, yeri gəldikcə tətbiqi tövsiyə olunur. O cümlədən testlərin hazırlanması məsələsinə də ciddi diqqət yetirilməlidir. Testlərin hazırlanmasına qoyulan tələblər:

- Psixometrik tələb;
- Metodoloji tələb.

Bütün qeyd olunan fikirlər nəzərə alınaraq Azərbaycan tarixi fənni üzrə test planını təqdim edək:

LAYİHƏ

| Azərbaycan tarixi fənni üzrə test planı | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Mətnlər** | **Bacarıqlar** | | | | | | | | |
| | Fərqləndirmə | Əlaqəqurma | Nümunə göstərmə | İzləmə | Xülasəetmə | Şərhetmə | Müqayisəetmə | Təxminetmə | Qruplaşdırma |
| Məlumatlandırıcı mətn | ÇS<br>1 sual | DY<br>1 sual | | | AC<br>1 sual | AC<br>1 sual | ÇZS<br>1 sual | | |
| Mənbə | ÇZS<br>1 sual | | AC<br>1 sual | | DY<br>1 sual | | | ÇS<br>1 sual | |
| Xronologiya | | | DY<br>1 sual | ÇZS<br>1 sual | | | | | AC<br>1 sual |
| **ÇS** = Çoxseçimli **DY** = Doğru-Yanlış **ÇZS** = Çarpazseçimli **AC** = Açıq cavablı tapşırıq | | | | | | | | | |

**Azərbaycan tarixi fənni üzrə testlər hazırlanarkən aşağıdakı cəhətlər nəzərdə tutulmalıdır:**

- Məlumatlandırıcı mətndə obyektiv və subyektiv ifadələri ayırd etmək;
- Mətndə açıq verilmiş situasiyalar üçün səbəb-nəticə əlaqələrinin qurulması;
- İnformasiyaya şərhlər vermək;
- Mətn içində verilmiş dolayı məlumatlara əsaslanaraq səbəb-nəticə əlaqəsi qurmaq;
- Mətndəki sətiraltı verilmiş məlumatlardan nəticə çıxarmaq;
- Mətndə açıq şəkildə verilmiş məlumatlara əsaslanaraq yer, zaman, şəxslər və bunlarla bağlı amilləri müqayisə etmək;
- Mətndə açıq şəkildə verilmiş məlumatlara əsaslanaraq önəmli olan faktları ayırd etmək;
- Mətndə dolayı ifadələrlə verilmiş məlumatları birləşdirərək ümumiləşdirmələr aparmaq;
- Mətndə sətiraltı verilən cümlələrdən çıxış edərək fərqli yanaşma ifadə edən fikirləri təxmin etmək.

"Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat"ın 4.15 bəndinə (Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir) əsasən, hazırlanmış test üzrə qiymətin verilməsi aşağıdakı cədvəl əsasında həyata keçirilir:

| № | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1 | (0% – 40%) | 2 (qeyri-kafi) |
| 2 | (40% – 60%) | 3 (kafi) |
| 3 | (60% – 80%) | 4 (yaxşı) |
| 4 | (80% – 100%) | 5 (əla) |

LAYİHƏ

Nümunələr hazırlanarkən konkret istiqamətlərə diqqət edilməlidir, bu, uyğunluğu təmin etmək üçün çox vacibdir:

- Tapşırıq yalnız bir idraki prosesi ölçürmü?
- Tapşırıq nəzərdə tutulan idraki prosesi ölçürmü?
- Tapşırıqda yoxlanılması istənilən xüsusiyyətə arzuolunmaz amillər qarışdırılmayıb ki?
- Tapşırığın növü ilə yoxlanılan bacarıq arasında uyğunluq varmı?
- Tapşırığın növləri düzgün seçilibmi?

Tapşırığın növlərini özündə əksetdirən sxemə əsasən məqsədəuyğun olaraq seçim etmək olar.




## Açıq cavablı tapşırıq

**Cavabı məhdudlaşdırılmış**

Şagirddən cavabın keyfiyyətinə, uzunluğuna və ya quruluşuna dair məhdudiyyətlər qoyması tələb olunur. Yüksək idraki bacarıqların nümayiş etdirilməsinə imkan verilir (tətbiq, analiz, sintez, qiymətləndirmə, təşkiletmə, orijinal yanaşma və yaradıcılıq).

**Cavabı məhdudlaşdırılmamış**

Cavabın keyfiyyətləri və uzunluğu baxımından şagirdlərə sərbəstlik verilir. Şagird özü fikirləşib yazmalıdır. Cavablara məhdudiyyət qoyulmur. Cavabları "tamamilə doğru", "tamamilə yanlış" kimi təsnif etmək, çətinlik səviyyəsini təyin etmək çətindir. Təsadüfi uğur ehtimalı aşağıdır.

**Qısacavablı tapşırıqlar**

Hər hansı bir mövzu ilə bağlı faktoloji bilikləri qiymətləndirmək üçün istifadə edilir.

## Qapalı cavablı tapşırıq

**Çoxseçimli tapşırıq**

Bir sual mətni və bu suala cavab qismində bir və ya bir neçəsi doğru, qalanları yanlış olan distraktordan ibarətdir. Sual mətnində həqiqi sual cümləsi vasitəsilə şagirdə sual verilə bilər. Bir mövzu, hadisə, vəziyyət, problem, xəbər, düşüncə və s. verərək onunla bağlı sualın da soruşulması mümkündür.

LAYİHƏ

**Doğru-yanlış tapşırıq**

Tapşırıq verilən mülahizənin “doğru” və ya “yanlış” olduğunun təyin edilməsidir.

**Uyğunlaşdırma tapşırıqları**

Çoxseçimli və doğru-yanlış tipli tapşırıqların sintezidir. Cavablandırma prosesi iki dəst halında olan soruşulanlar və cavablar arasında doğruluq əlaqəsinin qurulmasına əsaslanır.

## Qiymətləndirmə üçün meyarların işlənib hazırlanması

Müəllim üçün ən çətini və eyni zamanda ən vacibi həm ayrı-ayrı şagirdlərin işini, həm də bütövlükdə kiçik qruplardakı işi kifayət qədər obyektiv qiymətləndirməyə imkan verən qiymətləndirmə meyarları tərtib etməkdir.

Qiymətləndirmə “qarşılıqlı əlaqə” yaratmalı, yəni şagirdlərlə müəllimlərin bir-birlərini yaxşı başa düşməsinə imkan verməlidir. Buna görə müəllim işlənib-hazırlanmış qiymətləndirmə meyarları ilə şagirdləri də tanış etməlidir. Bundan əlavə, müəllim xahiş edə bilər ki, şagirdlərin özləri kiçik qruplarda “əla”, “yaxşı” və “kafi” qiymət meyarlarını müəyyənləşdirsinlər və sonra siniflə birlikdə bunları müzakirə etsinlər.

Düzgün tərtib edilmiş qiymətləndirmə meyarları obyektiv qiymətləndirməyə kömək etməlidir. Bu meyarların əsasında müəllimlər bu və ya digər şagirdin işlərini eyni mövqedən qiymətləndirə bilərlər.

Şagirdlərin özünüqiymətləndirmə metodundan istifadəsi də müəllim üçün çox faydalıdır; özünüqiymətləndirmə prosesi, məsələn, sorğu vərəqləri və anketlərin doldurulması formasında keçirilə bilər. Şagirdlərin öz fəaliyyətlərini qiymətləndirməsi çox vacibdir, belə ki bu, onları öz davranışlarına yüksək məsuliyyətlə yanaşmağa sövq edir, obyektivlik hislərini tərbiyə edir, münasibətlərini düzgün və qarşılıqlı anlaşma prinsipləri üzərində qurmağı öyrədir. Bu halda özünüqiymətləndirmə və kənardan verilən qiymətlər arasındakı fərq qrup və fərd üçün zəngin informasiya mənbəyi rolunu oynaya bilər.

Yekun qiymət şagirdin özünüqiymətləndirməsindən və müəllimin verdiyi qiymətin toplanmasından yarana bilər.

## Qiymətləndirmənin müxtəlif üsul və formaları

Aşağıda qruplardakı işin, təqdimatda iştirakın və s. qiymətləndirilməsinin bəzi forma və meyarları, habelə fəal təlim metodlarının tətbiqi ilə keçən dərslərdə müəllimin öz şagirdlərinin özünüqiymətləndirməsi üçün istifadə etməli olduğu vərəqlər göstərilib.

Müəllimlər öz qiymətləndirmə sistemlərini yaradarkən bunlardan tövsiyə qismində istifadə edə bilərlər. Bu zaman hər bir sinfin, məktəbin özünəməxsus cəhətləri nəzərə alınmaqla mövcud meyarlar müxtəlif variantlarda tətbiq edilə, onlara əlavələr oluna və istənilən şəkildə dəyişdirilə bilər.

## Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 bal sistemindən istifadə etmək məsləhət görülür.

A) İnformasiyanın təqdim edilməsi:

- Həmişə dəqiqdir – 5
- Əsasən dəqiqdir – 4
- Kifayət qədər dəqiq deyil – 3
- Qeyri-dəqiqdir – 2
- İnformasiya yoxdur – 1

LAYİHƏ

B) İnformasiyanın təhlili aşağıdakı meyarlar üzrə qiymətləndirilə bilər:

**Empirik səviyyə:** şagird hadisələri təsvir edir, lakin onların mahiyyətini başa düşə bilmir;

**Nəzəri səviyyə:** daha yüksək səviyyədir, belə ki bu halda şagird nəinki hadisəni təsvir edir, həm də mahiyyətini izah edərək və nəticə çıxarmağı bacarır.

## Dəyərlərin qiymətləndirilməsi

Müəllim üçün ən çətini dəyərlərin qiymətləndirilməsidir, çünki dəyərlərin heç də hamısı bir dərs daxilində bütün şagirdlər tərəfindən mənimsənilə bilməz.

Ola bilər ki, onlar bu və ya digər şagirdin şəxsi baxışları sisteminə də uyğun gəlməsin. Buna görə də dəyərlərin dərk edilməsi və şagirdlər tərəfindən mənimsənilməsi üçün müəyyən vaxt lazımdır. Müəllim qiymətləndirmə zamanı şagirdlərin mövcud problemə yanaşmasına və ya başqa sözlə desək, "mənəvi baxışların genişliyi"nə üstünlük verməli və qiymətləndirməni bunun əsasında aparmalıdır.

A) "Mənəvi baxışların genişliyi"nin qiymətləndirilməsi meyarları:

- Şagird yeni ideyaları və yeni fəaliyyət növlərini mənimsəyə bilirmi?
- O, işdə yeni metodlardan istifadə etməyə hazırdırmı?
- O, müzakirə və mübahisə zamanı faktları duyğulardan yüksək tutmağı bacarırmı?
- O, yeni faktlarla əlaqədar öz fikrini dəyişirmi?
- O hər kəs barəsində ədalətlə fikir yürüdürmü?
- O, məsələnin bütün cəhətlərini nəzərdən keçirirmi?
- O, stereotip və qərəzli rəylərə meyil göstərirmi?

B) Dəyərlərin inkişafında özünüqiymətləndirmə.

Dərsin sonunda müəllim cədvəlləri paylayır və şagirdlərə aşağıdakı suala cavab verməklə cədvəli doldurmağı təklif edir:

Sadalananlarla bağlı öz şəxsi keyfiyyətlərini necə qiymətləndirirsən?

| Meyarlar | A – əla | B – yaxşı | C – kafi | D – qeyri-kafi |
|---|---|---|---|---|
| Başqalarına hörmət | | | | |
| Başqalarına maraq | | | | |
| Dinləmək bacarığı | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşma | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |
| Əməkdaşlıq | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Düzlük | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Səhvin etirafı | | | | |

LAYİHƏ

## Qruplarda işin qiymətləndirilməsi

A) Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal (2-dən 5-ə qədər) verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsi meyarı aşağıdakı cədvəldə verilib:

əla qiymət (5) – şagird bu bacarığı həmişə nümayiş etdirdikdə; yaxşı qiymət (4) – tez-tez nümayiş etdirdikdə; kafi qiymət (3) – hərdən nümayiş etdirdikdə; qeyri-kafi qiymət (2) isə bu bacarığı, demək olar, heç vaxt nümayiş etdirmədikdə verilir.

Müəllim konkret vəziyyətdən asılı olaraq bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər. Aya, rübə və ya yarımilliyə görə ümumi orta bal şagirdin mövcud qiyməti sayılmalıdır.

| Qrupda işləmək bacarığı | Həmişə – 5 | Tez-tez – 4 | Bəzən – 3 | Demək olar, heç vaxt – 2 |
|---|---|---|---|---|
| Qrupda şifahi müzakirələrdə iştirak edir. | | | | |
| Başqalarının sözünü kəsmədən dinləyir. | | | | |
| Qrupun digər üzvlərinin danışdıqlarını təkrar nəql edə bilir. | | | | |
| Qrupun işi üçün zəruri olan tapşırıqları yerinə yetirir. | | | | |
| Qrupun digər üzvlərini ümumi işə cəlb edir. | | | | |

B) Şagirdin öz işinə və qrupun fəaliyyətindəki iştirakına verdiyi qiyməti nəzərə almaq faydalıdır.

## Şagirdin özünüqiymətləndirmə vərəqi

Ad, soyad.............................................................................................................

Tarix....................................................................................................................

## Qrupun işində fəaliyyətinizi müvafiq bal ilə (1-dən 5-dək) qiymətləndirin:

- Tapşırığı başa düşdüm və başqalarına izah etdim.
- Başqaları ilə əməkdaşlıq edirdim.
- İşin müəyyən hissəsini yerinə yetirdim.
- Fəallıq göstərir və vaxtdan səmərəli istifadə edirdim.
- İdeyalarımı qrupla bölüşürdüm.
- Mənbələrdən istifadə edirdim.

C) Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə şagirdlər həm də qrupun işini bütövlükdə, yəni qarşıya qoyulmuş vəzifənin öhdəsindən necə gəldiyini müəyyənləşdirərək qiymətləndirə bilərlər.

LAYİHƏ

## Qrupun özünüqiymətləndirmə vərəqi

Qrupun iş ovqatı necədir? Bunu rənglə ifadə etmək olar.

.......................................................................................................................

Problemin həllində hamı fəallıq göstərə və ona öz töhfəsini verə bilibmi?

.......................................................................................................................

Kimlər passiv, kimlər fəal olub?

.......................................................................................................................

Qrupun işi hamını təmin edibmi?

.......................................................................................................................

Qrup öz vəzifəsinin öhdəsindən gələ bilib, ya yox?

.......................................................................................................................

## Qrup təqdimatının qiymətləndirilməsi

Təqdimatın hər bir növünün öz qayda və ənənələri var. Məsələn, şifahi təqdimatın qiymətləndirilməsi zamanı səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və videomaterialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

**Biliklər:** faktlar, problemlər, anlayışlar, ideyalar
**Əqli vərdişlər:** təhlil, qiymət, göstəricilərin sintezi, yəni məntiqlə düşünmək qabiliyyəti
**Kommunikativ vərdişlər:** informasiyanı aydın şəkildə təqdim etmək bacarığı

**A) Qrupların təqdimatının dörd səviyyə üzrə qiymətləndirilməsi**

Aşağıdakı cədvəldə şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilə bilər və ya onlara müəyyən əlavələr edilməsi də mümkündür.

| Meyarlar | IV səviyyə | III səviyyə | II səviyyə | I səviyyə |
|---|---|---|---|---|
| **Əsas anlayışlar, problemlər, mövzular, ideyalar** | Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir. | Yaxşı seçilir, tərifi və təsviri verilir. | Seçilir, tərifi verilir və təsvir edilir. | Seçilmir və ya təsviri qarışıq verilir. |
| **Faktlar, informasiya** | Yanlışlıqlar yoxdur. | Kiçik yanlışlıqlar var. | Səhvlər var. | Yoxdur və ya qeyri-dəqiqdir. |
| **Problemə aid göstəricilərin toplanması** | Məntiqlə seçir və hər şeyi təşkil edir. | Məntiqlə seçir və bir hissəsini təşkil edir. | Problem üzrə az göstərici tapır. | Problem üzrə göstərilən tapşırıq çox qarışıqdır. |
| **Nəticə çıxarmaq bacarığı** | Göstəricilərə əsaslanır. | Göstəricilərə əsaslanan məlumatlı nəticələr çıxarır. | Yarımçıq nəticələr çıxarır. | Nəticələr yoxdur və ya dəqiq deyil. |

LAYİHƏ

Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilmələri, yəni nə dərəcədə səylə öyrənmələri, faktlardan və detallardan nə qədər dürüst və yerində istifadə etmələri ilə izah olunur.

**4-cü və 3-cü səviyyələr:** şagirdlər anlayışların, problemlərin, ideyaların tərifini verə və bunları izah edə bilir, faktlar arasında qarşılıqlı əlaqəni başa düşür, göstəricilərin qiymətləndirilməsi üçün əqli vərdişlərdən istifadə edirlər (müqayisə, qarşıqoyma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən olunması və s.). Təqdimat zamanı material aydın və dürüst təsvir edilir, nümunə və misallar öz yüksək keyfiyyəti, çıxarılan nəticələr öz məntiqi və savadlılığı ilə seçilir.

**2-ci və 1-ci səviyyələr:** şagirdlər əsas anlayışları, problemləri izah edə bilmir, faktlar arasında qarşılıqlı əlaqələri yaxşı başa düşmür, faktlardan yersiz istifadə edir, bəzən isə onları hesaba almırlar. Problemin mahiyyətini açmaqda, nəticələri savadlı və qısa ifadə etməkdə çətinlik çəkir, təqdimatın keçirilmə qaydalarına lazımi diqqət yetirmirlər.

B) Təqdimat mərasimini şagirdlərin özləri də qiymətləndirə bilərlər. Onlar aşağıda göstərilmiş vərəqi doldururlar. Əgər bunu təqdimatı keçirən qrupun üzvləri edirlərsə, o zaman bu, özünüqiymətləndirmə sayılır.

### Qrup təqdimatında özünüqiymətləndirmə vərəqi

Qrupun üzvləri.........................................................................................................

Tarix.......................................................................................................................

Təqdimatın adı.......................................................................................................

**1-dən 5-dək ballar verin.**

- Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi...............................................
- Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi............................................
- Hamı əlbir və ahəngdar işləyirdi .........................................................................
- Qrup bütün sinfi fəal olmağa sövq edirdi...............................................................
- Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi..........................
- Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi.........................................

### Essenin qiymətləndirilməsi

Esseni adi məktəb inşası kimi ənənəvi üsulla qiymətləndirmək olar. Müəllim aşağıda göstərilən dəyərləndirmə meyarlarından da istifadə edə bilər:

- Esse əsasında mövzunun mahiyyətinin tam açılması;
- Faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;
- Terminlərdən, faktlardan düzgün istifadə olunması;
- Mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması, fikrin ardıcıllığı.

### Diskussiyanın qiymətləndirilməsi

Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz fikirlərini təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

LAYİHƏ

A) Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

- dəlillərin inandırıcı olması;
- mənbələrdən istifadə bacarığı;
- mülahizələrin məntiqiliyi, ziddiyyətlərin olmaması;
- polemika bacarığı;
- sual vermək, diskussiya üzrə rəqibin dəlillərini zəiflədən əks-dəlillər tapmaq məharəti.

**Mənfi ballar (1-dən 5-dək) aşağıdakı parametrlərlə ölçülə bilər:**

- mövzuya aid olmayan mülahizə;
- limitdən artıq vaxtdan istifadə;
- başqa şəxslərə əngəl törədilməsi;
- şəxsiyyətə qarşı hücum (şəxsiyyətə toxunmaqla tənqid).

B) Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi

Ad, soyad.....................................................

Tarix.......................................................................................................................

| Qrupda işləmək bacarığı | Həmişə – 5 | Tez-tez – 4 | Bəzən – 3 | Demək olar, heç vaxt – 2 | Heç vaxt – 1 |
|---|---|---|---|---|---|
| Fəal iştirak edirdi. | | | | | |
| Tapşırıqları yerinə yetirirdi. | | | | | |
| Öz ideyalarını dəqiq izah edirdi. | | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdi. | | | | | |

Mən bugünkü diskussiyaya hazır gəlmişəm: HƏ YOX

LAYİHƏ

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ZƏRURİLİYİ

İnteqrasiya müasir təlimin əsas prinsipi kimi öz aktuallığını qoruyub saxlamaqdadır. Azərbaycan tarixi fənninin tədrisində də fəndaxili və fənlərarası əlaqələrin tətbiqi əsasdır və təlimin interaktivliyini təmin etmək üçün başlıca amildir. Ənənəvi təlimdə şagirdlərə daha çox faktlar toplusu verilir və onları əzbərləmək tələb olunurdu. Nəticədə onlar lazım olmayan məsələləri də öyrənmək məcburiyyətində qalırdılar. İnteqrativ kurikulum isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlamaq, onlarda birbaşa şəxsi iştirak daxildir. Bu cür yanaşma öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyyəsində dəyərli əlaqələr yaratmağa köməklik göstərir.

İnteqrasiya necə həyata keçirilməlidir? İnteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında reallaşdırılır. Burada bir fakt haqqında biliyə həmin fakt haqqında başqa fənlərdə verilən məlumat da əlavə olunur. Müasir dövrdə inteqrasiyaya tamamilə başqa cür yanaşılır. Digər fənlərdə olduğu kimi, tarix fənn kurikulumunda da inteqrasiya fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Çünki ümumi orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlarla tam orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlar məzmun etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

Azərbaycan tarixi fənninin tədrisi prosesində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə fənn daxilində (şaquli və üfüqi) inteqrasiya, ikinci tipə isə fənlərarası (üfüqi) inteqrasiya daxildir. Birinci tip inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

- Fraqmentləşdirilmiş (hissələrə bölünmüş) inteqrasiya;
- Əlaqəli inteqrasiya;
- Sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) inteqrasiya.

Kurikulumun ənənəvi planlaşdırma və təşkili modeli olan fraqmentləşdirilmiş inteqrasiya, digər fənlərdə olduğu kimi, Azərbaycan tarixinin də müstəqil tədris sahəsidir. Ümumi orta və tam orta təhsil pillələrində Ümumi tarix ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentlənmə olmasına baxmayaraq, Azərbaycan tarixi fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzuların, bacarıqların və konsepsiyaların sıra ilə qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər. Məsələn, 11-ci sinifdə “yenidənqurma” və “aşkarlıq” siyasətinin iflasa uğraması” və “Azərbaycan İkinci Dünya müharibəsi illərində” mövzuları bu qəbildəndir. Bu mövzuların inteqrasiyası şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı, hadisə və təzahürlər arasında oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verir. Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər.

Əlaqəli inteqrasiya modeli Azərbaycan tarixi fənni daxilində diqqəti mövzulara, bacarıqlara və konsepsiyalara yönəldir. Bu modeldə fənn daxilindəki mövzular, bacarıqlar və konsepsiyalar arasındakı əlaqələr aydın şəkildə qurulur. Məsələn, insanlar arasında bərabərsizliyin yaranmasının nəticəsi olaraq sosial qrup və təbəqələrin meydana çıxması ilk dövlət qurumlarının və dövlətlərin yaranması ilə, onlar da, öz növbəsində, xalqın fiziki və mənəvi varlığının qorunması üçün tariximizin bütün mərhələlərində müstəqil dövlətçiliyə

LAYİHƏ

malik olmaq və s. ilə əlaqələndirilir. Bu modelin üstünlüyü ondadır ki, hər bir sinifdə, hər bir təhsil mərhələsində dövlətçilik və onun qorunması konsepsiyası sistemləşdirilir və genişləndirilir. Bu da, öz növbəsində, fənn daxilində mövzuların və bacarıqların əvvəlkilərə istinad olunaraq yenidən nəzərdən keçirilməsinə və mənimsənilməsinə gətirib çıxarır.

**Sıxlaşdırılmış** (iç-içə yerləşdirilmiş) modelə çox vaxt **"yuva" modeli** də deyirlər. Azərbaycan tarixinin inteqrativ kurikulumunda bu modeli əlaqələndirmələrin və ya kombinasiyaların açıq şəkildə qurulması yolu ilə tətbiq etmək mümkündür. Bu zaman əsas diqqət fənnin daxilində çoxşaxəli bacarıqlara (sosial bacarıq, düşünmə bacarığı və məqsədyönlü bacarıq) yönəldilməsinə şərait yaranır. Məsələn, müəllim dövrə aid sənədlərin təhlili əsasında "Müstəmləkəçilik əleyhinə çıxışlar. Milli demokratik hərəkat" mövzusunda esse yazılmasına nail ola bilər. Bu modelin tətbiqi eyni vaxtda müxtəlif sahələrə diqqətin yönəldilməsinə, əhatəli və məqsədyönlü bilik əldə olunmasına şərait yaradır.

İnteqrasiyanın ikinci tipi fənlər arasında tətbiq olunur. Bu zaman Azərbaycan tarixinin ümumi orta və tam orta təhsil səviyyəsində Ana dili, Riyaziyyat, Ümumi tarix, Coğrafiya, Kimya, Biologiya və s. fənlərlə inteqrasiyası mümkündür. Azərbaycan tarixinin inteqrativ kurikulumunda fənlər arasında inteqrasiyasının aşağıdakı modellərini tətbiq etmək olar:

- Ardıcıl (sıralanmış) model;
- Ümumi (ortaq) model;
- Zəncirvarı (hörülmüş) model.

Azərbaycan tarixi fənninin Ümumi tarix fənni ilə inteqrasiyası daha çox ardıcıl (sıralanmış) modelin tətbiqi nəticəsində reallaşdırılır. Hər iki fəndə çoxlu oxşar bölmələr və mövzular vardır ki, onlar ayrı-ayrılıqda tədris olunur. Lakin elə planlaşdırmaq olar ki (bunun üstün cəhəti həmin fənlərin eyni müəllim tərəfindən tədris olunmasıdır), əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar eyni vaxtda öyrənilsin. Bu cür inteqrasiyanın həyata keçirilməsi üçün kurikuluma dair sənədlərdə məzmun hökmən balanslaşdırılmalıdır. Bu zaman standartın standartla uyğunluğu mütləq nəzərə alınmalıdır. Ümumi model iki müxtəlif fənni vahid istiqamət üzrə bir araya gətirir. Bu modelə əsasən, inteqrasiya apara bilmək üçün fənn müəllimləri təlim prosesinə fənlərarası mövqedən yanaşaraq fənbirləşmə yığıncaqlarında əsas konsepsiyaları, bacarıq və dəyərləri müəyyənləşdirirlər. Bu daha çox tarix və ədəbiyyat fənlərinin tədrisində mümkündür. İnteqrasiya olunmuş model, tarixin tədrisinin inteqrasiyası kurikulumun tələbinə görə fənlərarası standartların üst-üstə düşən konsepsiyaları və onların məlum olan xüsusiyyətləri əsasında tətbiq olunur. Bu model ortaq (ümumi) modellə oxşardır. Lakin elm sahələri üzrə üst-üstə düşən bacarıqlar, konsepsiyalar və dəyərlər üzərində qurulduğundan bu model fənn sahələrini sinergetik birləşdirir. Yəni bir fənn üzrə biliklər digər fəndən ayrılmır, bölünmə yalnız fərqləndirilən məzmunun və ya anlayışın tədrisində baş verir. Bu model inteqrasiya fənlərinin məzmunundan əlaqəli fikirləri seçib-ayırmaq nəticəsində yaranır.

LAYİHƏ

## TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmə istedadına malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

- Təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;
- Məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;
- Məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;
- Məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi (deklarativ, prosedural, kontekstual);
- Məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən olunması (idraki, emosional, psixomotor);
- Hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçüləbilən olması;
- Təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvarı, iyerarxiya üzrə inkişafı əksetdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri sinifləndirən zaman asandan çətinə prinsipi nəzərə alınır. Təlim məqsədlərinin, standartların (məzmun və qiymətləndirmə) və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

- İdraki (təfəkkür, koqnitiv);
- Emosional (hissi, affektiv);
- Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxik – pilləlilik, əlaqəlilik və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir.

## TƏLİM PROSESİNDƏ ŞAGİRDLƏRİN YAŞ XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRƏ ALINMASI

Təlim metodları seçilərkən şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipinə istinad olunmuşdur. Bu yaş qrupunda daha mürəkkəb metodlarla işləmək problem olmasa da, fərqli qavrama tiplərini nəzərə alaraq metodlar sadədən mürəkkəbə doğru çətinləşdirilmişdir. Metodlar seçilərkən və tapşırıqlar hazırlanarkən Hovard Qardner nəzəriyyəsi əsas götürülmüşdür. Bu nəzəriyyəyə görə, dərketmənin 8 üsulu var:

- Linqvistik/söz
- Məntiqi/riyazi
- Vizual/məkan
- Bədən/kinestik
- Musiqi/səs
- Fərdlərarası
- Fərddaxili
- Naturalistik/təbiət

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ müvafiq olaraq fəaliyyətlər müəyyənləşdirilmiş və mərhələlərə uyğun texnologiyalarla müşayiət olunmuşdur.

LAYİHƏ

| Bilmə | Şagird |
| --- | --- |
| Bu kateqoriya öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsidir. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | – istifadə olunan terminləri bilir;<br>– konkret faktları bilir;<br>– proseduru və metodları bilir;<br>– əsas anlayışları bilir;<br>– prinsipləri və qaydaları bilir. |
| **Anlama** | **Şagird** |
| Bu kateqoriya şagirdin öyrənilmiş biliyin əhəmiyyətini başa düşməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata (nəticənin izahına) keçməkdir. Tədrisin belə nəticələri dərs materialının sadə şəkildə yadda saxlanılmasından üstündür. | – prinsipləri, qaydaları və faktları başa düşür;<br>– materialı öz sözləri ilə izah edir;<br>– sxemləri, diaqramları izah edir; materialın izahı zamanı başqa anlayışlardan istifadə edə bilir;<br>– əldə edilmiş biliklərdən yararlanaraq gələcəkdə əldə edilə biləcək nəticəni təsvir edir. |
| **Tətbiq** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura daxildir: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, ondan daha yüksək səviyyədə istifadə edilməsi lazımdır. | – yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>– konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>– prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |
| **Təhlil** | **Şagird** |
| Bu kateqoriya tədris materialını əsas hissələrə ayırmaq, strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması, bütövün təşkili prinsipləri daxildir. Bu zaman tədrisin nəticələri daha yüksək intellektual səviyyəyə uyğun olur, nəinki başadüşmə və tətbiq. | – gizli, gözə görünməyən təsəvvürləri açıqlayır;<br>– məntiqi izahatda səhvləri və unudulmuşları görür;<br>– faktla nəticələr arasında fərqi üzə çıxarır;<br>– dəlillərin əhəmiyyətini qiymətləndirir. |
| **Sintez** | **Şagird** |
| Bu kateqoriya elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövü əldə etmək bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | – kiçik yaradıcı xarakterli inşa yazır;<br>– eksperimentin həyata keçirilmə planını təklif edir;<br>– müəyyən problemin həlli və plan hazırlamaq üçün müxtəlif bilik sahələrindən istifadə edir. |
| **Qiymətləndirmə** | **Şagird** |
| Bu kateqoriya bu və ya digər materialın (bədii əsər, tədqiq materialı və s.) əhəmiyyətini qiymətləndirmə və onu izah etmək bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyaların şagirdin özü tərəfindən və ya kənardan (müəllim tərəfindən) müəyyən olunması mümkündür. | – materialın məntiqi quruluşunu və nəticələrin faktlara əsaslanmasını qiymətləndirir;<br>– bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

LAYİHƏ

## İNTERAKTİV TƏDRİS HAQQINDA

Təhsil məqsədlərinin vacibliyi haqqında məşhur Britaniya alimi Jon Raven tərəfindən şagirdlər arasında keçirilən test sorğusunun nəticələri göstərdi ki, təklif olunan 50 bənddən aşağıda qeyd olunanları oğlan şagirdlər birinci yerə qoymuşlar – özünəinam, təşəbbüs və islahatçılıq istedadlarını üzə çıxarmaq bacarığı formalaşdırmaq; əldə olunmuş bilik və vərdişlərdən yeni problemlərin həllində istifadə etməyi öyrətmək; müxtəlif məsələləri müzakirə etməyə və öz mövqeyini söyləməyə imkan yaradan diskussiya-dərslər keçmək, xasiyyət və şəxsiyyətin formalaşmasına yardımçı olmaq. J.Raven tərəfindən qız şagirdlər arasında keçirilən test sorğusunun nəticələri isə belə olmuşdur – özünəinam, təşəbbüs və islahatçılıq istedadlarını üzə çıxarmaq bacarığını formalaşdırmaq; xasiyyət və şəxsiyyətin formalaşmasına yardımçı olmaq; əldə olunmuş bilik və vərdişlərdən yeni problemlərin həllində istifadə etməyi öyrətmək, müxtəlif məsələləri müzakirə etməyə və öz mövqeyini söyləməyə imkan yaradan diskussiya-dərslər keçmək.

Testlərin nəticələrindən bəlli olur ki, şagirdlər heç də yalnız məktəbdə onlara təklif olunan biliklərə can atmırlar. Müəllimlər şagirdləri hazır bilik və ifadələri öyrənməyə, əzbərləməyə məcbur etməməklə sərbəst hərəkət və düşüncələrə həvəsləndirməklə onların yuxarıda qeyd olunanları öyrənmək arzusuna dəstək vermiş olurlar.

J.Ravenin müəllimlər arasında keçirdiyi eyni mövzulu testlər isə göstərdi ki, müəllimlər də şagird şəxsiyyətinin inkişafını çox mühüm sayırlar (hərçənd bu məqsədi yalnız "yaxşı davamiyyətli şagirdlər" üçün "çox vacib" hesab edirlər). Lakin tədris məqsədlərinə nail olmağın müvəffəqiyyətliliyi haqqında müəllimlər arasında keçirilən test sorğusu zamanı onlar yekdilliklə rəsmi imtahanlara imkan daxilində yaxşı yardımçı olmağı birinci yerdə qeyd etmişlər. Bu isə müəllimlərdə müəyyən ətalətin olduğuna dəlalət edir. Bu dilemmanın mövcudluğunu çoxları təsdiqləyirlər. Bununla belə, müəllimlər müəyyən mənada haqlıdırlar, çünki yuxarıda qeyd olunan bacarıq və vərdişlərin inkişafına "akademik" məşğələlərin zərərinə daha çox vaxt ayrılsa, şagirdlərin (məktəb) buraxılış və (ali məktəbə) qəbul imtahanlarında yüksək qiymətlər almaq şansı azalmış olar.

Yuxarıda göstərilən məlumatlar nəinki Azərbaycanda, eləcə də bütün dünyada məktəb təhsil sisteminin əsaslı islahata ehtiyacı olduğuna dəlalət edir. Hazırda ölkəmizdə belə bir islahat aparılır. Bu islahat, əsasən, şagirdlərə məktəblərdə hazır bilik və bacarıqlar verilməsinə deyil, faktlarla sərbəst işləmək, təhlil etmək və müstəqil nəticələr çıxarmaq bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə yönəlmişdir. İslahat şagirdlərin qiymətləndirilməsi sisteminə də toxunur və öyrənilmiş, əzbərlənmiş biliklərin aşkarlanmasını deyil, şagirdlərin sərbəst işləmək bacarıq və vərdişlərinin qiymətləndirilməsini əsas götürür.

Müəllimlər təklif olunan metodik üsullara və dərs modellərinə istinad edərək onları tədrisdə tətbiq edə və ya tarix dərsi üzrə öz dərs modellərini hazırlaya bilərlər. Qeyd etmək lazımdır ki, müasir didaktikada mütləqləşdirilib digərlərinin zərərinə hər zaman və hər yerdə tətbiq edilə biləcək yegana üsul və tədris modeli yoxdur. Buna görə də dərsin tədrisinin üsul və model seçimi müəllimin öz öhdəsinə düşür, onun istək və təcrübəsindən asılı olur. Buradan belə bir nəticə çıxır ki, deyilən tövsiyələrə bir qədər yaradıcı yanaşmaq lazımdır. Tarixin tədrisi yaradıcılıqdır və müəllim şagirdlərin ürəklərinə və dərrakələrinə öz yolunu tapmalıdır.

Hazırda bizdə dərsin tipi və strukturunda çox ciddi yerdəyişmə olmuşdur. Nə ənənəvi dərs üsulundan, nə də yeni dərs üsulundan geniş istifadə edilir. Əsasən, ənənəvi dərs üsulunun pozulmuş variantına müraciət olunur. Bunu biz öz müşahidələrimizə, təcrübəli müəllim və metodistlərin fikirlərinə istinadən söyləyirik. Yeni təlim metodları hələ də dərsin gedişatı prosesində öz yerini möhkəmlətməmişdir.

LAYİHƏ

## TARİXİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM METODLARININ NƏZƏRƏ ALINMASI

Müstəqil Azərbaycan təhsil sisteminin beynəlxalq sistemə inteqrasiyası üçün bu sahədə köklü dəyişikliklər, islahatlar aparılır. Məqsəd demokratik cəmiyyət üçün sağlam düşüncəli, sərbəst fikir söyləmək qabiliyyətinə malik, ətrafda baş verən hadisələrə tənqidi yanaşmağı, münasibət bildirməyi bacaran gənclər yetişdirməkdir. Elm və texnikanın inkişafı, informasiya bolluğu böyüməkdə olan gənc nəslə imkan verir ki, hadisələrin məcrasında bilavasitə özləri iştirak etsinlər və baş verənlərdən nəticə çıxarmağı bacarsınlar. Onları bu sahədə düzgün istiqamətləndirmək isə məktəb və müəllimlərin öhdəsinə düşür.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşmalıdır. Müasir şəxsiyyəti hafizənin gücləndirilməsinə və yalnız informasiya toplanılmasına yönəlmiş, real həyatın tələblərini nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyil. Ənənəvi təlim yaddasaxlama qabiliyyətinə əsaslanır, şagird materialın təhlilini, təsvirini, nəticələri və ümumiləşdirmələri hazır şəkildə alır. Həyatın belə bir dinamik inkişafında ənənəvi dərs metodlarından istifadə bugünkü məktəbliyə cansıxıcı, darıxdırıcı görünür, onların dərsə olan marağını azaldır. Beləliklə, məktəb dövründə həyat üçün gərəkli olan əldə edilməli bilik və bacarıqlarda boşluq yaranır. Həmin vaxt ikinci dərəcəli işlərə yönəldilir ki, bu da yaranmış boşluğu doldurur. Bu gün məktəblidə elmə marağı artırmaq, yaradıcı fəaliyyət bacarığı tərbiyə etmək, humanist dünyagörüşü, milli özünüdərk, vətəndaşlıq mövqeyi, milli dəyərlərə hörmət və məhəbbət hissi formalaşdırmaq günün ən aktual problemlərindəndir. Bu baxımdan, əməkdaşlığa, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə əsaslanan yeni təlim metodları mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, biz bunu deməklə ənənəvi dərs metodlarını kölgədə qoymaq istəmirik. Böyük bir nəsil məhz bu metodlarla formalaşmış, cəmiyyətin inkişafında xüsusi rol oynamışdır. Sadəcə, həyatın elə məqamları, elə dövrləri var ki, hər bir cəmiyyət özünə lazım olan şəxsin formalaşma metodunu diktə edir. Bu gün bazar iqtisadiyyatına keçid, demokratik cəmiyyət qurulması hadisələri olduğu kimi qəbul etməyi deyil, ona tənqidi yanaşmağı, öz münasibətini bildirməyi bacaran sərbəstdüşüncəli, azadfikirli şəxsiyyətin yetişdirilməsini tələb edir.

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal təlim metodlarından istifadə olunması məqsədəuyğun hesab edilir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsi ilə yanaşı, kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas vəzifələrindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşməsinə deyil, həm də təfəkkürün inkişaf etməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, bilik ehtiyatını sistematik olaraq müstəqil şəkildə artırırlar.

LAYİHƏ

Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, ətrafdakı obyektlərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil fikir yürütməyi, müstəqil bilik almağı və fərdi inkişaf bacarığını tərbiyə etməlidir. Yəni şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirilməlidir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, onlar özlərində aktiv, yaradıcı düşünmə qabiliyyətini və yeni biliklərə sərbəst yiyələnməyi aşılama yollarını birləşdirmiş olsun. Bu cəhətdən interaktiv təlim metodları çox səmərəlidir.

Tarixin səmərəli tədrisi üçün fəal-interaktiv metodların tətbiqi şəxsiyyətin formalaşmasına və inkişafına kömək edir. Hazırda tarixin tədrisində əsas məqsəd ondan ibarətdir ki, dərs şagirdyönümlü və standartlara uyğun olsun.

İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakı prinsipləri gözləmək lazımdır:

- Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi;
- Fəal dərsin mərhələləri;
- Fəal dərsin strukturu.

İnteraktiv metoda müxtəlif növ üsullar, iş formaları daxildir. Fəal-interaktiv üsullara rollu oyunlar, modelləşdirmə, diskussiyalar, debat, akvarium, xəritə üzərində iş və s. daxildir. Üsullarla yanaşı, iş formalarının, fərdi, cüt, qrup və kollektiv iş formalarının da müasir təlimdə tətbiq olunması zəruri hesab edilir. Bu cür metodlar şagirdlərdə nəinki dərsə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsini və demokratik dəyərlərə bağlılığı təmin edir. İnteraktiv metodikanın tətbiqi nəticəsində müasir dərs şagirdlərdə araşdırma və nəticə çıxarma bacarığını formalaşdırır.

## Mühazirə

**Mühazirə** üsulu məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Digər fənlərdə olduğu kimi, tarix fənninin tədrisində də bu üsuldan geniş istifadə edilir. Araşdırılacaq problemlə bağlı şagirdin təsəvvürünün formalaşdırılması üçün problemin həllinin qısa yolla izahı verilir. Mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə deyərkən aşağıdakıları nəzərə almaq tövsiyə edilir:

- Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- Plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq);
- Əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) olaraq tənzimləməlidir.

## Müzakirə

Tarix fənninin tədrisində müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir. Müzakirə apararkən əvvəlcədən müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müəllim müzakirəni inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə prosesi tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

LAYİHƏ

## Modelləşdirmə

Şagirdləri real hadisənin sadələşdirilmiş, lakin canlı nümunəsi olan mücərrəd və ya uydurma şəraitə (vəziyyətə, hadisəyə) çəkib gətirən metodik üsuldur.

Yaxşı modelləşdirmə şagirdlər qarşısında ciddi dilemma və problem qoyur ki, onlar bunu təklif edilmiş şəraitdə – sinif yoldaşları ilə birlikdə, gerçək həyatda rast gəlinən müəyyən rolları oynamaqla həll etməlidirlər. Beləliklə, sinif, bir növ, miniatür və ciddi hadisəyə – müzakirə, mübahisə və diskussiyalar üçün mövzunu özündə daşıyan əhvalata, tamaşaya çevrilir. Hadisə bölünmüş rollar vasitəsilə inkişaf etdirildiyindən modelləşdirmədə, müəyyən mənada, oyunun və tamaşanın bir çox cəhətləri müşahidə olunur. Lakin oyundan və həqiqi tamaşadan fərqli olaraq, modelləşdirmənin maraqlı cəhəti onda qeyri-müəyyənlik faizinin yüksək olmasıdır. Modelləşdirmə, bu mənada, daha sərbəstdir, belə ki heç kəs əsl həqiqətdə son nəticəni görə bilmir, heç kəs deyə bilməz ki, əhvalat nə ilə bitəcək, çünki son nəticə, əsasən, rolların necə oynanılacağından asılı olur. Modelləşdirmə yalnız eskizi, rolun qısa təsvirini təklif edir, rolun ifaçısı bu müxtəsər məlumata əsaslanaraq öz həyat duyumunu yaratmalı, öz nöqteyi-nəzərini inkişaf etdirməlidir. Şagirdlər modelləşdirməyə başlayarkən inanırlar ki, konkret məqsədə nail ola biləcəklər, lakin çox vaxt başları oyuna qarışdığından ilkin məqsədi unudur, qarşılarına yeni məqsədlər qoyurlar. Artıq dediyimiz kimi, modelləşdirməni əyləncəli və maraqlı edən onun qeyri-müəyyənliyi, məchulluğudur, çünki ən yaxşı halda nəticələri qabaqcadan yalnız qismən müəyyən etmək olur. Məhz bu bilinməzlik real həyata oxşayır, onu daha çox xatırladır. Bu da nəticələri qəti müəyyən edilmiş tamaşalar və ya oyunlarla müqayisədə modelləşdirmənin xeyrinə çox əsaslı dəlil ola bilər.

## Modelləşdirmənin vəzifələri nədən ibarətdir?

Dərslərdə modelləşdirmədə müəllimin vəzifəsi aşağıdakılardan ibarət ola bilər:

- Yaradıcı qabiliyyətlərini və təxəyyüllərini inkişaf etdirmək üçün şagirdləri zəruri əsaslarla təchiz etmək;
- Cütlük şəklində öz baxışları və dəyərləri ilə bağlı müzakirə aparmaq üçün şagirdlərə sərbəst diskussiya təklif etmək;
- Şagirdləri problemi tapmağa və onu real həyatın modelləşdirilməsi şəraitində həll etməyə həvəsləndirmək;
- Şagirdlərə təhlil aparmaq və alternativ hərəkətləri qiymətləndirmək bacarığını aşılamaq;
- Şagirdləri ictimai və ya qrup fəaliyyətinin tərkib hissəsi olan qərarların qəbul edilməsi prosesinə cəlb etmək;
- Məşğələ ərzində qəbul edilmiş qərarlara yenidən baxmaq və təhlil etmək, habelə uydurma situasiyanı gerçək vəziyyətlə müqayisə etmək üçün şagirdlərə imkan yaratmaq.
- Modelləşdirmə gerçək həyatı əks etdirən problem üzərində cəmlənməlidir. Bu cür nümunələri cari reportajlarda, sənədlərdə, tədqiqatlarda və digər mənbələrdə tapmaq olar. Mövzunu seçdikdən sonra bir neçə problemi müəyyənləşdirmək lazımdır, əks halda oyun maraqlı olmaması səbəbindən öz mənasını itirər. Oyun yerli şəraitə uyğunlaşdırılmaqla rolların artırılması və ya ixtisar edilməsi, problemin əvəzlənməsi ilə dəyişdirilə bilər.

LAYİHƏ

## Diskussiya

Təlimin ən mühüm metodik üsullarından biridir.

Diskussiya müstəqil metodik üsul kimi, eləcə də fəaliyyətin digər növlərinə əlavə şəklində tətbiq edilə bilər. Diskussiya prosesində şagirdlər müzakirə olunan bu və ya digər məsələ barədə fikirlərini söyləməklə öz baxışlarını əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli düşüncəyə dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır. Diskussiya mə-

dəniyyəti olduqca vacib və əhəmiyyətli məsələdir. Diskussiya mədəniyyətinin mühüm cəhətlərindən biri başqalarının fikir və əqidəsinə dözümlü münasibət göstərməkdir. Bu çoxcəhətli anlayış yalnız əxlaqi-normativ məzmuna deyil, həm də dərin sosial-pozitiv məzmuna malikdir. Belə ki o, ilk növbədə, ünsiyyət prosesini pozan mütləq dözümsüzlük amilinin antitezi kimi çıxış edir.

Yuxarıda göstərilən vərdişlərə (dinləmək bacarığı, fərqli düşüncələrə dözümlülük və s.) nail olmaq üçün şagirdlərə diskussiya aparmağı öyrətmək lazımdır. Müəllim təklif edə bilər ki, diskussiya aparmaq qaydalarını onlar özləri tərtib etsinlər. Bu zaman şagirdlər **əqli hücum** üsulu ilə diskussiyanın uğurla aparılmasına kömək edəcək təkliflər irəli sürə bilərlər.

Qaydalar aşağıdakılardan ibarətdir:

- Eyni vaxtda yalnız bir nəfər danışa bilər;
- Danışanı dinləmək;
- Sözü kəsməmək;
- Sinif yoldaşının fikrinə tənqidi münasibət bildirmək;
- Reqlamenti nəzərə almaq;
- Heç kəsi məsxərəyə qoymamaq;
- Söz demək istədikdə əl qaldırmaq və s.

Müəllim bu qaydaları iri vərəqdə yaza, sinifdə divardan asa bilər. Onları dərs ilinin axırına qədər saxlamaq olar ki, sonralar istinad, yaxud əlavə və düzəlişlər etmək mümkün olsun.

Diskussiyanın gedişinin düzgünlüyünün qiymətləndirilməsi:

- Düzgün təriflər, aydın mülahizələr;
- Yaddaqalan və aktual misallar;
- Sanballı dəlillər və analogiyalar;
- Ümumiləşdirmə aparma və yekunvurma bacarığı;
- Başqalarını dinləmək bacarığı.

Diskussiya vaxtı düzgün olmayan hərəkətlərə mülahizələrdə təkrarlar, mövzuya aid olmayan faktlar, anlaşılmaz müddəalar, dəlillərin yoxluğu, mövzudan qaçma, çıxış edənləri təqsiləndirmə, şəxsi təhdid və s. kimi hərəkətlər aid edilə bilər.

LAYİHƏ

### “Akvarium” üsulu

Diskussiya vərdişlərini inkişaf etdirmək üçün ən yaxşı üsullardan biri “akvarium”dur. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil. Başlıcası, problemin müzakirəsində irəliləmək və düzgün diskussiya aparmaq vərdişlərini nümayiş etdirməkdir.

Bütün qaydalar diskussiyadan öncə ciddi şəkildə müəyyən edilməlidir (bax: “Diskussiya”).

### “Akvarium”un keçirilməsinin 1-ci variantı:

Şagirdləri 2 qrupa bölürlər. Bir qrup stullarda əyləşərək daxili dairə təşkil edir: bu iştirakçılar müəllimin təklif etdiyi problemi müzakirə edəcəklər. Digər qrup xarici dairədə stullarda oturur: onlar diskussiyanın müəyyən qaydalar üzrə keçib-keçmədiyini müşahidə edəcəklər. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, “xarici dairə”nin iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

### “Akvarium”un keçirilməsinin 2-ci variantı:

“Daxili dairə”nin iştirakçıları müəllimin təklif etdiyi problemin müzakirəsini aparır, lehinə olan dəlilləri irəli sürürlər. Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər – onlar dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Bu dəfə onlar diskussiya apararaq əvvəlki iştirakçıların dəlillərini təkzib etməlidirlər.

### Debatlar

Diskussiyanın yalnız bir-birlərinə opponentlik (etiraz) edən tərəflərin arasında keçirildiyi mübahisə, müzakirə, rəy mübadiləsi kimi məlum formalarından fərqli olaraq, debatlar opponentini deyil, üçüncü tərəfi inandırma prosesini nəzərdə tutur. Üçüncü tərəfin vəzifəsi hər bir tərəfin mövqeyini dinləyib öz seçimini etməkdir. Bu seçim yalnız bir şeyə – “bu tərəf məni inandırdı!” təsdiqinə əsaslanır. Beləliklə, debatlarda iştirak edən tərəflərin əsas məqsədi dəlil və sübutların köməyi ilə üçüncü tərəfi öz mövqeyinin düzgünlüyünə inandırmaqdır. Bu prosesin yekunu əsasında ona qərarların qəbulu kimi də baxmaq olar.

### Debatların əsas ünsürləri:

**1. Mövzu.** Debatlarda mövzu təsdiq formasında ifadə edilir. Mövzu qısa ifadə olunan zaman aşağıdakı prinsiplər qorunmalıdır:

- Mövzu aktual olmalıdır;
- Mövzu maraqlı olmalıdır;
- Mövzu “münaqişəli” olmalıdır, məsələn, əgər “evtanaziyanın leqallaşdırılması zəruridir” (“A” mövqeyi) fikri mövcuddursa, bu o deməkdir ki, əks fikir də mövcuddur – “evtanaziyanın leqallaşdırılması zəruri deyildir” (“V” mövqeyi);
- Mövzu elə ifadə edilməlidir ki, heç bir mövqenin üstünlüyü hiss olunmasın;
- Mövzu nə çox məhdud, nə də çox geniş olmalıdır.

LAYİHƏ

**Debatlara daxil olan təlim ünsürləri və ya təhsil texnologiyası:**

- Mövzunun araşdırılması;

- Əsas anlayışlarla iş;
- Dəlillərlə iş;
- Sualların hazırlanması və ya “çarpaz suallar”;
- Natiqlik məharəti;
- Hakimlik və ya qərarları necə qəbul etməli?!

**2. Debatda rollar.** Debat iştirakçıları və ya debatçılar çıxış zamanı **spiker** adlandırılırlar. Debat prosesində çıxışların vaxt rejimini təmin edən **“taym-kipper”**lər iştirak edirlər. Debat üçüncü tərəfi təmsil edən hakimlər qarşısında spiker komandaları (“A” mövqeyi və “V” mövqeyi) arasında keçirilir:

Təsdiqedici “A” mövqeyinin spikerləri debatların mövzusunu onun ifadə edildiyi kimi təsdiq edirlər. Məsələn, “evtanaziyanın leqallaşdırılması zəruridir” və ya “vahid məktəb forması özünü doğrultmur”;

Təkzibedici “V” mövqeyinin spikerləri “A” mövqeyini təkzib etməyə borcludurlar. Bu onların başlıca vəzifəsidir. Həm də onlar təkzibetmədən sonra öz meyar və dəlillərini təklif edirlər. Məsələn, “A” mövqeyi evtanaziyanın leqallaşdırılmasının zəruri olduğunu sübut etdiyi halda “V” mövqeyi “A” mövqeyinin zəif, inandırıcı olmayan cəhətlərini göstərir, sonra isə öz mövqeyinin düzgünlüyünü sübuta yetirməyə çalışır, yəni “evtanaziyanın leqallaşdırılması zəruri deyildir” (və ya leqallaşdırmaq olmaz);

Hakimin vəzifəsi öz şəxsi mövqeyindən asılı olmayaraq bu mövqelərdən hansının daha inandırıcı olduğunu müəyyən etməkdir. O yalnız eşitdikləri əsasında nəticə çıxarır və öz seçimini edir. Seçim etdikdən sonra hakimin onu əsaslandıra bilməsi çox vacibdir.

**Arqument** (dəlil) – faktlar əsasında çıxarılan nəticə, mövzunun tədqiqinin nəticəsidir. Arqument üzərində iş prosesi aşağıdakı hərəkətlərdən ibarətdir:
- Arqument irəli sürülür;
- Arqument izah edilir;
- Arqument sübut olunur;
- Nəticə.

### Faktlar, dəstək, sübutlar

Debatların spikerləri arqumentləri irəli sürərkən sübut-dəlilləri – onların mövqeyini təsdiq edən faktları, statistik göstəriciləri, mütəxəssislərin ekspert rəylərini də təqdim etməlidirlər.

**Çarpaz suallar** – debatlar zamanı bir mövqeyin spikerlərinin suallarından, digər mövqeyin spikerlərinin cavablarından ibarət olan və xüsusi fərqləndirilən raunddur. Verilən sualların və alınan cavabların keyfiyyəti iştirakçıların debatın mövzusunu nə dərəcədə dərindən və hərtərəfli mənimsədiyini göstərir. Hazırlıq prosesində debatçılar idrak prosesinin mühüm ünsürlərindən olan sualların ifadə texnikası və məharətinə yiyələnirlər. Bu zaman həm də spikerin alınmış cavablardan opponentin mövqeyini zəiflətmək və öz mövqeyini gücləndirmək üçün nə dərəcədə ustalıqla istifadə edə bilməsi qiymətləndirilir.

### Layihələrin hazırlanması

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Onlara müstəqil şəkildə fəaliyyət proqramlarını

LAYİHƏ

qurmağa, habelə vaxtlarını və işlərini qrafik üzrə planlaşdırmağa kömək edir. Azərbaycan tarixi fənninin tədrisində bu üsul şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir. Layihələrin hazırlanması tarix fənninin tədrisində ən uğurlu üsullardan biridir. Şagirdlərdə araşdırma bacarığı formalaşır. Layihələr hazırlanarkən mövzu və ya problemi müəllim müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem konkret olmalıdır. Müəllim və şagirdlər layihə üzərində işin başlama və başaçatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsvir vasitələri və s.), onları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) birlikdə müəyyən edirlər. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

## Sorğu vərəqləri və müsahibə

Bu üsullardan araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə istifadə edilir.

Sorğu vərəqi Azərbaycan tarixi fənninin tədrisində araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər vərəqi müstəqil şəkildə doldururlar. Müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

**Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə, daha doğru olar:**

- Problemi müəyyən etmək;
- İşi təşkil etmək (sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
- Məlumatları toplamaq (sualların cavablarını toplamaq);
- Əldə edilmiş məlumatları təhlil etmək və ümumiləşdirmək.

## "Qərarlar ağacı"

Azərbaycan tarixi fənninin tədrisində bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və şagirdlərlə birlikdə onun həlli yollarının bir neçə variantı müəyyənləşdirilir. Məsələn, dünyanın üzləşdiyi hər hansı bir qlobal problem müzakirəyə qoyulur. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarını, üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, "+" və ya "–" işarəsinin qarşısında müvafiq qaydada qeydlər edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.

Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

## Problemli vəziyyət

Bu üsulun tətbiqi tarix fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünürlər. Problemli vəziyyətin əks olunduğu iş vərəqləri, məsələn, "Qarabağ məsələsi" və s. şagirdlərə paylanılır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

LAYİHƏ

## Xəritələrlə iş

Tarixi məlumatların şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də xəritələrlə işdir. Xəritələrlə iş mühüm hadisələri məkanla (hadisə yeri ilə), həmçinin müasir dövrlə əlaqələndirməyə imkan verir.

**Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan sual və tapşırıqlar verilir:**

- Xəritədə dünyanın hansı hissəsi təsvir olunur?
- Öyrənilən ölkənin ən şimal, cənub, şərq və qərb nöqtələrini müəyyənləşdirin.
- Xəritə üzrə öyrənilən ölkənin və ya yerin təbii şəraitini təsvir edin.
- Ərazinin təbii şəraitinə əsasən buranın yerli əhalisi üçün hansı fəaliyyət növü daha sərfəli olardı?
- Mühüm ticarət yollarının, hərbi yürüşlərin, dəniz ekspedisiyalarının və s. marşrutların hansı ölkələrdən keçdiyini xəritədə müəyyənləşdirin.
- Problemin həlli üçün xəritələrin müqayisəli təhlilindən istifadə edin.
- Müqayisədə öz mövqeyinizi xəritənin köməyi ilə əsaslandırın.
- Göstərilən ərazidə hansı müasir ölkələrin yerləşdiyini müəyyənləşdirin.

Bu prosesdə fəallıq növləri: qruplarda xəritə üzrə fikir mübadiləsi, xəritə haqqında rəy, kontur xəritələrlə iş, xəritənin yaradılması (əgər proqramda xəritə yoxdursa) və s. ibarətdir.

## "Zaman oxu" ilə iş

"Zaman oxu" ilə işin təşkili Azərbaycan tarixi fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli məsələlərdən biridir. Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan suallar verilir:

- "Zaman oxu"nda hansı tarixlər qeyd olunub?
- Nə üçün orada məhz bu tarixlər göstərilib?
- Bu tarixlərdən hansı ən ilkindir (sonuncudur)?
- Ən ilkin (son) tarixdən bu günə kimi neçə il keçib?
- "Zaman oxu"nda göstərilən iki hadisə arasında neçə il fərq var?
- "Zaman oxu"nda bir neçə hadisədən hansı ən tez (və ya gec) baş verib?

Dərslikdə yoxdursa, "Zaman oxu"nun ilk mənbələr, ədəbiyyat, xəritələr və digər sənədlərdən götürülmüş tarixlər hesabına tərtib edilməsi və onunla işin təşkili vacib məsələlərdən biridir.

## Debat müzakirə dərs modeli

Bu dərs modelində iki rəqib komanda iştirak edir. Dəqiq müəyyənləşdirilmiş, məsələn: "Azərbaycanın daha da çiçəklənməsi labüddür" və ya "Azərbaycan neftin çıxarılmasından hansı xeyiri görmüşdür? Gələcəkdə də yalnız xeyir görəcəkdir" tezislərindən birini təsdiq edən və inkar edən tərəflər iştirak edir.

Hər komandadan üç spiker çıxış edir: təsdiq edən tərəfdən T1, T2, T3 spikerlərin hər biri öz tezisinin müddəalarını müdafiə və təsdiq etməlidir. İnkar edən tərəfdən isə İ1, İ2, İ3 spikerləri həmin tezisi inkar etməlidir.

LAYİHƏ

## Debatda çıxışların ardıcıllığı və vaxt cədvəli:

| Spiker | Vaxt | Rol |
|---|---|---|
| T1 | 3 dəq | Tezisi izah edir, təsdiq edən tərəfin dəlillərini təqdim edir. |
| İ3-T1-ə | 2 dəq | İ3 dəlillərin əhəmiyyətini azaltmaq üçün T1-ə sual verir. T1 cavab verir. |
| İ1 | 3 dəq | Bütün mümkün dəlilləri irəli sürür. |
| T3-İ1-ə | 2 dəq | T3 İ1-ə onun dəlillərinin əhəmiyyətini azaldan suallar verir. İ1 cavab verir. |
| T2 | 2 dəq | İ1-in dəlillərini rədd edir, sübutlar gətirir, təsdiqedici xətti gücləndirir. |
| İ1-T2-yə | 2 dəq | İ1 T2-yə çarpaz suallar verir. T2 cavab verir. |
| İ2 | 2 dəq | T1 və T2-nin dəlillərini inkar edir, inkar edən xətti gücləndirir. |
| T1-İ2-yə | 2 dəq | T1 İ2-yə sual verir. İ2 cavab verir. |
| T3 | 3 dəq | Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edərək təsdiqedici xəttin sübutlarını gücləndirir. |
| İ3 | 3 dəq | Rəqiblərinə son cavabını təqdim edir: onların dəlillərini inkar edərək təsdiqedici xəttin sübutlarını gücləndirir. |

Debatlarda şagirdlərdən bir nəfər taym-kiper (vaxtölçən) rolunu ifa edir. O, vaxta nəzarət edir və vaxtın sonuna yarım dəqiqə qalmış üstündə “30 saniyə” yazılmış vərəqəni və ya lövhəni yuxarı qaldırır. Sinfin qalan şagirdləri debatın gedişini müşahidə edir və tərəflərin dəlillərini aşağıdakı cədvəldə qeyd edirlər:

| Təsdiqedici tərəfin dəlilləri | İnkaredici tərəfin dəlilləri |
|---|---|
| | |

Debatların sonunda dəlillərin inandırıcılığı, spikerlərin mübahisə aparmaq qabiliyyətləri müzakirə olunur və nəticədə tərəflərdən birinə qələbə verilir. Debat formasında dərs üçün münsiflər heyətinin əvvəlcədən seçilməsi məqsədəuyğundur. Münsiflər heyəti komandaların iştirakçılarını qiymətləndirir və debatların nəticələrini yekunlaşdırır.

LAYİHƏ

## İNSERT

Bu üsuldan dərsin dərketmə mərhələsində istifadə olunur. O, oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan yaradır. Bu üsul iki mərhələdə həyata keçirilir. Birinci, üzərində əməliyyat aparılacaq mətn, istifadə olunacaq zəruri işarələr (bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən edilir. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər. Məsələn:

Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama işarəsi **(V)** qoyun.

Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi rədd edirsə, yaxud ona ziddirsə, mənfi işarəsi **(–)** qoyun.

Müsbət işarəsi **(+)** o zaman qoyulur ki, rast gəldiyiniz məlumat sizin üçün təzə olsun.

## İllüstrasiyalarla iş

İllüstrasiyalar dərslik və ya dərs prosesi üçün yaraşıq deyil, həm də şagirdlərin əlavə məlumat mənbəyi olmalıdır. Buna görə də illüstrasiyalarla iş üçün suallar və tapşırıqlar təklif edilməlidir.

## Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:

İllüstrasiyanın təsviri və ondan məlumatın alınması

- İllüstrasiyaya əsasən tarixi dövrü və məkanı (hadisə yerini) müəyyən edin.
- Göstərilmiş tarixi hadisələri və onların iştirakçılarını, şəraiti, mühiti təsvir edin.
- İllüstrasiyada əksolunan tarixi dövrün tipik nümayəndələrini müəyyənləşdirin (geyim, davranış xüsusiyyətləri).
- Süjet və detallara görə əsər müəllifinin əsas fikrini aydınlaşdırın.
- İllüstrasiya materiallarının növünü və müəllifinin əsas ideyasına müvafiqliyini müəyyən edin.
- Şəkilaltı mətni (əgər varsa) illüstrasiyanın məzmunu ilə tutuşdurun.
- İllüstrasiya üzrə hekayə hazırlayın.

**İllüstrasiyalarla iş zamanı şagirdlərin fəallıq növləri:**

- İllüstrasiya üzrə ümumi söhbət;
- İllüstrasiyaya imza toplamaq;
- “Bərpaçının” vərəqəsinin tərtib olunması;
- Cütlərdə “rəssamla” müsahibə;
- Cütlərdə sualların qoyuluşu. İllüstrasiyaların dərk olunması və tətbiqi.

**Müxtəlif mürəkkəblik səviyyəsi olan sual və tapşırıqlar:**

- Sizcə, illüstrasiya naturadan çəkilib, yoxsa sonradan yaradılıb?
- Əgər o, sonradan yaradılıbsa, mənbəyi nə olub?
- İki və daha artıq eyniplanlı illüstrasiyaları müqayisə edin.
- Müxtəlif tip illüstrasiyalarda hadisələrin obrazlı əksini bir-biri ilə tutuşdurun.
- Müxtəlif illüstrasiyalarda məzmunu və dəyərləndirici əlaqələri təyin edin.
- İllüstrasiyanın dəyərlər sistemini və subyektivlik səviyyəsini müəyyənləşdirin.
- Müxtəlif planlı illüstrativ materialları qiymətləndirin və nəticə çıxarın.
- Problemin həlli üçün illüstrasiya və mənbələrin müqayisəli təhlilindən yararlanın.
- Öz mövqeyinizi illüstrasiyanın köməyi ilə əsaslandırın.

**Fəallıq növləri:**

- Qruplarda illüstrasiyalar üzrə fikir mübadiləsi aparmaq;
- Cütlüklərlə mübahisə etmək;
- Şəklin yaranması haqqında hekayə tərtib etmək;
- İllüstrasiyalar haqqında rəy yazmaq.

**Təqdimatlar.** Təqdimat Azərbaycan tarixi fənni üçün çox əlverişli metoddur. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və s.) və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın həm fərdi, həm də qrup şəklində olması mümkündür. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul şagird özünüqiymətləndirməsində də səmərəlidir. Nəzərə almaq lazımdır ki, bu iş

LAYİHƏ

daha çox əmək tələb etdiyindən ona verilən vaxt da adekvat olmalıdır. Buna görə də təqdimatların hazırlanması həftədə iki saatlıq Azərbaycan tarixi fənni üçün ən münasib üsullardan biri hesab oluna bilər.

Müasir interaktiv dərslərdə aşağıda verilən tələblər əsas götürülür:

- Diqqət, ilk növbədə, şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir;
- Müəllim, ilk növbədə, təlim – idrak fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir;
- Müəllim və şagird arasında əməkdaşlıq məktəblilərin kompetensiyalarının artırılmasına yönəldilir;
- Təlim məsələlərinin həlli prosesində bilik və bacarıqların tətbiqi dərsin bütün mərhələlərində (yeni materialın mənimsənilməsi, möhkəmləndirilməsi və bilik, bacarıq səviyyəsinin yoxlanılması) əsas yer tutur. Nəticədə dərsin müxtəlif mərhələ və funksiyalarının birləşməsi, təlim prosesinin fəallaşmasına yönəlmiş sintezi baş verir;
- Təlim prosesində şagirdlər arasında ünsiyyət qurulur, cüt, qrup və kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir;
- Təhsilin məzmunu ilə yanaşı, şagirdlərin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır;
- Dərs tarixi yerlərə ekskursiyalar, tarixi abidələrə, muzey və sərgilərə baxış kimi təlim formaları ilə sıx əlaqəlidir;
- Ənənəvi olaraq digər formaların əlamətləri dərs sayılan və ona qarşı qoyulan bəzi elementləri (məsələn, seminar-dərs, oyun-dərs, yarış-dərs, konfrans-dərs və s.) assimilyasiya edir;
- Müəllimin funksiyalarının bir hissəsinin şagirdlərə verilməsi səciyyəvidir: bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi (qarşılıqlı və özünüqiymətləndirmə), işin planlaşdırılması, tədqiqat və özünüqiymətləndirmə elementləri;
- Təhsil islahatı proqramında təlimverici, tərbiyələndirici və inkişafetdirici təlim metodlarının geniş tətbiqinə diqqət edilməsi tövsiyə olunur;

Fəal təlim zamanı şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar. Onlar əldə etdikləri bilikləri fəal axtarış və kəşflər zamanı mənimsəyirlər. Müəllim bu zaman şagird tərəfindən biliklərin əldə edilməsi yolunda bələdçi rolunu yerinə yetirir, şagirdlər isə tədqiqatçı olurlar.

**Fəal təlim metodlarına aşağıdakı xüsusiyyətlər aiddir:**

- Şagirdlərin fəal öyrənmə mövqeyi;
- Təfəkkürün müstəqilliyi və sərbəstliyi;
- Əməkdaşlıq və qrupda qarşılıqlı fəaliyyət;
- Həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqi və s.

Şagirdlərdə tənqidi təfəkkürü formalaşdırmaqla onlara hadisələrə münasibət bildirmək, məlumatı qiymətləndirmək qabiliyyəti aşılamaq əsas məqsədlərdən biridir. Bu zaman şagirdlər verilən məlumatı təhlil edərək və ya şəxsiyyətin müsbət və mənfi cəhətlərini göstərərək baş vermiş prosesi qiymətləndirmək qabiliyyətinə yiyələnirlər.

Didaktik təfəkkür vasitəsilə şagirdlərin hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görməsi, onların inkişaf istiqamətlərini aşkar etməsi nəzərdə tutulur.

Verilən sual və tapşırıqların köməyi ilə şagirdlərdə məntiqi təfəkkür – müqayisə, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə bacarıqları formalaşır.

LAYİHƏ

### Referatların hazırlanması

11-ci sinif tarix fənninin məzmununu təşkil edən standartların bir neçəsi referatların hazırlanmasını nəzərdə tutur. Bəs referat nədir və onun hazırlanmasına verilən tələblər hansılardır?

Referat intellektual yaradıcılıq prosesi olub müxtəlif mənbələr və orijinal müəllif nəticələri əsasında tərtib edilən, elmi-təcrübi ədəbiyyatın dərindən öyrənilməsi prosesini əhatə edən müstəqil işdir. Referatın yazılışı şagirdlərdə bir sıra səriştə və bacarıqların formalaşmasına imkan yaradır:

- Düzgün plan qurmaq;
- Dövri nəşrlərlə müstəqil işləmək;
- Konkret materialın müstəqil seçimini, sistemləşdirilməsini və təhlilini aparmaq;
- Təyin edilmiş mövzu üzrə uyğun gələn nəticə və təklifləri formalaşdırmaq;
- Fikirləri anlaşılan və sadə yazılış formasında ifadə etmək;
- Hazırlanmış materialı sistemli təqdim etmək.

### Referatların tərtibatı zamanı aşağıdakı struktur ardıcıllığı gözlənilməlidir:

- Titul vərəqi
- Mündəricat (plan)
- Giriş
- Fəsillər
- Paraqraflar, yarımbaşlıqlar və bəndlər
- Nəticələr
- Əlavələr
- Ədəbiyyat siyahısı (biblioqrafiya)

### "Cavab əldə elə" metodu

Bu zaman şagird ayrı-ayrı mənbədən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaq. Şagirdlər onlara verilən məhdud vaxt ərzində aldıqları tapşırıqların cavablarını ya internet, ya da onlara verilmiş paylama materialı (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Bu zaman tapşırığı elə qoymaq lazımdır ki, o, tədqiqatçılığa söykənmiş olsun. Sanki bir yarışmanı xatırladan bu dərsin sonunda tapşırığa daha tez və dəqiq cavab verən qrup qalib gəlir. Dərsdə şagirdlərə internetdən istifadə etmək imkanı da vermək olar.

### "Üç cümlə" üsulu

Şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə həll etmək tövsiyə olunur. Kim hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür.

### Restavrasiya üsulu

Bu üsul şagirdlərdə mətnlə işləməklə yanaşı, konspekt yazmaq və ondan istifadə etmək bacarığını da formalaşdırır. Bunun üçün onlara xüsusi şəkildə işarələnmiş, şərti işarələri olmayan, ixtisar edilmiş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib genişləndirməlidirlər.

LAYİHƏ

## ALQORİTM metodu

1. Müəllim tərəfindən hadisə seçilir.
2. Müəllim nəzərdən keçirilən problemə dair situativ praktikum hazırlayır. O, müzakirə üçün hər bir problemli vəziyyətə dair məqsədyönlü sualları öncədən düşünür və planlaşdırır.
3. Vəziyyətlərdən hər biri ayrıca kartda yazılır.
4. Şagirdlər 4-5 nəfərdən ibarət qruplara bölünürlər. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir.
5. Şagirdlər hadisəni tədqiq edir və öz münasibətini bildirirlər. Onlara kömək etmək üçün aşağıdakı suallar verilir:
   - Nə baş verdi?
   - Kim iştirak edirdi?
   - Mühüm elementlər hansılar idi?
   - Faktlarda çatışmayan bir şey varmı?
   - Nə üçün maraqlı tərəflər bu cür hərəkət edirlər?

6. Bu mərhələdə iştirakçılar öz şəxsi və subyektiv qavrayışlarına əsasən həll yollarını ifadə edirlər. Şagirdlərdən ilk təəssüratlarını söyləmələrini xahiş edin. Hər dinləyici hadisənin həlli yollarını göstərir. Bu həll yollarına hadisənin bütün elementləri daxil olmur. Bu səbəbdən də fikirlər müxtəlif və bir-birinə zidd alına bilər.

7. Müəllim konkret hadisəyə yenidən qayıdır, problemlə bağlı bütün məlumatları nəzərdən keçirir, ümumiləşdirir, qaydaya salır və sistemləşdirir. Hadisənin həlli yolunda meydana çıxan lehinə/əleyhinə arqumentlərə münasibəti təhlil edir. Müəllim belə suallar verə bilər:
   - Lehinə və əleyhinə olan cəhətlər hansılardır?
   - Siz hansı arqumentləri dəstəkləyirsiniz?
   - Digərinin nəticəsi nə ola bilər?
   - Alternativlər hansılardır?

Sonra o, şagirdlərin öz arqumentlərini gətirərək konkret hadisəyə istinad edir.

8. Şagirdlər konkret hadisə ilə bağlı son qərarı verməlidirlər. Əgər onların qərarı rəsmi həll ilə üst-üstə düşmürsə, eybi yoxdur.

9. Qruplar öz işlərini bitirdikdən sonra auditoriyada ümumi müzakirə başlanır. Bu mərhələdə müzakirələr aşağıdakı istiqamətlərə yönəldilməlidir:
   - Konkret hadisənin şəraiti və məzmunu ilə bağlı “arxaya baxmaq”;
   - Ümumiləşdirilə biləcək əməliyyat prinsipləri üçün “aşağı baxmaq”;
   - Başqa oxşar situasiyalar üçün “ətrafa baxmaq”;
   - Bu cür hadisələri səmərəli şəkildə həll etmək istəyiriksə, öz şəxsi münasibətimizi dəyişmək üçün “irəli baxmaq”.

10. Sonda şagirdlər hadisənin həlli üçün son qərar verir, başqa situasiyalarla bağlı da yararlı olan nəticələr çıxarırlar.

LAYİHƏ

## Şərtlər:

**İş forması:** bütün sinif ilə iş;
**Sinfin bilik səviyyəsi** (hadisə haqqında məlumat)
**Vaxt:** 40 dəqiqə
**Dərsin mərhələsi:** tədqiqat, nəticənin çıxarılması (bütün mərhələlərdə)
Konkret hadisə meyarlara əsasən seçilir. Heç də bütün situasiyalar konkret hadisə olmur.
Konkret hadisə olması üçün situasiyanın aşağıdakı xüsusiyyətləri olmalıdır:

- Gerçək olmalıdır;
- Dərhal müdaxilə tələb etməlidir. Maraq doğura biləcək problemi vurğulamalıdır;
- Qrupların maraqları ilə əlaqəli olmalıdır ki, hadisəni həll etməyə çalışan iştirakçılar lazımi informasiyaya malik olsunlar və həlli yollarını tapsınlar;
- Tam olmalıdır. Onun təqdimatında həlli üçün tələb edilən bütün detallar əks olunmalıdır.

**Vasitələr:**

Lövhə, iş vərəqləri, kağız, marker, video, televizor (motivasiya mərhələsi üçün).

**Yarana biləcək problemlər:**

- Hamının iştirak etməməsi;
- Arqumentlərin inandırıcı olmaması;
- Arqumentlərin qanunla əsaslanmaması;
- Düzgün nəticə çıxarılmaması.

**"Beynəlxalq kafe" (World Cafe) metodu**

Bu metod "çay evini" xatırladan rahat yaradıcı şəraitdə təşkil olunur, bilik və ideya mübadiləsi yeni fikirlərin formalaşmasına təkan verir. Adətən, bu metod hər biri 20-30 dəqiqə davam edən 3 ardıcıl raunddan ibarətdir. Hər masa ətrafında 4-6 iştirakçı əyləşir və qabaqcadan müəyyən olunmuş sual üzərində müzakirələr aparır. Belə kiçik qruplarda müzakirələr effektiv olur, nəticələr isə sənədləşdirilir. 1-ci raunddan sonra hər masanın iştirakçıları (komanda liderindən başqa) digər masalara yaxınlaşır və fikirlərini bölüşürlər. Komanda liderləri isə əsas fikirləri cəmləyib yeni daxil olmuş iştirakçıların nəzərinə çatdırırlar. Bir neçə raunddan sonra nəticələr toplanılır, bütün qrupa təqdim edilir və plenar sessiya zamanı müzakirə olunur. "World café" metodu müəyyən sayda qruplarla effektiv işləyir, buraya, ən azı, 15 nəfərə yaxın iştirakçı cəlb olunur. Bu metod araşdırma tələb edir. Əgər qoyulmuş məsələnin həlli qabaqcadan bəlli olarsa, onda bu metoda müraciət edilmir. "World café" metodu icra tələb edən detallı planlaşdırma zamanı da tətbiq edilmir.

**"Dəyirmi masa" metodu**

Bu metodun məqsədi:

- Şagirdlərə qarşılıqlı bərabər şərait yaratmaqla təqdim edilən məsələlərin (mövzunun) sərbəst, heç bir reqlament qoyulmadan müzakirəsinin təmin olunması;
- Problemin müxtəlif aspektlərini görmək şərtilə məsələlərin sistemli, problemli müzakirəsi.

**"Dəyirmi masa"nın atributları aşağıdakılardır:**

- Onun keçirilməsi üçün sinfin hazırlanması: iş yerləri elə simmetrik qurulmalıdır ki, dinləyicilər bir-birilərini görmüş olsunlar;
- "Sərbəst mikrofon" prinsipinin praktik tətbiqi;
- "Dəyirmi masa" iştirakçılarının cavab verməsi üçün suallar fondunun yaradılması;
- Daxil olan informasiyanın qəbulu və emalı üçün texniki vasitələrin mövcudluğu (zərurət yarandığı təqdirdə).

LAYİHƏ

**“Dəyirmi masa”nın keçirilməsi mərhələlərinin variantları:**

## Variant “A”

1. Müəllimin qısa giriş sözü.
2. “Dəyirmi masa” iştirakçılarının qısa giriş məlumatlarının dinlənilməsi.
3. Auditoriyalardan daxil olan sualların “dəyirmi masa” iştirakçılarına çatdırılması.
4. Diskussiyanın yaradılması.
5. Müzakirə predmeti üzrə mövqelərin razılaşdırılması.

## Variant “B”

1. Tematikanın və iş qaydasının razılaşdırılması məqsədilə auditoriyada iştirakçılar arasında sorğunun keçirilməsi.
2. İşin qaydasının və xarakterinin dəqiqləşdirilməsi.
3. Qoyulan məsələlər üzrə sorğuların cavablandırılması.
4. Sinifdə çıxış edənlərin fikirlərinin dinlənilməsi.
5. Diskussiya zamanı problemin düzgün həllinin tapılması.

## Variant “C”

1. Problemin göstərilməsi, təqdim edilməsi (İKT vasitəsilə).
2. “Dəyirmi masa” iştirakçılarının təqdim olunması, problemə münasibətinin dinlənilməsi.
3. Sinfin mövqeyinin öyrənilməsi üçün “sərbəst mikrofon”un verilməsi (işə salınması).
4. Müzakirə.
5. “Təmas nöqtəsi”nin tapılması və mövqelərin razılaşdırılması.

Bu metod ilə məşğələnin keçirilməsi üçün “dəyirmi masa” iştirakçılarına problemli məsələlərin həlli qaydalarını izah etmək lazımdır. Sonda “dəyirmi masa”nın işi üzrə yekunlaşma aparılır, onun iştirakçılarına arzular bildirilir.

LAYİHƏ

## FƏAL DƏRSİN QURULUŞU. PLANLAŞDIRMA

Planlaşdırmanın iki növü var: gündəlik və perspektiv. Müasir təhsil islahatının tələblərinə uyğun olaraq, gündəlik və perspektiv planlaşdırma öz mahiyyətini əvvəlki formasından xeyli dəyişmiş olan interaktivliyə verir və nəticəyönümlülüyə şərait yaradan şəkildə tərtib edilir.

Fəal interaktiv təlimdə gündəlik dərsin mərhələləri aşağıdakı kimidir:

### Dərsin birinci mərhələsi: motivasiya, problemin qoyulması

Motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Fəal dərs də təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığını artıran motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli kimi çıxış edir.

### Dərsin ikinci mərhələsi: tədqiqatın aparılması

Bu mərhələdə problemin həlli üçün irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edəcək, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq zərurəti ortaya çıxır. Bunun üçün də tədqiqat müxtəlif iş formalarında aparıla bilər.

### Dərsin üçüncü mərhələsi: məlumatın mübadiləsi

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat, bir növ, yeni biliklərin dairəsini cızır. Hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Məhz bu mərhələdə yeni bir tələbat – onları qaydaya salmaq, sistemləşdirmək, müəyyən nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

### Dərsin dördüncü mərhələsi: məlumatın müzakirəsi və təşkili

Bu ən mürəkkəb mərhələdir və bütün zehni vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Müəllim fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə olunmuş faktların məqsədyönlü müzakirəsinə və təşkilinə kömək edir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və sistemləşdirilməsinə yönəldilir.

### Dərsin beşinci mərhələsi: ümumiləşdirmə və nəticə

Şagird nəinki təkcə əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə (onların arasında düzgün olanı varmı?) tutuşdurmalıdır. Bu, çox mühüm məqamdır. Dərsin kulminasiyasını isə, bilgiləri özləri kəşf etdikləri üçün, şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

### Dərsin altıncı mərhələsi: yaradıcı tətbiqetmə

Məlum olduğu kimi, biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, uşağa onun praktiki əhəmiyyətini göstərir. Buna görə də müəllim imkan daxilində şagirdlərə təklif edə bilər ki, onlar müəyyən məsələlərin həlli, yaxud hansısa yeni suallara cavab tapmaq üçün qazanılmış bilikləri tətbiq etməyə çalışsınlar. Əgər yaradıcı tətbiqetməni dərhal həyata keçirmək mümkün

LAYİHƏ

deyilsə və əvvəlcə biliklərin mənimsənilməsi yolunu sona qədər keçmək tələb olunursa, buna əməl etmək lazımdır. Lakin son nəticədə yaxşı olar ki, şagirdlərə kəşf etdikləri biliklərin yaradıcı surətdə tətbiqinə dair çalışma verilsin. Bu halda həmin bilgi həmişəlik onların şüuruna həkk olunacaq. Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərs saatı ilə məhdudlaşdırılmaya da bilər, yəni onun realizəsi sonrakı dərslərdə də mümkündür.

## Dərsin yeddinci mərhələsi: qiymətləndirmə

Yuxarıda göstərildiyi kimi, fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təhsil (öyrətməyi öyrənmək), müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır.

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və məziyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir.

Buna görə də dərs başa çatdıqdan sonra göstərilmiş prosedurlardan birini – qiymətləndirmək və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək mümkündür. Bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formalarda reallaşdırılır. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin şagirdlərə onları yeni biliklərin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin alqoritmini izləməyə kömək edə biləcək bir neçə sual verməsi kifayətdir (məsələn: “Biz nəticəyə necə gəlib çıxdıq?”, “Biz nə edirdik?”, “Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi?” və s.)

Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini və ünsürlərini dərk etmiş olacaq.

LAYİHƏ

## PERSPEKTİV (İLLİK) PLANLAŞDIRMA

Perspektiv planlaşdırma hazırlanarkən **tədris vahidi və mövzular üzrə dəqiqləşmələr** aparılmalı, standartların reallaşdırılması üçün **lazımi imkanlar müəyyən edilməlidir.** Tədris vahidlərinin və mövzuların ardıcıllığı müəyyənləşdirilərkən sadədən mürəkkəbə gedişə, məntiqi və xronoloji ardıcıllığa diqqət yetirilməlidir. Bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə, asandan çətinə doğru getməkdir.

**İnteqrasiya imkanları müəyyən edilməli** və planlaşmada qeyd olunmalıdır. MV-də sizlərə təqdim edilmiş illik planlaşdırma cədvəlində məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir.

**Əlavə resursların seçilməsi** mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra edilməlidir. Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühüm bacarıqlardan biridir. Tədris planına əsasən, 11-ci sinifdə Azərbaycan tarixi fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib olan şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz.

**Qeyd:** Məlum olduğu kimi, 11-ci sinif Azərbaycan tarixinin tədrisinə il ərzində **68 saat** ayrılmışdır. Sizə təqdim etdiyimiz dərslikdə isə **42 paraqraf** verilmişdir. Bu paraqraflardan bəziləri geniş və çoxşaxəli olduğundan onların tədrisinə 2 saat vaxt ayrılmışdır. Eləcə də bəzi bölmələrin sonunda Azərbaycan tarixinin mühüm əhəmiyyət daşıyan dövrləri ilə bağlı ümumiləşdirici dərslərin salınması nəzərdə tutulmuşdur. 11-ci sinif Azərbaycan tarixi fənn kurikulumunun alt standartlarına diqqət yetirəndə isə şahidi oluruq ki;

- 1.1.1., 2.1.2. standartları şagirdlərdə təqdimatlar hazırlamaq;
- 1.1.2., 1.2.1., 1.2.2., 3.1.3. standartları mənbələrlə işləmək;
- 4.1.2. standartı layihələr hazırlamaq;
- 3.1.3., 5.1.3. standartları araşdırmalar aparmaq bacarığının inkişaf etdirilməsini tələb edir.

Bu deyilənləri də nəzərə alsaq, tövsiyə edərdik ki, 2 saata keçməyi məsləhət gördüyümüz mövzuların və ya ümumiləşdirici dərslərin tədrisi zamanı yuxarıda sadaladığımız standartların reallaşdırılmasına önəm verəsiniz. Bu zaman dərslikdəki mövzuların içində verilmiş mənbə parçalarından, eləcə də vacib saydığınız qəzet, jurnal, elmi əsər, çap olunmuş mənbələrdən etdiyiniz çıxarışlardan, müxtəlif internet resurslarından istifadə edə bilərsiniz.

LAYİHƏ

| Sıra | Tədris vahidi | Standart | Mövzu | İnteqrasiya | Saat |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan XIX əsr – XX əsrin əvvəllərində | 2.1.2., 3.1.2. | Azərbaycan torpaqlarının işğalının başlanması | Ümumi tarix – 2.1.2, Coğrafiya – 3.2.4 | 1 |
| 2. | | 1.2.1., 2.1.1., 3.1.1. | Cənubi Qafqaz uğrunda Rusiya–Qacarlar müharibələri | Azərbaycan dili – 1.2.4., Ümumi tarix – 1.1.2 | 3 |
| 3. | | 1.2.1., 2.1.2., 3.1.1. | Müstəmləkə idarə üsulu və onun sosial-iqtisadi, siyasi həyata təsiri | Ümumi tarix – 3.1.1., 1.1.2. Coğrafiya – 3.2.1. | 2 |
| 4 | | 1.1.1., 2.1.1. | XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda keçirilən islahatlar | Ümumi tarix – 2.1.1. Coğrafiya – 3.2.3. | 1 |
| | | **Azərbaycan XIX əsrin I yarısında (ümumiləşdirici dərs)** | | | **1** |
| | | **Kiçik summativ qiymətləndirmə** | | | **1** |
| 5. | | 1.1.1., 1.3.1. | Kapitalizmin inkişafı, yeni sosial münasibətlərin meydana gəlməsi | Ümumi tarix – 1.1.2., 1.3.1., 2.1.1. | 2 |
| 6. | | 1.1.1., 1.1.2., 1.3.1. | Şimali Azərbaycanda iqtisadi inkişaf | Ümumi tarix – 1.1.3., 1.3.1., 2.1.1. | 2 |
| 7. | Azərbaycan XIX əsr – XX əsrin əvvəllərində | 1.1.2., 1.3.1., 1.2.2. | Müstəmləkəçilik əleyhinə çıxışlar. Milli demokratik hərəkat | İnformatika – 3.3.2. Ədəbiyyat – 1.1.4. | 1 |
| 8. | | 1.1.1., 1.2.2. | Çarizmin milli qırğın siyasəti | Ədəbiyyat – 1.1.4. Ümumi tarix – 1.1.2. | 1 |
| 9. | | 2.1.1., 2.1.2. | Şimali Azərbaycan Birinci Dünya müharibəsi illərində | Ümumi tarix – 2.1.1. Coğrafiya – 3.2.3 | 1 |
| 10. | | 1.2.2., 3.1.1. | Cənubi Azərbaycan XIX əsrdə | İnformatika – 3.3.2. Ədəbiyyat – 1.1.4. | 1 |
| 11. | | 1.2.1., 3.1.2. | Cənubi Azərbaycan XX əsrin əvvəllərində. Məşrutə hərəkatı | Ümumi tarix – 3.1.2. Azərbaycan dili – 1.1.1. | 1 |
| 12. | | 5.1.1., 5.1.2., 5.1.3. | Azərbaycanda mədəniyyət XIX əsr – XX əsrin əvvəllərində | Ümumi tarix – 5.1.3. Ədəbiyyat – 3.1.2. | 2 |

LAYİHƏ

| | | | | | |
|---|---|---|---|---|---|
| | Azərbaycan 1917–1920-ci illərdə | **Şimali Azərbaycan XIX əsrdə (ümumiləşdirici dərs)** | | | 1 |
| | | **Kiçik summativ qiymətləndirmə** | | | 1 |
| 13. | | 1.2.2., 2.1.2. | Rusiya imperiyasının dərin siyasi böhranı dövründə Şimali Azərbaycan | Ümumi tarix – 2.1.2. Coğrafiya – 3.2.4. | 1 |
| 14. | | 1.1.2., 3.1.3. | Baki Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasəti | Ümumi tarix – 3.1.3. İnformatika – 4.1.2. | 1 |
| 15. | | 3.1.1., 4.1.1. | Şimali Azərbaycan milli dövlətçiliyin bərpası və möhkəmləndirilməsi yolunda | Ümumi tarix – 2.1.1. Coğrafiya – 3.2.3. | 2 |
| 16. | | 1.2.2., 3.1.1. | Azərbaycan Xalq Cümhuriyyəti-nin daxili siyasəti | Ümumi tarix – 3.1.1. Coğrafiya – 3.2.1. | 2 |
| 17. | | 2.1.1., 3.1.3., 4.1.1. | Azərbaycan Xalq Cümhuriyyəti-nin xarici siyasəti | Ümumi tarix – 4.1.1. Coğrafiya – 3.2.3. | 2 |
| 18. | | 1.2.1., 3.1.3. | Azərbaycan Xalq Cümhuriyyəti-nin süqutu | Ümumi tarix – 3.1.3. | 1 |
| 19. | | 3.1.3., 4.1.1. | Cənubi Azərbaycan 1917–1920-ci illərdə | Ümumi tarix – 4.1.1. Azərbaycan dili – 1.2.4. | 2 |

LAYİHƏ

| | | | | | |
|---|---|---|---|---|---|
| | | **Kiçik summativ qiymətləndirmə** | | | **1** |
| | | **Azərbaycan Xalq Cümhuriyyəti (ümumiləşdirici dərs)** | | | **1** |
| | | **Böyük summativ qiymətləndirmə** | | | **1** |
| 20. | Azərbaycan XX əsrin 20–80-ci illərində | 1.2.1., 3.1.1., 4.1.2. | Bolşevik istilası və onun nəticələri | Ümumi tarix – 4.1.2. Azərbaycan dili – 3.1.2. Ədəbiyyat – 3.1.2. | 1 |
| 21. | | 1.1.1., 3.1.2. | “Müstəqil Sovet Azərbaycanı” şüarının iflası. Ərazi bütövlüyümüzün pozulması | Ümumi tarix – 3.1.2. Azərbaycan dili – 1.1.1. | 1 |
| 22. | | 1.3.1., 2.1.1., 5.1.2. | Bolşevikyönümlü sosial-iqtisadi və mədəni islahatlar | Ümumi tarix – 2.1.1., 5.1.2. Azərbaycan dili – 2.2.3. | 2 |
| 23. | | 1.1.1., 1.1.2. | Sovet totalitar rejiminin təşəkkülü. Kütləvi repressiyalar | Ümumi tarix – 1.1.2., 1.1.3. | 1 |
| 24. | | 1.1.2., 1.2.2., 2.1.2. | Azərbaycan İkinci Dünya müharibəsi illərində | Ədəbiyyat – 1.1.4. Ümumi tarix – 2.1.2. Coğrafiya – 3.2.4. | 2 |
| 25. | | 3.1.2., 3.1.3. | Cənubi Azərbaycan 1920–1940-cı illərdə. 21 Azər hərəkatı | Ümumi tarix – 3.1.2. Azərbaycan dili – 1.1.1. | 1 |
| | | **Kiçik summativ qiymətləndirmə** | | | 1 |
| 26. | | 1.1.1., 1.1.2. | Azərbaycan SSR XX əsrin 40-cı illərin ortalar 60-cı illərdə | Ümumi tarix – 1.1.3. | 1 |
| 27. | | 1.2.2., 3.1.3., 4.1.1. | İdarəçiliyin möhkəmləndirilməsi. 70–80-ci illərdə sosial-iqtisadi uğurlar | Ümumi tarix – 3.1.3. 4.1.1. İnformatika – 4.1.2. Azərbaycan dili – 1.2.4. | 1 |
| 28. | | 1.1.2., 1.3.1., 3.1.3. | “Yenidənqurma” və “aşkarlıq” siyasətinin iflasa uğraması. Qarabağ münaqişəsinin başlanması | İnformatika – 3.3.2. Ədəbiyyat – 1.1.4. | 1 |
| 29. | | 1.3.1., 4.1.1. | Xalq hərəkatı | Ümumi tarix – 2.1.1. | 1 |
| 30. | | 1.3.1., 2.1.1., 4.1.2. | Cənubi Azərbaycan İslam İnqilabı və sonrakı dövrdə | Coğrafiya – 3.2.3. Ümumi tarix – 4.1.2. | 1 |
| 31. | | 5.1.1., 5.1.2., 5.1.3. | XX əsrin II yarısında mədəniyyət | Ümumi tarix – 5.1.1 Azərbaycan dili – 3.1.2. Ədəbiyyat – 3.1.2. | 2 |

LAYİHƏ

| | | | | | |
|---|---|---|---|---|---|
| | | **Kiçik summativ qiymətləndirmə** | | | **1** |
| 32. | Azərbaycan Respublikası | 1.1.2.,<br>3.1.1.,<br>4.1.1. | Dövlət müstəqilliyinin bərpası | Ümumi tarix – 1.1.3. | 1 |
| 33. | | 1.1.1.,<br>3.1.2. | Birinci Qarabağ müharibəsi | Ümumi tarix – 3.1.2.<br>Azərbaycan dili – 1.1.1. | 1 |
| 34. | | 1.2.1.,<br>2.1.1.,<br>3.1.2. | Xocalı soyqırımı | Ümumi tarix – 3.1.1.<br>Coğrafiya – 3.2.1 | 1 |
| 35. | | 1.1.2.,<br>3.1.3.,<br>4.1.1. | Müstəqilliyin ilk addımları – hakimiyyət uğrunda çəkişmələr | Ümumi tarix – 4.1.1.<br>Azərbaycan dili – 1.2.4. | 1 |
| 36. | | 3.1.3.,<br>4.1.2. | Milli Qurtuluş | Ümumi tarix – 4.1.2,<br>Ədəbiyyat – 3.1.2. | 1 |
| 37. | | 1.1.2.,<br>1.2.1.,<br>3.1.2. | Hüquqi islahatlar və demokratik dövlət quruculuğu | Ümumi tarix – 3.1.2.<br>Azərbaycan dili – 1.1.1. | 1 |
| 38. | | 2.1.2.,<br>3.1.2.,<br>4.1.1. | XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatlar | Ümumi tarix – 4.1.1. | 1 |
| 39. | | 2.1.1.,<br>3.1.3. | Azərbaycan Respublikasının xarici siyasəti | Ümumi tarix – 3.1.3. | 1 |
| 40. | | 3.1.3.,<br>4.1.1. | Yeni minilliyə yeni liderlə | Ümumi tarix – 4.1.1.<br>Azərbaycan dili – 1.2.4. | 1 |
| 41. | | 1.2.1.,<br>1.2.2.,<br>3.1.3. | Qarabağ münaqişəsi müasir mərhələdə. Qətiyyətin nümayişi | Ədəbiyyat – 1.1.4. | 1 |
| 42. | | 5.1.1.,<br>5.1.2.,<br>5.1.3. | Mədəniyyət | Ümumi tarix – 5.1.3.<br>Ədəbiyyat – 3.1.2. | 1 |
| **Kiçik summativ qiymətləndirmə** | | | | | **1** |
| **Azərbaycan Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə (ümumiləşdirici dərs)** | | | | | **2** |
| **Böyük summativ qiymətləndirmə** | | | | | **1** |
| **Cəmi** | | | | | **68** |

LAYİHƏ

## DƏRSLƏRİN İCMALI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Hörmətli müəllimlər, sizə təqdim edilmiş mövzuların icmalı tövsiyə xarakterlidir. 11-ci sinif Azərbaycan tarixi fənn kurikulumunun standartlarına uyğun olaraq öz məqsədlərinizi mövzular vasitəsilə reallaşdıra bilərsiniz. Bu zaman forma və üsulların seçilməsində, eləcə də inteqrasiya imkanlarının reallaşdırılmasında sərbəstsiniz.

Bütün gündəlik dərslərin vaxt bölgüsü və planlaşdırılması da sizdən asılıdır. Tələblərə uyğun olaraq gündəlik planlaşdırmanın aparılması və qiymətləndirmənin həyata keçirilməsi şagirdlərin xüsusiyyətinə və sizin metodunuza uyğunlaşmış şəkildə reallaşdırılarsa, daha səmərəli nəticə əldə oluna bilər. Təqdim edilmiş icmalların sonunda qiymətləndirmə səviyyələrinin verilməsini məqsədəuyğun hesab etsək də, bu, bir tövsiyədir. Çünki sizə hazır şəkildə təqdim edilmiş səviyyələr sinfinizdə keyfiyyətin düşməsinə səbəb ola bilər. Səviyyələri öz sinfinizin şagirdlərinin bacarıqlarına uyğun müəyyən etməklə formativ qiymətləndirməni həyata keçirin.

Hörmətli müəllimlər, kitabın fəal dərsin quruluşu hissəsində fəal təlimdə gündəlik planlaşdırma zamanı dərsin yeddi mərhələsini ardıcıllıqla versək də, mövzuların icmalı zamanı bu ardıcıllığa, demək olar ki, riayət etməmiş və çox zaman dərsin üçüncü və dördüncü mərhələlərini birləşdirib məlumatın mübadiləsi ilə müzakirəsi mərhələsi kimi vermiş, bəzən yaradıcı tətbiqetməyə yer ayırmamış, dərsin yeni bir mərhələsi kimi ev tapşırığını qeyd etmişik. Nəzərə alsaq ki, dərs ümumilikdə üç əsas mərhələdən – şagirdi dərsə maraqlandırma, araşdırma və nəticəçıxarmadan ibarətdir, onda yuxarıdakı yeddi mərhələli bir dərsi hər bir müəllim şəraitə, sinfinin səviyyəsinə, əldə etdiyi materiala, ən əsası, seçdiyi standarta və qarşısına qoyduğu məqsədə uyğun şəkildə keçə bilər.

Əsas odur ki, müəllim bir 45 dəqiqə ərzində seçdiyi standartı və qarşısına qoyduğu məqsədi reallaşdırsın.

Hörmətli müəllimlər, inanırıq ki, sizə təqdim etdiyimiz tövsiyələr köməyinizə çatacaq və dərslikdən istifadənizi asanlaşdıracaq.

LAYİHƏ

# I FƏSİL. AZƏRBAYCANIN ŞİMAL TORPAQLARININ RUSİYA TƏRƏFİNDƏN İSTİLASI

## MÖVZU 1. AZƏRBAYCAN TORPAQLARININ İŞĞALININ BAŞLANMASI

**Alt standartlar:**

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Gəncə xanlığının geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.
2. Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə xanlıqların mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.2., Coğrafiya – 3.2.4.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, karusel
**Resurslar:** şəkillər, paylayıcı material, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya qurmaq üçün "Cavad xan" filmindən bir hissəni göstərib: "Film kimdən bəhs edir? Hansı dövrə aiddir? Filmdə hansı hadisələr öz əksini tapır?" – kimi suallar verib aldığınız cavabları ümumiləşdirərək şagirdləri lazımi məcraya yönəldə və dərsin motivasiyasını qura bilərsiniz. Mövcud dərsin motivasiyasını "PowerPoint" proqramından istifadə etməklə də qurmaq mümkündür. Bunun üçün dövrə aid slaydlar hazırlayıb şagirdləri dərsə kökləmək olar. Slaydlar nümayiş olunduqdan sonra: "Bu slaydlar sizə nə deyir? Sizcə, təqdimat hansı dövrə aiddir?" suallarını verib dərsin yeni mərhələsinə keçə bilərsiniz.

Motivasiyanı dərsin əvvəlində verilmiş ümumiləşdirilmiş məlumatları *(XVI əsrdə Volqaboyu türk dövlətlərinin – Qazan və Həştərxanın Moskva knyazlığı tərəfindən işğalı rusların Xəzər dənizinə və Şimali Qafqaza yolunu açmışdı. Sonrakı əsrlərdə aparılan uğurlu müharibələr nəticəsində tədricən böyüyən bu knyazlıq I Pyotrun dövründə imperiyaya çevrildi. XVIII əsrdə Osmanlı dövləti ilə aparılan uğurlu müharibələr nəticəsində Şimali Qafqazda möhkəmlənən Rusiya imperiyasının indi əsas hədəfi böyük təbii sərvətlərə və mühüm strateji əhəmiyyətə malik olan Cənubi Qafqaz idi. Bu regionun böyük bir hissəsini isə tarixi Azərbaycan torpaqları təşkil edirdi. Beləliklə, XIX əsrin əvvəllərində Rusiya Azərbaycanla bağlı planlarını gerçəkləşdirməyə başladı.)* şagirdlərə çatdırmaqla da qura bilərsiniz.

**Tədqiqat sualı:** Rusiya hansı yolla Azərbaycan torpaqlarının işğalına başladı?

**Tədqiqatın aparılması:**

LAYİHƏ

Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında **karusel** təlim üsulundan istifadə etməklə dərsinizi qura bilərsiniz. Bunun üçün şagirdlərə dərs üsulu haqqında qısa məlumat verməyiniz tövsiyə edilir. Bu dərs üsulu bir qədər çox vaxt tələb etdiyindən verəcəyiniz sual və tapşırıqlar elə hazırlanmalıdır ki, onların icrası nisbətən az vaxt aparsın. Tədqiqat üçün qruplara aşağıdakı sual və tapşırıqları və ya özünüzün məsləhət bildiyiniz tapşırıqları verə bilərsiniz.

**I qrup.** Car-Balakənin işğalının nəticələri haqqında fikir yürüdün.

**II qrup.** XIX əsrin əvvəllərində Cənubi Qafqazda maraqları kəsişən dövlətləri müəyyən edin. Fikrinizi əsaslandırın.

**III qrup.** Gəncə xanlığının geosiyasi mövqeyini dəyərləndirin.

**IV qrup.** Gəncə xanlığının işğalının nəticələri haqqında fikir yürüdün.

**Karusel** dərs üsulunun birinci mərhələsində qrup işinə ayrılmış vaxt bitdikdən sonra, əslində, siz dərsin yeni mərhələsinə – **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə keçid almış olursunuz. Çünki bu mərhələdə müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların yazdıqları ilə tanış olmaq və "rəqibləri"nin fikirlərinə münasibət bildirmək imkanı qazanır. Dərsin bu mərhələsi bitəndən sonra mövbəti mərhələyə keçid ala bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Vaxta qənaət etmək üçün qrup təqdimatlarını dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində edə bilərsiniz. Lakin bu zaman da ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verməlisiniz. Onları əvvəlcədən hazırlamağınız məqsədəmüvafiqdir. Suallar aşağıdakı kimi ola bilər:

- Bəhs edilən dövrdə Cənubi Qafqazın, o cümlədən Azərbaycanın şimal torpaqlarının o dövrün beynəlxalq münasibətlərdəki rolunu və əhəmiyyətini necə qiymətləndirərdiniz?
- Sizcə, regionda öz maraqları olan dövlətlərdən hansı Azərbaycan üçün daha çox təhlükə törədirdi?
- XIX əsrin əvvəllərində baş verən rus işğallarının qarşısını hansı vasitələrlə almaq mümkün olardı?
- Nə üçün bütün Azərbaycan xanları Qazax və Şəmşəddil sultanlıqlarının işğalına qarşı birləşə bilmədilər?
- Cavad xan tərəfindən Gəncənin müdafiə edilməsini necə dəyərləndirmək olar?

**Yaradıcı tətbiqetmə:** Rusiya imperiyasının Cənubi Qafqazda yürütdüyü siyasəti analiz edin, müasir dövrdə regionda böyük dövlətlərin apardığı siyasətlə müqayisələr aparın.

**Ev tapşırığı:** "Gəncənin müdafiəsi və Cavad xan" mövzusunda təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** təqdimat hazırlama, mövqeyini və apardığı siyasəti dəyərləndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz

LAYİHƏ

şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla, şagirdlər aşağıdakı səviyyələr üzrə qiymətləndirilə bilər:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Gəncə xanlığının geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayanda çətinlik çəkir. | Müəllimin köməyi ilə Gəncə xanlığının geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. | Gəncə xanlığının geosiyasi mövqeyini nümayiş etdirən təqdimatları bəzi səhvlərlə hazırlayır. | Gəncə xanlığının geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. |
| Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə xanlıqların mövqeyini dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə xanlıqların mövqeyini dəyərləndirir. | Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə xanlıqların mövqeyini dəyərləndirir, lakin apardığı siyasəti dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə xanlıqların mövqeyini və apardığı siyasəti dəyərləndirir. |

## MÖVZU 2. CƏNUBİ QAFQAZ UĞRUNDA RUSİYA–QACARLAR MÜHARİBƏLƏRİ

Hörmətli müəllimlər! Məlum olduğu kimi, Azərbaycan tarixi fənni kurikulumunun tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələrinə diqqət yetirəndə 11-ci sinfin sonunda şagirdin hansı bacarıqlara yiyələnməli olduğu açıqlanmışdır. Kurikulum standartlarının dövlət tələbi olduğunu nəzərə alsaq, onda bu tələblərin yerinə yetirilməsi məsələsində çox diqqətli olmaq lazımdır. Məlum olduğu kimi, bəzi standartların bir 45 dəqiqə ərzində tam reallaşdırılması mümkün olmadığı üçün biz bəzən bu standartların (məs.: 1.1.1., 1.2.1., 2.1.2., 3.1.3., 4.1.2., 5.1.3.) həyata keçirilməsi üçün evə tapşırıq verməyi sizə məsləhət görürük. Bu zaman şagirdlərin:

- mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır;
- tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir, müxtəlif baxışları dəyərləndirir;
- Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir, təqdimatlar hazırlayır;
- Azərbaycanda müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərin dövlətçilik ənənələrini və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir, proqnozlar verir;
- tarixi inkişafda şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir və layihələr hazırlayır;
- Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələrini təqdim edir

kimi bacarıqlarının formalaşmasına yaxından köməklik edə bilmirsiniz. Mövcud paraqrafı tədris etmək üçün 3 saat təqdim olunması sizə bu boşluğu aradan qaldırmağa əla fürsət verəcək. Bunun üçün siz dərsinizi müxtəlif forma və üsullarla keçə bilərsiniz. Dərsin bir saatını kiçik qruplarla iş, digər saatlarnı isə 1.1.1. *(Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.)*, 1.2.1. *(Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.)*, 1.2.2. *(Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq*

LAYİHƏ

*mənbələri seçir.),* 2.1.2. *(Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.),* 3.1.3. *(Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.),* 4.1.2. *(Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.)* standartlarını nəzərə almaqla kollektiv, cütlərlə və ya fərdi iş formasında keçməyi məsləhət görərdik. Bu zaman standartdan çıxış edərək şagirdlərdə ***mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirmə, təqdimatlar hazırlama, tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçmə, müxtəlif baxışları dəyərləndirmə, layihələr hazırlama, proqnozvermə*** bacarıqlarını formalaşdırıb inkişaf etdirə bilərsiniz. Bununla belə, məsləhət gördüyümüz standartları və məqsədləri artırıb-azaltmağınız, eləcə də hər hansı standartı dəyişməyiniz mümkündür.

**Alt standartlar:**

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Rusiya–Qacarlar müharibələri barədə müxtəlif baxışları dəyərləndirir.
2. Rusiya–Qacarlar müharibələrində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.
3. Azərbaycan xanlıqlarının dövlətçilik ənənələrini və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**İnteqrasiya:** Azərbaycan dili – 1.2.4., Ümumi tarix – 1.1.2.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, problemə müxtəlif nəzər nöqtələrindən baxış üsulu
**Resurslar:** şəkillər, paylama materialı, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları, İKT avadanlıqları, CD disk və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya kimi siz "PowerPoint" proqramından istifadə etməklə dövrə aid slaydlar hazırlaya bilərsiniz. Bu slaydların köməyi ilə şagirdləri dərsə kökləmək mümkündür. Slaydların davamlılığının 2-3 dəqiqəlik olması məqsədəuyğundur. Etdiyiniz təqdimatdan sonra şagirdlərə: "Bu slaydlar sizə nə deyir? Sizcə, bu təqdimat hansı dövrə aiddir? Bu hadisələr haqqında nə bilirsiniz?" kimi suallar verib dərsin yeni mərhələsinə keçmək olar.

Əgər siz İKT-dən istifadə etməkdə çətinlik çəkirsinizsə, onda motivasiyanı lap sadə formada həyata keçirmək mümkündür. Bunun üçün yalnız lövhə, marker və ya təbaşirdən istifadə edə bilərsiniz. Lövhədə Kürəkçay müqaviləsi, Gülüstan sülhü, Türkmənçay sülhü, Aslandüz və Lənkəran döyüşləri, Abbas Mirzə kimi açar sözləri yazıb şagirdlərə: "Bu sözləri birləşdirən ümumi cəhət hansıdır? Bu sözlər sizdə hansı dövrə maraq oyadır?" suallarını verə və alınan cavabları ümumiləşdirib tədqiqat sualını elan edə bilərsiniz.

LAYİHƏ

**Tədqiqat sualı:** Rusiya–Qacarlar müharibələrində Azərbaycanın geosiyasi mövqeyini necə dəyərləndirərdiniz?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılmasını problemə müxtəlif nəzər nöqtələrindən baxış üsulu ilə keçirilməsi məqsədəuyğun olardı. Bunun üçün sinfi kiçik qruplara bölmək lazım gələcək. Dərsinizi qeyd etdiyimiz üsullarla tədris zamanı hər qrupa mövzunu axıra qədər oxuyub sonra isə tapşırığa uyğun olaraq müxtəlif insanların dilindən nəql etməyə hazırlaşmağı tapşırmalısınız. Tapşırığın icrası zamanı diqqətli olmağı, hadisəni nəql edərkən məzmuna fikir verməyi məsləhət görmək mümkündür. Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları vermək tövsiyə edilir:

**I qrup.** Abbas Mirzənin Rusiya–Qacarlar müharibələrinə münasibəti.

**II qrup.** Azərbaycan xanlarının Rusiya işğalına münasibəti.

**III qrup.** Rusiya çarının Azərbaycanı ələ keçirmək məsələsinin vacibliyi ilə bağlı fikirləri.

**IV qrup.** İran şahının Rusiyanın Cənubi Qafqazı ələ keçirməsi ilə bağlı fikirləri.

**V qrup.** Osmanlı sultanının Rusiyanın Cənubi Qafqazda apardığı fəal hərbi əməliyyatlara münasibəti.

**VI qrup.** Rus generallarının Azərbaycan xanlarına münasibəti.

**VII qrup.** Azərbaycanda xalq kütləsinin Rusiya işğalına münasibəti.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qruplara hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat etmək üçün öz nümayəndələrini seçir. Qrup təqdimatına 2-3 nəfərin seçilməsi məqsədəuyğundur. Bu, təqdimatın daha maraqlı olmasına şərait yaratmaqla yanaşı, demək olar ki, şagirdlərin əksəriyyətini prosesə cəlb etmiş olacaq. Əgər qrupda şagird sayı azdırsa, onların hamısını təqdimata cəlb etmək mümkündür. Müzakirələrin daha canlı alınması üçün qrup təqdimatlarının ardıcıllığını özünüz müəyyənləşdirin. Bu zaman sizin dövlət mənafelərini, kəsişən maraqları nəzərə almağınız məsədəuyğundur. Təqdimat vaxtı şagirdləri lazımi məcraya yönəltmək məqsədilə suallar verməyiniz yaxşı olardı. Şagirdlərin də suallar verməsi qəbulediləndir. Bu zaman hər bir qrupa təqdimat üçün konkret vaxt verilməli və həmin zaman diqqətdə saxlanılmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qrup təqdimatları ilə məlumat mübadiləsi və müzakirəsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

- İrəvan xanı Məhəmməd xan ilə Gəncə xanı Cavad xan arasında hansı ümumi cəhətləri göstərə bilərsiniz?
- Kürəkçay müqaviləsini siyasi baxımdan necə dəyərləndirmək olar?
- Şamaxı üzərinə hərbi yürüş edən rus qoşunlarının tərkibində bəzi Azərbaycan xanlarının iştirakını necə qiymətləndirə bilərsiniz?
- Sizcə, Rusiya işğalının qarşısını almaq mümkün idimi? Bunu necə təsəvvür edirsiniz?
- Rusiyanın bəzi xanlar ilə bağladığı müqavilələrin Azərbaycan üçün hansı siyasi üstünlükləri və ya əksinə, zərərləri var idi?
- İrəvan, Qarabağ, Şəki, Lənkəran və Naxçıvan xanlarının siyasi mövqelərini necə şərh edə bilərsiniz?

LAYİHƏ

**Ev tapşırığı:** XIX əsrin birinci yarısında Cənubi Qafqaz uğrunda baş vermiş müharibələrdə Rusiyanın uğur qazanmasının, Qacarların və Osmanlıların isə məğlubiyyətə uğramasının səbəblərini araşdırın, bununla bağlı referat hazırlayın.

**Qiymətləndirmə meyarları:** baxışları dəyərləndirmə, mövqeyinin əhəmiyyətini dəyərləndirmə, inkişafında rolunu dəyərləndirmə.

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün yuxarıdakı meyarları nəzərə alaraq qiymətləndirəcəyiniz şagirdləri dərs boyu diqqətdə saxlamalı və fəaliyyətlərini izləməlisiniz. Dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirmə aparmaq olar. Bu zaman şagirdin fəaliyyəti ilə bağlı müəyyən tərəddüdlər yaranarsa, ona əlavə suallar da verməyiniz məqbuldur.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Rusiya–Qacarlar müharibələri barədə müxtəlif baxışları dəyərləndirməkdə çətinlik çəkir. | Rusiya–Qacarlar müharibələri barədə müxtəlif baxışları müəllimin köməyi ilə dəyərləndirir. | Rusiya–Qacarlar müharibələri barədə müxtəlif baxışları bəzi səhvlərlə dəyərləndirir. | Rusiya–Qacarlar müharibələri barədə müxtəlif baxışları dəyərləndirir. |
| Rusiya–Qacarlar müharibələrində Azərbaycanın mövqeyinin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Rusiya–Qacarlar müharibələrində Azərbaycanın mövqeyinin əhəmiyyətini dəyərləndirir. | Rusiya–Qacarlar müharibələrində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Rusiya–Qacarlar müharibələrində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir. |
| Azərbaycan xanlıqlarının dövlətçilik ənənələrini və sivilizasiyanın inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycan xanlıqlarının dövlətçilik ənənələrini və sivilizasiyanın inkişafında rolunu suallardan istifadə etməklə dəyərləndirir. | Azərbaycan xanlıqlarının dövlətçilik ənənələrini və sivilizasiyanın inkişafında rolunu bəzi səhvlərlə dəyərləndirir. | Azərbaycan xanlıqlarının dövlətçilik ənənələrini və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir. |

LAYİHƏ

# II FƏSİL. ŞİMALİ AZƏRBAYCAN RUSİYA İŞĞALI DÖVRÜNDƏ

## MÖVZU 3. MÜSTƏMLƏKƏ İDARƏ ÜSULU VƏ ONUN SOSİAL-İQTİSADİ, SİYASİ HƏYATA TƏSİRİ

Bu dərsə iki saat vaxt ayrılır. Bunun üçün dərsi müxtəlif forma və üsullarla keçə bilərsiniz. Dərsin bir saatını cütlərlə iş, digər bir saatını isə 45 dəqiqə ərzində reallaşdırılması çətin sayıla biləcək standartları nəzərə almaqla fərdi, böyük və ya kiçik qruplarla iş formasında keçməyi məsləhət görərdik. Bununla belə, arzuladığınız standartları seçməli, onlardan dərsinizə uyğun məqsəd çıxarmalı, məqsədinizi reallaşdırmaq üçün iş forması və üsulunu ayırd etməli, dərsin motivasiyasını quraraq sıra ardıcıllığı ilə mərhələləri bir-bir həyata keçirməlisiniz. Dərsin sonu üçün əvvəlcədən müəyyənləşdirdiyiniz dərs məqsədlərinə uyğun olaraq qiymətləndirmə meyarlarını və onlara müvafiq olaraq qiymətləndirmə səviyyələrini hazırlamağı da yaddan çıxartmayın.

**Alt standartlar:**

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. XIX əsrin əvvəllərində Azərbaycanda həyata keçirilən köçürülmə prosesi barədə müxtəlif baxışları dəyərləndirir.
2. XIX əsrin 20–30-cu illərinə aid Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.
3. Azərbaycanda xanlıqların süqutunun dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.1., 1.1.2., Coğrafiya – 3.2.1.
**Təlim forması:** böyük qruplarla və cütlərlə iş
**Təlim üsulu:** beyin həmləsi, iş vərəqləri ilə iş, "T" üsulu
**Resurslar:** XIX əsrin birinci yarısına aid Azərbaycan xəritəsi, şəkillər, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri, dərslik, müxtəlif mənbələrdən parçalar, kompüter, proyektor və s.

### Dərsin mərhələləri

**Motivasiya:** Dərsdə motivasiya qurmaq məqsədilə ötrü şagirdlər üçün anlayışın çıxarılması üsulundan istifadə edə və ya slaydlar hazırlaya bilərsiniz. Motivasiyanı hansı üsulla quracağınızdan asılı olmayaraq, əsas olan onun tədqiqat sualına xidmət etməsidir. Mövzunun əvvəlində verilmiş giriş sözləri və açar sözlərdən də motivasiya kimi yararlana bilərsiniz. Mövzunun əvvəlində yazılanlar və açar sözlər səsləndirildikdən sonra şagirdlərə suallarla müraciət etməlisiniz. Beləliklə, çətinlik çəkmədən dərsin motivasiyasını quracaqsınız.

LAYİHƏ

Motivasiya qurmaq üçün şagirdlərin diqqətini əvvəlki dərslərə, daha doğrusu, indiyədək məlumat aldıqları üsyanlara yönləndirmək, sonra isə onlara bununla bağlı suallarla müraciət etmək olar. Bunun üçün əvvəlcədən: "Xürrəmilər", "Sarı sarıqlılar", "Məzdəkilər", "Qırmızı qaşlılar" sözlərini səsləndirib: "Bu sözlər sizə nə deyir?" – sualına cavab istəyin. Alınan cavabdan sonra: "Sizcə, adətən, üsyanların başlanmasına səbəb nə olur?" – sualı ilə müraciət edin. Şagirdlər fərziyyələrini bildirirlər, siz isə əldə edilən düşüncələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Bunun ardınca tədqiqat sualını elan etməlisiniz.

**Tədqiqat sualı:** Azərbaycanda dövlətçiliyin süqutu yadellilərin ölkəmizə köçürülməsinə nə dərəcədə şərait yaratdı?

**Tədqiqatın aparılması:**

Tədqiqatın cütlərlə iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz fəal təlimin iş vərəqləri ilə iş üsulundan istifadə etsəniz, daha yaxşı olar. Cütlərə verilən tədqiqat sualları və tapşırıqlar:

**I cüt.** Yeni yaradılan məhkəmələri ənənəvi məhkəmələrimizlə müqayisə edin, mənfi və müsbət cəhətlərini **"T"** cədvəlində yazın.

**II cüt.** Ermənilərin Şimali Azərbaycana köçürülməsi barədə araşdırma aparın, regionda baş verən siyasi hadisələrin, müharibələrin bu prosesə necə təsir göstərdiyini qiymətləndirin.

**III cüt.** Azərbaycan torpaqlarında almanların yerləşdirilməsinin bugünkü Azərbaycan–Almaniya əlaqələrinə təsirini araşdırın.

**IV cüt.** Mənbəyə əsasən almanların Cənubi Qafqaza köçürülmə səbəblərini aydınlaşdırın.

**V cüt.** Rusiyanın xanlıqları ləğv etməsini qiymətləndirin.

**VI cüt.** Çarizmin köçürmə siyasətini dəyərləndirin.

**VII cüt.** Azərbaycanda rus məskənlərinin yaradılmasını ölkənin geosiyasi mövqeyi ilə əlaqələndirmək olarmı? Fikrinizi əsaslandırın.

**VIII cüt.** XIX əsrin 20–30-cu illərində Azərbaycanın sosial-iqtisadi həyatında baş verən yenilikləri dəyərləndirin.

**IX cüt.** Müstəmləkə zülmünə qarşı xalq üsyanlarını azadlıq mübarizəsi kimi təqdim edin.

**X cüt.** XVIII–XIX əsr torpaq mülkiyyəti formalarının və vergilərin müqayisəli cədvəlini qurun.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Cütlərlə işə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən olunmuş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur, dağınıq faktlar arasında əlaqə qurulur, əlavələr edilir və fikirlər lazımi məcraya yönəldilir. Müzakirələr zamanı bütün sinif şagirdlərinin fəallığının təmin olunması sizdən asılıdır. Şagirdlərin müzakirələrdə fəal iştirakı nəticələrin alınmasında yardımçınız olacaq.

LAYİHƏ

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlərə verdiyiniz yönləndirici suallar vasitəsilə onlar XIX əsrin əvvəllərində Azərbaycanda həyata keçirilən köçürülmə prosesi barədə müxtəlif baxışları dəyərləndirə, XIX əsrin 20–30-cu illərinə aid Azərbaycanın geosiyasi mövqeyi ilə bağlı təqdimatlar edə, xanlıqların süqutunu dövlətçilik baxımından dəyərləndirə bilərlər. Bu da, öz növbəsində, tədqiqat sualınıza cavab tapmağınıza kömək edəcək. Bununla belə, tədqiqat sualının tam cavabını almaq üçün aşağıdakı suallar da yardımçınız olacaq:

- Çarizmin Şimali Azərbaycanda köçürmə siyasətini necə qiymətləndirərdiniz?
- Azərbaycanda yaradılan alman və rus məskənlərinin ölkəmizin sonrakı inkişafında tolerantlıq mühitinin formalaşmasına təsirlərini necə dəyərləndirərdiniz?
- Rusiyanın Azərbaycanda yaratdığı komendant idarə üsulunun əsas məqsədi nə idi?
- Rusiya işğalının sosial-iqtisadi həyata təsirini necə qiymətləndirə bilərsiniz?
- Hansı sahələr iltizama verilirdi?
- Sizcə, islam məzhəblərinə ayrı-ayrı dini başçıların təyin edilməsində çar Rusiyası hansı maraqları güdürdü?
- Daxili müstəqilliklərini qoruyan və onsuz da, Rusiyanın himayəsində olan xanlıqların ləğv edilməsi hansı məqsədlərdən irəli gəlmişdi?

**Yaradıcı tətbiqetmə:** XIX əsrin birinci yarısına dair Azərbaycanın köçürülmə xəritəsini cızın.

**Ev tapşırığı:** Müstəmləkə idarə üsulu və onun sosial-iqtisadi, siyasi həyata təsirinə dair təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** müxtəlif baxışları dəyərləndirmə, təqdimatlar hazırlama, inkişafda rolunu dəyərləndirmə.

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Bu vaxt şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısınız.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| XIX əsrin əvvəllərində Azərbaycanda həyata keçirilən köçürülmə prosesi barədə müxtəlif baxışları dəyərləndirməkdə çətinlik çəkir. | Suallardan istifadə etməklə XIX əsrin əvvəllərində Azərbaycanda həyata keçirilən köçürülmə prosesi barədə müxtəlif baxışları dəyərləndirir. | XIX əsrin əvvəllərində Azərbaycanda həyata keçirilən köçürülmə prosesi barədə müxtəlif baxışları dəyərləndirir. Lakin bəzi yanlışlıqlara yol verir. | XIX əsrin əvvəllərində Azərbaycanda həyata keçirilən köçürülmə prosesi barədə müxtəlif baxışları dəyərləndirir. |
| Azərbaycanın XIX əsrin 20–30-cu illərinə aid mövqeyinə dair təqdimatlar hazırlayır. | Azərbaycanın XIX əsrin 20–30-cu illərinə aid geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Sinif yoldaşlarının köməyi ilə Azərbaycanın XIX əsrin 20–30-cu illərinə aid geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. | Azərbaycanın XIX əsrin 20–30-cu illərinə aid geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. |
| Azərbaycanda xanlıqların süqutunu dövlətçilik baxımından dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanda xanlıqların süqutunu dövlətçilik baxımından dəyərləndirir. | Azərbaycanda xanlıqların süqutunun dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanda xanlıqların süqutunun dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir. |

## MÖVZU 4. XIX ƏSRİN 40-cı İLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA KEÇİRİLƏN İSLAHATLAR

**Alt standartlar:**

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda sosial-iqtisadi dəyişiklikləri dəyərləndirir, təqdimatlar hazırlayır.

2. XIX əsrin 40-cı illərində Şimali Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 2.1.1., Coğrafiya – 3.2.3.

LAYİHƏ

**Təlim forması:** böyük qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, akvarium
**Resurslar**: şəkillər, mövzuya aid slaydlar, mənbələrdən hissələr, paylayıcı material, flipçart, marker və s.

## Dərsin mərhələləri

**Motivasiya:** Motivasiya kimi mövzunun əvvəlində verilmiş giriş hissəsini *(XIX əsrin 30-cu illərində Şimali Azərbaycanın müxtəlif yerlərində baş verən üsyanlar amansızcasına yatırıldı. Buna baxmayaraq, çar hökuməti Cənubi Qafqazda yürütdüyü siyasətin yarıtmaz olduğunu başa düşdü. Yeni xalq çıxışlarına yol verməmək, əhalinin narazılıqlarını azaltmaq üçün hökumət islahatlar keçirməyə məcbur qaldı.)* şagirdlərə çatdırmaq olar.

Motivasiya kimi *reskript, əsasnamə, qanun, əmr* sözlərini lövhədə yaza, sonra isə şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz: “Bu sözlər sizə nə dərəcədə tanışdır?”, “Bu sözləri birləşdirən ümumi cəhətlər varmı? Əgər varsa, hansılardır?”, “İslahat deyəndə nə başa düşürsünüz?” Bundan sonra aldığınız cavabları ümumiləşdirərək tədqiqat sualını elan edə və dərsin yeni mərhələsinə keçə bilərsiniz.

**Tədqiqat sualı:** XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda aparılan islahatlar hansı problemlərin həllinə yönlənmişdi?

## Tədqiqatın aparılması:

Tədqiqatın böyük qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz **akvarium** metodundan yararlana bilərsiniz. Bu iş üsulu üçün sinfi iki dairəyə – iç və çöl dairələrinə bölüb iç dairəyə müəyyən vaxt müddətində mövzu ilə bağlı hər hansı bir problemin müzakirəsini tapşıra bilərsiniz. Sonra **akvarium** dərs üsulunun qaydalarına uyğun olaraq dairələrdəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidirlər. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə edə bilərsiniz.
- 1846-cı ildə verilmiş reskriptin əhəmiyyətini dəyərləndirin.
- Şimali Azərbaycanda keçirilən inzibati-məhkəmə islahatlarını qiymətləndirin.
- XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda edilən yeni inzibati-ərazi bölgüsü ilə bağlı fikirlərinizi bildirin.
- Çar hökumətinin həyata keçirdiyi islahatları ümumiləşdirin, mənfi və ya müsbət cəhətlərini araşdırın.

“Akvarium”da iş zamanı, əslində, dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsini də həyata keçirmiş olursunuz. “Akvarium”da iş üçün ayrılmış vaxt bitdikdən sonra dərsin növbəti mərhələsini həyata keçirin.

**Ümumiləşdirmə və nəticənin çıxarılması üçün** dərsin bu mərhələsində aparılan müzakirələri yekunlaşdırmaq lazım gələcək. Aşağıda verilmiş yardımçı sual və tapşırıqlardan istifadə edə bilərsiniz:

- Sizcə, I Nikolayın Qafqaz canişininin qarşısında qoyduğu vəzifələr hansı məqsəddən irəli gəlirdi?
- Çar hökuməti sosial dayaq olaraq kimlərə üstünlük verirdi?
- Komendant idarə üsulunun yarıtmaz olduğunu necə əsaslandırmaq olar?
- “Mülkədar tabelisi” kateqoriyasına daxil olan kəndliləri Rusiyadakı təhkimli kəndlilərlə müqayisə etmək olarmı?
- “Bəy hüquqları” haqqında reskriptin mahiyyətini izah edin.
- 1840-cı illərdə keçirilən islahatların müstəmləkə xarakterini sübut edin.
- Kəndli Əsasnaməsi kəndlilər qarşısında hansı tələbləri qoyurdu?

LAYİHƏ

- Sosial dayaqla etnik dayaq arasında hansı fərqləri görmək olar?
- Çar hökuməti inzibati islahatlar aparmaqla hansı məqsədi güdürdü?
- Sizcə, çar hökumətini müsəlman ruhaniləri ilə yaxınlaşdıran səbəblər hansılar idi?

**Yaradıcı tətbiqetmə:** Bu mərhələdə şagirdlərə öyrəndiklərini yaradıcı şəkildə reallaşdırmaq lazım gəldiyi üçün onlara mətndən əldə etdiyiniz məlumatlar əsasında xronoloji cədvəl qurmağı tapşırıq kimi verə bilərsiniz.

**Ev tapşırığı:** Kəndli Əsasnaməsinə həsr olunan təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** dəyişiklikləri dəyərləndirib təqdimatlar hazırlama, əhəmiyyəti dəyərləndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə və aşağıda verilmiş səviyyələr üzrə qiymətləndirə bilərsiniz. Bununla belə, şagirdləri birinci meyar üzrə qiymətləndirmək olmayacaq. Çünki bu meyarı dərs prosesində tam reallaşdırmaq mümkün deyildir. Bunu nəzərə alaraq həmin meyar üzrə şagirdlərə evə tapşırıq verilməsi nəzərdə tutulmuşdur. Onlar ev tapşırığını gətirdikdən və siz onu yoxladıqdan sonra (növbəti dərsdə) bu meyar üzrə şagirdləri qiymətləndirmək mümkün olacaq.

Burada bir şeyi diqqətdə saxlamağınız olduqca vacibdir: Şagirdə verdiyiniz ev tapşırığını hökmən yoxlamaq lazımdır. Yadda saxlayın: ev tapşırığının yoxlanılmaması sizdə dərs dediyiniz şagirdlərin təqdimat hazırlama bacarığının hansı səviyyədə olması haqqında bilgisizliyə gətirib çıxartmaqla yanaşı, şagirdlərin ev tapşırığına biganə yanaşmasını da şərtləndirəcək.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda gedən sosial-iqtisadi dəyişiklikləri dəyərləndirir. | XIX əsrin 40-cı illərində Şimali Azərbaycandakı sosial-iqtisadi dəyişiklikləri mənbələr əsasında dəyərləndirir. | XIX əsrin 40-cı illərində Şimali Azərbaycandakı sosial-iqtisadi dəyişiklikləri mənbələr əsasında dəyərləndirir, lakin təqdimatlar hazırlayanda müəyyən yanlışlıqlara yol verir. | XIX əsrin 40-cı illərində Şimali Azərbaycandakı sosial-iqtisadi dəyişiklikləri mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır. |
| XIX əsrin 40-cı illərində Şimali Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | XIX əsrin 40-cı illərində Şimali Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini sinif yoldaşlarının köməyi ilə dəyərləndirir. | XIX əsrin 40-cı illərində Şimali Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini bəzi səhvlərlə dəyərləndirir. | XIX əsrin 40-cı illərində Şimali Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir. |

LAYİHƏ

## III FƏSİL. XIX ƏSRİN İKİNCİ YARISI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

## MÖVZU 5. KAPİTALİZMİN İNKİŞAFI, YENİ SOSİAL MÜNASİBƏTLƏRİN MEYDANA GƏLMƏSİ

Mövcud paraqrafı tədris etmək üçün sizə 2 saat verilir. Buna görə də dərsinizi müxtəlif forma və üsullardan istifadə etməklə keçə bilərsiniz. Dərsin bir saatını kiçik qruplarla iş, digər saatını isə 1.2.1. (*Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.*), 1.2.2. (*Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.*), 4.1.2. (*Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.*) standartlarını nəzərə almaqla kollektivlə, cütlərlə və ya fərdi iş formasında reallaşdırmağı məsləhət görərdik. Bu zaman siz standartdan çıxış edərək şagirdlərdə mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirmə, təqdimatlar hazırlama, tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələr seçmə, müxtəlif baxışları dəyərləndirmə, layihələr hazırlama, proqnozvermə bacarıqlarını formalaşdırıb inkişaf etdirə bilərsiniz. Bununla belə, məsləhət gördüyümüz standartları və məqsədləri artırmaq və azaltmaq, eləcə də hər hansı standartı dəyişmək də mümkündür.

**Alt standartlar:**

1.1.1. Azərbaycanın tarixi keçmişini və müasir dövrünü mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır.

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycanda kapitalist münasibətlərinin inkişafını mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır.
2. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə əlaqələndirir.

**İnteqrasiya:** Ümumi tarix – 1.1.2., 1.3.1., 2.1.1.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, fasiləli oxu, müzakirə
**Resurslar:** yazı lövhəsi, marker, flipçart, şəkillər, paylayıcı material, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik və s.

LAYİHƏ

### Dərsin mərhələləri

**Motivasiya:** Şagirdlər əvvəlki illərdə kapitalizm, onun inkişafı, kəndli, şəhər və məhkəmə islahatları haqqında müəyyən bilik və bacarıqlara malikdirlər. Mövzunu tədris edərkən əvvəlki tədris ilinin mövzuları ilə əlaqəli suallarla müraciət etmək, motivasiyanı bu əlaqələndirmə əsasında qurmaq məqsədəuyğun olardı. Yaxud əvvəlcədən hazırlanmış ağ plakatda açar sözləri yazıb lövhədən asa bilərsiniz.

- 1870-ci il kəndli islahatı
- Təhkimçilik münasibətləri
- “Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında” əsasnamə

- “Şəhər özünüidarəsi” haqqında əsasnamə
- Məhkəmə islahatı

Şagirdlərə açar sözlərlə bağlı suallar verməyiniz tövsiyə olunur. “Bu sözlər sizə tanışdırmı? Açar sözlər haqqında nə deyə bilərsiniz?” və s. suallar sizin motivasiya qurmağınıza yardım edəcəkdir. Şagirdlərin fərziyyələrini dinləyin. Motivasiya baş tutduqdan sonra tədqiqatın aparılması mərhələsini reallaşdırın. Motivasiyanın həyata keçirilməsi üçün digər bir vasitə dərslikdə mövzunun əvvəlində verilmiş girişi *(XIX əsrin 60-cı illərindən etibarən Şimali Azərbaycanda kapitalist münasibətlərinin inkişafı başladı. Bu prosesə Rusiya imperiyasında aparılan islahatlar da güclü təkan verdi. İslahatlar Azərbaycanda sosial-iqtisadi sahədə mühüm dəyişikliklərə, yeni münasibətlərin formalaşmasına, iqtisadi və mədəni inkişafa səbəb oldu. Tarixə burjua islahatları kimi daxil olmuş bu dəyişikliklər nəticəsində Azərbaycanda yeni sosial təbəqələr – milli burjuaziya, fəhlə sinfi və millətin formalaşmasında əsas rol oynayan ziyalılar meydana gəldi.)* şagirdlərə oxumağınız ola bilər.

**Tədqiqat sualı:** XIX əsrin II yarısında Azərbaycanda yeni sosial münasibətlər necə meydana gəldi?

**Tədqiqatın aparılması:**

Bu mərhələni həyata keçirmək üçün **fasiləli oxu** üsulundan istifadə etmək olar. Qeyd edək ki, əvvəlki illərdə MV-də onunla bağlı geniş məlumat almısınız. Buna görə də şagirdlərlə bu üsulun həyata keçirilməsi çətinlik törətməyəcək. Onlara növbə ilə mövzunu oxutdurub müəyyən hissələrdə fasilələrə yol verməlisiniz. Mövzuarası elan edilən sual və tapşırıqlar sizin fasilə verəcəyiniz hissələr ola bilər. Şagirdlərin səviyyəsindən asılı olaraq bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də edə bilərsiniz.

- Kapitalist sənayesinin yaranması üçün vacib olan amillər hansılardır?
- İngiltərədə kapitalist münasibətlərinin yaranmasını yadınıza salın. Rusiya ilə müqayisə edin.
- Sizcə, mülkədarlar niyə muzdlu əmək tətbiq etməyə başladılar?
- Çar hökuməti məhkəmə islahatını Cənubi Qafqazda məhdud qaydada keçirməsini nə ilə izah edirdi?
- 9-cu sinif Azərbaycan tarixini yadınıza salın. Andlı iclasçılar məhkəməsi ilk dəfə hansı dövlətdə tətbiq edilmişdir?

Dərslikdə öz əksini tapmış bu kimi sualları şagirdlərlə müzakirə edin. Onların düşüncələrinə hörmətlə yanaşın. Çünki bu yaş dövrünün şagirdləri söylədikləri fikrin rədd olunması ilə barışmaya bilər və bu da onların həvəsdən düşməsinə şərait yaradar. Verəcəyiniz suallar əvvəllər əldə olunmuş biliklərin üzə çıxmasına şərait yaradacaq. Şagirdlər həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Təqdim edilən izah onların əlaqələndirmə bacarığını formalaşdırmaq üçün də istiqamət verəcəkdir.

Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin dəyərləndirməsini həyata keçirin. Tövsiyə edirik ki, onlar öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamları lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd edin. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə edilməsi zamanı lazım olacaq. Fasiləli oxu müddətində təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, şəkillər, illüstrasiyalar, xüsusilə də mənbələr diqqət mərkəzində saxlanılmalıdır.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Fasiləli oxu bitdikdən sonra mövzu ilə bağlı yekun müzakirə aparıb dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid edə bilərsiniz. Əlavə olaraq şagirdlərə XIX əsrin 60–70-ci illərində Azərbaycanda keçirilən

LAYİHƏ

islahatlar barədə sual və tapşırıqlar vermək olar. Alınan cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da, dərsin bu mərhələsini yekunlaşdıra bilərsiniz. Yaddan çıxartmaq lazım deyil ki, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş sualları əvvəlcədən hazırlamalısınız.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

- İslahatlar ərəfəsində Şimali Azərbaycanda sosial-iqtisadi vəziyyəti necə xarakterizə edirsiniz?
- Sizcə, çar burjua islahatlarını keçirməsəydi, nə baş verə bilərdi?
- Kəndli islahatlarının keçirilməsi zamanı hansı çətinliklər ortaya çıxdı?
- Azərbaycanda keçirilən islahatlardan hansını daha çox bəyənirsiniz və nəyə görə?
- XIX əsrin II yarısında Azərbaycanda sosial münasibətlərdə hansı dəyişikliklər meydana gəldi?

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər Azərbaycanda kapitalist münasibətlərinin inkişafını dəyərləndirib xalqımızın formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə əlaqələndirəcəklər.

**Yaradıcı tətbiqetmə:** 1870-ci il 14 may “Əsasnamə”si ilə 1847-ci il “Əsasnamə”sinin oxşar və fərqli cəhətlərinə aid diaqram qurun.

**Ev tapşırığı:** Azərbaycanda kapitalist münasibətlərinin inkişafı ilə bağlı təqdimatlar hazırlayın.

**Qiymətləndirmə meyarları:** inkişafı dəyərləndirib təqdimatlar hazırlama, əlaqələndirmə.

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Bu zaman qiymətləndirmə qaydalarına uyğun olaraq sinfinizin şagirdlərini bilik və bacarıqlarına uyğun 4 səviyyə üzrə qiymətləndirin. Bu səviyyələr meyarlara uyğun həyata keçirilməli və ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişməlidir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanda kapitalist münasibətlərinin inkişafını mənbələr əsasında dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanda kapitalist münasibətlərinin inkişafını mənbələr əsasında dəyərləndirir. | Azərbaycanda kapitalist münasibətlərinin inkişafını mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Azərbaycanda kapitalist münasibətlərinin inkişafını mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır. |
| Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə əlaqələndiməkdə çətinlik çəkir. | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə müəllimin köməyi sayəsində əlaqələndirir. | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə bəzi səhvlərə yol verərək əlaqələndirir. | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə əlaqələndirir. |

LAYİHƏ

## MÖVZU 6. ŞİMALİ AZƏRBAYCANDA İQTİSADİ İNKİŞAF

**Alt standartlar:**

1.1.1. Azərbaycanın tarixi keçmişini və müasir dövrünü mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır.

1.1.2. Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid mənbələr əsasında müqayisəli-sinxron cədvəllər hazırlayır.

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycanın neft sənayesinin XIX əsrin II yarısı və müasir dövrlərini mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır.
2. Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəlləri və müasir dövrlərinə aid mənbələr əsasında müqayisəli-sinxron cədvəllər hazırlayır.
3. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə əlaqələndirir.

**İnteqrasiya:** Ümumi tarix – 1.1.3., 1.3.1., 2.1.1.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mətnə əsasən cədvəlin doldurulması, Venn diaqramı
**Resurslar:** şəkillər, paylama materialı, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları, İKT avadanlıqları, CD disk və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya üçün lövhədə açar söz kimi *neft, dəmir filizi, pambıqçılıq, tütün, balıqçılıq, ipəkçilk* sözlərini yaza bilərsiniz. Bundan sonra şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

- Bu sözlər sizə nə deyir?
- Mövcud açar sözlərin bir-biri ilə hansı əlaqəsi var?
- Bu sözləri hansı vahid ad altında birləşdirmək olar?

Aldığınız cavabları ümumiləşdirib şagirdləri dərslə maraqlandıra və beləliklə də, dərsin yeni mərhələsinə keçə bilərsiniz.

Motivasiyanı şagirdlərin əvvəlki bilikləri hesabına da qurmaq mümkündür. Bunun üçün əvvəlcədən suallar hazırlamalısınız. Onlar şagirdləri maraqlandıra biləcək, düşündürücü, cavabı birbaşa tapılmayan suallar olmalıdır. Aldığınız cavabları ümumiləşdirdikdən sonra tədqiqat sualını elan edib dərsin növbəti mərhələsini başlamaq olar.

**Tədqiqat sualı:** XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda sənaye yüksəlişi özünü hansı formada büruzə verirdi?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılmasını mətnə əsasən cədvəlin doldurulması üsulu ilə reallaşdırmaq məqsədəuyğun olardı. Sinfi kiçik qruplara böləndən sonra, təlim üsuluna uyğun olaraq, onlara aşağıdakı tapşırıqları verə bilərsiniz: “Aşağıda verilən cədvəllər şərtidir. Siz bu cədvəlləri genişləndirmək (və ya daraltmaq), müəyyən tələbləri dəyişmək, düzəlişlər etmək və ya yeni cədvəllər qurmaq sahəsində tam ixtiyar sahibisiniz. Əsas odur ki, hazırlayacağınız

LAYİHƏ

cədvəllər mətnin ideyasını aşkar etməyə, təlim məqsədini reallaşdırmağa, tədqiqat sualına cavab tapmağa imkan versin”. Tədqiqatın aparılması zamanı şagirdlərə mövzu ilə əlaqədar əlavə paylayıcı materialların verilməsi dərsinizi daha da maraqlı və “canlı” edər. Paylayıcı material qismində mənbə sayıla biləcək müxtəlif qəzet, jurnal materiallarından, elmi əsərlərdən edilmiş çıxarışlardan və s. vəsaitlərdən istifadə edə bilərsiniz.

**I qrup. Neft sənayesi**

| Dövr | İnkişaf səbəbləri | İnkişaf xüsusiyyətləri | Problemlər | Nəticə |
|---|---|---|---|---|
| XIX əsrin II yarısı | | | | |
| Müasir dövr | | | | |

**II qrup. Kənd təsərrüfatı**

| Dövr | İnkişaf səbəbləri | İnkişaf xüsusiyyətləri | Problemlər | Nəticə |
|---|---|---|---|---|
| XIX əsrin II yarısı | | | | |
| Müasir dövr | | | | |

**III qrup. Sənayenin digər sahələri**

| Dövr | İnkişaf səbəbləri | İnkişaf xüsusiyyətləri | Problemlər | Nəticə |
|---|---|---|---|---|
| XIX əsrin II yarısı | | | | |
| Müasir dövr | | | | |

**IV qrup. Milli oyanış**

| Milli oyanışa təsir edən amillər | Milli oyanışda iştirak edən qüvvələr | Milli oyanışın inkişaf xüsusiyyətləri | Nəticə |
|---|---|---|---|
| | | | |

**V qrup. Millətin formalaşması**

| Millətin formalaşmasına təsir edən amillər | Millətin formalaşmasında iştirak edən qüvvələr | Millətin formalaşmasının inkişaf xüsusiyyətləri | Nəticə |
|---|---|---|---|
| | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər biri öz təqdimatını edir. Bu zaman siz təqdimat ətrafında müzakirələrin aparılması üçün konkret vaxt ayırmağı yaddan çıxarmayın. Təqdimatlar edilərkən şagirdlərin doldurmadıqları və ya yarımçıq işlədikləri (intellekt səviyyəsindən asılı olaraq belə hallar mümkündür) cədvəl qrafalarının tamamlanması üçün digər qruplardan kömək istəyə bilərsiniz. Bu şagirdləri müəyyən edilmiş məcraya yönəltmək, suallar vermək lazım gələcək. Müzakirələr zamanı şagirdlərin də yerdən suallar verməsini təmin etməyi yaddan çıxarmayın.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qrup təqdimatları, məlumatın mübadiləsi və müzakirəsi mərhələsi bitdikdən sonra siz dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

- Kəndli islahatından sonra kəndlilər arasında təbəqələşmənin yaranmasına səbəb nə oldu?
- Sizcə, niyə qolçomaqları kənd burjuaziyası adlandırırlar?
- H.Z.Tağıyevin toxuculuq fabriki açmasının hansı əhəmiyyəti var idi?

LAYİHƏ

- Sizcə, yerli sənayenin yaranmasının hansı müsbət cəhətləri mövcud idi?
- Öyrəndiyiniz dövrdə Azərbaycanda sənayenin hansı sahələri daha çox inkişaf etmişdir?
- İqtisadiyyatın istənilən sahəsində inhisarların yaranmasının mənfi cəhətləri hansılardır? Fikrinizi əsaslandırın.
- Azərbaycanda ilk kapitalist müəssisələrini açanların xarici sahibkarlar olması nə ilə bağlı idi?

**Yaradıcı tətbiqetmə:** Şimali Azərbaycanda XIX əsrin birinci yarısında mövcud olan sosial təbəqələrlə ikinci yarısında olan təbəqələr arasında oxşar və fərqli xüsusiyyətləri Venn diaqramında göstərin.

**Ev tapşırığı:** H.Z.Tağıyev barədə məlumat toplayın. “H.Z.Tağıyev sahibkar və vətəndaş kimi” mövzusunda təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** Dövrləri dəyərləndirib təqdimatlar, müqayisəli-sinxron cədvəllər hazırlayır, əlaqələndirir.

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün yuxarıdakı meyarları nəzərə almağınız vacibdir. Bu məqsədlə qiymətləndirəcəyiniz şagirdləri dərs boyu diqqətdə saxlamalı və fəaliyyətlərini izləməlisiniz. Dərsin sonunda onları yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirmək mümkündür:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın neft sənayesinin XIX əsrin II yarısı və müasir dövrlərini mənbələr əsasında dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın neft sənayesinin XIX əsrin II yarısı və müasir dövrlərini mənbələr əsasında dəyərləndirir. | Azərbaycanın neft sənayesinin XIX əsrin II yarısı və müasir dövrlərini mənbələr əsasında dəyərləndirir, təqdimat hazırlamaqda çətinlik çəkir. | Azərbaycanın neft sənayesinin XIX əsrin II yarısı və müasir dövrlərini mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır. |
| Mənbələr əsasında Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəlləri və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlamaqda çətinlik çəkir. | Mənbələr əsasında Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəlləri və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəlləri müəllimin köməyi ilə hazırlayır. | Mənbələr əsasında Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəlləri və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəlləri bəzi səhvlərlə hazırlayır. | Mənbələr əsasında Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəlləri və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəlləri hazırlayır. |
| Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə əlaqələndirməkdə çətinlik çəkir. | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini suallardan istifadə etməklə XIX əsrin II yarısı ilə əlaqələndirir. | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə bəzi səhvlərlə əlaqələndirir. | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XIX əsrin II yarısı ilə əlaqələndirir. |

LAYİHƏ

## MÖVZU 7. MÜSTƏMLƏKƏÇİLİK ƏLEYHİNƏ ÇIXIŞLAR. MİLLİ DEMOKRATİK HƏRƏKAT

**Alt standartlar:**

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

**Təlim məqsədləri:**

1. Müstəmləkəçilik əleyhinə çıxışlar və Milli demokratik hərəkata aid müqayisəli-sinxron cədvəllər hazırlayır.
2. Milli demokratik hərəkatı Azərbaycan xalqının formalaşmasının xüsusiyyətləri ilə əlaqələndirir.
3. Müstəmləkəçilik əleyihinə çıxışlar və milli demokratik hərəkatın öyrənilməsi üçün müvafiq mənbələri seçir.

**İnteqrasiya:** İnformatika – 3.3.2., Ədəbiyyat – 1.1.4.
**Təlim forması**: kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, müzakirə
**Resurslar:** xəritə, dərslik, elektron vəsait, Konstitusiya

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiyanın yaradılması üçün şagirdlərə bu suallarla müraciət edin:

- Hər hansı haqsızlığa qarşı etirazınızı necə bildirirsiniz?
- Hansı etiraz formalarını tanıyırsınız?
- Kəndli öz etirazlarını necə bildirə bilər?
- Nə üçün cəmiyyətdə sosial etirazlar baş verir?

Bu sualların cavablandırılmasını müzakirə şəklində təşkil edin. Müzakirədən sonra şəkillərdən və internet resurslarından istifadə etməklə şagirdlərdə tarixi dövrlə bağlı təəssürat yarada bilərsiniz. Xüsusən də demokratik ziyalıların, qaçaqların şəkillərini göstərmək məqsədəmüvafiqdir. Motivasiya zamanı məqsəd şagirdləri yormaq və çaşqınlıq yaratmaq deyildir. Motivasiya vasitəsilə onları araşdırılacaq problemə sövq edərək araşdırma meyillərini formalaşdırmaq lazımdır.

**Tədqiqat sualı:** XIX əsrdə baş verən sosial etirazlar nə ilə nəticələndi?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılması üçün qrup işindən istifadə edə bilərsiniz. Sinfi 5 qrupa bölün. Qrup bölgüsünü müxtəlif üsullardan istifadə etməklə aparmaq olar. Ən rahat üsul sinfi 1, 2, 3, 4, 5 rəqəmləri ilə nömrələməklə qruplara ayırmaqdır. Sonra hər qrup ona verilmiş tapşırığı elan edilən müddətdə icra etsin. Tapşırıq verilən kimi ayrılan vaxtı söyləyin.

LAYİHƏ

Şagirdlər mütləq vaxta uyğun tapşırıqları icra etməlidirlər. Vaxta qənaət etmək, əməkdaşlıq və s. bu kimi nüanslar tərbiyəedici mühitin formalaşmasına yardım göstərir. Həmçinin qrup işlərinin icrası üçün şagirdlərə müxtəlif materiallar, mənbələr və s. resurslar paylanmalıdır ki, tədqiqat işi yüksək səviyyədə alınsın.

**I qrup.** Zaqatala üsyanının aparıcı qüvvələri kimlərdən ibarət idi? Zaqatala üsyanının başvermə səbəbləri nə idi? Cədvəl tərtib edin.

**II qrup.** Xalq başqa hansı mübarizə vasitələrindən istifadə edə bilərdi? Nə üçün insanlar qaçaqlara ümid yolu kimi baxırdılar? Əlaqələndirmə etməklə fikirlərinizi yazın.

**III qrup.** Fəhlələrin tələbləri ilə insan hüquqları arasında hansı əlaqə görürsünüz? Bu tələblər müasir dövrümüzdə hansı qanunlarda öz əksini tapıb? Cədvəl şəklində cavablandırın.

**IV qrup.** "Azərbaycanda XX əsrin əvvəllərində mövcud olmuş partiya və təşkilatlar" mövzusunda sinxron cədvəl qurun.

**V qrup.** Milli demokratik hərəkatın nəticələrini mənbələr əsasında təhlil edin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Müəyyən edilmiş vaxt bitdikdən sonra qrupların hazırladığı işin mübadiləsi, yəni təqdimatı həyata keçirilir. Mübadilənin reallaşdırılması zamanı müzakirələr aparılır, qeydlər edilir, yanlışlar düzəldilir, əlavələr olunur. Tövsiyə olaraq qeyd edək ki, qrupların işinin hər biri vaxt bitdikdən sonra yığılmalı, bir qrup təqdimat etdikdə o biri qrup işini davam etdirməməlidir. Çünki verilən tapşırıqlar şagirdlər tərəfindən dinlənilməli, onların hər biri araşdırılan problemlə bağlı bilik və bacarığa malik olmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda həyata keçirilmiş burjua islahatları kapitalist münasibətlərinin inkişafına səbəb oldu. Çarizmin milli siyasəti müxtəlif sosial təbəqələrin etirazlarına gətirib çıxardı. Kəndli hərəkatı genişləndi. XIX əsrin ortalarından kəndlilər arasında intiqamçılıq hissləri gücləndi və qaçaqçılıqda özünü göstərməyə başladı. Yeni ictimai qrupların meydana gəlməsi, ali təhsilli ziyalıların sayının artması milli-demokratik hərəkatın başlamasına təkan verdi. Fəhlə hərəkatı gücləndi. Fəhlələr arasında inqilabi baxışlar fəhlə hərəkatını genişmiqyaslı etiraz aksiyaları ilə müşayiət edirdi. Buna görə də Bakıda inqilabçı fəhlələrin sayı artdı. Çar hökuməti çıxış yolu kimi milli qırğın siyasətinə əl atdı. Bu siyasəti ziyalı və qabaqcıl burjuaziya da düzgün qiymətləndirərək etirazlar edir və millətin təşkilatlanmasına çalışırdı. Buna görə də bu hərəkat XX əsrin əvvəllərində partiya və təşkilatların yaranması ilə mühüm siyasi əhəmiyyət kəsb etdi. Bununla yanaşı, şagirdlər milli demokratik hərəkata aid müqayisəli-sinxron cədvəllər hazırlayırlar. Eləcə də hərəkatı Azərbaycan xalqının formalaşmasının xüsusiyyətləri ilə əlaqələndirirlər. Bütün bu prosesləri, tarixi faktları araşdırmaq üçün müvafiq mənbələri seçir, milli demokratik hərəkatın mənbələrdəki əksini izləyərək ümumiləşdirmələr aparırlar.

Müzakirə zamanı aşağıdakı sualları səsləndirməklə nəticələrin çıxarılmasına istiqamət vermək olar:

- Zaqatala üsyanının səbəbləri digər kəndli etirazlarının səbəblərindən nə ilə fərqlənirdi?

LAYİHƏ

- Kəndli hərəkatının xüsusiyyətləri nədən ibarət idi? Nə üçün o, kortəbii xarakter daşıyırdı?
- Xalq hərəkatının mərkəzlərini xəritədə göstərin.
- Nə üçün şifahi xalq ədəbiyyatında qaçaq hərəkatı müsbət xarakterizə edilir və tanınmış qaçaqlara dastanlar qoşulurdu?
- Necə düşünürsünüz, Azərbaycanda baş vermiş fəhlə hərəkatı nəyi sübut etməyi bacardı? Bu hərəkatın dünya fəhlə hərəkatına verdiyi töhfəni nədə görürsünüz?
- Müştərək müqavilənin əhəmiyyəti nədən ibarət oldu?
- Necə düşünürsünüz, çar hökumətinin milli qırğına əl atması hansı məqsədləri güdürdü?
- Nəyə görə tətil komitələrinə həm də fəhlə hökuməti deyilirdi? Dəlillərinizi gətirməklə cavab verin.
- Nə üçün yaradılan partiyaların və təşkilatların əksəriyyəti "müdafiə" və "nicat" sözləri ilə ifadə olunmuşdur?
- Demokratik hərəkatın milli burjuaziyaya ehtiyacı nədən irəli gələ bilərdi?
- Bu dövrün fəal ziyalılarından kimlərin adlarını çəkmək olar?
- Ə.Topçubaşovun əməyini necə qiymətləndirə bilərsiniz?
- Necə düşünürsünüz, nə üçün sonrakı Dövlət Dumalarında azərbaycanlı deputatların sayı azaldı?
- Rusiya müsəlmanlarının qurultaylarının fəaliyyətini necə qiymətləndirirsiniz?

Təbii ki, qrup işləri mütləq meyarlar əsasında dəyərləndirilməlidir. Sizə təqdim etdiyimiz meyarlar tövsiyə xarakterlidir. İstədiyiniz meyarı qrup qiymətləndirmə meyarları qisminə əlavə edə bilərsiniz.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| V | | | | | |

LAYİHƏ

**Yaradıcı tətbiqetmə:** Milli demokratik hərəkata dair sorğu vərəqi hazırlayın.

**Ev tapşırığı:** Ə.Topçubaşovu təkcə Azərbaycanda deyil, bütün Rusiya imperiyasında əhəmiyyətli siyasi xadim kimi dəyərləndirin. Təqdimat və ya onun haqqında əlavə məlumatlara müraciət etməklə mühazirə hazırlanması tapşırığını da verə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** sinxron cədvəl hazırlama, əlaqələndirmə, mənbə seçmə

Qiymətləndirmə standartlara uyğun meyarlar əsasında səviyyələrə görə aparılır.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Milli demokratik hərəkata aid müqayisəli-sinxron cədvəllər hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə milli demokratik hərəkata aid müqayisəli-sinxron cədvəllər hazırlayır. | Qismən çətinliklə milli demokratik hərəkata aid müqayisəli-sinxron cədvəllər hazırlayır. | Müstəqil şəkildə milli demokratik hərəkata aid müqayisəli-sinxron cədvəllər hazırlayır. |
| Milli demokratik hərəkatı Azərbaycan xalqının formalaşmasının xüsusiyyətləri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Sualların köməyi ilə milli demokratik hərəkatı Azərbaycan xalqının formalaşmasının xüsusiyyətləri ilə əlaqələndirir. | Cüzi çətinliklə milli demokratik hərəkatı Azərbaycan xalqının formalaşmasının xüsusiyyətləri ilə əlaqələndirir. | Müstəqil şəkildə milli demokratik hərəkatı Azərbaycan xalqının formalaşmasının xüsusiyyətləri ilə əlaqələndirir. |
| Müstəmləkəçilik əleyhinə çıxışların və milli demokratik hərəkatın öyrənilməsi üçün müvafiq mənbələri seçməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə müstəmləkəçilik əleyhinə çıxışların və milli demokratik hərəkatın öyrənilməsi üçün müvafiq mənbələr seçir. | Qismən çətinliklə müstəmləkəçilik əleyhinə çıxışların və milli demokratik hərəkatın öyrənilməsi üçün müvafiq mənbələr seçir. | Müstəqil şəkildə müstəmləkəçilik əleyhinə çıxışların və milli demokratik hərəkatın öyrənilməsi üçün müvafiq mənbələr seçir. |

LAYİHƏ

# MÖVZU 8. ÇARİZMİN MİLLİ QIRĞIN SİYASƏTİ

**Alt standartlar:**

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında 1905-ci ildə baş verən milli qırğın siyasətini keçmiş və müasir dövr baxımından dəyərləndirərək təqdimat hazırlayır.
2. Çarizmin milli qırğın siyasətinin öyrənilməsi üçün müvafiq mənbələr seçir.

**İnteqrasiya:** Ədəbiyyat – 1.1.4., Ümumi tarix – 1.1.2.
**Təlim forması:** fərdi və böyük qruplarla iş
**Təlim üsulu:** xəritə üzərində iş, İNSERT
**Resurslar:** dərslik, şəkillər, elektron vəsait, paylama materialı, dövrə aid mənbələr və ya əlavə məlumatlar və s.

## Dərsin mərhələləri

**Motivasiya:** Motivasiya üçün Xocalı faciəsini əksetdirən sənədli filmdən kadrlar nümayiş etdirin. Şagirdlərdən soyqırımın, faciənin, qırğının nə olduğunu soruşun. Fikirlərini ifadə etmək üçün onlara zaman ayırın. Ermənilərin, rusların siyasi məqsədlərini açıqlamağa istiqamətlənmiş suallarla müraciət edin. Bu məqsədlər üzərində dayanın, ermənilərin Azərbaycana köçürülməsi tarixinə qayıdın:

- Ruslar onları nə üçün vətənimizin ən gözəl guşələrində yerləşdirdilər? Ruslar ermənilərə hansı imkanları yaratmışdılar?
- Bəs ermənilərin azərbaycanlılara qarşı qırğınlarının tarixi nə vaxtdan başlayır?
- Erməni cinayətkarlarının qarşısı nə üçün alınmırdı?
- Onların arxasında duranların məqsədi nədən ibarət idi?
- “Parçala, hökm sür” siyasəti nə deməkdir? Bu siyasətin əsası nə vaxtdan qoyulub?

Bu sual ətrafında kiçik müzakirə aparın. Şagirdlərdə problemin səbəbini tarixi məqamlarda axtarmaq bacarığını formalaşdırmağa çalışın.

Bu dövrdə yaşamış Azərbaycan ədiblərinin yaradıcılığına da müraciət edə bilərsiniz. Məsələn, Cəfər Cabbarlının 1905-ci ili əks etdirən məlum dramından görüntülər nümayiş etdirmək olar. Motivasiya həyata keçirilib şagirdlərin fərziyyələri dinləndikdən sonra tədqiqatın aparılması üçün tədqiqat sualını elan etmək lazımdır. Onu lövhədə də yaza bilərsiniz. Əgər sizin məktəbdə İKT imkanları varsa, o zaman elektron lövhədə və ya proyektorun köməyi ilə tədqiqat sualını göstərmək olar. Tədqiqat sualı nəticələrin çıxarılmasına qədər diqqət mərkəzində saxlanılmalıdır. Sonda şagirdlər bu suala cavab tapmalı və məqsəddən yayınmamalıdırlar.

LAYİHƏ

**Tədqiqat sualı:** Çarizmin milli qırğın siyasətinin məqsədi nədən ibarət idi?

**Tədqiqatın aparılması:**

Tədqiqat fərdi formada aparılır. Lakin əvvəlcə şagirdlər məzmun ilə tanış olmalıdırlar. Oxu prosesi təşkil edilməlidir. **İNSERT** üsulundan yararlanın. Şagirdlər növbəli oxudan istifadə etməklə dərslikdə verilən materialı səsli şəkildə oxusunlar. Sonra sizin də müdaxilənizlə məzmunun müxtəlif məqamları üzərində dayanmaq, müzakirə aparmaq məqsədəmüvafiqdir. Bu zaman mətnə daxil edilmiş suallardan istifadə edə bilərsiniz. Məsələn:

- Nə üçün qırğınlar məhz Bakıda törədildi?
- Nə üçün ermənilər niyyətlərini həyata keçirə bilmədilər?
- Azərbaycan xalqının milli birliyi özünü nədə göstərdi? Belə bir şəraitdə millətin birləşməsinə ehtiyac nə qədər böyük idi?

Oxu prosesi bitdikdən sonra şagirdlərə bir dəqiqə vaxt verin ki, məzmunu bir daha gözdən keçirsinlər. Bundan sonra əvvəlcədən hazırlanmış tapşırıqları müəyyənləşdirin. Tapşırıqlar iş vərəqlərində yazılarsa, daha yaxşı olar. Bu, sonda şagirdlərin qiymətləndirilməsi prosesini asanlaşdırar. Çünki hər bir şagirdin nəticələri iş vərəqlərində olacaqdır. Eyni tapşırıqları müxtəlif şagirdlərə verə bilərsiniz. Çalışın ki, tapşırıqları səviyyəsinə görə paylaşdırasınız. Aşağı səviyyəli tapşırıqları yuxarı səviyyəli bacarıqlara malik şagirdlərə verməyin və ya əksinə. Tapşırıqları aşağıdakı qaydada tərtib edə bilərsiniz:

- Nə üçün çar hökuməti məhz 1905-ci ildə bu qırğınları törətdi? Fikirlərinizi qeyd edin.
- Ermənilərin məqsədlərini izah edin.
- Qabaqcıl ziyalılar bu qırğınlardan hansı nəticələri çıxardılar? Onların baxışlarında hansı dəyişikliklər yarandı? Fikirlərinizi qeyd edin.
- Milli qırğınlara münasibətdə siyasi partiyaların rolu nədən ibarət idi? Hansı siyasi partiyalar var idi? Sadalayın və fikirlərinizi yazın.
- Xəritədə erməni qırğınlarının törəndiyi əraziləri göstərməklə nəticələrini şərh edin.

**Məlumatın mübadiləsi və müzakirəsi**: Sualları şifahi şəkildə səsləndirərək şagirdlərin nəticələrini dinləyin. Hə bir yanlış tapşırığın üzərində düzəlişlər etməyi unutmayın. Şagirdlər öz nəticələrini almalıdırlar. Bunun üçün onlar XX əsrin əvvəllərində baş verən hadisələrə münasibətlərini fərdi qaydada izah etməyi bacarmalıdırlar.

| **Şifahi təqdimetmə bacarığının qiymətləndirilməsi cədvəli** | | |
|---|---|---|
| Şagirdin adı, soyadı, atasının adı: | | |
| Meyarlar | Bəli | Xeyr |
| Əsas faktları sadalayır. | | |
| Fikrini əsaslandırır. | | |
| Yersiz təkrara yol vermir. | | |
| Faktları söylərkən mənbələrdən istifadə edir. | | |
| Problemdən kənara çıxmır. | | |
| Əlaqələndirmə aparır. | | |
| Özünə inamla danışır. | | |
| Müəllimin rəyi. | | |

LAYİHƏ

Əgər vaxtınız varsa, şagirdlərə 5 dəqiqə zaman ayırın. Bu vaxt ərzində onlara fərdi şəkildə məzmunun xülasəsini yazmağı tapşırın. Xülasənin həcmi 5–10 cümləni əhatə etməlidir. Şagirdlərə hazırladığı xülasəni təqdimat şəklində vermələrini tapşırın.

**Özünüqiymətləndirmə:** Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

**Soyad, ad, ata adı:** Abdullayev Uğur Böyükağa oğlu

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər ümumiləşdirmədə fərdi qaydada iştirak etsələr, yaxşıdır. Bu zaman bəziləri təkrara yol verə bilərlər. Təbii olaraq, biz onların fikrinin təkrar olduğunu izah etməliyik. Şagirdlər başa düşməlidirlər ki, 1905-ci ilin milli qırğını ermənilər tərəfindən törədilmiş ilk irihəcmli qırğın idi. Bu siyasətin arxasında çar hökuməti dayanırdı və Azərbaycanda inqilabi hərəkatın qarşısını almaq məqsədi güdürdü. Ermənilər rusların məqsədlərindən istifadə edərək öz düşmənçilik niyyətlərini həyata keçirir və gələcək planları üçün tədbirlər hazırlayırdılar. Qırğın, ilk növbədə, çoxmillətli Bakı şəhərində baş tutdu. Burada inqilabi ruhlu fəhlələr yaşayırdılar. Tezliklə qırğınlar digər ərazilərə, xüsusən də Qarabağ və Naxçıvan bölgələrinə yayıldı. Azərbaycanlılar bu qırğınlarda tək qalmışdılar, buna görə də xilas yolunu milli birlikdə görürdülər. Siyasi partiyalar həmin birliyin təşkilatçılarına çevrilməyə çalışırdılar. Bu mənada qırğın çoxlu sayda insan aparsa da, mənfur erməni və rus millətçilərinin arzusunu ürəklərində qoydu. Azərbaycan xalqı özünü müdafiə etməyi bacardığını nümayiş etdirə bildi.

Şagirdlər 1905-ci ildə baş verən milli qırğın siyasətini keçmiş və müasir dövr baxımından mənbələr əsasında dəyərləndirərək təqdimat hazırlayırlar. Çarizmin milli qırğın siyasətinin öyrənilməsi üçün müvafiq mənbələr seçirlər.

**Yaradıcı tətbiqetmə:** Milli qırğın siyasətini özündə əksetdirən simvol hazırlayın.

**Ev tapşırığı:** Cəfər Cabbarlının "1905-ci ildə" əsərini oxuyaraq tarixi faktlarla müqayisə edib tezislər hazırlayın.

**Qiymətləndirmə meyarları:** təqdimat hazırlama, mənbəseçmə

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir. Məsələn, "Milli qırğın siyasətində məqsəd nə idi?", "Nə üçün çarizm baş verənlərə biganə yanaşırdı?", "Milli qırğın siyasətinin törədilməsində bəhanə nə oldu?" və s.

Qiymətləndirmə meyarlara əsasən səviyyələr üzrə aparılır.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| 1905-ci ildə baş verən milli qırğın siyasətini keçmiş və müasir dövr baxımından dəyərləndirərək mənbələr əsasında təqdimat hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə mənbələr əsasında 1905-ci ildə baş verən milli qırğın siyasətini keçmiş və müasir dövr baxımından dəyərləndirərək təqdimat hazırlayır. | 1905-ci ildə baş verən milli qırğın siyasətini keçmiş və müasir dövr baxımından dəyərləndirərək mənbələr əsasında təqdimat hazırlayır, bəzi yanlışlıqlara yol verir. | 1905-ci ildə baş verən milli qırğın siyasətini keçmiş və müasir dövr baxımından dəyərləndirərək mənbələr əsasında təqdimat hazırlayır. |
| Çarizmin milli qırğın siyasətinin öyrənilməsi üçün müvafiq mənbələr seçməkdə çətinlik çəkir. | Çarizmin milli qırğın siyasətinin öyrənilməsi üçün müəllimin köməyi ilə müvafiq mənbələr seçir. | Çarizmin milli qırğın siyasətinin öyrənilməsi üçün bəzi səhvlərlə mənbələr seçir. | Çarizmin milli qırğın siyasətinin öyrənilməsi üçün müvafiq mənbələr seçir. |

## Mövzu 9. Şimali Azərbaycan Birinci Dünya müharibəsi illərində

**Alt standartlar:**

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Birinci Dünya müharibəsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.
2. Birinci Dünya müharibəsi zamanı Azərbaycanın geosiyasi mövqeyinə dair təqdimatlar hazırlayır.

**İnteqrasiya:** Ümumi tarix – 2.1.1., Coğrafiya – 3.2.3.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, restavrasiya
**Resurslar:** şəkillər, paylayıcı materiallar, iş vərəqləri, dərslik, kompüter, proyektor, internet resursları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya qurmaq üçün "Müharibə nədir?", "Müharibə insanlara nə verir?", "İndiyədək yadda qalan hansı irimiqyaslı müharibələri xatırlayırsınız?" kimi suallar verib aldığınız cavabları ümumiləşdirərək şagirdləri lazımi məcraya yönəldə bilərsiniz.

LAYİHƏ

Mövcud dərsin motivasiyasını "PowerPoint" proqramından istifadə etməklə də yaratmaq olar. Bunun üçün siz dövrə aid slaydlar hazırlayıb şagirdləri dərsə kökləyə bilərsiniz. Slaydlar nümayiş olunduqdan sonra: "Bu slaydlar sizə nə deyir? Sizcə, bu təqdimat hansı hadisələri özündə əks etdirir?" – formalı suallar verib dərsin yeni mərhələsinə keçmək mümkündür.

**Tədqiqat sualı:** Birinci Dünya müharibəsi Azərbaycana hansı təsiri göstərdi?

**Tədqiqatın aparılması:**

Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında **restavrasiya** təlim üsulundan istifadə etməklə dərsinizi qura bilərsiniz. Bu üsul mətnlə işləməklə yanaşı, şagirdlərdə konspekt yazmaq və ondan istifadə etmək bacarığını da formalaşdırar. Bunun üçün onlara xüsusi şəkildə işarələnmiş, şərti işarələri olmayan, ixtisar edilmiş mətnlər vermək lazımdır. Şagirdlər müəyyən olunmuş vaxt çərçivəsində mətni bərpa edib genişləndirməlidirlər. Dərsin cəmi 45 dəqiqədən ibarət olduğunu nəzərə alaraq mövzunu hissələrə bölüb qruplara təqdim etməlisiniz. Bu zaman çalışmaq lazımdır ki, "restavrasiya" üçün hər bir qrupa verilmiş mətn parçalarının həcmi bərabər olsun. Tədqiqat məqsədilə qruplara aşağıdakı və ya özünüzün məsləhət bildiyiniz tapşırıqları verə bilərsiniz.

**I qrup.** Müharibənin Şimali Azərbaycan iqtisadiyyatına təsiri.

**II qrup.** Azərbaycanlıların müharibədə iştirakı.

**III qrup.** Azərbaycan vuruşan dövlətlərin planlarında.

**IV qrup.** Azərbaycanlıların müharibəyə münasibəti.

Dərsin **tədqiqatın aparılması** mərhələsi üçün ayrılmış vaxt bitdikdən sonra yeni mərhələyə – **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə keçə bilərsiniz.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Tədqiqat aparmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər bir qrup bu işi təqdim edəcək nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər bu yolla müxtəlif yanaşmalar, əldə edilmiş nəticələr və məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verməlisiniz. Onları əvvəlcədən hazırlamağınız məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla müraciət oluna bilər.

- Müharibəyə münasibətdə Azərbaycan ziyalıları arasında hansı fikir ayrılıqları var idi?
- Şimali Azərbaycan iqtisadiyyatının böhran vəziyyətinə düşməsinə yalnız müharibə dövrününmü amilləri səbəb olmuşdu?
- 1917-ci ilin sonlarına kimi Şimali Azərbaycanın Böyük Britaniya və Fransanın hərbi planlarında yer almamasının səbəbini nə ilə izah edərdiniz?
- General H.Naxçıvanskinin Müvəqqəti hökumətə xidmət etməməsinin səbəbi nə idi?

LAYİHƏ

- Sizcə, azərbaycanlılar Rusiyanın müharibədə qələbə çalacağı halda ölkədə hansı islahatları keçirəcəyinə ümid edirdilər?
- Rusiyada müsəlmanların orduya səfərbərlikdən azad edilməsi qaydasının müharibə dövründə aradan qaldırılmasının səbəbi nə ola bilərdi?
- Bakıda baş vermiş Qadınlar qiyamını necə qiymətləndirərdiniz?

**Yaradıcı tətbiqetmə:** Azərbaycanlı generalların müharibədə iştirakını təhlil edərək oxşarlıqlara dair cədvəl qurun.

**Ev tapşırığı:** "Azərbaycanlıların Birinci Dünya müharibəsində qəhrəmanlıqları" mövzusunda referat hazırlayın.

**Qiymətləndirmə meyarları:** əhəmiyyətini dəyərləndirmə, təqdimatlar hazırlama.

Mövcud dərsin qiymətləndirməsini yuxarıdakı meyarlar əsasında dərs izləməsi nəticəsində həyata keçirməlisiniz. Şagirdi dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirə bilərsiniz:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Birinci Dünya müharibəsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Birinci Dünya müharibəsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini müəllimin köməyi ilə dəyərləndirir. | Birinci Dünya müharibəsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini bəzi səhvlərlə dəyərləndirir. | Birinci Dünya müharibəsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir. |
| Birinci Dünya müharibəsi zamanı Azərbaycanın geosiyasi mövqeyinə dair təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Birinci Dünya müharibəsi zamanı Azərbaycanın geosiyasi mövqeyinə dair təqdimatları sinif yoldaşlarının yardımı ilə hazırlayır. | Birinci Dünya müharibəsi zamanı Azərbaycanın geosiyasi mövqeyinə dair təqdimatları bəzi səhvlərlə hazırlayır. | Birinci Dünya müharibəsi zamanı Azərbaycanın geosiyasi mövqeyinə dair təqdimatlar hazırlayır. |

LAYİHƏ

# IV FƏSİL. CƏNUBİ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

## MÖVZU 10. CƏNUBİ AZƏRBAYCAN XIX ƏSRDƏ

**Alt standartlar:**

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. XIX əsr Cənubi Azərbaycan tarixinin öyrənilməsi üçün müvafiq mənbələri seçir.
2. XIX əsrdə Cənubi Azərbaycanın İranın dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**İnteqrasiya:** İnformatika – 3.3.2., Ədəbiyyat – 1.1.4.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, üç cümlə
**Resurslar:** paylayıcı materiallar, qəzet və jurnal materialları, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik və s.

### Dərsin mərhələləri

**Motivasiya:** Dərsin motivasiyası kimi siz şagirdlərin diqqətini Gülüstan və Türkmənçay sülh müqavilələrinə yönəldə, bu müqavilələrin şərtlərini xatırlamalarını istəyə bilərsiniz. Bu zaman verdiyiniz suallarla onların diqqətini Cənubi Azərbaycana yönəltməyiniz vacibdir. Yaddan çıxartmaq olmaz ki, şagirdlərə ünvanlayacağınız suallar tədqiqat sualını almaq üçün sizə kömək etməlidir.

Bu dərsin motivasiyasını sadə formada da həyata keçirmək olar. Bunun üçün sizə lövhədə *Babilər üsyanı, Tənbəki üsyanı, taxıl möhtəkirliyi, Təbriz "vəliəhdneşini", ilati* kimi açar sözləri yazmaq və şagirdlərdən: "Bu sözləri birləşdirən ümumi cəhət hansıdır? Bu sözlər sizə neçənci əsrdən xəbər verir? O dövrdə Cənubi Azərbaycan siyasi cəhətdən hansı vəziyyətdə idi?" suallarına cavab istəmək lazımdır. Alınan cavabları ümumiləşdirib tədqiqat sualını elan etmək tövsiyə olunur.

**Tədqiqat sualı:** XIX əsr İran tarixinin inkişafında Cənubi Azərbaycanın rolunu necə dəyərləndirmək olar?

### Tədqiqatın aparılması:

Tədqiqatın aparılmasını fəal təlimin **üç cümlə** üsulundan istifadə etməklə həyata keçirmək olar. Bu üsulla təşkil edilən dərs zamanı şagirdlərə təqdim edilən tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə vermək olar. Bundan sonra onlara növbəti tövsiyələri xatırladın: "Hansı qrup hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür". Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqları verə bilərsiniz.

LAYİHƏ

**I qrup.** XIX əsrdə Cənubi Azərbaycanın iqtisadi vəziyyətini xarakterizə edin.

**II qrup.** XIX əsrdə Cənubi Azərbaycanın sosial vəziyyəti, aqrar münasibətləri, vergi sistemi necə idi?

**III qrup.** XIX əsrdə Cənubi Azərbaycanın siyasi durumunu dəyərləndirin.

**IV qrup.** Cənubi Azərbaycandakı xalq hərəkatını necə qiymətləndirərdiniz?

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Dərsin bu mərhələsində bütün sinif şagirdlərinin müzakirələrdə iştirakını təmin etməyə çalışın. Çünki çox sayda şagirdin iştirakı sizə ümumi nəticəyə gəlməyə yardım etməklə yanaşı, qiymətləndirməni rahat həyata keçirməyə, fəallığın təmin olunmasına və ümumilikdə dərsin maraqlı keçməsinə kömək etmiş olacaq.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Aparılan tədqiqatın ümumi nəticəsini çıxartmaq üçün bu mərhələdə siz şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

- Sizcə, Qacar şahlarının Cənubi Azərbaycana xüsusi diqqət yetirməsinin səbəbi nədə idi?
- Təbriz şəhəri ilə Şamaxı şəhərini necə müqayisə edə bilərik?
- XIX əsrin əvvəlləri ilə müqayisədə əsrin sonlarında əhalinin məşğuliyyətində baş verən dəyişikliklər nə ilə bağlı idi?
- Cənubi Azərbaycan əhalisinin narazılıqlarının səbəbləri haqqında danışın.
- Sizcə, nəyə görə Cənubi Azərbaycan iqtisadiyyatı Rusiyadan daha çox asılı idi?
- Xalq hərəkatlarının məğlubolma səbəblərini nə ilə izah edə bilərsiniz?

**Yaradıcı tətbiqetmə:** Bu mərhələdə şagirdlərə: “Fərz edin ki, siz Babilər hərəkatı dövründə Cənubi Azərbaycanda yaşayırsınız (özünüzə yaş, məşğuliyyət, sosial təbəqə və s. seçin). Bu üsyana münasibətiniz necə olardı?” sualını verə bilərsiniz.

**Ev tapşırığı:** Zeynəb paşa haqqında esse hazırlayın.

**Qiymətləndirmə meyarları:** müvafiq mənbələri seçmə, rolunu dəyərləndirmə

Qiymətləndirmə sizin dərsi izləməniz nəticəsində baş verməlidir. Dərsin bu son mərhələsində yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə şagirdləri qiymətləndirə bilərsiniz.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| XIX əsr Cənubi Azərbaycan tarixinin öyrənilməsi üçün mənbələri seçməkdə çətinlik çəkir. | XIX əsr Cənubi Azərbaycan tarixinin öyrənilməsi üçün mənbələri seçir. | XIX əsr Cənubi Azərbaycan tarixinin öyrənilməsi üçün müvafiq mənbələri seçməkdə çətinlik çəkir. | XIX əsr Cənubi Azərbaycan tarixinin öyrənilməsi üçün müvafiq mənbələri seçir. |
| XIX əsrdə Cənubi Azərbaycanın İranın dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkir. | XIX əsrdə Cənubi Azərbaycanın İranın dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu müəllimin köməyi ilə dəyərləndirir. | XIX əsrdə Cənubi Azərbaycanın İranın dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu bəzi səhvlərlə dəyərləndirir. | XIX əsrdə Cənubi Azərbaycanın İranın dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir. |

## MÖVZU 11. CƏNUBİ AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ. MƏŞRUTƏ HƏRƏKATI

**Alt standartlar:**

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Səttarxana dair mənbələrdəki baxışları dəyərləndirir.
2. Məşrutə inqilabında Azərbaycanın mövqeyini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.2., Azərbaycan dili – 1.1.1.
**Təlim forması:** böyük qruplarla və cütlərlə iş
**Təlim üsulu:** beyin həmləsi, iş vərəqləri ilə iş
**Resurslar:** dərslik, iş vərəqləri, İKT vasitələri, şəkillər, portretlər, flipçart, marker, yapışdırıcı lent, rəngli karandaşlar və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya kimi mövzunun əvvəlində giriş sözlərdən (*XX əsrin əvvəllərində dünya ölkələri arasında ziddiyyət son dərəcə kəskinləşmişdi. Təbii sərvətləri və torpaqları yenidən bölüşdürməyə cəhd edən imperialist dövlətlərin planlarında Cənubi Azərbaycanın daxil olduğu İran xüsusi yer tuturdu. Belə bir şəraitdə Cənubi Azərbaycan əhalisi arasında milli özünüdərk hissi yüksəlir və mübarizə əzmi sürətlə artırdı.*) istifadə etmək olar.

LAYİHƏ

Mövcud dərsə motivasiyanın qoyulmasının digər yolu **beyin həmləsi** üsuludur. Bunun üçün əvvəlcə şagirdlərə dünyanın hər hansı bir ölkəsində baş vermiş (*Burada seçim müxtəlifliyi ola bilər. Əsas odur ki, seçdiyiniz inqilabi hərəkatla Məşrutə hərəkatını əlaqələndirməyi bacarasınız.*) inqilabi hərəkat, onun başlanma səbəbləri haqqında qısaca məlumat verin. Daha sonra XX əsrin əvvəllərində İranın, o cümlədən Cənubi Azərbaycanın siyasi vəziyyəti ilə bağlı qısa "arayış" verib şagirdlərə: "Sizcə, İranda belə ağır şəraitdə yaşayan xalq kütlələrinin istəyi nə ola bilərdi? Əgər şah bu istəkləri qəbul etməsə, nə baş verə bilərdi?" kimi suallarla müraciət edə bilərsiniz. Alınan cavabları sistemləşdirib onları əlaqələndirdikdən sonra tədqiqat sualını elan etmək olar.

**Tədqiqat sualı:** Cənubi Azərbaycanın və Səttarxanın Məşrutə inqilabında hansı rolu olmuşdur?

**Tədqiqatın aparılması:**

Dərsin cütlərlə iş formasında keçilməsi məqsədəmüvafiqdir. Bu zaman şagirdləri cütlərə bölərək hər cütə iş vərəqləri paylayırsınız. Əgər sinifdə şagirdlərin sayı çoxdursa, üstünlük verdiyiniz hər hansı iş vərəqini və ya vərəqlərini təkrarən paylaya bilərsiniz. Bu, sonda həm sizin işinizi yüngülləşdirər, həm də eyni problemin həllinə müxtəlif yanaşma formasının meydana gəlməsinə şərait yaradar.

**I cüt.** XX əsrin əvvəllərində Cənubi Azərbaycanın sosial-iqtisadi vəziyyətini qiymətləndirin.

**II cüt.** Məşrutə hərəkatını milli azadlıq mübarizəsi kimi dəyərləndirmək olarmı? Fikrinizi əsaslandırın.

**III cüt.** XX əsrin əvvəllərində Cənubi Azərbaycanın siyasi vəziyyətini qiymətləndirin.

**IV cüt.** Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanın siyasi vəziyyətini şərh edin.

**V cüt.** Məşrutə hərəkatında Səttarxanın rolunu dəyərləndirin.

**VI cüt.** İnqilabi hərəkatın səbəblərini xarakterizə edin.

**VII cüt.** Məşrutə hərəkatına Şimali Azərbaycanın "dəstəyini" qiymətləndirin.

**VIII cüt.** Mövzunun sonunda verilmiş mənbə parçaları ilə Səttarxanın inqilabi hərəkatdakı rolunu qiymətləndirin.

**IX cüt.** XX əsrin əvvəllərində Şimali Azərbaycanla Cənubi Azərbaycan əhalisinin vəziyyətini müqayisə edin.

**X cüt.** "Urmi bəlası" ifadəsini şərh edin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Cütlərlə iş bitdikdən sonra şagirdlər iş vərəqlərini lövhədən asıb müəyyən olunmuş zaman ərzində təqdimatlarını edirlər. Bu vaxt cütlərin hazırladığı cavablar diqqətlə dinlənilməli, müzakirə olunub əlavələr edilməlidir. Yerdəki şagirdlərə cütlərin təqdimatlarına diqqətlə qulaq asmaq, müzakirələrdə fəal iştirak etmək tapşırığını verməyiniz dərsinizin bu mərhələsinin daha canlı alınmasına kömək edər. Eləcə də şagirdlərin qiymətləndirilməsi zamanı sizə əlavə imkanlar yaradar.

LAYİHƏ

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Verəcəyiniz yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab ala bilərsiniz.

- XX əsrin əvvəllərində Cənubi Azərbaycanın geri qalmasının səbəbləri nə idi?
- XX əsrin əvvəllərində şahdan narazı qalan qüvvələri necə təsvir etmək olar?
- Səttarxanın fədai dəstələri yaratmaqda məqsədi nə idi?
- Səttarxanı hansı tarixi şəxslə müqayisə etmək olar?
- Üsyanın məğlubolma səbəblərini aydınlaşdırın.
- Sizcə, İran şahı Məhəmmədəli ilə Rusiya imperatoru I Nikolayın hansı oxşar cəhətləri vardır?
- Müharibə aparan dövlətləri İrana cəlb edən nə ola bilərdi?

**Yaradıcı tətbiqetmə:** 1905–1911-ci illər inqilabını Rusiyada baş verən 1905–1907-ci illər inqilabı ilə Venn diaqramında müqayisə edin.

**Ev tapşırığı:** Səttarxanın həyat və fəaliyyətinə dair araşdırma aparın.

**Qiymətləndirmə meyarları:** baxışları dəyərləndirmə, mövqeyini dəyərləndirmə

Şagirdlərin qiymətləndirilməsini yuxarıda yazılmış meyarlar üzrə aparmalısınız. Bu zaman hər bir meyarı səviyyələr üzrə bölməlisiniz. Bunun üçün sizə aşağıda verilmiş cədvəl kömək edə bilər:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Səttarxana dair mənbələrdəki baxışları dəyərləndirməkdə çətinlik çəkir. | Səttarxana dair mənbələrdəki baxışları sualların köməyi ilə dəyərləndirir. | Səttarxana dair mənbələrdəki baxışları bəzi səhvlərlə dəyərləndirir. | Səttarxana dair mənbələrdəki baxışları dəyərləndirir. |
| Məşrutə inqilabında Azərbaycanın mövqeyini dəyərləndirməkdə çətinlik çəkir. | Məşrutə inqilabında Azərbaycanın mövqeyini müəllimin köməyi ilə dəyərləndirir. | Məşrutə inqilabında Azərbaycanın mövqeyini bəzi səhvlərlə dəyərləndirir. | Məşrutə inqilabında Azərbaycanın mövqeyini dəyərləndirir. |

LAYİHƏ

## V FƏSİL. AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

## MÖVZU 12. AZƏRBAYCAN MƏDƏNİYYƏTİ XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

**Alt standartlar:**

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.

5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.

**Təlim məqsədləri:**

1. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu dəyərləndirir.
2. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.
3. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfəsini araşdıraraq nəticələri təqdim edir.

**İnteqrasiya:** Ümumi tarix – 5.1.3. Ədəbiyyat – 3.1.2.
**Təlim forması:** kiçik qrupla və fərdi iş
**Təlim üsulu:** fasiləli oxu, təqdimat
**Resurslar:** dərslik, dövrün memarlıq abidələrinin şəkilləri, dövrün şəxsiyyətlərinin portreti, mövzuya aid slaydlar, flipçart, marker və s.

### Dərsin mərhələləri

**Motivasiya:** Bu mövzunun tədrisi zamanı motivasiya üçün dərslikdə verilmiş açar sözlərdən istifadə edə bilərsiniz. Açar sözlərin təqdim edilməsini **klaster** üsulu ilə reallaşdırmaq olar. Əgər bu sizi qane etmirsə, o zaman XIX əsr – XX əsrin əvvəllərinə aid mədəniyyət nümunlərini şagirdlərə təqdim etmək mümkündür. Yaxud İKT resurslarından istifadə etməklə dövrün mədəniyyət nümunələrinə virtual muzey səyahəti həyata keçirin və ya ölkələrin mədəniyyəti ilə bağlı internetdə yerləşdirilən materialları şagirdlərə təqdim edin. Bu zaman şagirdləri diqqətli olmağa çağırın. Təqdim edilən mədəniyyət nümunələrinin və ya nümunələr əsasında hazırlanmış videoçarxın nümayişi bitdikdən sonra onlar şifahi sual-cavabdan sonra dövrə aid abidələr haqqında danışa bilərlər. Verilən cavabın əsasında İntibah dövrü incilərinin, XIX əsr – XX əsrin əvvəllərindəki mədəniyyətin müasir mədəniyyətə təsiri və müasir mədəniyyətin o illərdən özünə götürdüyü irsi müəyyən etmiş olurlar. Əgər məktəbinizdə İKT imkanları yoxdursa, bu mərhələni şagirdlərin əvvəlki biliklərinə və təcrübələrinə əsasən şifahi şəkildə suallar verməklə də həyata keçirə bilərsiniz. Şagirdlər bu dövrün mədəniyyəti ilə 9-cu sinifdən tanış olduqları üçün bilikləri əsasında öz bacarıqlarını inkişaf etdirməyə sövq olunmalıdırlar. Onlar müxtəlif fərziyyələr söylədikdən sonra tədqiqat sualını verin.

LAYİHƏ

**Fasiləli oxu** üsulundan istifadə etməklə şagirdləri yeni materialla tanış edin. Verilmiş mövzunun arasında təqdim edilmiş sual və tapşırıqları icra etdirməyi unutmayın. Dərslikdə mövzular arasında verilmiş sual və tapşırıqlar həmin hissələrə aydınlıq gətirmək və şagirdləri, bir növ, yenidən motivasiya etmək məqsədi daşıyır. Bu mövzunun tədrisi zamanı tədqiqat sualı aşağıdakı kimi ola bilər.

**Tədqiqat sualı:** XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti hansı inkişaf yolunu keçdi?

**Tədqiqatın aparılması:**

Bu mövzunun tədrisi zamanı **təqdimat** üsulundan istifadə etmək mümkündür. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və sair) və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın həm fərdi, həm cüt, həm də qrup şəklində verilməsi məqsədəuyğundur. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa cəlb etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul həm də şagirdin özünü qiymətləndirməsində də səmərəlidir.

Təqdimatın həyata keçirilməsi zamanı şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar. Onlarda tənqidi təfəkkürü formalaşdırmaqla hadisələrə münasibət bildirmək, məlumatı qiymətləndirmək qabiliyyətini aşılamaq əsas məqsədlərdən biridir. Şagirdlər verilən məlumatı təhlil edərək baş vermiş prosesin və ya şəxsiyyətin müsbət və mənfi cəhətlərini göstərməklə qiymətləndirmək qabiliyyətinə yiyələnirlər.

Didaktik təfəkkür vasitəsilə hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək və onların inkişaf istiqamətlərini aşkar etdirmək nəzərdə tutulur.

Verilən sual və tapşırıqların köməyi ilə şagirddə məntiqi təfəkkür – müqayisə, ümumiləşdirmə, təsnifat, sistemləşdirmə, təqdimatı hazırlayıb təqdim etmək bacarıqları da formalaşır.

**I qrup.** XIX əsr – XX əsrin əvvəlində Azərbaycanda elmin inkişafını dəyərləndirib təqdimat hazırlayın.

**II qrup.** XIX əsr – XX əsrin əvvəlində Azərbaycanda təhsil sahəsində görülmüş tədbirləri və aparılmış islahatların milli-mənəvi dəyərlərimizə təsirini təhlil edib təqdimat hazırlayın.

**III qrup.** XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda incəsənətin inkişafının dünya mədəniyyətinə təsirini dəyərləndirib təqdim edin.

**IV qrup.** XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanda mətbuat və ədəbiyyatın inkişaf xüsusiyyətlərini dünya mədəniyyəti ilə əlaqədə dəyərləndirib təqdim edin.

**V qrup.** XIX əsr – XX əsrin əvvəllərinə aid olan Azərbaycan mədəniyyəti dünya mədəniyyətinə hansı töhfələrini verə bildi? Faktlara əsasən təqdimat hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Təqdimatda öz əksini tapmış cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

LAYİHƏ

Qruplar meyarlar əsasında qiymətləndirilir. Meyarlar cədvəli öncədən sinifdə asılır və ya lövhədə göstərilir ki, şagirdlər nəyin əsasında qiymətləndiriləcəklərini bilsinlər.

| Qruplar | Mənbələrdən düzgün istifadə | Tapşırığın düzgün hazırlanması | Təqdim-etmə | Əmək-daşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| V | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlər artıq XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyəti inkişafındakı rolunu dəyərləndirməklə yanaşı, bu dövrdə milli-mənəvi dəyərlərimizi dünya mədəniyyətinə töhfələr kimi qiymətləndirirlər. Müxtəlif bilikləri dərslik və ya əlavə resurslar vasitəsilə əldə edən şagirdlər XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri araşdıraraq nəticələri təqdim etmək bacarığına da nail olurlar. Nəticənin çıxarılması üçün aşağıdakı suallardan istifadə edə bilərsiniz:

- XIX əsrin ikinci yarısında mədəniyyətimizin inkişafının mənbəyi nə idi?
- Üsulu-cədid məktəblərinin yaranmasının xalqın maariflənməsinə nə kimi təsiri oldu?
- İlk mətbu orqanımızın bu dövrdə meydana çıxmasının səbəbini izah edin.
- Nə üçün çar Rusiyasının işğalı altında olmağımıza baxmayaraq, milli-mənəvi dəyərlərimiz sarsılmadı, əksinə, özünü inkişaf etdirə bildi?
- Bu dövrdə ədəbiyyatda hansı yeniliklər baş verdi?

**Yaradıcı tətbiqetmə:** XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətini özündə əksetdirən sxem və ya cədvəl tərtib edin.

**Ev tapşırığı:** Həsən bəy Zərdabi haqqında məlumat toplayıb referat hazırlayın.

**Qiymətləndirmə meyarları:** Rolunu dəyərləndirmə, nəticələri təqdimetmə

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir.

Qiymətləndirmə zamanı özünüqiymətləndirmə vərəqlərindən istifadə etmək olar. Aşağıda göstərilən özünüqiymətləndirmə vərəqi sizin işinizə yardımçı ola bilər.

LAYİHƏ

**Soyad, ad, ata adı:** Dadaşov Əli Bakir oğlu

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

Məqsədəmüvafiq meyarlara uyğun səviyyələr əsasında formativ qiymətləndirməni həyata keçirin. Bu zaman sinfin bir neçə şagirdini formativ qiymətləndirə bilərsiniz.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu dəyərləndirməkdə çətinlik çəkir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu suallar vasitəsilə dəyərləndirir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu cüzi səhvlərlə dəyərləndirir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin inkişafındakı rolunu dəyərləndirir. |
| XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi dəyərləndirməkdə çətinlik çəkir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi suallar vasitəsilə dəyərləndirir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi cüzi səhvlərlə dəyərləndirir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycan milli-mənəvi dəyərlərini dünya mədəniyyətinə töhfə kimi dəyərləndirir. |
| XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri araşdıraraq nəticələri təqdim etməkdə çətinlik çəkir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri araşdıraraq nəticələri suallar vasitəsilə təqdim edir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri araşdıraraq nəticələri cüzi səhvlərlə təqdim edir. | XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri araşdıraraq nəticələri təqdim edir. |

LAYİHƏ

# MÖVZU 13. RUSİYA İMPERİYASININ DƏRİN SİYASİ BÖHRANI DÖVRÜNDƏ ŞİMALİ AZƏRBAYCAN

**Alt standartlar:**

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. 1917-ci ildə Cənubi Qafqazda baş verən proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.
2. 1917-ci ildə Cənubi Qafqazda gedən siyasi proseslərdə Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

**İnteqrasiya:** Ümumi tarix – 2.1.2., Coğrafiya – 3.2.4.
**Təlim forması:** kiçik və böyük qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, cavab əldə elə
**Resurslar:** İKT avadanlıqları, https://www.youtube.com linki, slaydlar, şəkillər, iş vərəqləri, dərslik, qəzet və jurnal materialları, əsərlər, dövrə dair tarixi tədqiqatlar və s.

## Dərsin mərhələləri

**Motivasiya:** Motivasiya kimi siz şagirdlərə Çar Rusiyasının dağılmasına dair https://www.youtube.com linkindən yüklədiyiniz sənədli filmi nümayiş etdirə bilərsiniz. Bu sənədli filmdən seçdiyiniz bir hissəni izlədikdən sonra aşağıda təqdim edilən və ya buna oxşar suallar verib dərsin motivasiyasını qurmaq mümkündür:

- Gördüyünüz kadrlar sizə nə deyir?
- Kadrlarda nədən bəhs edilirdi?

Sizdə İKT-dən istifadə imkanı yoxdursa, motivasiyanızı beyin həmləsi yolu ilə və ya şagirdlərə o dövrə dair müxtəlif şəkillər göstərib qoyduğunuz suallar vasitəsilə də qurmaq olar. Motivasiyanı əvvəlki illərdə öyrənilmiş materiallar əsasında da yaratmaq mümkündür. Əsas odur ki, verəcəyiniz suallar düşündürücü olub şagirdlərdən istədiyiniz cavabı almağa kömək etsin. Belə olacağı halda çətinlik çəkmədən dərsin motivasiyasını qura və tədqiqat sualınızı elan edə bilərsiniz.

**Tədqiqat sualı:** 1917-ci ildə Cənubi Qafqazda gedən siyasi proseslərdə Azərbaycanın geosiyasi mövqeyini necə dəyərləndirmək olar?

## Tədqiqatın aparılması:

Tədqiqatın aparılması üçün **cavab əldə elə** üsulu ilə dərsin keçilməsini tövsiyə edərdik. Bu zaman şagird ayrı-ayrı mənbədən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaq. Dərs keçəcəyiniz sinifdə internetin və kompüterlərin olması sizə yardımçı olacaq. Kompüterin və ya kabelli internetin olmaması işə manеə deyil. Çünki müasir dövrdə smart telefonlarının köməyi ilə interneti digər telefonlara ötürmək mümkündür. Bunu nəzərə alsaq, onda bu dərs zamanı şagirdlərin telefonlardan istifadəsinə imkan vermək olar. Beləliklə, verilən məhdud vaxt ərzində şagirdlər aldıqları tapşırıqların cavablarını

LAYİHƏ

ya internet, ya da paylama materialı (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Bu zaman tapşırığı elə qoymaq lazımdır ki, o, tədqiqatçılığa söykənmiş olsun.

Sanki yarışmanı xatırladan bu dərsin sonunda tapşırığa daha tez və dəqiq cavab verən qrup qalib gəlir. Dərsdə internetdən istifadə etmək imkanı şagirdlərə əlavə stimul verir. Eləcə də informasiya bolluğundan lazım olan məlumatı seçib götürmək bacarığını inkişaf etdirir. Bunun üçün qruplara tədqiqat məqsədilə aşağıdakı sual və tapşırıqları verə bilərsiniz:

**I qrup.** Rusiyada Fevral inqilabından sonra gedən siyasi proseslərdə Şimali Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirin.

**II qrup.** Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti Komitəsinin 1917-ci ildəki fəaliyyətini necə qiymətləndirərdiniz?

**III qrup.** Rusiyadakı Oktyabr çevrilişindən sonra Şimali Azərbaycanda gedən siyasi prosesləri qiymətləndirin.

**IV qrup.** 1917-ci ildə Rusiyanın Cənubi Qafqazda hakimiyyətinin zəifləməsini nədə görmək olar?

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən olunmuş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qiymətləndirilir. Bu vaxt aşağıda verilmiş köməkçi suallardan istifadə edə bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlərə aşağıdakı suallarla müraciət etmək və dərsi ümumiləşdirib nəticə çıxarmaq olar:

- Rusiyada Fevral inqilabının Azərbaycanda müsbət qarşılanmasının səbəbləri, sizcə, nədə idi?
- Azərbaycanlıları siyasi proseslərdən kənarda saxlamaqla sosialist partiyalar nəyə nail olmaq istəyirdilər?
- Azərbaycanın milli siyasi qüvvələri tərəfindən milli muxtariyyət ideyasının müdafiə olunmasını nə ilə izah edə bilərsiniz?
- Fevral inqilabından sonra Azərbaycanın milli azadlıq hərəkatında hansı yeni meyillərin meydana çıxdığını sezmək olar?
- Rusiya Müəssislər Məclisinə Cənubi Qafqazda keçirilən seçkilərin nəticələri hansı qənaətə gəlməyə əsas verir?
- Kornilovun qiyamında iştirakına görə Azərbaycan cəmiyyətinin "Vəhşi diviziya"nı qınamasının səbəblərini necə izah edərdiniz?

**Yaradıcı tətbiqetmə:** "Cənubi Qafqaz 1917-ci ildə" xəritəsini cızın.

**Ev tapşırığı:** Osmanlı dövlətinin Cənubi Qafqaz Komissarlığı ilə ikitərəfli barışıq imzalamasının səbəblərini müəyyən edin.

**Qiymətləndirmə meyarları:** müvafiq mənbələri seçmə, mövqeyini nümayiş etdirən təqdimatlar hazırlama.

Siz qiymətləndirməni dərs izləməsi nəticəsində meyarlar üzrə aparmalısınız. Bununla belə, şagirdləri fərdi şəkildə qiymətləndirmək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı sual verməklə də bu işi yekunlaşdırmaq olar.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| 1917-ci ildə Cənubi Qafqazda baş verən proses və təzahürlərin öyrənilməsi üçün ümumi mənbələri müəllimin köməyi ilə seçir. | 1917-ci ildə Cənubi Qafqazda baş verən proses və təzahürlərin öyrənilməsi üçün ümumi mənbələri seçir. | 1917-ci ildə Cənubi Qafqazda baş verən proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçməkdə çətinlik çəkir. | 1917-ci ildə Cənubi Qafqazda baş verən proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir. |
| 1917-ci ildə Cənubi Qafqazda gedən siyasi proseslərdə Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlamaqda çətinlik çəkir. | 1917-ci ildə Cənubi Qafqazda gedən siyasi proseslərdə Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatları sualların köməyi ilə hazırlayır. | 1917-ci ildə Cənubi Qafqazda gedən siyasi proseslərdə Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatları bəzi səhvlərə yol verməklə hazırlayır. | 1917-ci ildə Cənubi Qafqazda gedən siyasi proseslərdə Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. |

## MÖVZU 14. BAKI SOVETİNİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI SİYASƏTİ

**Alt standartlar:**

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında Azərbaycanda həyata keçirilən milli qırğınlara aid müqayisəli cədvəllər hazırlayır.
2. Mənbələr əsasında Azərbaycanın 1917–1918-ci il tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.3., İnformatika – 4.1.2.
**Təlim forması:** böyük qruplarla və fərdi iş
**Təlim üsulu:** beyin həmləsi, bir dəqiqə
**Resurslar:** dərslik, sənədli materiallar, xəritə, şəkillər, flipçart, marker, https://www.youtube.com linki və s.

LAYİHƏ

**Dərsin mərhələləri**

**Motivasiya:** Mövcud dərsin motivasiyasını paraqrafın əvvəlində verilmiş giriş sözlərdən *(1918-ci ilin əvvəllərindən etibarən Cənubi Qafqazda cərəyan edən hərbi-siyasi proseslərin təsiri nəticəsində bölgə Rusiya hakimiyyətinin nəzarətindən çıxdı. İlk dəfə Cənubi Qafqazın say etibarilə daha çox olan xalqları vahid dövlətin yaradılmasına qərar verdilər. Lakin çarizmin on illərlə bölgənin xalqları arasında qarşılıqlı etimadsızlığı gücləndirmək siyasətinin nəticəsində Cənubi Qafqazın ilk müstəqil federativ dövləti qısa müddətdən sonra dağıldı. Azərbaycanın milli-siyasi qüvvələri belə bir şəraitdə xalqın müstəqil yaşamaq istəyini rəhbər tutaraq "İstiqlal bəyannaməsi"ni qəbul etdilər. Bununla da, tariximizin ən şərəfli dövrlərindən birinə qədəm qoyuldu.)* istifadə etməklə qurmaq olar. Bu zaman şərh edilən məsələyə bir neçə yönləndirici sual da qoya bilərsiniz. Şagirdlər fərziyyələr irəli sürdükdən sonra onların fikirini əsas hədəfə cəmləyin.

Motivasiyanı digər formada da yaratmaq olar. "Urmi bəlası" və Xocalı qətliamlarına söykənərək şagirdlərə əqli həmlə edilə bilər. Bu zaman onların diqqətini qırğının mahiyyətinə, qətliamlara məruz qalan və qətliamları törədən tərəflərə yönəltmək olar. Bunun ardınca əqli həmləni davam etdirib: "Bu qırğınlardan savayı azərbaycanlılara qarşı törədilmiş hansı qətliamları xatırlayırsınız? Bu qırğınları törətməkdə düşmən qüvvələrin maraqları nə ola bilərdi?" kimi suallarla şagirdlərə müraciət etmək yaxşı olardı. Verilmiş cavablar sistemləşdirildikdən sonra tədqiqat sualı elan oluna bilər.

**Tədqiqat sualı:** Azərbaycanda dövlət mövcud olacağı halda Bakı Soveti azərbaycanlılara qarşı soyqırımı siyasətini reallaşdıra bilərdimi?

**Tədqiqatın aparılması:**

Motivasiya mərhələsi bitdikdən, tədqiqat sualı elan olunduqdan sonra fəal təlimin mərhələlərindən biri olan tədqiqatın aparılmasını reallaşdırmaq üçün **bir dəqiqə** üsulundan istifadə etmək məqsədəmüvafiqdir. Bunun üçün şagirdlərə materialla tanışlığa vaxt verib onlara bu dərs üsulunun qaydalarını xatırladın ("Materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual və ya bir cümlə bildiriləcək. Siz də, öz növbənizdə, səsləndirilən problemi bir dəqiqə ərzində durmadan şərh etməlisiniz"). Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan yararlanmaq məqsədəuyğundur:

- 1917-ci ilin noyabr və 1918-ci ilin aprel ayları aralığında bölgəni sovetləşdirmək istəyən bolşeviklərin fəaliyyətini qiymətləndirin.
- Mart soyqırımı ərəfəsində Azərbaycan milli azadlıq hərəkatının liderlərinin fəaliyyətini dəyərləndirin.
- "Bakı Mart hadisələrindən əvvəlki aylarda" adlı mövzunu şərh edin.
- Mart soyqırımının müsəlman əhaliyə qarşı milli qırğın xarakterini sübuta yetirməyə çalışın.
- Bakıda 1905–1906-cı illərdə və 1918-ci ilin mart-aprel aylarında müsəlman və erməni qüvvələri arasında baş vermiş silahlı toqquşmaların müqayisəli təhlilini aparın.
- "Bakıda Mart hadisələri" adlı mövzunu xarakterizə edin.
- Soyqırımının Bakı quberniyasının bütün hüdudlarına yayılmasını dəyərləndirin.
- Soyqırımı ərəfəsində Azərbaycan milli təşkilatlarının fəaliyyətini xarakterizə edin.

LAYİHƏ

**Məlumatın mübadiləsi və müzakirəsi:** Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə başa çatdıqdan sonra fərdi işlərin nəticələri ümumiləşdirilir. Müəllim öz yekun sözləri ilə şagirdləri son nəticələrə yönəldir. Tətqiqat sualına cavab tapılır. Dərsin bu mərhələsində sizə aşağıdakı sual və tapşırıqlar yardım edə bilər:

- “Etnik təmizləmə” məfhumunu izah etməyə çalışın.
- Cəbhədən geri qayıdan rus hərbi hissələri nə üçün silahların bir hissəsini müsəlmanlara təhvil verməkdən imtina edirdilər?
- Sizin fikrinizcə, Bakıda Mart qırğınları, doğrudanmı, bir təsadüfi hadisədən baş vermişdi?
- 1918-ci ilin əvvəllərində Bakı Sovetinin silahlı qüvvələr yaratmaqda məqsədi nə idi?
- Sizcə, Mart hadisələri zamanı Bakı Sovetinin müsəlman əhalidən tələbi nə ola bilərdi?
- 1918-ci ilin yanvarında Şəmkir stansiyasında baş vermiş qanlı toqquşmada Komissarlıq nə dərəcədə məsuliyyət daşıyırdı?

**Yaradıcı tətbiqetmə:** Azərbaycanın dinc əhalisinə qarşı erməni quldurlarının vəhşilikləri ilə XIII əsrdə ölkəmizə soxulmuş monqolların zorakılıqlarının müqayisəli cədvəlini hazırlayın.

**Ev tapşırığı:** “Tarix ondan ibrət götürməyən xalqları cəzalandırır!” fikrindən yanaşsaq, 1918-ci ilin yazı və yayında azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımından hansı ibrətlərin götürülməli olduğunu müəyyən edin.

**Qiymətləndirmə meyarları:** müqayisəli cədvəllər hazırlama, araşdırmalar aparıb proqnozlar vermə.

Göstərilən meyarlar əsasında şagirdlərin formativ qiymətləndirməsini həyata keçirin. Siz formativ qiymətləndirməni müxtəlif vasitələrdən istifadə etməklə də reallaşdıra bilərsiniz.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanda həyata keçirilən milli qırğınlara aid mənbələr əsasında cədvəllər hazırlamaqda çətinlik çəkir. | Azərbaycanda həyata keçirilən milli qırğınlara aid mənbələr əsasında cədvəllər hazırlayır. | Azərbaycanda həyata keçirilən milli qırğınlara aid mənbələr əsasında müqayisəli cədvəllər hazırlamaqda çətinlik çəkir. | Azərbaycanda həyata keçirilən milli qırğınlara aid mənbələr əsasında müqayisəli cədvəllər hazırlayır. |
| Azərbaycanın 1917–1918-ci il tarixinə dair mənbələr əsasında araşdırmalar aparmaqda çətinlik çəkir. | Azərbaycanın 1917–1918-ci il tarixinə dair mənbələr əsasında araşdırmalar aparır. | Azərbaycanın 1917–1918-ci il tarixinə dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Azərbaycanın 1917–1918-ci il tarixinə dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verir. |

## MÖVZU 15. ŞİMALİ AZƏRBAYCAN MİLLİ DÖVLƏTÇİLİYİN BƏRPASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ YOLUNDA

**Alt standartlar:**

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirir.
2. AXC-nin yaranmasında mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 2.1.1., Coğrafiya – 3.2.3.

**Təlim forması**: fərdi və kiçik qruplarla iş

**Təlim üsulu:** beyin həmləsi, İNSERT, qərarlar ağacı, problemli vəziyyət

**Resurslar:** dərslik, AXC-nin xəritəsi, AXC-nin yaranmasında mühüm rol oynamış şəxslərin şəkilləri, elektron vəsait, paylama materialları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiyanın reallaşdırılması üçün dərslikdə verilmiş açar sözlərdən istifadə etməklə şagirdlərin diqqətini dərsə cəmləyib mexanizmi işə sala bilərsiniz. Yaxud da AXC-nin və Azərbaycan Respublikasının indiki xəritəsindən yararlanmaqla şagirdlərdən xəritələrə əsasən fərziyyələr almaq mümkündür. Onlardan bu xəritələr arasındakı əlaqəni və s. soruşmaq olar. Dövrün ziyalılarının – M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə və Ə.Topçubaşovun

LAYİHƏ

dövlətçiliyimiz barədə fikirlərini səsləndirməklə şagirdlərə bu istiqamətdə yönləndirici suallar verib onların məqsəddən yayınmamasına şərait yaradın. Siz çox sadə yolla, himnimizi oxutmaqla da motivasiyanı qurmaq imkanına maliksiniz. Bu mövzunun tədrisi zamanı motivasiyanın yaradılması üçün zəngin imkanlar vardır. Təbii ki, hər bir müəllim özünün metodik yanaşmasından, sinfinin bilik və bacarıq səviyyəsindən asılı olaraq motivasiya mərhələsini müxtəlif vasitələrlə reallaşdıra bilər. Bizim təklif etdiyimiz motivasiyalar tövsiyə xarakterlidir.

Şagirdlər öz fərziyyələrini irəli sürdükdə onların fikirlərini qeydə alın. Motivasiya baş tutduqdan sonra **İNSERT** üsulundan istifadə tövsiyə olunur. Dərslikdəki mövzunu şagirdlərə **İNSERT** üsulu vasitəsilə çatdırmaq onların inkişafına kömək edər. İşarələr sistemindən istifadə edib mətni başa düşmək üçün biliyini yoxlamaqla düzgün cavab axtarmaq üsulu olan **İNSERT-in** tətbiqi zamanı yeni dərsi oxumamışdan əvvəl müəllim şagirdləri cütlərə ayırır. Beş dəqiqə ərzində onlardan xahiş edir ki, AXC haqqında nə bilirlərsə, təsəvvürlərinə gələnləri qısa şəkildə yazsınlar. Müəllim bildirir: "Ola bilsin, yazdıqlarınız dəqiq olmasın, buna bir o qədər fikir verməyin, dərsin gedişi zamanı düzəliş aparacağıq. AXC-nin yaranması haqqında bildiklərinizi siyahı şəklində, alt-alta yazın". AXC-nin yaranmasına gedən yol, atılmış addımlar, dövlətin yaranması istiqamətində görülmüş işlər, dövlət yarandıqdan sonra görülən tədbirlər və s. haqqında məlumatlar lövhədə qeyd edilir və ümumiləşdirilir. Bundan sonra mətn oxutdurulur, müəllim şagirdlərə müraciət edərək deyir: "Oxuduqca səhifələrin kənarında işarələr qoyacaqsınız, işarələr aşağıdakı kimi olmalıdır: 1. Əvvəl bildiyiniz məlumatı təsdiq edən informasiya varsa, qarşısında **(V)** işarəsini qoyun. 2. Oxuduğunuz bir informasiya əvvəllər bildiyini inkar edirsə, **(–)** işarəsi qoyun. 3. Rast gəldiyiniz informasiya sizin üçün təzədirsə, (+) işarəsi ilə göstərin. 4. Haqqında əlavə məlumat almaq istədiyiniz məsələ varsa, qabağında **(?)** işarəsi qoyun".

**Tədqiqat sualı:** Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının tariximizdəki yeri və rolu nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

Bu mövzunun tədrisi zamanı **problemli vəziyyət** üsulundan istifadə etmək olar. Bu üsulun tətbiqi tarix fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünürlər. Problemli vəziyyət əks olunmuş iş vərəqləri bağlı şəkildə şagirdlərə paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır. Problemli vəziyyət şagirdlərin düşünüb qərarlar qəbul etməsinə təsir edən üsullardan biridir.

Siz bu üsulu tətbiq etməklə yanaşı, digər üsullardan istifadə etməklə də şagirdlərə qrup işləri verib tədqiqata cəlb edə bilərsiniz.

**I qrup.** 1918-ci ildə Azərbaycan ərazisində mövcud olmuş ikihakimiyyətliliyi müəyyənləşdirin. İkihakimiyyətliliyin xalqın ümumi mənafeyinə təsirini təhlil edin. Azərbaycanın müstəqilliyinə mane olan qüvvələrin fəaliyyətini dəyərləndirin.

**II qrup.** Seymin fraksiyalarının müharibə və sülh məsələlərində mövqelərini təhlil edərək oxşar və fərqli cəhətləri tapın. Bu oxşarlıq və fərqliliyin Azərbaycan üçün nəticələrini dəyərləndirin.

LAYİHƏ

**III qrup.** Bakının azad edilməsinin Azərbaycan tarixində hansı əhəmiyyəti daşıdığını aydınlaşdırın. Bakıda möhkəmlənməyə çalışan yadelli qüvvələrin ən başlıca problemlərini müəyyənləşdirib dövrün proseslərini qiymətləndirin.

**IV qrup.** AXC-nin yaranmasının dövlətçilik tariximiz üçün əhəmiyyətini əsaslandıraraq bugünkü dövlətçilik tariximizlə əlaqəli dəyərləndirin.

**V qrup.** AXC-nin yaranmasında mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini təhlil edib qiymətləndirin.

**VI qrup.** AXC-nin dövlət idarəetmə formasını müzakirə edin və dövrə uyğun olaraq dəyərləndirin.

**Məlumatın mübadiləsi**: Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Mübadilə mərhələsi üçün vaxt elan edin. Çünki şagirdlərin təqdimatına məhdudiyyət qoyulmasa, digər işlərinizi çatdıra bilməzsiniz.

**Məlumatın müzakirəsi:** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| V | | | | | |
| VI | | | | | |

Sizə təqdim edilən bütün təlim forması və üsulları, eləcə də tapşırıqlar tövsiyə xarakterlidir. Təbii ki, zamanınıza və sinfinizin fəaliyyətinə görə sizə lazım olan forma və üsulu seçib tətbiq etməklə məqsədəmüvafiq bilik və bacarıqları şagirdlərdən ala bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Araşdırma istiqamətində tədqiqat sualına cavab axtaran şagirdlər Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması istiqamətində atılan addımlar, ziyalılarımızın fəaliyyəti, Rusiyanın xalqımıza qarşı ədalətsiz münasibəti, Seymin buraxılması və Cənubi Qafqaz Federativ Demokratik Respublikasının süqutu, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və s. bilikləri əldə edərək bu biliklər əsasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirməklə yanaşı, AXC-nin yaranmasında mühüm fəaliyyəti olmuş şəxsiyyətləri dəyərləndirməyə nail olurlar. Bu zaman siz onlara aşağıdakı sual və tapşırıqlarla müraciət edə bilərsiniz:

- Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamını (Bakı şəhəri, 16 may 2017-ci il) oxuyub dəyərləndirin.

LAYİHƏ

- 1918-ci ilin aprelində Seymin Osmanlı dövləti ilə müharibə aparmasına Qafqazın müsəlman əhalisinin münasibəti necə idi?
- AXC-nin yaradılmasını zəruri edən amillər hansılar idi?
- Azərbaycan sərvətlərinin talanması sahəsində çar və sovet Rusiyasının ümumi cəhətləri hansılardır?
- Almaniya nə üçün müttəfiqi Osmanlı dövlətinin Bakıya doğru yürüşünün qarşısını almağa çalışırdı?
- Nə üçün Seym Osmanlı dövlətinə qarşı müharibə qərarını verdi? və s.

**Yaradıcı tətbiqetmə:** Dərslikdə verilmiş mətn əsasında AXC-nin yaranması və bu istiqamətdə görülən tədbirləri sxemləşdirib təqdim edin.

**Ev tapşırığı**: Mənbələr əsasında AXC-nin tarixində mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətinə dair referat hazırlayın.

**Qiymətləndirmə meyarları**: rolunu dəyərləndirmə, fəaliyyətini dəyərləndirmə.

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkir. | Suallar vasitəsilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirir. | Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin inkişafında rolunu bəzi səhvlərlə dəyərləndirir. | Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirir. |
| AXC-nin yaranmasında mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | AXC-nin yaranmasında mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini suallar vasitəsilə dəyərləndirir. | AXC-nin yaranmasında mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini bəzi faktlarda səhv etməklə dəyərləndirir. | AXC-nin yaranmasında mühüm rol oynamış şəxsiyyətlərin fəaliyyətini faktlardan istifadə edərək dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 16. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DAXİLİ SİYASƏTİ

**Alt standartlar:**

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. AXC-nin daxili siyasətini öyrənmək üçün müvafiq mənbələri seçir.
2. AXC-nin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.1., Coğrafiya – 3.2.1.

**Təlim forması:** cütlərlə iş

**Təlim üsulu:** fasiləli oxu, müzakirə

**Resurslar**: iş vərəqi qismində kontur xəritələr, cədvəl, AXC dövlətinin xəritəsi, paylama materialı, şəkillər, mənbələr

**Dərsin mərhələləri**

**Motivasiya**: Bu dərsdə motivasiyanı bir neçə formada qurmaq olar. Əgər sizin məktəbin İKT resurs təminatı varsa, o zaman Azərbaycan Xalq Cümhuriyyətinə aid çəkilmiş sənədli filmlərdən bir fraqmenti şagirdlərə göstərin və sonra onları verəcəyiniz yönləndirici suallara cavab tapmağa sövq edin. Yaxud mövzunun əvvəlində verilmiş açar sözlərdən istifadə etməklə və qoyduğunuz sualların köməyi ilə motivasiyanı yarada bilərsiniz.

Şagirdlərə AXC dövrü aşağı siniflərdən bəllidir. Onların bu mövzu ilə bağlı müəyyən bilikləri, araşdırmaları və bacarıqları vardır. Ona görə də əvvəlki siniflərdə keçilmiş materiallara əsaslanaraq **anlayışın çıxarılması** üsulundan istifadə etməklə də motivasiyanı qurmaq olar. Yaxud da M.Ə.Rəsulzadənin əsərlərindən bir hissəni oxuyub şagirdlərin diqqətini materiala cəlb etmək mümkündür. Əli bəy Hüseynzadənin ideyalarını söyləməklə də şagirdləri yönləndirici suallarla AXC dövrünə istiqamətləndirməyə nail ola bilərsiniz. Əsas odur ki, onların fərziyyələri olsun və bu zəmində araşdırma meyilləri yüksəlsin.

Hər hansı bir motivasiya formasından istifadə edildikdən, şagirdlərin fərziyyələri dinlənildikdən sonra dərsin növbəti mərhələsinə keçid üçün tədqiqat sualını verin.

**Tədqiqat sualı:** Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycanın dövlətçilik tarixindəki rolu nədən ibarət oldu?

**Tədqiqatın aparılması:**

Bu suala cavab axtarmaq üçün cütlərə tapşırıqlar verilir. Lakin bundan əvvəl **fasiləli oxu** üsulunu tətbiq etməklə mövzu ilə tanışlığı həyata keçirin. Fasiləli oxu zamanı aydın olmayan və ya maraqlı olan hissələrin müzakirəsini aparıb oxuya davam edin. Oxu zamanı şagirdlərin dərslikdə verilmiş mövzuarası suallara cavab tapmasına çalışın. Bu üsul üçün ayrılmış vaxt bitdikdən sonra cütlərin tapşırıqlarını paylayın. Cüt işi meyarlarının təqdim olunmasını da unutmayın. Qrup işi zamanı inteqrasiya imkanlarına uyğun tapşırıqlar da verə bilərsiniz.

LAYİHƏ

**I cüt** – Mənbələr əsasında AXC dövründə mövcud olan əhalinin təsərrüfat həyatını araşdırıb müasir dövrlə əlaqəli dəyərləndirin.

**II cüt** – Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair qrafik tərtib edin.

**III cüt** – AXC hökumətlərinin iqtisadi siyasətinin əsas prinsiplərini müəyyən edin.

**IV cüt** – AXC hökumətlərinin sosial sahədə keçirdikləri tədbirləri təhlil edin və qiymətləndirin.

**V cüt** – Parlamentin yaradılması hansı zərurətdən irəli gəlirdi? Mənbələrə əsasən dəyərləndirin.

**VI cüt** – Parlamentli respublika quruluşunda olan AXC-də çoxpartiyalılığın təmin edildiyini əsaslandırın.

**VII cüt** – Batum müqaviləsi ilə AXC-nin bir sıra ərazilərinin Osmanlı dövlətinə verilməsi zərurətini izah edin.

**VIII cüt** – AXC dövründə aqrar islahatın keçirilməsinə mane olan səbəbləri müəyyənləşdirin.

**IX cüt** – AXC hökumətinin tək partiyadan təşkil olunmamasının səbəbini aydılaşdırın.

**X cüt** – Xosrov Sultanovun AXC-nin ərazi bütövlüyünün təmin olunmasında rolunu dəyərləndirməyə çalışın.

LAYİHƏ

Bu mövzunun tədrisində **müzakirə** üsulundan da istifadə etmək olar. Bu zaman müzakirə üçün aşağıdakı suallardan yararlanmaq tövsiyə edilir.

- AXC-nin yaranmasına səbəb olan tarixi şərait necə idi?
- AXC-nin ordu islahatının mahiyyəti nədə idi?
- AXC-nin dövlət idarəçilik quruluşunun müasir dövlət quruluşumuzla hansı əlaqəsi vardı?
- Parlamentin yaradılması hansı zərurətdən irəli gəlirdi?
- General Tomsonun Fətəli xan Xoyski hökumətini tanımasının səbəblərini nə ilə izah edərdiniz?
- Azərbaycan Milli Ordusunun yaradılması sahəsində hansı çətinliklər mövcud idi?
- Qarabağ general-qubernatorluğunun yaradılmasında məqsəd nə idi?
- 1918-ci ilin dekabrında Bakıda fəhlələrin tətilinin təşkilatçıları hansı qüvvələr idi?
- 1919-cu ildə Azərbaycan ərazisində hansı separatçı qüvvələr zərərsizləşdirildi?
- AXC-nin daxili siyasətinin ən önəmli hissəsi nədən ibarət idi?
- AXC-nin daxili siyasətdə islahatların aparılmasında elm və təhsilin inkişafına fikir verməsinin səbəbi nə idi? və s.

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadilə əsasında aparılmalıdır. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir. Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı “bəli” və ya “xeyr” olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Müəyyən olunmuş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında cütlər qiymətləndirilir.

LAYİHƏ

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıq etmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| Tuncay | | | | | |
| Mələk | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirələrdən sonra fikirləri ümumiləşdirin və nəticələri şagirdlərin özlərindən almağa çalışın. Yaxşı olar ki, bu nəticələri sonda elektron lövhədə də göstərəsiniz. Ümumilikdə, bu dərsin məqsədi şagirdlərin AXC-nin daxili siyasətini öyrənmək üçün müvafiq mənbələri seçməsi və AXC-nin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirməkdir. Nəticədə şagirdlərdən bilik və bacarıqları bu və ya digər formada ala bilmisinizsə, deməli, məqsədə nail olmusunuz.

**Yaradıcı tətbiqetmə:** Dərslikdə verilmiş cədvəllərdəki məlumatları təhlil edərək icmal hazırlayın və ya AXC-nin daxili siyasətinə dair dərslikdəki materialları oxuyub, ümumiləşdirmə aparıb daxili siyasətin istiqamətləri ilə bağlı cədvəl qurun.

**Ev tapşırığı:** “Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasəti” adlı referat hazırlayın.

**Refleksiya və qiymətləndirmə:** Bildiyiniz kimi, fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təhsil (öyrətməyi öyrənmək), müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır.

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və məziyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir.

Buna görə dərs başa çatdıqdan sonra göstərilmiş prosedurlardan birini – qiymətləndirmə və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək mümkündür. Bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bunun müxtəlif üsullarla və müxtəlif formalarda həyata keçirilməsi mümkündür. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə şagirdləri yeni biliklərin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin alqoritmini izləməyə kömək edə biləcək bir neçə sualın verilməsi kifayətdir. Məsələn: “Biz nəticəyə necə gəlib çıxdıq?”, “Biz nə edirdik?”, “Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi?” və s. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini və ünsürlərini dərk etmiş olur.

Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə qiymətləndirməni reallaşdıra billərsiniz.

LAYİHƏ

**Soyad, ad, ata adı:** Dadaşova Banu Nicat qızı

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

**Qiymətləndirmə meyarları:** mənbəseçmə, dəyərləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| AXC-nin daxili siyasətini öyrənmək üçün müvafiq mənbələri seçməkdə çətinlik çəkir. | AXC-nin daxili siyasətini öyrənmək üçün müvafiq mənbələri müəllimin köməyi ilə seçir. | AXC-nin daxili siyasətini öyrənmək üçün müvafiq mənbələri bəzi səhvlər etməklə seçir. | AXC-nin daxili siyasətini öyrənmək üçün müvafiq mənbələri müstəqil şəkildə seçir. |
| AXC-nin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkir. | AXC-nin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu suallar əsasında dəyərləndirir. | AXC-nin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu bəzi səhvlərlə dəyərləndirir. | AXC-nin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu sərbəst şəkildə dəyərləndirir. |

## MÖVZU 17. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ

**Alt standartlar:**

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. AXC-nin xarici siyasətinə əsasən Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.
2. Mənbələr əsasında AXC-nin xarici siyasətini araşdırır, proqnozlar verir.
3. AXC-nin xarici siyasətində mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir.

LAYİHƏ

**İnteqrasiya:** Ümumi tarix – 4.1.1., Coğrafiya – 3.2.3.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulu:** birgə axtarış, diskussiya, İNSERT, söz assosiasiyası

**Resurslar**: dərslik, xəritə və sxem, AXC ilə bağlı videomaterial, slayd, mənbələrdən hazırlanmış paylama materialı, iş vərəqləri

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya söz assosiasiyası əsasında aparılır. AXC adı mərkəzdə qeyd olunur. Şagirdlər bu adla bağlı ilk xatırladıqları fikirləri söyləyir və bu fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasında seçilir və əlaqələndirilir, onlardan ideya çıxarılır. Bu yolla yeni materialın öyrənilməsinə başlanılır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər. Müəllim Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətdə keçdiyi tarixi proseslərdən söz açaraq yeni mövzuya keçid alır. Mövzu aydınlaşdıqdan sonra **İNSERT** üsulu ilə oxudulması və qeydlərin götürülməsi məqsədəuyğundur. Oxudulduqdan sonra tədqiqat sualı formalaşdırılır.

Motivasiyanın yaradılmasının digər bir yolu da Azərbaycan Tarix Muzeyinə virtual səyahətdir. Bu zaman Azərbaycan Xalq Cümhuriyyəti bölməsinə aid olan və orada yerləşən AXC dövrünün nümunələrini şagirdlərə təqdim edə bilərsiniz. Həmçinin göstərilən muzey eksponatlarına dair suallar verməklə onların fəallaşmasına şərait yaradın. Məqsəd şagirdlərin diqqətini araşdırılacaq problemə yönləndirməklə tədqiqata maraq yaratmaqdır.

**Tədqiqat sualı:** Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin rolu nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

Tədqiqat sualına cavab tapmaq üçün **birgə axtarış** – suallar üzrə diskussiya üsulunu tətbiq etmək olar. Bu üsul zamanı müəllim şagirdlərə qabaqcadan hazırlanmış izahedici sualları nəzərdən keçirməyi və müzakirə aparmağı təklif edir. İzahedici suallar mətnin məzmunu ilə bağlı olur, onu həyata keçirmək üçün fərdi, qrup, kollektiv və ya cütlərlə iş formasını tətbiq etmək olar.

Kollektiv işin təşkili üçün aşağıdakı sualları verə bilərsiniz:

1. AXC-nin xarici siyasəti hansı mərhələlərdən keçmişdir?
2. ABŞ-ın Qafqazda, o cümlədən Azərbaycanda mümkün maraqları nə idi?
3. Azərbaycan və Gürcüstan arasında hərbi ittifaqın yaradılmasının səbəbi nə idi?
4. İranın ilk dövrdə AXC-yə qarşı mənfi münasibətinin səbəbi nə idi?
5. Qafqaz konfranslarının uğursuzluqları hansı səbəblərlə bağlı idi?
6. Ə.Topçubaşovun xarici siyasətdə rolu nədən ibarət idi?

Birgə axtarış üsulunu tətbiq edərkən şagirdlərə qrup işini də təqdim etmək olar. Aşağıda verilmiş qrup işi üçün nümunələr sizə istiqamət verə bilər.

LAYİHƏ

**I qrup**. Mənbələr əsasında Osmanlı-AXC münasibətlərini araşdıraraq dəyərləndirmə aparın.

**II qrup**. AXC-nin Qərb dövlətləri ilə münasibətlərini araşdıraraq bu dövlətin geosiyasi əhəmiyyətini qiymətləndirin.

**III qrup**. M.Ə.Rəsulzadənin, Ə.Topçubaşovun və F.Xoyskinin xarici siyasətdəki fəaliyyətini araşdıraraq sistemləşdirib dəyərləndirin.

**IV qrup.** Paris sülh konfransı və onun AXC üçün nəticələrini təhlil edib gələcək dövlətçilik tariximizə təsirini proqnozlaşdırın.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Bu mərhələdə şagirdlər öz qrup işlərini təqdim edirlər. Qrup liderləri verilmiş tapşırığın təqdimatını qrup adından müəllimə verirlər. Lazım gələrsə, qrup üzvləri ona yardım edə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyarlar əsasında qruplar qiymətləndirilir. Qrupun meyarlar cədvəli öncədən sinifdən asılır. Şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri lövhədə göstərilə bilər.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib. | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi**

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 bal sistemindən istifadə etmək məsləhət görülür.

| | |
|---|---|
| **Həmişə dəqiqdir.** | |
| **Əsasən dəqiqdir.** | |
| **Kifayət qədər dəqiq deyil.** | |
| **Qeyri-dəqiqdir.** | |
| **İnformasiya yoxdur.** | |

LAYİHƏ

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bu mərhələni həyata keçirmək üçün diskussiya təşkil etmək tövsiyə olunur.

Diskussiya prosesində şagirdlər müzakirə olunan məsələ barədə fikirlərini söyləməklə onu əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli fikirlərə dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır.

Diskussiya zamanı aşağıdakı suallardan istifadə edə bilərsiniz:

- AXC-nin xarici siyasətinə nələr daxil idi?

- AXC-nin Dağlılar Respublikası ilə bağlı siyasətinin məqsədi nə idi?
- Azərbaycan və Gürcüstan arasında hərbi ittifaqın yaradılmasının səbəbi nə idi?
- Fransa hökumətinin AXC nümayəndələrinə viza verilməsini ləngitməsinin nəticəsi nə oldu? və s.

Diskussiyanı həyata keçirdikdən sonra ümumiləşmə aparıb nəticə çıxarmaqda şagirdləri yönləndirə bilərsiniz. Onlar Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi xarici siyasəti araşdırır, bu siyasətin uğurlu və uğursuz tərəflərini vurğulayırlar. Bunun üçün AXC-nin xarici siyasətinə aid mənbələr təhlil edilir, yazılı tarixi sənədlərin AXC dövrünə aid olduğu aydınlaşdırılır, AXC dövründə Azərbaycanın diplomatik aləmdə mövqeyinə dair qrafik və diaqramlar tərtib edilir.

**Yaradıcı tətbiqetmə:** Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətdə atdığı addımları cədvəlləşdirin.

**Ev tapşırığı**: Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti haqqında əlavə məlumat toplayıb təqdimat hazırlayın.

**Refleksiya və qiymətləndirmə:** Sonda dərslikdə verilmiş suallardan istifadə etməklə şagirdləri fərdi şəkildə qiymətləndirmək mümkündür.

Fərdi qiymətləndirmə zamanı özünüqiymətləndirmə vərəqlərindən də istifadə edə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** mövqeyini dəyərləndirmə, proqnozvermə, fəaliyyətini dəyərləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| AXC-nin xarici siyasətinə əsasən Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirməkdə çətinlik çəkir. | AXC-nin xarici siyasətinə əsasən Azərbaycanın geosiyasi mövqeyini sualların köməyi ilə dəyərləndirir. | AXC-nin xarici siyasətinə əsasən Azərbaycanın geosiyasi mövqeyini bəzi faktlarda səhvlər etməklə dəyərləndirir. | AXC-nin xarici siyasətinə əsasən Azərbaycanın geosiyasi mövqeyini sərbəst şəkildə dəyərləndirir. |
| Mənbələr əsasında AXC-nin xarici siyasətini araşdırır, proqnozlar verməkdə çətinlik çəkir. | AXC-nin xarici siyasətini müəllimin köməyi ilə mənbələr əsasında araşdırır, proqnozlar verir. | AXC-nin xarici siyasətini mənbələr əsasında araşdırır, bəzi səhvlər etməklə proqnozlar verir. | AXC-nin xarici siyasətini mənbələr əsasında araşdırır, müstəqil şəkildə proqnozlar verir. |
| AXC-nin xarici siyasətində mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Suallar əsasında AXC-nin xarici siyasətində mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini dəyərləndirir. | AXC-nin xarici siyasətində mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini bəzi faktlarda səhvlər etməklə dəyərləndirir. | AXC-nin xarici siyasətində mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətini sərbəst şəkildə dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 18. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SÜQUTU

**Alt standartlar:**

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**Təlim məqsədləri:**

1. Mənbələrdə AXC-nin süqutuna dair müxtəlif baxışları dəyərləndirir.
2. Mənbələr əsasında AXC-nin süqutuna dair araşdırmalar aparır, proqnozlar verir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.3.
**Təlim forması:** kiçik və böyük qruplarla iş
**Təlim üsulu:** esse, şaxələndirmə
**Resurslar:** xəritə, şəkillər, dövrə aid paylama materialı, iş vərəqi, slayd, dərslik və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Bu mövzunun tədrisi zamanı motivasiya üçün dərslikdə verilmiş şəkillər, suallar, açar sözlər və s. ən gözəl vasitədir. Əgər bu sizi qane etmirsə, o zaman AXC-nin süqutuna dair mənbələrdən və digər nümunələrdən istifadə etməklə şagirdlərin düşüncələrini araşdırılacaq problemə yönəldə bilərsiniz. Yaxud İKT resurslarından yararlanmaqla dövrün araşdırılması ilə məşğul olan tədqiqatçıların əsərlərindən şəkilləri və ya yazdıqları faktlardan nümunələri şagirdlərə təqdim etmək olar. Dərslikdə və mövzunun sonunda verilmiş AXC-nin süqutuna vəsilə olan razılaşmanı da şagirdlərə oxuyub, bu istiqamətdə onlara suallar ünvanlamaq mümkündür. Verilən cavabın əsasında şagirdlər AXC-nin süqutuna gedən yolu, bu süqutun səbəblərini araşdırmağa başlaya bilərlər.

Bildiyiniz kimi, motivasiyanın yaradılması üçün müxtəlif yollar vardır; **rəmzi, simvolik, suallar, şəkillər** və s. vasitələrdən istifadə etmək. Tarix dərsi tədris etdiyiniz siniflər sizə tanış olduğu üçün hansı motivasiya səmərə verərsə, onu da həyata keçirməyə cəhd göstərin. Əsas odur ki, şagirdlərin fərziyyələr söyləməsinə və mexanizmi işə salmasına yardımçı olsun. Fərziyyələr söyləndikdən sonra tədqiqat sualını verin.

**Tədqiqat sualı:** Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun səbəbləri nə oldu?

**Tədqiqatın aparılması:**

Tədqiqat aparmaq üçün dərslikdə mövzuya aid verilmiş suallardan istifadə edə bilərsiniz.

Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Qrupu 5 yerə ayırmaqla onların adını mövzu ilə bağlı qoymaq mümkündür. Bu zaman aşağıdakı tapşırıqlar sizin üçün vasitə ola bilər:

LAYİHƏ

**I qrup.** 1920-ci ilin aprel işğalı ərəfəsində AXC-nin beynəlxalq vəziyyətini səciyyələndirərək dəyərləndirin.

**II qrup.** AXC-nin Sovet Rusiyasına ünvanladığı cavab notalarında irəli sürdüyü əsas şərt hansı idi? Bu notaların şərtlərini mənbələrə əsasən təhlil edin.

**III qrup.** Mənbələrə əsasən Sovet Rusiyasının AXC-yə qarşı müdaxilə planının meydana çıxmasına səbəb olmuş amilləri aydınlaşdırır.

**IV qrup.** Kommunistləri hökumətin tərkibinə dəvət etməkdə M.H.Hacınskinin məqsədinin nədən ibarət olduğunu izah edin.

**V qrup.** AXC-nin Türkiyədən və Gürcüstandan hərbi yardım ala bilməməsinin səbəblərini göstərin. Əgər AXC bu yardımı ala bilsəydi, nə baş verərdi? Proqnozlaşdırın.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Bu mərhələdə şagirdlər müəyyən etdiyiniz zaman çərçivəsində verilmiş tapşırıqları iş vərəqlərində icra edirlər. Təqdim edilmiş cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirə zamanı şagirdlər mücərrəd təsəvvürləri açıqlayır, məntiqi izahatda səhvləri və unudulanları görür, faktla nəticələr arasında fərqi üzə çıxarır, dəlillərin əhəmiyyətini qiymətləndirirlər. Taksonomik olaraq bu, şagirdlərin təhliletmə bacarığının üzə çıxarılmasına şərait yaradan proses rolunu oynayır. Müzakirə həyata keçirildikdən sonra qruplar qiymətləndirmə meyarları əsasında qiymətləndirilir. Bildiyiniz kimi, meyarlar öncədən lövhədə və ya divarda asılmalı, bal şkalası elan edilməlidir.

| Qruplar | Mənbələrdən düzgün istifadə | Tapşırığın düzgün hazırlanması | Təqdimetmə | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| V | | | | | |

Əgər vaxtınız varsa, sinfə kollektiv iş kimi "Şaxələndirmə qurmaqla aprel işğalı ərəfəsində AXC-nin daxili vəziyyətinin əsas cəhətlərini müəyyən edin" tapşırığını da verə bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Nəticədə şagirdlər Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun səbəblərini təhlil edərək AXC-nin son fəaliyyəti dövrünü müxtəlif mənbələrə əsasən şərh edir, bu dövlətin çıxılmaz vəziyyətə düşməsini və Rusiyanın işğal planının xalqa ziyan vurmasını anlayır, bu təsirdən doğan səbəb və nəticələri müəyyənləşdirərək süqutun səbəblərini dəyərləndirir, araşdırmalara əsasən proqnozlar verirlər.

Bu mərhələdə tədqiqat sualına – "Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun səbəbləri nə oldu?" – qayıtmaqla şagirdlərin bu barədə bilik və bacarıqlarını ümumiləşdirmək olar. Nəticədə bu biliklər əsasında onlar AXC-nin süqutu dövründə baş verən dəyişiklikləri mənbələr əsasında araşdırmağı bacarırlar.

LAYİHƏ

**Yaradıcı tətbiqetmə:** AXC-nin süqutuna dair esse hazırlayın.

Essenin qiymətləndirilməsi üçün aşağıdakıları nəzərə almaq olar.

Esseni adi məktəb inşası kimi ənənəvi üsulla qiymətləndirmək mümkündür. Müəllim həmçinin aşağıda göstərilmiş meyarlardan da istifadə edə bilər:

• esse əsasında mövzunun mahiyyətinin tam açılması;

• faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;

• terminlərdən, faktlardan düzgün istifadə olunması;

• mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması, fikrin ardıcıllığı.

**Ev tapşırığı:** AXC-nin süqutuna dair sorğu vərəqləri hazırlanmasını və müsahibə aparılmasını tapşıra bilərsiniz.

Bu üsullar araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədi daşıyır.

Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil şəkildə doldururlar. Müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə, daha doğru olar:

- problemi müəyyən etmək;
- işi təşkil etmək (sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
- məlumatları toplamaq (sualların cavablarını toplamaq);
- əldə edilmiş məlumatları təhlil etmək və ümumiləşdirmək.

**Refleksiya və qiymətləndirmə:** Şagirdlər təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verilməklə fərdi şəkildə qiymətləndirilir. Məsələn:

- AXC hansı şəraitdə süqut etdi?
- Xəritədə AXC-nin ərazisi harada yerləşirdi? Dərsdə biz hansı nəticəyə gəldik?
- AXC sülh nümayəndələri hansı konfranslarda iştirak etmişlər?
- Sovet Rusiyasının AXC-yə ünvanladığı notaların əsas mahiyyəti nə idi?
- Aprel işğalı ərəfəsində ermənilərin AXC-yə qarşı məkrli niyyətlərini izah edin.
- 1920-ci ildə yaranmış hökumət böhranının səbəbləri hansılardır? və s.

Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

LAYİHƏ

Meyarlar tərtib edib səviyyələri müəyyənləşdirin. Qrupları meyarlarla fərdi səviyyələrə görə qiymətləndirin.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, proqnozvermə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| AXC-nin süqutuna dair mənbələrdəki müxtəlif baxışları dəyərləndirməkdə çətinlik çəkir. | AXC-nin süqutuna dair mənbələrdəki müxtəlif baxışları müəllimin köməyi ilə dəyərləndirir. | AXC-nin süqutuna dair mənbələrdəki müxtəlif baxışları bəzi səhvlərlə dəyərləndirir. | AXC-nin süqutuna dair mənbələrdəki müxtəlif baxışları əsaslı şəkildə dəyərləndirir. |
| AXC-nin süqutuna dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | AXC-nin süqutuna dair mənbələr əsasında müəllimin köməyi ilə araşdırmalar aparır, proqnozlar verir. | AXC-nin süqutuna dair mənbələr əsasında araşdırmalar aparır, bəzi səhvlər etməklə proqnozlar verir. | AXC-nin süqutuna dair mənbələr əsasında müstəqil şəkildə araşdırmalar aparır, proqnozlar verir. |

# VII FƏSİL. CƏNUBİ AZƏRBAYCAN 1917–1920-ci İLLƏRDƏ

## MÖVZU 19. CƏNUBİ AZƏRBAYCAN 1917–1920-ci İLLƏRDƏ

Mövcud paraqrafı keçmək üçün sizə 2 saat verilir. Dərsin bir saatını cütlərlə iş, digər bir saatını isə 1.1.1. *(Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.)* 1.2.1. *(Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.)*, 1.2.2. *(Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.)*, 4.1.2. *(Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.)* standartlarını nəzərə almaqla kollektiv və ya fərdi iş formasında keçməyinizi məsləhət görərdik. Bununla belə, siz məsləhət görülən standartları və məqsədləri artıra və azalda, eləcə də hər hansı bir standartı dəyişə də bilərsiniz.

**Alt standartlar:**

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. 1920-ci ildə Cənubi Azərbaycanda yaradılmış Milli hökumətin tarixinə dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verir.
2. 1917–1920-ci illərdə Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatda Şeyx Məhəmməd Xiyabaninin rolunu və fəaliyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 4.1.1., Azərbaycan dili – 1.2.4.
**Təlim forması:** böyük qruplarla və cütlərlə iş
**Təlim üsulu:** beyin həmləsi, mətni kodlaşdırma

LAYİHƏ

**Resurslar**: kompüter, proyektor, şəkillər, paylayıcı material, iş vərəqləri, dərslik, mövzuya dair mənbələr və s.

## Dərsin mərhələləri

**Motivasiya:** Motivasiya qurmaq üçün: "İnqilab nədir? İnqilabi hərəkatlar nə üçün baş verir? İndiyə kimi keçdiyiniz dərslərdən hansı inqilablar haqqında məlumatınız var?" – kimi suallar verib aldığınız cavabları ümumiləşdirərək şagirdləri lazımi məcraya yönəldə və dərsin motivasiyasını qura bilərsiniz.

Mövcud dərsin motivasiyasını şagirdlərin köhnə bilikləri üzərində də qurmaq mümkündür. Bunun üçün onlara Səttarxanın, Seyid Cəfər Pişəvərinin kimliyi haqqında suallar vermək olar. Cavablar alınandan sonra şagirdlərə: "Cənubi Azərbaycanın daha hansı tanınmış inqilabi hərəkat başçısını tanıyırsınız?" sualını səsləndirmək lazımdır. Cavab alınanadan sonra tədqiqat sualını elan edə bilərsiniz.

**Tədqiqat sualı:** 1917–1920-ci illərdə Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatda və yaradılmış Milli hökumətin tarixində Şeyx Məhəmməd Xiyabaninin rolu nədən ibarətdir?

## Tədqiqatın aparılması:

Tədqiqat sualı elan olunandan sonra cütlərlə iş formasında **mətni kodlaşdır** təlim üsulundan istifadə etməklə dərsinizi qura bilərsiniz. Bu üsul əvvəlki dərslərdən sizə tanış olan **restavrasiya** üsulunun əksidir. Dərsdə şagirdlər mətnlə işləməli olacaqlar. Bununla yanaşı, konspekt yazmaq və ondan istifadə etmək bacarıqlarını inkişaf etdirəcəklər. Bunun üçün şagirdlərə xüsusi mətn vermək lazımdır. Onlar müəyyən edilmiş vaxt çərçivəsində müəyyən şərti işarələr qoyaraq mətni ixtisar etməlidirlər. Bu dərs zamanı mövzunu hissələrə bölərək cütlərə verməyiniz məsləhətdir. Çalışmaq lazımdır ki, "mətni kodlaşdırmaq" üçün hər bir qrupa verilmiş mətn parçasının həcmi eyni olsun. Tədqiqat üçün cütlərə aşağıdakı tapşırıqları verə bilərsiniz:

**I cüt.** 1917-ci il üçün Cənubi Azərbaycanda artan narazılıqların səbəblərini təhlil edin.

**II cüt.** İnqilabi hərəkatda Şeyx Məhəmməd Xiyabaninin rolunu dəyərləndirin.

**III cüt.** Üsyanın başlanmasını şərh edin.

**IV cüt.** Üsyanın qələbəsini dəyərləndirin.

**V cüt.** Milli hökumətin yaradılmasını dəyərləndirin.

**VI cüt.** 1917–1918-ci illərdə Cənubi Azərbaycanda siyasi fəallığın artmasını qiymətləndirin.

**VII cüt.** İngiltərə–İran münasibətlərində Cənubi Azərbaycanın yerini dəyərləndirin.

**VIII cüt.** Azərbaycanın vəziyyətini yaxşılaşdırmaq üçün ADF-nin gördüyü tədbirləri qiymətləndirin.

**IX cüt.** Milli hökumətin gördüyü tədbirləri şərh edin.

**X cüt.** Əgər Milli hökumət süqut etməsəydi, nə baş verəcəyi ilə bağlı fikir yürüdün.

**XI cüt.** Milli hökumətin süqutu məsələsini araşdırın.

LAYİHƏ

**Məlumatın mübadiləsi və müzakirəsi:** Cütlərlə iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir cüt təqdimat edəcək nümayəndəsini seçir. Təqdimatda cütün hər iki üzvü də iştirak edə bilər. Onlar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Bu yolla şagirdlər müxtəlif yanaşmalarla, gəlinmiş nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir, fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edə bilərsiniz:

- Əhalinin narazılığını artıran səbəbləri necə izah edərdiniz?
- 1917-ci ilin noyabr və dekabr aylarında Azərbaycanın şəhərlərində baş verən çıxışların ilk nəticələri nə oldu?
- ADF-ni ən çox kimlər dəstəkləyirdi?
- İngiltərənin Cənubi Azərbaycanda fəallaşmasına səbəb olan amillər, sizcə, hansılar idi?
- İngilislər Hindistandan gətirilən əsgərlərdən Cənubi Azərbaycanda geniş istifadə etməklə hansı məqsədi güdürdülər?
- Milli hökumət hansı sahələrdə tədbirlər görürdü?
- İngilisləri İranda ən çox təşvişə salan nə idi?
- ADF-nin fəaliyyətinin əsas istiqamətlərini göstərin.
- Təbriz üsyanının dinc yolla qələbə çalmasının səbəblərini müəyyən edin.

**Yaradıcı tətbiqetmə:** Şeyx Məhəmməd Xiyabani və Məhəmməd Əmin Rəsulzadənin fəaliyyətlərinin müqayisəli cədvəlini qurun.

**Ev tapşırığı:** Təbriz üsyanının İran tarixində göstərdiyi nəticələr haqqında təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** araşdırmalar aparıb proqnozlar verir, rolunu və fəaliyyətini dəyərləndirir.

Mövcud dərsin qiymətləndirməsini yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirməlisiniz. Əvvəlcədən qiymətləndirməyi nəzərdə tutduğumuz şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirə bilərsiniz.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
| --- | --- | --- | --- |
| 1920-ci ildə Cənubi Azərbaycanda yaradılmış Milli hökumətin tarixinə dair sinif yoldaşlarının köməyi ilə mənbələr əsasında araşdırmalar aparır. | 1920-ci ildə Cənubi Azərbaycanda yaradılmış Milli hökumətin tarixinə dair mənbələr əsasında araşdırmalar aparır. | 1920-ci ildə Cənubi Azərbaycanda yaradılmış Milli hökumətin tarixinə dair mənbələr əsasında araşdırmalar aparır, lakin proqnozlar verməkdə çətinlik çəkir. | 1920-ci ildə Cənubi Azərbaycanda yaradılmış Milli hökumətin tarixinə dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verir. |
| 1917–1920-ci illərdə Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatda Şeyx Məhəmməd Xiyabaninin rolunu və fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | 1917–1920-ci illərdə Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatda Şeyx Məhəmməd Xiyabaninin rolunu və fəaliyyətini sinif yoldaşlarının yardımı ilə dəyərləndirir. | 1917–1920-ci illərdə Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatda Şeyx Məhəmməd Xiyabaninin rolunu və fəaliyyətini bəzi səhvlərə yol verməklə dəyərləndirir. | 1917–1920-ci illərdə Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatda Şeyx Məhəmməd Xiyabaninin rolunu və fəaliyyətini dəyərləndirir. |

LAYİHƏ

## VIII FƏSİL. AZƏRBAYCAN XX ƏSRİN 20–40-cı İLLƏRİNDƏ

## MÖVZU 20. BOLŞEVİK İSTİLASI VƏ ONUN NƏTİCƏLƏRİ

**Alt standartlar:**

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.

**Təlim məqsədləri:**

1. Azərbaycan SSR-in yaranması barədə mənbələrdəki müxtəlif baxışları dəyərləndirir.
2. 1920-ci ildə yaranmış Azərbaycan SSR-in dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.
3. Nəriman Nərimanov haqqında layihələr hazırlayır.

**İnteqrasiya:** Ümumi tarix – 4.1.2., Azərbaycan dili – 3.1.2., Ədəbiyyat – 3.1.2.
**Təlim forması:** böyük qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, akvarium
**Resurslar**. İKT, CD disk, şəkillər, mövzuya aid slaydlar, flipçart, marker, yapışdırıcı lent, iş vərəqləri və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Şagirdlərə proyektor vasitəsilə Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna dair youtube.com-dan yüklədiyiniz sənədli film nümayiş etdirə bilərsiniz. Bundan sonra yönləndirici suallar vermək olar. Suallar, təqribən, bu formada ola bilər: “Bu film hansı tarixi hadisələri əks etdirir?”, “Bəhs edilən hadisələr haqqında nə bilirsiniz?”

Əgər məktəbinizdə İKT-dən istifadə etmək imkanları yoxdursa, onda N.Nərimanovun, M.Ə.Rəsulzadənin, F.X.Xoyskinin və dövrün digər görkəmli şəxsiyyətlərinin şəkillərini lövhədən asa və ya adlarını yaza bilərsiniz. Sonra aşağıdakı suallarla müraciət etmək olar: “Bu şəxsləri tanıyırsınızmı?”, “Onlar Azərbaycan tarixində hansı rola malik olmuşlar?” Aldığınız cavabları ümumiləşdirərək tədqiqat sualını elan edə və dərsin yeni mərhələsinə keçə bilərsiniz.

**Tədqiqat sualı:** Azərbaycan SSR-in yaranmasının Azərbaycanın dövlətçilik ənənələrinin inkişafında hansı rolu oldu?

**Tədqiqatın aparılması:**

Tədqiqatın böyük qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz **akvarium** metodundan yararlana bilərsiniz. Bu iş üsulu üçün sinfi iki dairəyə – iç və çöl dairələrinə bölüb iç dairəyə müəyyən vaxt müddətində hər hansı bir problemin

LAYİHƏ

müzakirəsini tapşırmaq olar. Sonra **akvarium** dərs üsulunun qaydalarına uyğun şəkildə dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidirlər. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə edə bilərsiniz.

- Azərbaycan SSR-in yaranmasını dövlətçilik ənənələrinin inkişafı kimi dəyərləndirmək mümkündürmü? Fikrinizi əsaslandırın.
- 1920-ci ilin aprel işğalından sonra Azərbaycanda aparılan siyasi dəyişiklikləri dəyərləndirin.
- 1920-ci ilin aprel işğalından sonra Azərbaycanda aparılan sosial-iqtisadi dəyişiklikləri dəyərləndirin.
- Bolşevik hökumətinin həyata keçirdiyi islahatları ümumiləşdirin, mənfi və ya müsbət cəhətlərini araşdırın.

"Akvarium"da iş zamanı, əslində, dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsini də həyata keçirmiş olursunuz. "Akvarium"da iş üçün ayrılmış vaxt bitdikdən sonra dərsin növbəti mərhələsini həyata keçirin.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin sonunda əldə olunan nəticələri müəyyən edin. Nəticədə şagirdlər verdiyiniz yardımçı sualların köməyi ilə Azərbaycan SSR-in yaranması barədə müxtəlif fikirləri, Azərbaycan SSR-in dövlətçilik ənənəmizin inkişafında rolunu dəyərləndirə bilərlər. Yardımçı suallar kimi aşağıdakı suallardan istifadə etmək tövsiyə olunur.

- Azərbaycan SSR-də ilk vaxtlar yaradılan idarəetmə sistemi ilə 1921-ci ildə qəbul edilmiş Konstitusiyaya uyğun yaradılan hakimiyyət orqanları arasında hansı oxşar və fərqli cəhətləri görmək mümkündür?
- Sizcə, bolşeviklərin Azərbaycanda törətdikləri qırğınların, talanların və terrorun hansı sosial-iqtisadi və siyasi səbəbləri ola bilərdi?
- AXC və Azərbaycan SSR-in idarəetmə və siyasi quruluşunda hansı oxşar və fərqli cəhətləri müəyyənləşdirmək olar?
- 1920–1921-ci illərdə baş verən üsyanların səbəblərini nədə görürsünüz?
- Rus-bolşevik işğalına qarşı baş verən üsyanlarda qalib gəlmək mümkün idimi? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə:** Bu mərhələdə şagirdlər öyrəndiklərini yaradıcı şəkildə reallaşdırırlar. Bunun üçün onlara mətndən əldə etdikləri məlumatlar əsasında Azərbaycan SSR-in siyasi idarəetmə sistemini sxemləşdirməyi tapşırıq kimi verə bilərsiniz.

**Ev tapşırığı:** N.Nərimanovun siyasi fəaliyyəti barədə layihə hazırlayın.

**Qiymətləndirmə meyarları:** müxtəlif baxışları dəyərləndirmə, inkişafda rolunu dəyərləndirmə, layihələr hazırlama

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə və aşağıda verilmiş səviyyələr üzrə qiymətləndirə bilərsiniz. Bununla belə, həmin dərsdə sonuncu meyar üzrə qiymətləndirmə aparmaq alınmayacaq. Çünki bu meyarı dərs prosesində reallaşdırmaq mümkün deyildir. Bunu nəzərə alaraq, bu meyar üzrə şagirdlərə evə tapşırıq verilməsi nəzərdə tutulmuşdur.

Şagirdlər ev tapşırığı gətirildikdən və yoxlanıldıqdan sonra (növbəti dərsdə) bu meyar üzrə qiymətləndiriləcəklər.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan SSR-in yaranması barədə mənbələrdəki müxtəlif baxışları dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycan SSR-in yaranması barədə mənbələrdəki müxtəlif baxışları müəllimin köməyi ilə dəyərləndirir. | Azərbaycan SSR-in yaranması barədə mənbələrdəki müxtəlif baxışları bəzi səhvlərlə dəyərləndirir. | Azərbaycan SSR-in yaranması barədə mənbələrdəki müxtəlif baxışları dəyərləndirir. |
| 1920-ci ildə yaranmış Azərbaycan SSR-in dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkir. | 1920-ci ildə yaranmış Azərbaycan SSR-in dövlətçilik ənənələrinin inkişafında rolunu dəyərləndirir. | 1920-ci ildə yaranmış Azərbaycan SSR-in dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirməkdə çətinlik çəkir. | 1920-ci ildə yaranmış Azərbaycan SSR-in dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir. |
| N.Nərimanov haqqında layihələr hazırlamaqda çətinlik çəkir. | Sinif yoldaşlarının köməyi ilə N.Nərimanov haqqında layihələr hazırlayır. | N.Nərimanov haqqında bəzi səhvlərlə layihələr hazırlayır. | N.Nərimanov haqqında layihələr hazırlayır. |

## MÖVZU 21. "MÜSTƏQİL SOVET AZƏRBAYCANI" ŞÜARININ İFLASI. ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN POZULMASI

**Alt standartlar:**

1.1.1. Azərbaycanın tarixi keçmişini və müasir dövrlərini mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycanın XX əsrin 20-ci illərinin əvvəlləri tarixini mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır.
2. Tarixi Azərbaycan torpaqlarının qonşu dövlətlərə verilməsi prosesində Azərbaycan SSR-in mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.2., Azərbaycan dili – 1.1.1.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, probleme müxtəlif nəzər nöqtələrindən baxış üsulu

LAYİHƏ

**Resurslar:** şəkillər, paylama materialı, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları, və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya kimi mövzunun əvvəlində verilmiş giriş hissədən *(Cənubi Qafqazda bolşevik istilasının ilk qurbanı Azərbaycan oldu. Ölkəmizin təbii sərvətlərlə zənginliyi, xüsusilə neftimiz iqtisadi böhran girdabında çabalayan Sovet Rusiyası üçün həyati əhəmiyyətə malik idi. Bunun ardınca, onsuz da, formal xarakter daşıyan "müstəqillik" qısa vaxt ərzində ləğv olundu. Qafqaz respublikaları arasındakı ərazi mübahisələri də Azərbaycan maraqlarına zidd şəkildə "həll" edildi. Bugünkü Qarabağ münaqişəsinin əsası qoyuldu.)* və ya açar sözlərdən *(ZSFSR, SSRİ, RK(b)P Qafqaz bürosu, Zəngəzur, DQMV, Qars müqaviləsi, Naxçıvan MSSR)* istifadə edə bilərsiniz. Deyilən variantların hər birindən yararlanmaqla çətinlik çəkmədən motivasiyanızı həyata keçirmək olar. Bu zaman verəcəyiniz suallara alacağınız cavabları ümumiləşdirib tədqiqat sualını elan edə bilərsiniz.

**Tədqiqat sualı:** XX əsrin 20-ci illərinin əvvəllərində hansı tarixi Azərbaycan torpaqları itirildi?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılmasının problemə müxtəlif nəzər nöqtələrindən baxış üsulu ilə keçirilməsi məqsədəuyğun olardı. Bunun üçün sinfi kiçik qruplara bölmək lazım gələcək. Dərsinizi problemə müxtəlif nəzər nöqtələrindən baxış üsulu ilə keçən zaman hər qrupa mövzunu axıra qədər oxuyub sonra verilən tapşırığa uyğun olaraq müxtəlif insanların dilindən nəql etməyə hazırlaşmağı tapşırmalısınız. Tapşırığın icrası zamanı diqqətli olmağı, hadisəni nəql edərkən məzmuna fikir verməyi məsləhət görmək lazımdır. Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz.

**I qrup.** Tarixi Azərbaycan torpaqlarının Ermənistana və Gürcüstana güzəştə gedilməsinə Sovet rəhbərliyinin münasibəti.

**II qrup.** Tarixi Azərbaycan torpaqlarının Ermənistana və Gürcüstana güzəştə gedilməsinə Azərbaycan rəhbərliyinin münasibəti.

**III qrup.** Tarixi Azərbaycan torpaqlarının Ermənistana güzəştə gedilməsinə Ermənistan rəhbərliyinin münasibəti.

**IV qrup.** Tarixi Azərbaycan torpaqlarının Ermənistana güzəştə gedilməsinə Türkiyə rəhbərliyinin münasibəti.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qruplara hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat etmək üçün öz nümayəndələrini seçir. Bunun üçün 2–3 nəfərin seçilməsi məqsədəuyğundur. Bu, təqdimatın daha maraqlı olmasına şərait yaratmaqla yanaşı, demək olar ki, şagirdlərin əksəriyyətini prosesə cəlb etmiş olacaq. Təqdimat zamanı onları lazımi məcraya yönəltmək üçün suallar verməyiniz yaxşı olardı. Şagirdlərin də suallar verilməsi prosesində yaxından iştirakı dərsinizi daha "məhsuldar" edəcək. Bu zaman unutmaq lazım deyil: hər bir qrupa təqdimat üçün konkret vaxt vermək və verilmiş vaxtın diqqətdə saxlanılması dərsin vacib amillərindən biridir.

LAYİHƏ

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qrup təqdimatları ilə məlumatın mübadiləsi və müzakirəsi mərhələsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

- Azərbaycanın ZSFSR-in tərkibinə daxil edilməsinin hansı nəticələri oldu?
- Sizcə, ZSFSR-in yaradılmasında Sovet Rusiyasının hansı maraqları var idi?
- ZSFSR-i müstəqil konfederativ dövlət kimi səciyyələndirmək mümkündürmü?
- Sizcə, 1920–1930-cu illərdə Azərbaycan torpaqlarının qonşu respublikalar arasında bölüşdürülməsinin qarşısını almaq üçün nələr çatışmırdı?
- Nə üçün N.Nərimanov Azərbaycan torpaqlarının Ermənistana verilməsinin pis nəticələrə səbəb olacaq səhv adlandırmışdı?

**Yaradıcı tətbiqetmə:** Xəritələrə əsasən AXC və Azərbaycan SSR-in ərazilərini müqayisə edin, qonşu sovet respublikalarına verilən ərazilərin xəritəsini cızın.

**Ev tapşırığı:** Əvvəlki biliklərinizə əsaslanaraq Gülüstan və Türkmənçay sülhündən sonra keçən dövr ərzində bölüşdürülən torpaqlarımız haqqında təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** tarixi dəyərləndirib təqdimatlar hazırlama, mövqeyini və apardığı siyasəti dəyərləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın XX əsrin 20-ci illərinin əvvəlləri tarixini mənbələr əsasında dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın XX əsrin 20-ci illərinin əvvəlləri tarixini mənbələr əsasında dəyərləndirir. | Azərbaycanın XX əsrin 20-ci illərinin əvvəlləri tarixini mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Azərbaycanın XX əsrin 20-ci illərinin əvvəlləri tarixini mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır. |
| Tarixi Azərbaycan torpaqlarının qonşu dövlətlərə verilməsi prosesində Azərbaycan SSR-in mövqeyini və apardığı siyasəti dəyərləndirməkdə çətinlik çəkir. | Tarixi Azərbaycan torpaqlarının qonşu dövlətlərə verilməsi prosesində Azərbaycan SSR-in mövqeyini və apardığı siyasəti sinif yoldaşlarının köməyi ilə dəyərləndirir. | Tarixi Azərbaycan torpaqlarının qonşu dövlətlərə verilməsi prosesində Azərbaycan SSR-in mövqeyini və apardığı siyasəti bəzi səhvlərlə dəyərləndirir. | Tarixi Azərbaycan torpaqlarının qonşu dövlətlərə verilməsi prosesində Azərbaycan SSR-in mövqeyini və apardığı siyasəti dəyərləndirir. |

LAYİHƏ

# MÖVZU 22. BOLŞEVİKYÖNÜMLÜ SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İSLAHATLAR

**Alt standartlar:**

1.3.1. Azərbaycan xalqının formalaşma xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan xalqının formalaşma xüsusiyyətlərini XX əsrin 20–30-cu illəri ilə əlaqələndirir.
2. Bolşevikyönümlü islahatların keçirilməsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.
3. XX əsrin 20–30-cu illərində Azərbaycanın mədəni sahədə əldə etdiyi uğurları Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 2.1.1., 5.1.2., Azərbaycan dili – 2.2.3.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, fasiləli oxu, müzakirə, **“T”** üsulu
**Resurslar:** şəkillər, paylayıcı materiallar, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Mövzunu tədris edərkən dərsin motivasiyasını qurmaq lazım gəldiyindən “Axırıncı aşırım” bədii filmindən seçdiyiniz kadrları şagirdlərə göstərə bilərsiniz. Bu kadrların nümayişindən sonra yönəldici suallarla müraciət etmək, motivasiyanı bu əlaqələndirmə əsasında qurmaq məqsədəuyğundur. Filmlə bağlı verəcəyiniz suallar bu formada ola bilər: “İzlədiyiniz kadrlar sizə nə haqda məlumat verdi?”, “Bu filmdəki hadisələr hansı dövrə aiddir?”, “Sizcə, filmdə nədən bəhs edilir?” Verilən bu tip suallar motivasiya qurmağınıza yardım edəcəkdir. Motivasiya baş tutduqdan sonra tədqiqatın aparılması mərhələsini reallaşdırın.

**Tədqiqat sualı:** XX əsrin 20–30-cu illərində Azərbaycanda kommunistyönümlü islahatlar hansı yolla həyata keçirildi?

**Tədqiqatın aparılması:**

Bu mərhələni həyata keçirmək üçün **fasiləli oxu** üsulundan istifadə etmək olar. Məlum olduğu kimi, bu üsulla dərsi keçən zaman şagirdlərə növbə ilə mövzunu oxudub müəyyən hissələrdə fasilələrə yol verməlisiniz. Mövzuarası verilmiş sual və tapşırıqlar sizin fasilə edəcəyiniz hissələr ola bilər. Şagirdlərin səviyyəsindən aslı olaraq bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan

LAYİHƏ

hissələrdə edə bilərsiniz. Və bu zaman şagirdlərə dərslikdə verilmiş suallarla müraciət etmək məqsədəuyğundur:

- YİS ilə “Hərbi kommunizm” siyasətini müqayisə edin: sizcə, bunların hansı bolşeviklərin ideyalarına daha çox uyğun gəlirdi?
- Sizcə, Azərbaycanda “hərbi kommunizm” siyasətinin tətbiqinə lüzum var idimi?
- Nə üçün əhali kollektivləşdirmə siyasətini etirazlarla qarşılamışdı?
- Sizcə, YİS-i əlamətlərinə görə müasir dövrdə hansı dövlətin iqtisadi siyasəti ilə müqayisə etmək olar?
- Sovet hakimiyyətinin ilk illərində ali və orta pedaqoji təhsil müəssisələrinin sayının artırılmasını nə ilə izah etmək mümkündür?
- Latın qrafikalı əlifbaya keçidin hansı üstünlükləri var idi?

Sualların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşın. Onlara verəcəyiniz suallar əvvəllər əldə etdikləri biliklərinin üzə çıxmasına şərait yaradacaq. Şagirdlər həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Bu cür izahlar onların əlaqələndirmə bacarıqlarını da formalaşdırmağa yardımçı olacaq. Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin dəyərləndirilməsini həyata keçirin. Bunun üçün aşağıdakı sualları vermək məsləhət olardı:

- “Hərbi kommunizm” adını alan iqtisadi siyasətin Azərbaycanda da tətbiq olunmasını necə dəyərləndirərdiniz?
- Stalinin sosialist yenidənqurmalarını necə qiymətləndirmək olar?
- Kənd təsərrüfatının kollektivləşməsini necə dəyərləndirə bilərsiniz?
- Azərbaycanın mədəni uğurlarını dünya mədəniyyətinə töhfə kimi qiymətləndirmək olarmı?

Tövsiyə edirik ki, şagirdlər öz fikirlərini söyləyərkən ən zəruri məqamları lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd edin. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olacaq.

Fasiləli oxuda təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, şəkillər, illüstrasiyalar, mənbələr diqqət mərkəzində saxlanılmalıdır. Fasiləli oxu bitdikdən sonra mövzu ilə yekun müzakirə aparıb dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə keçid əldə edə bilərsiniz. Burada siz şagirdlərə XX əsrin 20–30-cu illərində Azərbaycanda keçirilən islahatlar barədə əlavə sual və tapşırıqlar verə bilərsiniz. Verilən cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da, dərsin bu mərhələsini yekunlaşdırmış olursunuz. Yaddan çıxarmaq lazım deyil ki, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş sualları əvvəlcədən hazırlamağınız vacibdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edə bilərsiniz:

- “Hərbi kommunizm” adını almış siyasətə aid olan əlamətləri qruplaşdırın, nəticələrini aydınlaşdırmağa çalışın.
- Sizcə, sənayeləşmə siyasətinin sosial-iqtisadi həyata və siyasi idarəçiliyə təsir xüsusiyyətləri hansılar ola bilər?
- Rusiya ilə müqayisədə Azərbaycanda həyata keçirilən sənayeləşmə xəttinin hansı fərqləri var idi?
- Sizcə, “sosialist yenidənqurmaları” sosial-iqtisadi və mədəni sahədə hansı fəsadlara səbəb olmuşdur?

LAYİHƏ

- Mədəni quruculuğun müsbət cəhətlərini nədə görürsünüz?

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələrdə şagirdlər Azərbaycan xalqının formalaşma xüsusiyyətlərini XX əsrin 20–30-cu illəri ilə əlaqələndirib, kommunistyönümlü islahatların keçirilməsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirə biləcəklər.

**Yaradıcı tətbiqetmə:** Sənayeləşmə siyasətinin mənfi və müsbət cəhətlərini qruplaşdıraraq **"T"** üsulu ilə cədvəl qurun.

**Ev tapşırığı:** Sovet ideologiyasının təsərrüfatın müxtəlif sahələrinə təsirini araşdırın və sovet hakimiyyətinə qədərki dövrlə müqayisələr aparın.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, əhəmiyyətini dəyərləndirmə, töhfə kimi dəyərləndirmə.

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Şagirdlərin bilik və bacarıqlarını, əsasən, 4 səviyyə üzrə qiymətləndirin. Bu səviyyələr meyarlara uyğun həyata keçirilməli, ən zəif bacarığa malik şagirddən ən yüksək bacarıqlı şagirdə görə dəyişməlidir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan xalqının formalaşma xüsusiyyətlərini XX əsrin 20–30-cu illəri ilə əlaqələndirməkdə çətinlik çəkir. | Azərbaycan xalqının formalaşma xüsusiyyətlərini sualların köməyi ilə XX əsrin 20–30-cu illəri ilə əlaqələndirir. | Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini XX əsrin 20–30-cu illəri ilə müəyyən çətinliklərlə əlaqələndirir. | Azərbaycan xalqının formalaşma xüsusiyyətlərini XX əsrin 20–30-cu illəri ilə əlaqələndirir. |
| Bolşevikyönümlü islahatların keçirilməsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Bolşevikyönümlü islahatların keçirilməsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini müəllimin köməyi ilə dəyərləndirir. | Bolşevikyönümlü islahatların keçirilməsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini bəzi səhvlərlə dəyərləndirir. | Bolşevikyönümlü islahatların keçirilməsində Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir. |
| XX əsrin 20–30-cu illərində Azərbaycanın mədəni sahədə əldə etdiyi uğurları Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirməkdə çətinlik çəkir. | XX əsrin 20–30-cu illərində Azərbaycanın mədəni sahədə əldə etdiyi uğurları sinif yoldaşlarından yardım almaqla Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir. | XX əsrin 20–30-cu illərində Azərbaycanın mədəni sahədə əldə etdiyi uğurları Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirsə də, müəyyən səhvlər edir. | XX əsrin 20–30-cu illərində Azərbaycanın mədəni sahədə əldə etdiyi uğurları Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir. |

LAYİHƏ

# MÖVZU 23. SOVET TOTALİTAR REJİMİNİN TƏŞƏKKÜLÜ. KÜTLƏVİ REPRESSİYALAR

**Alt standartlar:**

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında Azərbaycanın repressiya dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.
2. Mənbələr əsasında Azərbaycanın 30-cu illər siyasi tarixinə aid müqayisəli cədvəllər hazırlayır.

**İnteqrasiya:** Ümumi tarix – 1.1.2., 1.1.3.

**Təlim forması:** kiçik və böyük qruplarla iş

**Təlim üsulu:** beyin həmləsi, cavab əldə elə

**Resurslar:** şəkillər, İKT avadanlıqları, slaydlar, iş vərəqləri, dərslik, qəzet və jurnal materialları, dövrə aid sənədli filmlər, elmi və bədii əsərlər və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya kimi şagirdlərə Azərbaycanda aparılan repressiyalara aid youtube.com-dan yüklədiyiniz sənədli film nümayiş etdirə bilərsiniz. Seçdiyiniz bir hissəni izlətdikdən sonra aşağıdakı sualları verib dərsin motivasiyasını qurmaq olar:

- Gördüyünüz kadrlar sizə nə deyir?
- Kadrlarda nədən bəhs edilirdi?
- Bu kadrları hansı dövrə aid etmək olar?
- Repressiya anlayışını necə başa düşürsünüz?

Sinifdə İKT-dən istifadə imkanı yoxdursa, motivasiyanızı əvvəlki illərdə öyrənilmiş materiallar əsasında da qura bilərsiniz. Motivasiyanın digər yolu paraqrafın əvvəlində verilmiş giriş yazısı *(XX əsrin 20-ci illərinin ortalarından başlayan Stalin islahatları sosial-iqtisadi və siyasi həyatda böyük dəyişikliklərə gətirib çıxardı. Burjuaziya, mülkədarlar və qolçomaqlar bir təbəqə kimi məhv edildi. Cəmiyyət həyatının bütün sahələrində Kommunist Partiyasının təkbaşına hökmranlığı təmin olundu. Stalinin şəxsiyyətinə pərəstiş geniş vüsət aldı. Kütləvi repressiyalar başlandı.)* ilə də qurmaq mümkündür. Bunun üçün də əvvəlcə həmin giriş bölməsini şagirdlərə səsləndirməli, sonra isə bu barədə suallar verməlisiniz. Əsas odur ki, verəcəyiniz suallar düşündürücü olub istədiyiniz cavabı almağa kömək etsin. Belə olacağı halda çətinlik çəkmədən dərsin motivasiyasını qura və tədqiqat sualınızı elan edə bilərsiniz.

**Tədqiqat sualı:** Azərbaycanın 30-cu illər siyasi tarixinin çox vaxt repressiya illəri kimi dəyərləndirilməsi nə ilə bağlıdır?

LAYİHƏ

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılması üçün dərsin **cavab əldə elə** üsulu ilə keçilməsini tövsiyə edərdik. Bu zaman şagirdlər ayrı-ayrı mənbələrdən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaqlar. Onlar verilən məhdud vaxt ərzində tapşırıqların cavablarını ya internet, ya da paylama materialı (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Tapşırığı elə qoymaq lazımdır ki, o, tədqiqatçılığa söykənmiş olsun. Dərsin sonunda tapşırığa daha tez və dəqiq cavab verən qrup qalib gəlir. Qruplara tədqiqat üçün aşağıdakı sualları verə bilərsiniz:

**I qrup.** Güneyli soydaşlarımızın faciəsini dəyərləndirin.

**II qrup.** Totalitar sosialist dövlətinin formalaşması necə baş verdi?

**III qrup.** Repressiyaların Azərbaycan xalqına vurduğu zərbəni dəyərləndirin.

**IV qrup.** Repressiyalarla bağlı müqayisəli cədvəl qurun (bu zaman repressiyaya məruz qalanların fəaliyyət göstərdiyi sferanın, günahlarının, günahlandıranların aqibətlərinin və s. nəzərə alınması məqsədəuyğun olardı.)

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə şagirdlər cavabları müəyyən olunmuş zaman ərzində hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur, dağınıq faktlar arasında əlaqə qurulur, əlavələr edilir və fikirlər lazımi məcraya yönəldilir. Müzakirələr zamanı bütün sinfin fəallığının təmin olunması sizdən asılıdır. Onların müzakirələrdə fəal iştirakı nəticələrin alınmasında yardımçınız olacaq. Eləcə də dərsin bu mərhələsində əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qrupları qiymətləndirə biləcəksiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlərə aşağıdakı suallarla müraciət etmək və dərsi ümumiləşdirib nəticə çıxarmaq mümkündür:

- Azad bazar iqtisadiyyatı ilə planlı təsərrüfat arasında müqayisələr aparsanız, hansı müsbət və mənfi cəhətləri müəyyənləşdirmək olar?
- Sizcə, Azərbaycan SSR-in birinci və ikinci Konstitusiyaları arasında hansı oxşarlıq və fərqlər var idi?
- Kütləvi repressiyaların ilk qurbanlarının yerli kommunistlər olmasını nə ilə əlaqələndirmək mümkündür?
- "Pantürkizm", "panislamizm" anlayışlarını necə izah edə bilərsiniz, nə üçün Azərbaycan ziyalıları məhz bu ittihamlarla repressiya edilirdilər?
- Repressiya və deportasiya anlayışlarının hansı oxşar cəhətləri var?
- Stalin repressiyalarının səbəblərini nədə görürsünüz?
- Sizcə, 1930-cu illərdə baş verən kütləvi repressiyalardan qaçmaq mümkün idimi?
- Cənublu soydaşlarımıza mənfi münasibətin kökündə duran səbəblər, sizcə, nələr idi?

**Ev tapşırığı:** Totalitarizm və onun əlamətləri haqqında referat hazırlayın.

**Qiymətləndirmə meyarları:** dövrünü dəyərləndirib təqdimatlar hazırlama, müqayisəli cədvəllər hazırlama.

Siz dərs izləməsi nəticəsində qiymətləndirməni meyarlar üzrə aparmalısınız. Bununla belə, şagirdləri fərdi şəkildə qiymətləndirmək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı sual vermək də olar. Məsələn: “Biz bu nəticəyə necə gəlib çıxdıq?”, “Bütün bu hadisələrin baş verməsinə səbəb nə idi?” və s. suallar verməklə qiymətləndirməni yekunlaşdıra bilərsiniz.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın repressiya dövrünü dəyərləndirir. | Azərbaycanın repressiya dövrünü dəyərləndirir, sadə təqdimatlar hazırlayır. | Mənbələr əsasında Azərbaycanın repressiya dövrünü dəyərləndirir, lakin təqdimatlar hazırlayarkən bəzi səhvlər edir. | Mənbələr əsasında Azərbaycanın repressiya dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır. |
| Azərbaycanın 1930-cu illər siyasi tarixinə aid cədvəllər hazırlamaqda çətinlik çəkir. | Azərbaycanın 1930-cu illər siyasi tarixinə aid cədvəllər hazırlayır. | Azərbaycanın 1930-cu illər siyasi tarixinə aid müqayisəli cədvəllər hazırlayır. | Mənbələr əsasında Azərbaycanın 1930-cu illər siyasi tarixinə aid müqayisəli cədvəllər hazırlayır. |

## MÖVZU 24. AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

**Alt standartlar:**

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında Azərbaycanın İkinci Dünya müharibəsi illərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.
2. Azərbaycanın İkinci Dünya müharibəsi illəri tarixinin öyrənilməsi üçün müvafiq mənbələri seçir.
3. İkinci Dünya müharibəsi dövrünə aid Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

**İnteqrasiya:** Ədəbiyyat – 1.1.4., Ümumi tarix – 2.1.2., Coğrafiya – 3.2.4.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, mətnə əsasən cədvəlin doldurulması
**Resurslar:** şəkillər, paylama materialı, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları, İKT avadanlıqları, CD disk və s.

LAYİHƏ

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya üçün lövhədə açar söz kimi *Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Hüseynbala Əliyev, Züleyxa Seyidməmmədova, 416-cı divi-*

*ziya, 223-cü diviziya* sözlərini yaza bilərsiniz. Bundan sonra şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

- Bu adlar sizə nə deyir?
- Mövcud açar sözlərinin bir-biri ilə hansı əlaqələri var?
- Bu adları hansı vahid ad altında birləşdirmək olar?

Şagirdlərdən aldığınız cavabları ümumiləşdirib onları dərsə maraqlandıra və beləliklə də, dərsin yeni mərhələsinə keçə bilərsiniz.

Hazırda youtube.com internet saytında İkinci Dünya müharibəsinə, bu müharibədə azərbaycanlıların və Azərbaycanın iştirakına dair çoxlu sayda videomaterial var. Dərsin motivasiyasını qurmaq üçün deyilən internet ünvanından İkinci Dünya müharibəsi ilə bağlı yüklədiyiniz sənədli filmlərdən bir parçanı göstərə bilərsiniz. Bundan sonra filmlə bağlı 1-2 yönləndirici sual verməyiniz məsləhət olardı. Aldığınız cavabları ümumiləşdirdikdən sonra tədqiqat sualını elan edib dərsin növbəti mərhələsini başlaya bilərsiniz.

**Tədqiqat sualı:** Azərbaycan İkinci Dünya müharibəsinə hansı töhfələr verdi?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılmasının mətnə əsasən **cədvəlin doldurulması** üsulu ilə keçirilməsi məqsədəuyğun olardı. Sinfi kiçik qruplara böləndən sonra təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqları verə bilərsiniz. Verilən cədvəllər şərtidir. Onlarda müəyyən dəyişikliklər və düzəlişlər etmək mümkündür. Əsas odur ki, hazırlayacağınız cədvəllər mətnin əsas ideyasını aşkar etməyə, təlim məqsədini reallaşdırmağa, tədqiqat sualına cavab tapmağa imkan versin. Tədqiqatın aparılması zamanı şagirdlərə mövzu ilə əlaqədar əlavə paylayıcı materiallar da vermək mümkündür. Paylayıcı material qismində mənbə sayıla biləcək müxtəlif qəzet, jurnal materialları, elmi əsərlərdən edilmiş çıxarışlar və s. vəsaitlərdən istifadə edə bilərsiniz.

**I qrup. İkinci Dünya müharibəsi və Azərbaycanın geosiyasi mövqeyi**

| Azərbaycana maraq göstərən ölkələr | Marağın səbəbləri | Planın adları | Tarix |
|---|---|---|---|
| | | | |

**II qrup. Azərbaycanlı döyüşçülər partizan hərəkatında**

| Azərbaycanlı qəhrəmanlar | Qəhrəmanlığın göstərildiyi məkan | Nə etmişdir? | Tarix |
|---|---|---|---|
| | | | |

LAYİHƏ

**III qrup. Azərbaycanlılar 1941–1942-ci illərdə**

| Azərbaycanlı qəhrəmanlar | Rütbəsi və ya vəzifəsi | Qəhrəmanlığın göstərildiyi məkan | Nə etmişdir? | Tarix |
|---|---|---|---|---|
| | | | | |

**IV qrup. Azərbaycanlılar 1943–1945-ci illərdə**

| Azərbaycanlı qəhrəmanlar | Rütbəsi və ya vəzifəsi | Qəhrəmanlığın göstərildiyi məkan | Nə etmişdir? | Tarix |
|---|---|---|---|---|
| | | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər biri öz təqdimatını edir. Hər təqdimat və onun ətrafında müzakirələrin edilməsi üçün konkret vaxt ayırmaq lazım gəldiyini yaddan çıxarmayın. Təqdimatlar edilərkən şagirdlərin doldurmadıqları və ya yarımçıq doldurduqları (intellekt səviyyəsindən asılı olaraq belə hal mümkündür) cədvəl qrafalarının tamamlanması üçün digər qruplardan kömək istəyə bilərsiniz. Şagirdləri lazımi məcraya yönəltmək üçün suallar verməyiniz yaxşı olardı. Müzakirələr zamanı onların da yerdən suallar verməsini təmin etməyi yaddan çıxarmayın.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qrup təqdimatları ilə məlumatın mübadiləsi və müzakirəsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz.

- Azərbaycan İkinci Dünya müharibəsində necə rol oynamışdır?
- Sovet rəhbərliyinin Azərbaycanla bağlı ayrı-seçkilik siyasətini necə qiymətləndirə bilərsiniz?
- İkinci Dünya müharibəsində Bakının geosiyasi mövqeyini necə şərh etmək olar?
- SSRİ rəhbərliyinin 1942-ci ilin dekabrında Azərbaycanla bağlı imzaladığı məxfi plan nəyi nəzərdə tuturdu?
- Sovet İttifaqı Qəhrəmanı olmuş azərbaycanlılar haqqında əlavə nə bilirsiniz?
- Sizcə, nə üçün Bakı şəhərinə "Qəhrəman şəhər" adı verilmədi?
- Qələbənin əldə edilməsində Azərbaycan iqtisadiyyatının rolunu necə dəyərləndirirsiniz?
- Müharibə mədəniyyətin inkişafına necə təsir göstərmişdi?
- Müharibədə Azərbaycan milli diviziyalarının fəaliyyətini necə qimətləndirərdiniz?

**Ev tapşırığı:** Azərbaycan qadınlarının müharibədəki fəaliyyəti haqqında təqdimat hazırlayın.

LAYİHƏ

**Qiymətləndirmə meyarları:** müqayisəli-sinxron cədvəllər hazırlama, müvafiq mənbələri seçmə, təqdimatlar hazırlama.

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün yuxarıdakı meyarları nəzərə almağınız vacibdir. Bununla qiymətləndirəcəyiniz şagirdləri dərs boyu diqqətdə saxlamalı və fəaliyyətlərini izləməlisiniz. Dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirmə apara bilərsiniz:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın İkinci Dünya müharibəsi illərinə aid cədvəllər hazırlayır. | Azərbaycanın İkinci Dünya müharibəsi illərinə aid müqayisəli-sinxron cədvəllər hazırlamaqda çətinlik çəkir. | Azərbaycanın İkinci Dünya müharibəsi illərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır. | Mənbələr əsasında Azərbaycanın İkinci Dünya müharibəsi illərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır. |
| Azərbaycanın İkinci Dünya müharibəsi illəri tarixinin öyrənilməsi üçün müvafiq mənbələri seçməkdə çətinlik çəkir. | Azərbaycanın İkinci Dünya müharibəsi illəri tarixinin öyrənilməsi üçün müəllimin köməyi ilə müvafiq mənbələri seçir. | Azərbaycanın İkinci Dünya müharibəsi illəri tarixinin öyrənilməsi üçün bəzi səhvlərlə müvafiq mənbələri seçir. | Azərbaycanın İkinci Dünya müharibəsi illəri tarixinin öyrənilməsi üçün müvafiq mənbələri seçir. |
| Azərbaycanın İkinci Dünya müharibəsi dövrünə aid geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Suallardan istifadə etməklə İkinci Dünya müharibəsi dövrünə aid Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. | Azərbaycanın İkinci Dünya müharibəsi dövrünə aid geosiyasi mövqeyini nümayiş etdirən təqdimatları bəzi səhvlərlə hazırlayır. | Azərbaycanın İkinci Dünya müharibəsi dövrünə aid geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır. |

LAYİHƏ

## MÖVZU 25. CƏNUBİ AZƏRBAYCAN 1920–1940-cı İLLƏRDƏ. 21 AZƏR HƏRƏKATI

**Alt standartlar:**

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**Təlim məqsədləri:**

1. İkinci Dünya müharibəsi dövründə Cənubi Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.
2. Mənbələr əsasında Cənubi Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.2., Azərbaycan dili – 1.1.1.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, karusel
**Resurslar:** şəkillər, paylayıcı material, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiyanı dərsin əvvəlində verilmiş giriş bölməsi ilə *(Qacarlar sülaləsinin devrilməsi, Pəhləvilər sülaləsinin hakimiyyətə gəlməsi bütün İranın hər yerinə olduğu kimi, Cənubi Azərbaycanın ictimai-iqtisadi həyatına da böyük təsir göstərdi. Rza şahın yeritdiyi antitürk siyasəti, daha sonra İkinci Dünya müharibəsinin başlaması əhalinin vəziyyətini pisləşdirdi və narazılıqların yenidən artıb milli demokratik hərəkatın yüksəlişi ilə nəticələndi.)* qura bilərsiniz. Bundan başqa dərsin motivasiyasını açar sözlərin köməyi ilə də yaratmaq olar. Bunun üçün aşağıdakı açar sözlərdən istifadə edə bilərsiniz: *Seyid Cəfər Pişəvəri, ADF, 21 Azər, Milli hökumət, Rza şah Pəhləvi, Cənubi Azərbaycan.* Bu sözləri lövhədə və ya iri bir vatman kağızında yazmaq məsləhətdir. Sonra şagirdlərə dərsin tədqiqat sualına yönəlmiş köməkçi suallar verməyiniz lazımdır. Yaddan çıxartmaq olmaz ki, verəcəyiniz yönəldici suallar tez tapılan olmamaqla bərabər, düşündürücü xüsusiyyət daşımalıdır. Motivasiyanızı uğurla qurduqdan sonra tədqiqat sualını elan edə bilərsiniz.

LAYİHƏ

**Tədqiqat sualı:** Cənubi Azərbaycanda Milli hökumətin yaranması hansı şəraitdə baş verdi?

**Tədqiqatın aparılması:**

Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında **karusel** təlim üsulundan istifadə etməklə dərsi qurmaq mümkündür. Tədqiqat üçün qruplara aşağıdakı sual və tapşırıqları və ya özünüzün məsləhət bildiyiniz tapşırıqları verə bilərsiniz:

**I qrup.** Rza şahın hakimiyyəti illərində Cənubi Azərbaycanın tarixini araşdırın.

**II qrup.** Rza şah diktaturasını süquta aparan şəraiti dəyərləndirin.

**III qrup.** Milli hərəkatın başlandığı tarixi dövrü qiymətləndirin.

**IV qrup.** Milli hökumətin fəaliyyətini araşdırın.

Dərsinizin **karusel** üsulu ilə keçilməsi sizə dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsini də həyata keçirməyə imkan verəcək. Çünki bu mərhələdə müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların yazdıqları ilə tanış olmaq və “rəqib”lərinin fikirlərinə münasibət bildirmək imkanına malik olur. Dərsin bu mərhələsi bitəndən sonra növbəti mərhələyə keçid ala bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Vaxta qənaət etmək üçün qrup təqdimatlarını dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində edə bilərsiniz. Lakin bu zaman ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verməlisiniz. Onları əvvəlcədən hazırlamağınız məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

- Cənubi Azərbaycanın 1920-ci illər tarixini necə qiymətləndirərdiniz?
- ADF-nin yaranmasına təkan verən hadisə nə oldu?
- Nəyə görə S.C.Pişəvəri zorla Sovet Azərbaycanına gətirildi?
- Sovet dövləti hərəkat rəhbərlərini, ilk növbədə, Pişəvərini Sovet İttifaqından mühacirətə məcbur etməsəydi, nə baş verə bilərdi?
- Əhalinin ADF-yə olan rəğbətini necə izah edərdiniz?
- Milli hökumətin ən böyük uğuru nə oldu?
- Milli şüurun artmasına təsir göstərən amilləri hansılar idi?
- SSRİ və Böyük Britaniyanı İrana qoşun yeritməyə hansı səbəblər vadar etdi?
- Rza şahın tədbirləri nə ilə nəticələndi?
- 1941–1946-cı illər milli azadlıq hərəkatı məğlubiyyətə uğramasaydı, nə baş verə bilərdi?

**Yaradıcı tətbiqetmə:** Birinci Dünya müharibəsi ilə İkinci Dünya müharibəsinin Cənubi Azərbaycana təsirini özündə əks etdirən müqayisəli cədvəl qurun.

**Ev tapşırığı:** 21 Azər hərəkatının nəticələri haqqında təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** mövqeyini və apardığı siyasəti dəyərləndirmə, araşdırmalar aparıb proqnozlar vermə.

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar səsləndirməklə təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Bu zaman yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla, aşağıdakı səviyyələr üzrə şagirdləri qiymətləndirmək tövsiyə edilir.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İkinci Dünya müharibəsi dövründə Cənubi Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirməkdə çətinlik çəkir. | İkinci Dünya müharibəsi dövründə Cənubi Azərbaycanın mövqeyini və apardığı siyasəti müəllimin köməyi ilə dəyərləndirir. | İkinci Dünya müharibəsi dövründə Cənubi Azərbaycanın mövqeyini və apardığı siyasəti bəzi səhvlərlə dəyərləndirir. | İkinci Dünya müharibəsi dövründə Cənubi Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir. |
| Cənubi Azərbaycanın dövlətçilik tarixinə dair proqnozlar verməkdə çətinlik çəkir. | Cənubi Azərbaycanın dövlətçilik tarixinə dair proqnozlar verir. | Cənubi Azərbaycanın dövlətçilik tarixinə dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Cənubi Azərbaycanın dövlətçilik tarixinə dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verir. |

LAYİHƏ

## IX FƏSİL. AZƏRBAYCAN SSR İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI DÖVRDƏ

## MÖVZU 26. AZƏRBAYCAN SSR XX ƏSRİN 40-cı İLLƏRİN ORTALARI 60-cı İLLƏRDƏ

**Alt standartlar:**

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında Azərbaycanın XX əsrin 40–60-cı illər tarixi dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.
2. Mənbələr əsasında Azərbaycanın XX əsrin 40–60-cı illər tarixi dövrünə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

**İnteqrasiya:** Ümumi tarix – 1.1.3.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulu:** beyin həmləsi, üç cümlə

**Resurslar:** şəkillər, qəzet və jurnal materialları, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik, internet resursları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya kimi siz “PowerPoint” proqramından istifadə etməklə dövrə aid hazırladığınız slaydlardan yararlana, şagirdləri dərsə kökləyə bilərsiniz. Slaydların musiqili və davamlı (heç bir izah və yazıdan istifadə edilməmiş) olması məqsədəuyğundur. 2-3 dəqiqəlik “lal” təqdimatdan sonra şagirdlərə: “Bu slaydlar sizə nə deyir?”, “Sizcə, bu təqdimat hansı dövrə aiddir?” sualları verib dərsin yeni mərhələsinə keçə bilərsiniz.

Əgər İKT-dən istifadə etməkdə çətinlik çəkirsinizsə, onda motivasiyanızı lap sadə formada həyata keçirmək mümkündür. Bunun üçün sizə yalnız lövhə və marker və ya təbaşir lazım olacaq. Lövhədə *Əli Bayramlı, Sumqayıt, Mingəçevir, Daşkəsən, Bakı Metropoliteni, deportasiya* kimi açar sözləri yazıb şagirdlərdən: “Bu sözləri birləşdirən ümumi cəhət hansıdır?” soruşub alınan cavabları ümumiləşdirərək tədqiqat sualını elan edə bilərsiniz.

**Tədqiqat sualı:** Azərbaycanın İkinci Dünya müharibəsindən sonrakı dövrünə nə kimi ad qoya bilərik?

LAYİHƏ

**Tədqiqatın aparılması:**

Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman siz fəal təlimin **üç cümlə** üsulundan istifadə edə bilərsiniz. Bu üsulla keçilən dərs zamanı şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha kiçik həcmdə təqdim edin. Sonra onlara növbəti tövsiyələri xatırladın: "Hansı qrup hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür". Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sualları verə bilərsiniz:

**I qrup.** XX əsrin 40–50-ci illərində həyata keçirilən hansı layihələr hazırda Azərbaycanın tarixində mühüm rol oynamaqdadır?

**II qrup.** Azərbaycanda yeni şəhərlərin salınmasını dəyərləndirin.

**III qrup.** M.C.Bağırov və İ.D.Mustafayevin hakimiyyəti dövrünə dair müqayisəli cədvəl qurun.

**IV qrup.** Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünü mənbələr əsasında dəyərləndirin.

**V qrup.** İkinci Dünya müharibəsindən sonrakı dövrdə Azərbaycandakı inkişafın hansı sahəsinə xüsusi önəm vermək olar?

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə şagirdlər cavabları müəyyən edilmiş zaman ərzində hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bunun üçün şagirdlərə bu suallarla müraciət edə bilərsiniz:

- Kənd təsərrüfatının inkişafını necə dəyərləndirərdiniz?
- Sənayenin inkişafını necə qiymətləndirərdiniz?
- Sizcə, nəyə görə tarix elmi üzərində hakim ideologiyanın təzyiqi daha güclü idi?
- Məhkəmə quruculuğu məsələlərinin öz ixtiyarımıza verilməsini necə dəyərləndirmək olar?
- İ.D.Mustafayevin yerinə olsaydınız, daha hansı tədbirləri görərdiniz?

**Yaradıcı tətbiqetmə:** Bu mərhələdə şagirdlərə: "Fərz edin ki, 1960-cı illərdə Azərbaycanda yaşayırsınız (özünüzə yaş, məşğuliyyət, sosial təbəqə və s. seçin), öz personajınızın maddi rifahının yaxşılaşmasına münasibəti necə olardı?" sualını verə bilərsiniz. Verilmiş sualı cavablandırmaq onlarda təsəvvüretmə, fərziyyə irəli sürmə, hadisələrə yaradıcı yanaşma kimi bir sıra bacarıqlar formalaşdırmağa kömək edəcəkdir.

**Ev tapşırığı:** 1948–1950-ci illərdə reallaşdırılmış deportasiyaya dair araşdırma aparın.

**Qiymətləndirmə meyarları:** dövrünü dəyərləndirib təqdimatlar hazırlama, müqayisəli-sinxron cədvəllər hazırlama.

LAYİHƏ

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla aşağıdakı səviyyələr üzrə qiymətləndirmə aparmaq olar.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünü dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünü mənbələr əsasında dəyərləndirir. | Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünü mənbələr əsasında bəzi səhvlərlə dəyərləndirir, təqdimatlar hazırlayır. | Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünü mənbələr əsasında dəyərləndirir, təqdimatlar hazırlayır. |
| Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünə aid müqayisəli-sinxron cədvəllər hazırlamaqda çətinlik çəkir. | Suallardan istifadə etməklə Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünə aid müqayisəli-sinxron cədvəllər hazırlayır. | Mənbələr əsasında Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünə aid müqayisəli-sinxron cədvəlləri bəzi səhvlərlə hazırlayır. | Mənbələr əsasında Azərbaycanın XX əsrin 50–60-cı illər tarixi dövrünə aid müqayisəli-sinxron cədvəllər hazırlayır. |

## MÖVZU 27. İDARƏÇİLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ. 70–80-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ UĞURLAR

**Alt standartlar:**

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. XX əsrin 70–80-ci illərində Azərbaycanda gedən proseslərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.
2. Mənbələr əsasında Azərbaycanın XX əsrin 70–80-ci illər tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.
3. Tarixi proseslərin gedişində Heydər Əliyevin rolunu və fəaliyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.3., 4.1.1., İnformatika – 4.1.2., Azərbaycan dili – 1.2.4.
**Təlim forması:** kiçik və böyük qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, cavab əldə elə

LAYİHƏ

**Resurslar:** Azərbaycanın XX əsrin 70–80-ci illərinə dair xəritəsi, şəkillər, İKT avadanlıqları, slaydlar, iş vərəqləri, dərslik, qəzet və jurnal materialları, Ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığına dair sənədli filmlər, əsərlər, dövrə dair tarixi tədqiqatlar və s.

## Dərsin mərhələləri

**Motivasiya:** Motivasiya kimi şagirdlərə Ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığına dair youtube-dan (https://www.youtube.com/watch?v=5NDoS2giMZw) yüklədiyiniz sənədli filmi nümayiş etdirə bilərsiniz. Seçdiyiniz bir hissəni izlətdikdən sonra aşağıdakı və ya onlara oxşar sualları verib dərsin motivasiyasını qurmaq olar:

- Gördüyünüz kadrlar sizə nə deyir?
- Kadrlarda nədən bəhs edilirdi?

Sinfinizdə İKT-dən istifadə imkanı yoxdursa, motivasiyanızı beyin həmləsi yolu ilə və ya şagirdlərə o dövrə dair müxtəlif şəkillər göstərərək verdiyiniz suallar vasitəsilə də qura bilərsiniz. Motivasiyanı əvvəlki illərdə öyrənilmiş materiallar əsasında da qurmaq olar. Bunun üçün lövhədən də istifadə etmək mümkündür. Lövhədə XX əsrin 70–80-ci illərində Azərbaycanda aparılan islahatlar, tikinti-quruculuq işləri ilə bağlı ifadələr yaza və şagirdlərdən bununla bağlı cavab istəyə bilərsiniz. Əsas odur ki, verəcəyiniz suallar düşündürücü olub onlardan istədiyiniz cavabı almağa kömək etsin. Belə olacağı halda çətinlik çəkmədən dərsin motivasiyasını qura və tədqiqat sualınızı elan edə bilərsiniz.

**Tədqiqat sualı:** Azərbaycanın XX əsrin 70–80-ci illər tarixində Heydər Əliyevin rolu və fəaliyyəti nədən ibarət olub?

## Tədqiqatın aparılması:

Tədqiqatın aparılması üçün dərsin **cavab əldə elə** üsulu ilə keçilməsini tövsiyə edərdik. Bu zaman şagirdlər ayrı-ayrı mənbədən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaqlar. Verilən məhdud vaxt ərzində aldıqları tapşırıqların cavablarını onlar ya internet, ya da paylama materialı (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Tapşırığı elə qoymaq lazımdır ki, tədqiqatçılığa söykənmiş olsun. Yarışmanı xatırladan dərsin sonunda tapşırığa daha tez və dəqiq cavab verən qrup qalib gəlir. Dərs zamanı internetdən istifadə etmək imkanı şagirdlərə əlavə stimul verir. Eləcə də informasiya bolluğunda lazım olan məlumatı seçib götürmək bacarığını inkişaf etdirir. Bunun üçün qruplara tədqiqat məqsədilə aşağıdakı sualları verə bilərsiniz:

**I qrup.** Azərbaycanın 50–80-ci illər iqtisadiyyatına dair mənbələr əsasında diaqram qurun.

**II qrup.** 70–80-ci illərdə Azərbaycanın iqtisadi inkişafında Heydər Əliyevin rolunu və fəaliyyətini necə dəyərləndirərdiniz?

**III qrup.** Azərbaycanın SSRİ-nin ən iri elektrotexnika sənayesi mərkəzlərindən biri olduğunu hansı faktlarda görmək olar?

**IV qrup.** Heydər Əliyevin vətəndaşlıq və rüşvətxorluq haqqında fikirlərini necə qiymətləndirərdiniz?

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş za-

LAYİHƏ

man ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlərə aşağıdakı suallarla müraciət edə və dərsi ümumiləşdirib nəticə çıxara biərsiniz:

- Heydər Əliyevin söylədiyi "Qoy ədalət zəfər çalsın!" ifadəsini necə izah edərdiniz?
- Sizcə, 1980-ci illərin sonlarında Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olsaydı, hansı problemlərdən qaçmaq mümkün idi? Fikrinizi əsaslandırın.
- Müasir Azərbaycanın inkişafını nəzərə alaraq Heydər Əliyevi uzaqgörən dövlət xadimi adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.
- Heydər Əliyevi dövr baxımından necə qiymətləndirərdiniz?

**Yaradıcı tətbiqetmə:** Azərbaycanın neft sənayesinin inkişafı ilə bağlı müqayisəli cədvəl hazırlayın.

**Ev tapşırığı:** Heydər Əliyevin həyat və yaradıcılığı haqqında təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** müvafiq mənbələri seçmə, araşdırmalar aparıb proqnozlar vermə, rolu və fəaliyyəti dəyərləndirmə.

Qiymətləndirməni dərs izləməsi nəticəsində meyarlar üzrə aparmalısınız. Bununla belə, şagirdləri fərdi şəkildə qiymətləndirimək üçün təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə yardımçı sual verməklə qiymətləndirməni yekunlaşdırmaq olar. Məsələn: "Biz nəticəyə necə gəlib çıxdıq?", "Bütün bu hadisələrin baş verməsinə səbəb nə idi?" və s.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| XX əsrin 70–80-ci illərinə dair müvafiq mənbələri seçməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə XX əsrin 70–80-ci illərinə dair müvafiq mənbələri seçir. | XX əsrin 70–80-ci illərinə dair müvafiq mənbələri seçir. | XX əsrin 70–80-ci illərində Azərbaycanda gedən proseslərin öyrənilməsi üçün müvafiq mənbələri seçir. |
| Mənbələr əsasında Azərbaycanın XX əsrin 70–80-ci illər tarixinə dair araşdırmalar aparmaqda çətinlik çəkir. | Mənbələr əsasında Azərbaycanın XX əsrin 70–80-ci illər tarixinə dair araşdırmalar aparır. | Mənbələr əsasında Azərbaycanın XX əsrin 70–80-ci illər tarixinə dair araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Mənbələr əsasında Azərbaycanın XX əsrin 70–80-ci illər tarixinə dair araşdırmalar aparır, proqnozlar verir. |
| Tarixi proseslərin gedişində Heydər Əliyevin rolunu və fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Sualların köməyi ilə tarixi proseslərin gedişində Heydər Əliyevin rolunu və fəaliyyətini dəyərləndirir. | Tarixi proseslərin gedişində Heydər Əliyevin rolunu və fəaliyyətini bəzi səhvlərlə dəyərləndirir. | Tarixi proseslərin gedişində Heydər Əliyevin rolunu və fəaliyyətini dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 28. “YENİDƏNQURMA” VƏ “AŞKARLIQ” SİYASƏTİNİN İFLASA UĞRAMASI. QARABAĞ MÜNAQİŞƏSİNİN BAŞLANMASI

**Alt standartlar:**

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**Təlim məqsədləri:**

1. “Yenidənqurma” və “aşkarlıq” siyasətinin iflasa uğraması və Qarabağ münaqişəsinin başlanmasına dair müqayisəli-sinxron cədvəllər hazırlayır.
2. Azərbaycan xalqının sonrakı inkişaf tarixini dövrlə əlaqələndirir.
3. Ölkəmizin dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, qərarlar ağacı, fasiləli oxu
**Resurslar**: dərslik, xəritə, şəkillər, videoçarx
**İnteqrasiya:** İnformatika – 3.3.2., Ədəbiyyat – 1.1.4.

### Dərsin mərhələləri

**Motivasiya:** Motivasiya şəklində XX əsrin sonlarında Qarabağda, Xocalıda və Bakıda baş vermiş hadisələrə dair videoçarx nümayiş etdirə bilərsiniz. Bunun üçün şagirdlərin diqqətini cəlb etmək məqsədilə ara-sıra müəyyən suallardan da istifadə etmək olar.

- Sizcə, bu, Azərbaycanın hansı bölgəsidir?
- Əhali, sizcə, nə üçün nümayiş keçirir?
- Niyə bu insanlar dədə-baba yurdlarını tərk edib köçür? və s.

Təbii olaraq, şagirdlər söhbətin Qarabağ münaqişəsindən getdiyini anlayacaqlar.

Verilən suallar əsasında öz fərziyyələrini irəli sürəcəklər. Məqsəd bu mexanizmi işə salmaq və bundan sonra şagirdləri müzakirəyə cəlb etməkdir. Bunun üçün tədqiqat sualı verilir.

**Tədqiqat sualı:** “Yenidənqurma” və “aşkarlıq” siyasətinin iflasa uğramasının Qarabağ münaqişəsi ilə əlaqəsi nədən ibarət oldu?

### Tədqiqatın aparılması:

Bəzən tədqiqat sualı ilə qrupa veriləcək sualı qarışdırırlar. Tədqiqat sualı ümumi bir sual olur və ona cavab tapmaq üçün müxtəlif tapşırıqların həllinə ehtiyac yaranır. Qrupa suallar qoyulsa da, onun tapşırığa çevrilməsi zəruridir. Əslində, məqsədimiz şagirdlərdə müəyyən bilik və bacarıqların formalaşdırılmasına şərait yaratmaqdır. Bununla yanaşı, mövzunun tədrisi zamanı inteqrasiya imkanlarınızı da unutmayın. İnteqrasiya ilə şagirdlərin bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi üçün şərait yaradılır.

LAYİHƏ

Tədqiqat sualına cavab axtarmaq üçün tapşırıqlar verilir. Tapşırıqlar dərslikdə öz əksini tapan mövzunu əhatə edən sual və tapşırıqlardan istifadə ilə həyata keçirilərsə, daha yaxşı olar. Bu vaxt şagirdlər **fasiləli oxu** üsulundan istifadə etməklə mövzu ilə yaxından tanış ola bilərlər.

Tədqiqat aparmaq üçün sinif qruplara bölünür. Qrupları mövzuya uyğun istədiyiniz şəkildə adlandıra bilərsiniz. Hər qrup üçün iş vərəqi əvvəlcədən hazır olmalıdır.

Mövzu geniş tarixi prosesləri əhatə edir. Bunun üçün şagirlərin yaş səviyyəsini nəzərə alaraq, tədqiqatı ikimərhələli təşkil etmək olar. İlk növbədə, Qarabağ münaqişəsinə gətirən səbəbləri və ermənilərin özbaşınalığına rəvac verən sosial-siyasi vəziyyəti araşdırmaq lazımdır. Şagirdlər artıq mövzunun kökündə dayanan “Yenidənqurma” və “aşkarlıq” siyasəti ilə Ümumi tarix fənnindən tanışdırlar. Ona görə də ikimərhələli tədqiqatın aparılması məqsədəuyğundur. Tədqiqatın birinci mərhələsində qruplara aşağıdakı tapşırıqları verə bilərsiniz, digər tərəfdən isə mövzunun sonunda verilmiş sual və tapşırıqlar arasından ən uyğun olanını seçmək mümkündür.

**I qrup.** XX əsrin sonlarına doğru SSRİ-ni bürüyən böhranın səbəblərini sxem şəklində göstərin. Çalışın ki, sxemdə cəmiyyətdə böhranlı şəraiti özündə əks etdirən sosial, siyasi, iqtisadi, mədəni (ideoloji) sahələr qeyd olunsun.

**II qrup.** Sovet hökuməti böhrandan çıxmaq üçün hansı tədbirlər görməyə çalışırdı? Ümumi tarix fənnindən tanış olduğunuz uyğun mövzunu yada salın və Qorbaçovun “yenidənqurma” siyasətinin iflasını araşdırın. Nə üçün “aşkarlıq” siyasəti cəmiyyətdə özbaşınalıq kimi dəyərləndirilirdi? Mülahizələrinizi əsaslandıraraq qeyd edin.

**III qrup.** SSRİ-nin dağılmasında milli münasibətlərin pozulmasının nə dərəcədə rolu ola bilərdi? Sualın cavabını əvvəlki dərslərinizi yada salmaqla SSRİ-də mövcud dövlətləri bir-birinə birləşdirən (sosial, siyasi, mədəni, ideoloji) əlaqələri müəyyənləşdirməyə çalışın və cavablarınızı sxemləşdirin.

**IV qrup.** Həqiqətənmi, M.S.Qorbaçov “sonuncu nəfəs” idi? Fikirlərinizi əsaslandıraraq esse yazın.

Bu tapşırıqları verərkən siz **qərarlar ağacı** üsulundan da istifadə edə bilərsiniz. Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır. Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. Qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onların qarşısında müvafiq qaydada **“+”** və ya **“–”** işarəsini qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür. Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

**Məlumatın mübadiləsi və müzakirəsi:**

Qrup işləri verilərkən inklüzivliyi nəzərə almaq işin daha səmərəli təşkilinə şərait yaradacaqdır. Sonra onun təqdim edilməsi reallaşdırılmalıdır. Vaxt bölgüsünü əvvəlcədən elan etməniz zəruridir ki, şagirdlər əlavə zaman itkisinə yol verməsinlər. Qrup işlərinin təqdimatından sonra müzakirə mərhələsi reallaşdırılır.

Qruplar öz işlərini mübadilə etdikdən sonra mövzu ətrafında qoyulmuş suallarla sinfə müraciət edə bilərsiniz. Bu istiqamətdə dərslikdə qeyd olunan suallardan istifadə etmək məqsədəmüvafiqdir. Məlumatın mübadiləsi və müzakirəsi baş tutduqdan sonra qrupları qiymətləndirməyi unutmayın.

Qrupların qiymətləndirilməsi aşağıdakı meyar əsasında aparılır.

LAYİHƏ

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Tədqiqatın ikinci mərhələsi:**

Qruplara yenə də iş vərəqlərində qeyd olunmuş tapşırıqlarla müraciət edin:

**I qrup.** Qarabağ münaqişəsinin xronoloji cədvəlini tərtib edin. Sübut etməyə çalışın ki, bu münaqişənin qızışdırılması ermənilərin əvvəlcədən hazırlanmış planı idi.

**II qrup.** Azərbaycanlıların öz dədə-baba yurdlarından qovulması ermənilərin hansı gələcək planlarına xidmət edirdi? Bunu müasir vəziyyətlə müqayisəli şəkildə izah etməyə çalışın.

**III qrup.** Sübut etməyə çalışın ki, Qarabağ münaqişəsi Rusiyanın dəstəyi olmadan baş tuta bilməzdi. Hadisələri əks etdirən xronoloji cədvələ əsasən rusların münaqişədən əvvəl, münaqişə baş verən zaman və sonrakı dövrdə atdığı addımlarına qiymət verin.

**IV qrup.** Qarabağ münaqişəsinin belə uzun müddət davam etməsi dünyanın başqa hansı siyasi dairələrinin maraqlarına xidmət edir? Bunun üçün “Qarabağ münaqişəsi olmasaydı, müasir Azərbaycan Respublikasının taleyi necə ola bilərdi?” sualı ətrafında müzakirələr aparın. Maraqlı olan tərəfləri sxem şəklində qeyd edin.

İş vərəqlərini hazırlayarkən mətndə yer alan şəkillərə də müraciət edə bilərsiniz. Ümumiyyətlə, şagirdlərin tədqiqat işində dərsliyə müraciət etməsi məqsədəmüvafiq amillərdən biridir.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Mübadilədən sonra şagirdlərlə müzakirələr aparın. Dərslikdəki mövzu daxilindəki suallardan və ya aşağıdakı müzakirə suallarından istifadə edə bilərsiniz:

- Həqiqətənmi, Sumqayıt hadisələri əvvəlcədən planlaşdırılmış şəkildə həyata keçirilmişdi? Fikirlərinizi əsaslandırın.
- Nə üçün həmin dövrdə Azərbaycan rəhbərliyi münaqişəni həll edə bilmədi?
- Qarabağ münaqişəsi Azərbaycan xalqının siyasi mütəşəkkilliyinə necə təsir göstərdi?
- Rusiya indi də münaqişənin həllində maraqlıdırmı?

LAYİHƏ

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bu mərhələni tapşırıqların və müzakirə suallarına verilmiş cavabların əsasında müəyyənləşdirə bilərsiniz. Çalışın ki, bu, şagirdlərin özü tərəfindən aparılsın. Onlar “yenidənqurma” və “aşkarlıq” siyasətinin iflasa uğraması və Qarabağ münaqişəsinin başlanmasina dair müqayisəli-sinxron cədvəllər

hazırlamaqla yanaşı, Azərbaycan xalqının sonrakı inkişaf tarixini dövrlə əlaqələndirir, ölkəmizin dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verirlər.

Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

**Yaradıcı tətbiqetmə:** Qarabağ münaqişəsinin həllinə dair yaxın zaman üçün proqnozlar tərtib edin. Çalışın ki, proqnozlarınızı müasir siyasi və qlobal şəraitlə əlaqələndirəsiniz. Bu fəaliyyət dərsin vaxt çərçivəsinə sığmaya da bilər. Ona görə də onu ev tapşırığı kimi vermək daha məqsədəuyğundur.

**Ev tapşırığı: "Qarabağ qan yaddaşımızdır"** adlı tezis hazırlayın.

**Qiymətləndirmə meyarı:** cədvəllər hazırlama, dövrləri əlaqələndirmə, proqnozlar vermə.

Şagirdlər fərdi şəkildə qiymətləndirilir. Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə qiymətləndirməni tamamlaya bilərsiniz. Bunun üçün meyarlar cədvəli hazırlayın. Standartlara uyğun şəkildə fəaliyyətləri səviyyələrlə dəyərləndirin.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| "Yenidənqurma" və "aşkarlıq" siyasətinin iflasa uğraması və Qarabağ münaqişəsinin başlanmasına dair müqayisəli-sinxron cədvəllər hazırlamaqda çətinlik çəkir. | "Yenidənqurma" və "aşkarlıq" siyasətinin iflasa uğraması və Qarabağ münaqişəsinin başlanmasına dair müqayisəli-sinxron cədvəlləri müəllimin köməyi ilə hazırlayır. | "Yenidənqurma" və "aşkarlıq" siyasətinin iflasa uğraması və Qarabağ münaqişəsinin başlanmasına dair bəzi səhvlər etməklə müqayisəli-sinxron cədvəllər hazırlayır. | "Yenidənqurma" və "aşkarlıq" siyasətinin iflasa uğraması və Qarabağ münaqişəsinin başlanmasına dair sərbəst şəkildə müqayisəli-sinxron cədvəllər hazırlayır. |
| Azərbaycan xalqının sonrakı inkişaf tarixini dövrlə əlaqələndirməkdə çətinlik çəkir. | Azərbaycan xalqının sonrakı inkişaf tarixini dövrlə sualların köməyi ilə əlaqələndirir. | Azərbaycan xalqının sonrakı inkişaf tarixini dövrlə cüzi səhvlərlə əlaqələndirir. | Azərbaycan xalqının sonrakı inkişaf tarixini sərbəst şəkildə dövrlə əlaqələndirir. |
| Ölkəmizin dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Ölkəmizin dövlətçilik tarixinə dair sualların köməyi ilə araşdırmalar aparır, proqnozlar verir. | Ölkəmizin dövlətçilik tarixinə dair cüzi səhvlərlə araşdırmalar aparır, proqnozlar verir. | Ölkəmizin dövlətçilik tarixinə dair sərbəst şəkildə araşdırmalar aparır, proqnozlar verir. |

LAYİHƏ

# MÖVZU 29. XALQ HƏRƏKATI

**Alt standartlar:**

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan xalqının formalaşması xüsusiyyətlərini Xalq hərəkatı dövrü ilə əlaqələndirir.
2. Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində oynadığı rolu və Naxçıvandakı fəaliyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 2.1.1.
**Təlim forması**: cütlərlə iş
**Təlim üsulu:** beyin həmləsi, GZİT
**Resurslar:** dərslik, şəkillər, xəritə, internet materialları, videoçarx

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya üçün Siz Ümummilli lider Heydər Əliyevin 20 Yanvar hadisələrinə verdiyi siyasi qiymət kimi dəyərləndirdiyimiz 1990-cı ilin yanvar ayında Moskvadakı çıxışının videoçarxını nümayiş etdirə bilərsiniz. Çarx göstərildikdən sonra şagirdlərə sualla müraciət etmək olar (mətn rusca getdiyi üçün tərcümə etməyin): Ulu öndər o zaman nə üçün belə qətiyyətlə etiraz edirdi? Sizcə, o hansı hadisələrdən danışırdı?" Mülahizələri dinləyin və tədqiqat sualının ortaya çıxması üçün yönləndirici suallardan istifadə edin.

**Tədqiqat sualı:** Xalq hərəkatının Azərbaycan tarixindəki rolu nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılması üçün sinfi cütlərə ayırın. Çalışın ki, şagirdlər daim öyrəşdikləri cütlərdə olmasınlar. Güclü ilə zəif şagirdi eyni cütə daxil etməyin. Əks halda zəif şagird işləməkdən ehtiyatlanacaq, güclü isə onun əməkdaşlığına ehtiyac duymayacaq. Hər bir cüt üçün onun səviyyəsinə uyğun tapşırıqlar müəyyənləşdirin. Çalışın ki, bütün cütlər işləsinlər. Onlara verilən tapşırıqların əhəmiyyətini izah edin və bildirin ki, əks halda tədqiqat öz səmərəsini verə bilməz. Cütləri fəaliyyətə cəlb etmək bilavasitə sizin vəzifənizdir. Onların işini mətnin sonunda verilən sual və tapşırıqlar əsasında təşkil edə bilərsiniz. Sizin işiniz tədqiqat sualına uyğun olaraq informasiyanın mübadiləsi və müzakirəsi mərhələsində sual və tapşırıqların məntiqi ardıcıllıqla mübadiləsini təşkil etməkdən ibarətdir. Bu zaman yönləndirici suallar köməyinizə çata bilər. Məsələn, tapşırıqları nömrələrinə uyğun olaraq aşağıdakı məntiqi ardıcıllıqla mübadilə edə bilərsiniz: 1, 2, 5, 6, 7, 4, 8, 10, 11. Eyni tapşırıqları fərqli cütlərə təklif etmək də mümkündür. Bəzən bir cütün çətinlik çəkdiyi tapşırıq digəri tərəfindən çox asanlıqla yerinə yetirilir və ya cütlərin

LAYİHƏ

işləri bir-birini tamamlayır. Bu məsələlər, adətən, məlumatın mübadiləsi və müzakirəsi mərhələsində öz əhəmiyyətini göstərir. Məsələn, dərslikdə mətnin sonunda öz əksini tapmış 3-cü və 9-cu tapşırıqlar məhz müzakirə üçün nəzərdə tutulmuşdur.

Əvvəlcədən iş vərəqləri hazırlayın, əgər yoxdursa, şagirdlərə müxtəlif fəaliyyət üsulları ilə işləməyi tövsiyə edin. Bəzi tapşrıqlar mürəkkəbliyi ilə seçilir. Onun üçün cütlərdə iş kifayət etmir, buna görə də kollektivin köməyi gərəkdir. Məsələn, 4-cü tapşırığı bu məqsədlə istifadə edə bilərsiniz.

Bəziləri isə, ümumiyyətlə, şagirddən sinifdənxaric fəaliyyət tələb edir. Məsələn, əlavə mənbələrə, internet materiallarına müraciət etmək, yeni məlumatlar toplamaq, təqdimat hazırlamaq və s. Buna görə də həmin tapşırıqları evə verə bilərsiniz.

Tövsiyə məqsədilə verilən suallar üçün üsullar təklif edirik. Məsələn, 4-cü tapşırıqda sizə GZİT təhlil təklif olunur. Bu zaman şagirdlər vərəqi dörd hissəyə ayırırlar. Hər bir hissə ayrı-ayrılıqda adlandırılır: güclü, zəif, imkanlar, təhlükələr. Sonra isə təhlil üçün verilmiş hadisənin və ya digər tarixi şəxsiyyətin, sosial, siyasi qrupun, dövlətin güclü və zəif tərəfləri qeyd olunur. Mövcud imkanlar və gözlənilən təhlükələr araşdırılır. Bu, nisbətən mürəkkəb tapşırıq sayıldığı üçün onu bütün siniflə birlikdə aparmaq tövsiyə edilir. Belə ki bu zaman fikir çoxluğu və müxtəlifliyi cavabların daha tez aşkar olunmasına kömək edə bilər.

GZİT vasitəsilə diskussiyanın qiymətləndirilməsini aparmaqla şagirdlərin fəaliyyətini stimullaşdırmış olacaqsınız. Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz fikirlərini təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

- Dəlillərin inandırıcı olması;
- Mənbələrdən istifadə etmək bacarığı;
- Mülahizələrin məntiqiliyi, ziddiyyətlərin olmaması;
- Polemika bacarığı;
- Sual vermək, diskussiya üzrə rəqibin dəlillərini zəiflədən əks dəlillər tapmaq məharəti.

10-cu tapşırığı da sinifdə yerinə yetirmək mümkündür. Belə ki mətnin sonundakı mənbədən istifadə etməklə Ulu öndər Heydər Əliyevin Moskvadakı çıxışı ilə tanış olmaq və onun 20 Yanvar faciəsinə münasibətini dəyərləndirmək tövsiyə edilir. Eyni zamanda siz internetdən əvvəlcə axtarıb-tapdığınız uyğun videoçarxı da nümayiş etdirə bilərsiniz. Dərsin motivasiya hissəsində bunu sizə tövsiyə etmişik.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Bu mərhələdə tapşırıqları hazırlamış şagirdlər öz işlərini mübadilə etmiş olurlar. Mübadilə müzakirə ilə həyata keçərsə, daha effektli alınar. Müzakirə zamanı suallardan istifadə edə bilərsiniz. Bu vaxt yönləndirici suallara da müraciət edin. Çalışın ki, gərəkli cavabları almağı bacarasınız.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Cütlərin düzgün cavabları ümumiləşmiş şəkildə lövhədə qeyd olunmalıdır. Sonda sinfin qənaətləri ortaya çıxacaq ki, bu da mövzu üzrə nəticəni ifadə edəcəkdir. Nəticəyə gəlmək üçün aşagıdakı suallardan və bu qəbildən olan oxşar suallardan istifadə edə bilərsiniz:

- Xalq hərəkatının başlanmasına səbəb nə oldu?
- Xalq hərəkatının tələbi nə idi?
- 20 Yanvar faciəsinin törədilməsində məqsəd nə idi?
- Ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsinə səbəb nə olmuşdu?
- Nə üçün Naxçıvan “sovet sosialist” kəlməsinin yükünü öz üzərindən daha tez ata bildi?

LAYİHƏ

- Ulu öndər Heydər Əliyevin Naxçıvana gəlişinin əhəmiyyəti nə oldu? və s.

Cütlərin işini cüt işinin qiymətləndirilməsi meyarları ilə qiymətləndirməyi tövsiyə edirik.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıqetmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| Kənan | | | | | |
| Gülsən | | | | | |

**Yaradıcı tətbiqetmə:** “Azərbaycanda xalq hərəkatı dalğası” adlı esse yazın.

Essenin qiymətləndirilməsini aparmaq lazımdır ki, şagirdlərin situmullaşması yaransın. Esseni adi məktəb inşası kimi ənənəvi üsulla qiymətləndirmək olar. Müəllim aşağıda göstərilmiş meyarlardan da istifadə edə bilər:

- Esse əsasında mövzunun mahiyyətinin tam açılması;
- Faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;
- Terminlərdən, faktlardan düzgün istifadə olunması;
- Mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması, fikrin ardıcıllığı.

**Ev tapşırığı:** 11-ci tapşırıq yaradıcı tətbiqetməni ifadə edir. Bu tapşırığın icrası müəyyən zaman tələb etdiyi üçün şagirdlərin onu daha dərindən işləməsinə səbəb olacaqdır.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, dəyərləndirmə.

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir.

Meyarlar səviyyələr üzrə aşağıdakı fəaliyyətləri əhatə edir: dəyərləndirir, fərqləndirir, nümayiş etdirir və təqdimatlar hazırlayır.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan xalqının formalaşması xüsusiyyətlərini Xalq hərəkatı dövrü ilə əlaqələndirməkdə çətinlik çəkir. | Azərbaycan xalqının formalaşması xüsusiyyətlərini Xalq hərəkatı dövrü ilə suallar vasitəsilə əlaqələndirir. | Azərbaycan xalqının formalaşması xüsusiyyətlərini Xalq hərəkatı dövrü ilə bəzi səhvlər edərək əlaqələndirir. | Azərbaycan xalqının formalaşması xüsusiyyətlərini Xalq hərəkatı dövrü ilə sərbəst əlaqələndirir. |
| Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində oynadığı rolu və Naxçıvandakı fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində oynadığı rolu və Naxçıvandakı fəaliyyətini suallar vasitəsilə dəyərləndirir. | Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində oynadığı rolu və Naxçıvandakı fəaliyyətini bəzi faktlarda səhv etməklə dəyərləndirir. | Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində oynadığı rolu və Naxçıvandakı fəaliyyətini sərbəst şəkildə dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 30. CƏNUBİ AZƏRBAYCAN İSLAM İNQİLABI VƏ SONRAKI DÖVRDƏ

**Alt standartlar:**

1.3.1. Azərbaycan xalqının formalaşmasının xüsusiyyətlərini tarixi dövrlərlə əlaqələndirir.

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.

**Təlim məqsədləri:**

1. XX əsrin II yarısında Cənubi Azərbaycanda xalqın inkişaf xüsusiyyətlərini tarixi dövrlə əlaqələndirir.
2. Cənubi Azərbaycanın İran İslam inqilabında mövqeyinin əhəmiyyətini dəyərləndirir.
3. Şəriətmədari haqqında layihələr hazırlayır.

**İnteqrasiya:** Coğrafiya – 3.2.3., Ümumi tarix – 4.1.2.
**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, müzakirə, Venn diaqramı
**Resurslar:** şəkillər, iş vərəqləri, paylayıcı materiallar, dərslik, kompüter, proyektor, internet resursları, CD disk və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya kimi **beyin həmləsi** üsulundan istifadə etmək mümkündür. Bunun üçün əvvəlcə şagirdlərə populyar İran estradası və ya xalq mahnısından bir parça səsləndirin. Daha sonra onlara aşağıdakı formada sual verin:

- Bu iki musiqi arasında hansı fərqi görürsünüz?

Şagirdlərdən cavabı aldıqdan sonra onlara estrada musiqi janrının İranda nə üçün qadağan edilməsi haqqında qısa məlumat verib növbəti suala keçin:

- Sizcə, belə musiqi janrı İranda nə zamandan qadağan edilə bilərdi?

Beləliklə, şagirdlər öz fərziyyələrini bildirirlər. Əldə edilən mülahizələri lazımi məcraya yönəldib dərsin motivasiyasını reallaşdırırsınız. Daha sonra tədqiqat sualını elan edirsiniz.

Motivasiyanı qurmaqdan ötrü şagirdlər üçün **anlayışın çıxarılması** üsulundan (Bu üsulla 1978–1979-cu illər İran İslam inqilabına motivə etmək heç də çətin olmamalıdır. Çünki şagirdlər 9-cu sinifdə bu inqilabi hərəkatla yaxından tanış olublar.) istifadə edə və ya slaydlar hazırlaya bilərsiniz. Motivasiyanı hansı üsulla quracağınızdan asılı olmayaraq, əsas olan onun tədqiqat sualına xidmət etməsidir.

**Tədqiqat sualı:** İran dövlətində Cənubi Azərbaycanın geosiyasi mövqeyi nədən ibarət olmuşdur?

LAYİHƏ

**Tədqiqatın aparılması:**

Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman fəal təlimin **müzakirə** üsulundan istifadə etsəniz, daha yaxşı olar. Qruplara tədqiqat üçün aşağıdakı sualları verə bilərsiniz:

**I qrup.** Xomeyninin siyasi baxışlarına zidd olan çevrələrə qarşı repressiyalara başlanması prosesini dəyərləndirin.

**II qrup.** Azərbaycan Yazıçıları və Şairləri Cəmiyyəti ilə İMXRP-nin Azərbaycan təşkilatının məramlarını qiymətləndirin.

**III qrup.** İran İslam inqilabının gedişində Xomeyninin rolunu dəyərləndirin.

**IV qrup.** 1979-cu ilin dekabrında Təbriz üsyanının inkişafında Şəriətəmədarinin fəaliyyətini qiymətləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Daha sonra qruplar əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qruplar öz təqdimatlarını etdikdən sonra dərsin yekunlaşdırılması və tədqiqat sualına cavabın tapılması üçün şagirdlərə aşağıdakı sualları verə bilərsiniz:

- Sizcə, nə üçün neftçilərin aramsız ümumi tətili inqilabın taleyini həll etdi?
- Ölkədə başlanan inqilabı sosial partlayış adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.
- Sizcə, Şəriətəmədari 1979-cu il dekabr üsyanı zamanı geri çəkilməsəydi, nə baş verə bilərdi?
- İran İslam inqilabı dünyada baş verən digər inqilablardan hansı xüsusiyyətlərinə görə fərqlənirdi?
- Cənubi Azərbaycanın İran dövlətində geosiyasi mövqeyinin əhəmiyyətini necə dəyərləndirərdiniz?

**Yaradıcı tətbiqetmə:** Yaradıcı tətbiqetmə kimi şagirdlərə aşağıdakı tapşırığı verə bilərsiniz:

XX əsrin 1941–1946-cı və 1978–1979-cu illər inqilabi hərəkatlarını Venn diaqramında müqayisə edin.

**Ev tapşırığı:** Şəriətmədari haqqında layihə hazırlayın.

**Qiymətləndirmə meyarları:** əhəmiyyətini dəyərləndirmə, layihələr hazırlama

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdləri yuxarıdakı meyarlara uyğun səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısınız. Sonuncu meyarı dərsdə reallaşdırmaq mümkün olmadıqda şagirdlərə ona dair ev tapşırığı vermək və tapşırıq sizə təqdim ediləndən sonra qiymətləndirmə aparmaq olar.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| XX əsrin II yarısında Cənubi Azərbaycanda xalqın inkişaf xüsusiyyət-lərini əlaqələndirməkdə çətinlik çəkir. | XX əsrin II yarısında Cənubi Azərbaycanda xalqın inkişaf xüsusiyyət-lərini sualların köməyi ilə əlaqələndirir. | XX əsrin II yarısında Cənubi Azərbaycanda xalqın inkişaf xüsusiyyət-lərini əlaqələndirərkən tarixi dövrə elə də əhəmiyyət vermir. | XX əsrin II yarısında Cənubi Azərbaycanda xalqın inkişaf xüsusiyyətlərini tarixi dövrlə əlaqələndirir. |
| Cənubi Azərbaycanın İran İslam inqilabında mövqeyinin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Cənubi Azərbaycanın İran İslam inqilabında mövqeyinin əhəmiyyətini müəllimin köməyi ilə dəyərləndirir. | İran İslam inqilabında Cənubi Azərbaycanın mövqeyini bəzi məsələləri nəzərə almadan dəyərləndirir. | Cənubi Azərbayca-nın İran İslam inqilabında mövqeyini dəyərlən-dirir. |
| Şəriətmədari haqqında sadə layihələr hazırla-maqda çətinlik çəkir. | Şəriətmədari haqqında sadə layihələr hazırlayır. | Yoldaşlarının köməyi ilə Şəriətmədari haqqında layihələr hazırlayır. | Şəriətmədari haqqında layihələr hazırlayır. |

## MÖVZU 31. XX ƏSRİN II YARISINDA MƏDƏNİYYƏT

**Alt standartlar:**

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.

5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdır-malar aparır, nəticələri təqdim edir.

**Təlim məqsədləri:**

1. XX əsrin II yarısında dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.
2. XX əsrin II yarısında Azərbaycanın milli-mənəvi dəyərlərini xalqımızın dünya mədəniy-yətinə töhfəsi kimi dəyərləndirir.
3. XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin SSRİ mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.

**İnteqrasiya:** Ümumi tarix – 5.1.1., Azərbaycan dili – 3.1.2., Ədəbiyyat – 3.1.2.
**Təlim forması:** böyük qruplarla iş
**Təlim üsulu:** beyin həmləsi, ardıcıl suallar üsulu
**Resurslar:** elektron resurslar, dərslik, şəkillər, paylayıcı materiallar və s.

LAYİHƏ

## Dərsin mərhələləri

**Motivasiya:** Siz motivasiyanı şəkillərin köməyi ilə qura bilərsiniz. Mövzuya aid müxtəlif şəkillərdən, portretlərdən istifadə etməklə (əgər imkanınız varsa, şəkilləri internetdən yükləyib adi A4 vərəqlərdə də çıxartmaq mümkündür) və bu şəkillərə suallar qoymaqla motivasiya qurmaq olar. Bu imkan yoxdursa, onda şagirdlərin diqqətini dərslikdəki şəkillərə yönəltməklə və onlara suallar qoymaqla dərsə motivə edə bilərsiniz.

Motivasiyanı açar sözlərdən istifadə etməklə də qurmaq mümkündür. Bunun üçün açar sözləri – *Teatr İnstitutu, "Qobustan" almanaxı, Səməd Vurğun, Yusif Məmmədəliyev, Fərman Salmanov, Şamaxı Astrofizika Rəsədxanası, Rəsul Rza, "1001 gecə" baleti, "Arşın mal alan" filmi, Tahir Salahov* – şagirdlərə çatdırır və onlara sual verirsiniz: "Bu sözlər sizə nə deyir, onları birləşdirən ümumi cəhət nə ola bilər?" Cavablar alınır, fərziyyələr ümumiləşdirilir və tədqiqat sualı elan olunur.

**Tədqiqat sualı:** Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolu nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

Tədqiqat sualına cavab tapmaq üçün dərsin **ardıcıl suallar** üsulu ilə keçilməsini tövsiyə edərdik. Bu zaman mətni abzaslara bölərək hər abzası bir şagirdə ucadan oxutdurmaq, digər şagirdi, bir növ, ona apponent təyin etmək lazımdır. Abzasın oxunması bitdikdən sonra apponent şagird mətni oxuyan şagirdə bir və ya bir neçə sual verir, birinci şagird onun sualını cavablandırır. Sonra sual verən oxumağa davam edir, ikinci isə oxunan abzasdan bu dəfə ona sual ünvanlayır. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub-anlama vərdişləri ilə yanaşı, sual qoymaq, sualı cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar da formalaşa bilər.

Ardıcıl suallar üsulu ilə dərsin keçilməsi, **məlumatın mübadiləsi və müzakirəsi**, tədqiqatın aparılması mərhələləri birləşdirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Aşağıdakı yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab ala bilərsiniz.

- Azərbaycanda mədəniyyətin inkişafı məqsədilə nə üçün, ilk növbədə, xalq maarifi şəbəkəsinin tədris-maddi bazasının möhkəmləndirilməsinə diqqət ayrıldı?
- Azərbaycanın keçmiş və müasir dövr mədəniyyətini necə dəyərləndirərdiniz?
- Y.H.Məmmədəliyevin hansı nailiyyətini dünya mədəniyyətinə verdiyi töhfə kimi təqdim etmək olar?
- XX əsr Azərbaycan tarix elminin ən böyük nailiyyəti kimi nəyi qiymətləndirmək mümkündür?
- Azərbaycan alimlərinin hansı nailiyyətləri diqqətinizi daha çox cəlb etdi?
- XX əsrin II yarısı Azərbaycanın mədəni inkişaf xüsusiyyətlərini tarixi dövrlə necə əlaqələndirmək olar?

**Yaradıcı tətbiqetmə:** XX əsrin I və II yarısı Azərbaycanın mədəni nailiyyətlərinin müqayisəli cədvəlini qurun.

**Ev tapşırığı**:

1. Dövrün görkəmli şəxsiyyətləri haqqında layihələr hazırlayın.

LAYİHƏ

2. SSRİ mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolu ilə bağlı təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** rolunu dəyərləndirmə, töhfə kimi dəyərləndirmə, araşdırmalar aparma, nəticələri təqdimetmə.

Şagirdlərin qiymətləndirilməsini aşağıdakı cədvələ uyğun olaraq yuxarıda yazılmış meyarlar üzrə aparmalısınız:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dünya mədəniyyətinin inkişafında XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirməkdə çətinlik çəkir. | Dünya mədəniyyətinin inkişafında XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin rolunu müəllimin köməyi ilə dəyərləndirir. | Dünya mədəniyyətinin inkişafında XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin rolunu bəzi çatışmazlıqlarla dəyərləndirir. | XX əsrin II yarısı dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir. |
| XX əsrin II yarısı Azərbaycanın milli-mənəvi dəyərlərini mədəni nailiyyət kimi dəyərləndirir. | XX əsrin II yarısı Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirməkdə çətinlik çəkir. | XX əsrin II yarısı Azərbaycanın milli-mənəvi dəyərlərini bəzi yanlışlıqlarla Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir. | XX əsrin II yarısı Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir. |
| XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin SSRİ mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparmaqda çətinlik çəkir. | XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin SSRİ mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır. | XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin SSRİ mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim etməkdə çətinlik çəkir. | XX əsrin II yarısı Azərbaycan mədəniyyətinin SSRİ mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir. |

LAYİHƏ

# X FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MÜSTƏQİLLİYİN BƏRPASININ İLK İLLƏRİNDƏ

## MÖVZU 32. DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI

**Alt standartlar:**

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

3.1.1. Müxtəlif dövrlərdə Azərbaycanda yaranmış dövlətlərin dövlətçilik ənənələrinin və sivilizasiyanın inkişafında rolunu dəyərləndirir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin mənbələr əsasında müqayisəli-sinxron cədvəllərini hazırlayır.
2. AXC-nin müasir Azərbaycan Respublikasının yaranmasındakı rolunu dəyərləndirir.
3. Azərbaycanın müstəqilliyinin bərpasında Heydər Əliyevin rolunu və fəaliyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 1.1.3.
**Təlim forması:** kiçik qruplarla və fərdi iş
**Təlim üsulu:** sxem, Venn diaqramı
**Resurslar:** dərslik, paylama materialları, müasir dövrü əhatə edən elektron resurslar

### Dərsin mərhələləri

**Motivasiya:** Mövzunun tədrisi zamanı müxtəlif sualların köməyi ilə şagirdlərin diqqətini Azərbaycanda baş vermiş proseslərə, qonşu dövlətlərin ərazilərimizə olan maraqlarına, Azərbaycanın siyasi həyatına, eləcə də ölkədə baş vermiş gərginliyə yönləndirin. Motivasiya zamanı dövr haqqında müxtəlif suallar da vermək olar. Sualların köməyi ilə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru istiqamətləndirmək olar. Həmçinin açar sözlərdən istifadə etməklə də suallar vermək mümkündür. Sualları cavablandırmaq üçün onlara bir neçə dəqiqə vaxt verilsə, daha düzgündür. Verilən cavablar lövhədə, yaxud flipçartda qeyd olunmalıdır. Həmçinin mövzunun əvvəlində Heydər Əliyevin Azərbaycan Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasındakı çıxışı verilə bilər. Həmin mətni elektron nümunədə şagirdlərə nümayiş etdirmək də olar. Dərslikdə verilən materialların köməyi ilə şagirdlər dövrün şəxsiyyətlərini yaxından tanıyacaq, xəritə vasitəsilə torpaqlarımızda baş vermiş hadisələrin yerini müəyyən edəcək, Azərbaycan Respublikasının yaranması və inkişafı istiqamətində atılan addımları tam şəkildə təsəvvür edəcəklər. Şəkillərlə yanaşı, dövr haqqında dərslikdə verilən məlumatlar, mənbələr şagirdlərdə Qarabağ problemi, torpaqlarımız uğrunda mübarizə, torpaqlarımıza təcavüz,

LAYİHƏ

xalqımızın başına gətirilən faciələr və bu situasiyada dövlətçiliyimizin bərpası üçün edilən cəhdlər və onun bərpası, ilk islahatlar haqqında tam təsəvvürlərin formalaşmasına yardım edəcək. Motivasiya baş tutduqdan sonra tədqiqat sualı ortaya qoyulur.

**Tədqiqat sualı:** Müstəqilliyimizin bərpası üçün atılan addımlar nədən ibarət olmuşdur?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılması üçün şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Dərslikdəki sual və tapşırıqlardan da bu mərhələ üçün istifadə edə bilərsiniz. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü aparakən daha çevik və maraqlı vasitələrə əl atmaq onların marağına səbəb ola bilər. Bu şəkildə vaxta qənaət etmiş olacaqsınız. Bu işdə rəngli stikerlər köməyinizə çata bilər. Bunun üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Bu mövzunun reallaşdırılması məqsədilə daha yaxşı olardı ki, müxtəlif rənglərdən, məsələn, qırmızı, sarı, yaşıl, mavi, çəhrayı və s.-dən istifadə edəsiniz. Qrupu 4 yerə bölməklə onların adını mövzu ilə əlaqələndirə bilərsiniz. Bu zaman sizin üçün aşağıdakı tapşırıqlar vasitə olacaq.

**I qrup.** Sübut edin ki, Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının müstəqilliyi uğrunda cəsarətli addım atmış ilk dövlət başçısı idi. Bunun üçün onun Naxçıvandakı fəaliyyətini dəyərləndirin və xronoloji sxem tərtib edin.

**II qrup.** AXC ilə Azərbaycan Kommunist Partiyasının Azərbaycanın müstəqilliyinə baxışlarını fərqləndirin. Venn diaqramından istifadə edin.

**III qrup.** 1991-ci ildə baş vermiş hadisələrin xronoloji cədvəlini hazırlayın. Azərbaycanın müstəqilliyi necə elan olundu?

**IV qrup.** Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ilə 1918-ci ildə elan olunmuş İstiqlal Bəyannaməsini müqayisə edin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Bu mərhələdə hər qrupun lideri verilmiş tapşırığın təqdimatını müəllimə təqdim edir. Lazım gələrsə, qrup üzvləri ona yardım göstərə bilərlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir. Qrupun meyar cədvəli öncədən sinifdən asılır və ya lövhədə şagirdlərə nəyin əsasında qiymətləndiriləcəkləri göstərilir.

Tapşırıqlara uyğun olaraq müzakirə zamanı suallardan istifadə edə bilərsiniz.

Qrup işinin qiymətləndirilməsi zamanı aşağıdakı meyar cədvəlindən istifadə etmək mümkündür.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

LAYİHƏ

Əgər vaxtınız qalarsa, sinfə kollektiv iş kimi müstəqilliyin bərpasına dair müqayisəli-sinxron cədvəl hazırlamağı tapşıra bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Nəticədə Azərbaycan Respublikasının yaranması üçün yetişmiş tarixi şəraitin nələrdən ibarət olduğu, xalqın azadlıq uğrunda apardığı mübarizəsinin tariximizdə qoyduğu iz, Əbülfəz Əliyevin (Elçibəy), Ulu öndər Heydər Əliyevin bu istiqamətdə atdığı ilk addımların əhəmiyyəti şərh edilir. Respublikamızın öz müstəqilliyini tanıtmaq üçün həyata keçirdiyi diplomatik əlaqələrlə bağlı mülahizələr yürüdülür. Bütün bunlarla yanaşı, standartın tələbinə və məqsədimizə uyğun olaraq AXC-nin müasir Azərbaycan Respublikasının yaranmasındakı rolu, həmçinin tarixi hadisə və proseslərin gedişində Ulu öndər Heydər Əliyevin göstərdiyi fəaliyyət dəyərləndirilir. Mənbələr əsasında Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizənin müqayisəli-sinxron cədvəlləri hazırlanır.

Bu nəticələri əldə etmək üçün sizə aşağıdakı suallar da yardımçı rolunu oynaya bilər:

- Ulu öndər Heydər Əliyev nə üçün Azərbaycanın müstəqil olmasına can atırdı?
- Ümummilli lider Azərbaycan xalqının müstəqil olmaq imkanlarını necə dəyərləndirirdi?
- Nə üçün Kommunist Partiyasının liderləri Azərbaycanın müstəqilliyini elan etməkdə tələsmirdilər?
- Azərbaycan xalqının müstəqillik yolu asan olmuşdurmu?
- Nə üçün Azərbaycan Respublikası özünü AXC-nin varisi elan etdi?
- Müstəqil Respublikamız AXC-nin varisliyini necə qoruyur?
- Müstəqil dövlətin əlamətləri hansılardır?
- 1991-ci ildə Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinə can atmaqla bizə nələri verə bildi?
- Müstəqil Azərbaycan hansı nailiyyətlərə imza atmışdır?

Sonda şagirdlər üçün yaradıcı tətbiqetməyə yer ayıra bilərsiniz.

**Yaradıcı tətbiqetmə:** Müstəqillik Azərbaycana nə vəd edirdi? Esse yazın.

**Ev tapşırığı:** "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının yaradılması" adlı referat hazırlayın.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, sinxron cədvəllər hazırlama.

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir. Məqsədəmüvafiq olaraq meyarlar vasitəsilə onların fərdi qiymətləndirilməsini aparın.

**Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər:**

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| AXC-nin müasir Azərbaycan Respublikasının yaranmasındakı rolunu dəyərləndirməkdə çətinlik çəkir. | AXC-nin müasir Azərbaycan Respublikasının yaranmasındakı rolunu sualların köməyi ilə dəyərləndirir. | AXC-nin müasir Azərbaycan Respublikasının yaranmasındakı rolunu faktlarda bəzi səhvlər etməklə dəyərləndirir. | AXC-nin müasir Azərbaycan Respublikasının yaranmasındakı rolunu dəyərləndirir. |
| Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin müqayisəli-sinxron cədvəllərini mənbələr əsasında hazırlamaqda çətinlik çəkir. | Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin müqayisəli-sinxron cədvəllərini mənbələr əsasında müəllimin köməyi ilə hazırlayır. | Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin müqayisəli-sinxron cədvəllərini faktlarda bəzi səhvlər etməklə mənbələr əsasında hazırlayır. | Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin müqayisəli-sinxron cədvəllərini mənbələr əsasında hazırlayır. |
| Azərbaycanın müstəqilliyinin bərpasında Ulu öndər Heydər Əliyevin rolunu və fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın müstəqilliyinin bərpasında Ulu öndər Heydər Əliyevin rolunu və fəaliyyətini müəllimin köməyi ilə dəyərləndirir. | Azərbaycanın müstəqilliyinin bərpasında Ulu öndər Heydər Əliyevin rolunu və fəaliyyətini faktlarda bəzi səhvlər etməklə dəyərləndirir. | Azərbaycanın müstəqilliyinin bərpasında Ulu öndər Heydər Əliyevin rolunu və fəaliyyətini dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 33. BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ

**Alt standartlar:**

1.1.1. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü dəyərləndirir, təqdimatlar hazırlayır.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında Qarabağ müharibəsini Azərbaycan xalqının böyük faciəsi kimi dəyərləndirir, təqdimatlar hazırlayır.
2. Qarabağ münaqişəsinin həlli yolunda beynəlxalq aləmdə Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.2., Azərbaycan dili – 1.1.1.

**Təlim forması**: qruplarla iş

**Təlim üsulu**: xəritə işi, təqdimat

**Resurslar:** dərslik, Xocalı faciəsinə dair şəkillər, itirilmiş torpaqlarımızın xəritəsi, elektron təqdimat, iş vərəqləri, Qarabağ müharibəsini özündə əks etdirən filmlər, “Laçın koridoru”, “Xoca” və s. video materiallar

**Dərsin mərhələləri**

**Motivasiya:** Azərbaycan Respublikasının xəritəsini nümayiş etdirin. Bu zaman xəritədə qara rəngdə verilmiş coğrafi ərazinin nə üçün belə göstərildiyini soruşun. Şagirdlər bu ərazinin Qarabağ və işğal olunmuş zonalar olduğunu biləcəklər. Bu vaxt ortaya çıxacaq sualdan tədqiqat sualı kimi istifadə edin.

**Tədqiqat sualı:** Qarabağ müharibəsinin tariximizdə qoyduğu iz nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

Sinfi qruplara bölün. Qruplar özlərini müvafiq şəkildə adlandırsınlar. Bundan sonra iş vərəqləri ilə tapşırıqları təqdim edin.

Standartın tələbindən irəli gələrək qrupların işi **təqdimat** üsuluna əsasən hazırlanacaq. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və s.) və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın həm fərdi, həm də qrup şəklində verilməsi mümkündür. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul həm də şagird özünüqiymətləndirməsində səmərəlidir.

LAYİHƏ

**I qrup.** Nə üçün azərbaycanlıların hərbi qüvvəsi ermənilərdən zəif idi? Səbəblərə uyğun sxem-cədvəl çəkin.

**II qrup.** Ermənistan silahlı qüvvələrinə dəstək verən hərbi qüvvələr hansı dairələrə məxsus idi? Sübut edin ki, Qarabağ müharibəsində azərbaycanlılar cəbhədə yalnız Ermənistanla mübarizə aparmırdı. Faktlara müraciət edin.

**III qrup.** Xəritədə işğal ollunmuş əraziləri onların işğal tarixləri ilə bərabər göstərin. İşğalın ardıcıllığına uyğun onun yolunu çəkin.

**IV qrup.** Qarabağ müharibəsinin mühüm hadisələrinin xronoloji cədvəlini hazırlayın. Cədvəlin təhlilini aparmaqla sübut edin ki, ermənilər müəyyən sxem əsasında və planlı şəkildə hücuma keçmişdilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplar öz işlərini təqdim etdikdən sonra müzakirə suallarına keçin. Məhz onlar problemin açılmasına aydınlıq gətirəcəklər:

- Necə düşünürsünüz, ermənilərin bu qədər azğınlaşmasının səbəbi nə idi?
- Nə üçün Rusiya ermənilərə hər dəfə kömək edirdi?
- “İnformasiya blokadası” dedikdə nə başa düşmək olar?
- Azərbaycanın informasiya blokadasına düşməsi nə ilə nəticələndi?
- Azərbaycanlıların müharibədə zəif tərəf olması nə ilə bağlı idi?
- Hansı hadisə ermənilərin iç üzünü ifşa etdi?
- Xocalı nə üçün strateji əhəmiyyətli ərazi sayılırdı?
- Niyə ermənilər məhz Xocalıda vəhşiliklər törətdilər? Onlar bununla nə demək istəyirdilər?
- Nə üçün Xocalı faciəsini soyqırımı kimi tanıtmaq bizim mənəvi borcumuzdur?
- Laçın rayonunun strateji əhəmiyyəti nədən ibarət idi?
- “Laçın koridoru” dedikdə nə başa düşürsünüz?

**Qrupların qiymətləndirilmə meyarı:**

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Qrupun özünüqiymətləndirmə vərəqi**

Qrupun iş ovqatı necədir? Bunu rənglə ifadə etmək olar.

---

Problemin həllində hamı fəallıq göstərə və ona öz töhfəsini verə bildimi?

---

Kimlər passiv, kimlər aktiv oldu?

---

Qrupun işi hamını təmin etdimi?

---

Qrup öz vəzifəsinin öhdəsindən gələ bildi və ya əksinə?

---

LAYİHƏ

Bu mövzunun tədrisi zamanı şagirdlərə **fərdi iş** kimi **xəritə ilə iş** üsulunu da tətbiq etmək olar. Azərbaycanın tarixi və itirilmiş torpaqlarının xəritədə göstərilməsi də bu üsulun tətbiqinə imkan verir. Xəritələrlə iş mühüm hadisələri məkanla (hadisə yeri ilə), həmçinin müasir dövrlə əlaqələndirməyə şərait yaradır. Bunun üçün şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan sual və tapşırıqlar verilir:

- Xəritə üzrə öyrənilən ölkənin və ya yerin təbii şəraitini təsvir edin.
- Problemin həlli üçün xəritələrin müqayisəli təhlilindən istifadə edin.
- Müqayisədə öz mövqeyinizi xəritənin köməyi ilə əsaslandırın.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qarabağ müharibəsinin gedişi və baş verən hadisələr, ermənilərin planları və havadarları, Azərbaycana qarşı informasiya blokadası və dünya dövlətləri tərəfindən ədalətsizlik – bütün bunlar ümumiləşdirmənin və nəticənin başlıca məqamları olmalıdır.

Nəticədə şagirdlər mənbələr əsasında Qarabağ müharibəsini Azərbaycan xalqının böyük faciəsi kimi dəyərləndirir və bu istiqamətdə təqdimatlar hazırlayırlar. Həmçinin Qarabağ münaqişəsinin həlli yolunda beynəlxalq aləmdə Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirirlər. Dərsin bu mərhələsində əvvəlcədən hazırladığınız aşağıdakı sualları da şagirdlərə verə bilərsiniz.

– BMT-nin 822-ci qətnaməsi nədən bəhs edir?
– Ulu öndər Heydər Əliyevin gəlişi ilə cəbhə bölgələrində hansı dəyişikliklər baş verdi?
– Atəşkəs nədir? Onun əhəmiyyəti nədən ibarətdir?
– Qarabağda atəşkəs nə zaman imzalandı?

**Yaradıcı tətbiqetmə:** "Azərbaycanın Qarabağ müharibəsində iştirak etmiş qəhrəman oğulları" adlı esse yazın.

**Ev tapşırığı:** Mövzunun inkişaf etdirilməsi vacib məsələdir. Buna görə də şagirdlərə mövzu ətrafında yaradıcı tətbiqetməni evə də tapşıra bilərsiniz. Bu, layihə işi də ola bilər. Məsələn, "Qarabağı necə azad etmək olar?" mövzusunda plan tərtib etsinlər. Layihəni qrup şəklində versəniz, daha qənaətbəxş nəticələr əldə edərsiniz.

**Qiymətləndirmə meyarları:** təqdimat hazırlama, dəyərləndirmə.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mənbələr əsasında Qarabağ müharibəsini Azərbaycan xalqının böyük faciəsi kimi dəyərləndirir, təqdimatlar hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə mənbələr əsasında Qarabağ müharibəsini Azərbaycan xalqının böyük faciəsi kimi dəyərləndirir, təqdimatlar hazırlayır. | Mənbələr əsasında Qarabağ müharibəsini Azərbaycan xalqının böyük faciəsi kimi dəyərləndirir, sistemsiz təqdimatlar hazırlayır. | Mənbələr əsasında Qarabağ müharibəsini Azərbaycan xalqının böyük faciəsi kimi müstəqil şəkildə dəyərləndirir, təqdimatlar hazırlayır. |
| Qarabağ münaqişəsinin həlli yolunda beynəlxalq aləmdə Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirməkdə çətinlik çəkir. | Qarabağ münaqişəsinin həlli yolunda beynəlxalq aləmdə Azərbaycanın mövqeyini və apardığı siyasəti suallar vasitəsilə dəyərləndirir. | Qarabağ münaqişəsinin həlli yolunda beynəlxalq aləmdə Azərbaycanın mövqeyini və apardığı siyasəti sistemsiz dəyərləndirir. | Qarabağ münaqişəsinin həlli yolunda beynəlxalq aləmdə Azərbaycanın mövqeyini və apardığı siyasəti sərbəst şəkildə dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 34. XOCALI SOYQIRIMI

**Alt standartlar:**

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Xocalı soyqırımı barədə mənbələrdəki müxtəlif baxışları dəyərləndirir.
2. Xocalı şəhərinin geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.
3. Xocalı soyqırımı məsələsində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.1., Coğrafiya – 3.2.1.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulu:** beyin həmləsi, üç cümlə

**Resurslar:** İKT vasitələri, elektron resurslar, paylayıcı materiallar, qəzet və jurnal materialları, dövrə dair yazılmış əsərlərdən hissələr, iş vərəqləri, dərslik və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya kimi siz şagirdlərə Çingiz Mustafayevin Xocalı faciəsi ilə bağlı çəkdiyi kadrları və ya AzTV tərəfindən lentə alınmış filmdən seçdiyiniz bir hissəni izlədə bilərsiniz. Bundan sonra aşağıdakı suallardan və bu qəbildən olan digər oxşar suallardan istifadə edərək dərsin motivasiyasını qurmaq olar:

- Gördüyünüz kadrlar sizə nə deyir?
- Kadrlarda nədən bəhs edilirdi?

"PowerPoint" proqramından istifadə etməklə soyqırımına aid hazırladığınız slaydlar əsasında şagirdləri dərsə motivə edə bilərsiniz. Onların heç bir yazı və izahı verilmədən göstərilməsi daha yaxşı olardı. 2-3 dəqiqəlik "lal" təqdimatdan sonra şagirdlərə: "Bu slaydlar sizə nə deyir?", "Sizcə, bu təqdimat hansı hadisəyə aiddir?" formalı suallar verib dərsin yeni mərhələsinə keçmək olar.

**Tədqiqat sualı:** Xocalı soyqırımını dünya miqyaslı qətliam kimi necə dəyərləndirmək olar?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılmasını fəal təlimin **üç cümlə** üsulundan istifadə etməklə həyata keçirə bilərsiniz. Bu üsulla reallaşan dərs zamanı şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə təqdim etmək olar. Sonra onlara növbəti tövsiyələri xatırladın: "Hansı qrup hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür". Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqları verə bilərsiniz.

LAYİHƏ

**I qrup.** Xocalıda mülki əhalinin bilərəkdən amansızlıqla qətlə yetirilməsini sübut edən faktlar hanılardır? Fikrinizi əsaslandırın.

**II qrup.** Ermənilərin Xocalını işğal etməklə qazanacaqları strateji üstünlüyü dəyərləndirin.

**III qrup.** Xocalı faciəsinin soyqırımı kimi dəyərləndirilməsi və dünya ictimaiyyətinə təqdim edilməsi istiqamətində Azərbaycanın siyasi xadimlərinin gördüyü işləri necə qiymətləndirərdiniz?

**IV qrup.** Xocalı faciəsinin törədilməsinin ermənilərin çoxdankı arzuları olduğunu hansı faktlar sübut edir?

**V qrup.** Ulu öndər Heydər Əliyevin Xocalı soyqırımı ilə bağlı dediyi fikirləri dəyərləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsini həyata keçirin. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Dərsin bu mərhələsində bütün sinif şagirdlərinin müzakirələrdə iştirakını təmin etməyə çalışın. Çünki müzakirələrdə çox sayda şagirdin iştirakı sizə ümumi nəticəyə gəlməyə yardım etməklə yanaşı, qiymətləndirməni rahat həyata keçirməyə, şagird fəallığını təmin etməyə, ümumilikdə dərsi maraqlı etməyə kömək edəcəkdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Aparılan tədqiqatın ümumi nəticəsini çıxarmaq üçün bu mərhələdə şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

- Sizcə, regionda yeganə mülki hava limanına malik olan mühüm kommunikasiya mərkəzini – Xocalını ələ keçirmək ermənilərə nə verə bilərdi?
- Sizcə, dünya ictimaiyyəti bu haqsızlığa qarşı niyə susur?
- Soyqırımı ilə faciə arasında hansı fərqi görürsünüz?
- Xocalıda törədilən soyqırımı ilə ermənilər hansı psixoloji üstünlük əldə etdilər?
- Sizcə, bu soyqırımından biz nə cür ibrət dərsi almalıyıq?
- Ermənilərin Xocalı kimi şəhəri yer üzündən silməkdə maraqları nə ola bilərdi?

**Yaradıcı tətbiqetmə:** Bu mərhələdə şagirdlərə “Fərz edin, siz o dövrdə Azərbaycan respublikasında rəhbər vəzifələrdən birini (Prezident, Baş nazir, Milli Məclisin sədri, Müdafiə naziri) tutursunuz. Bu soyqırımının baş verməməsi üçün hansı addımı atardınız?” sualını verə bilərsiniz.

**Ev tapşırığı:** Xocalı soyqırımını mənbələr əsasında araşdırın.

**Qiymətləndirmə meyarları:** müxtəlif baxışları dəyərləndirmə, əhəmiyyətini dəyərləndirmə, mövqeyini və apardığı siyasəti dəyərləndirmə

Qiymətləndirmə dərsi izləməniz nəticəsində baş verməlidir. Siz dərsin bu son mərhələsində, yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla, aşağıdakı səviyyələr üzrə şagirdləri qiymətləndirə bilərsiniz.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xocalı soyqırımı barədə mənbələrdəki müxtəlif baxışları dəyərləndirməkdə çətinlik çəkir. | Xocalı soyqırımı barədə mənbələrdəki müxtəlif baxışları suallardan istifadə etməklə dəyərləndirir. | Xocalı soyqırımı barədə mənbələrdəki müxtəlif baxışları bəzi səhvlərlə dəyərləndirir. | Xocalı soyqırımı barədə mənbələrdəki müxtəlif baxışları dəyərləndirir. |
| Xocalı şəhərinin geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Xocalı şəhərinin geosiyasi mövqeyinin əhəmiyyətini müəllimin köməyi ilə dəyərləndirir. | Xocalı şəhərinin geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirsə də, xırda səhvlərlə yol verir. | Xocalı şəhərinin geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir. |
| Xocalı soyqırımı məsələsində Azərbaycanın apardığı siyasəti dəyərləndirməkdə çətinlik çəkir. | Xocalı soyqırımı məsələsində Azərbaycanın apardığı siyasəti dəyərləndirir. | Xocalı soyqırımı məsələsində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirməkdə çətinlik çəkir. | Xocalı soyqırımı məsələsində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 35. MÜSTƏQİLLİYİN İLK ADDIMLARI. HAKİMİYYƏT UĞRUNDA ÇƏKİŞMƏLƏR

**Alt standartlar:**

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında Azərbaycan Respublikasının ilk illərində baş verən hadisələrə dair müqayisəli-sinxron cədvəllər hazırlayır.
2. Müstəqilliyin ilk illərinə dair araşdırmalar aparır, proqnozlar verir.
3. Əbülfəz Əliyevin (Elçibəyin) rolunu və fəaliyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 4.1.1., Azərbaycan dili – 1.2.4.
**Təlim forması:** kiçik qruplarla iş
**Təlim üsulu:** şaxələndirmə, sxem-cədvəl, birgə axtarış
**Resurslar:** dərslik, xəritə, elektron resurslar, iş vərəqləri, paylama materialları, şəkillər, dövrün proseslərinə dair videomateriallar və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Lövhədə yeni doğulmuş uşaq, onun yeriməsi, danışması və inkişafı ilə bağlı şəkillər nümayiş etdirə bilərsiniz. Bu şəkilləri Azərbaycanın müstəqilliyi ilə əlaqələndirin. Azərbaycan müstəqil oldu, bəs onun ilk addımları nədən ibarət idi? Bu addımlar uğur gətirdimi? Hansı təhlükələr var idi?

Motivasiyanı dövrə aid videomateriallardan fraqment göstərməklə də həyata keçirmək olar. Yaxud digər bir yolla – mövzunun əvvəlində verilmiş məlumatı, açar sözləri şifahi şəkildə şagirdlərə çatdırıb qoyduğunuz sualların köməyi ilə motivasiya yarada bilərsiniz.

**Tədqiqat sualı:** Müstəqilliyin ilk illərində hakimiyyət uğrunda çəkişmələr dövlətçilik tariximizdə hansı izi qoydu?

Əgər tövsiyə edilmiş inteqrasiya imkanlarının tətbiqini nəzərdə tutmusunuzsa, o zaman mütləq tövsiyə olunan standartın tələbinə baxın. Siz standartı, sadəcə, yazmaqla kifayətlənməyin. “Şagirdlərdə analizetmə, əlaqələndirmə, sintezetmə və dəyərləndirmə kimi bacarıqların formalaşmasında inteqrasiya vacib amillərdən biridir”, – desək, yanılmarıq. Unutmayın ki, dərs boyu tətbiq etdiyiniz bütün nüanslar qiymətləndirmə zamanı öz əksini

LAYİHƏ

tapmalıdır. Qiymətləndirmə dərsin əvvəlindən sonunadək bütün mərhələlər üzrə aparıla bilər. Ona görə də planlaşdırma edərkən diqqətli olun. Sinfin səviyyəsini nəzərə alın. Tapşırıqlar verərkən inteqrasiya edilmiş standartların tələblərini unutmayın.

**Tədqiqatın aparılması:**

Tədqiqat sualına cavab tapmaq üçün **birgə axtarış** – suallar üzrə diskussiya üsulunu tətbiq edə bilərsiniz. Bu zaman müəllim qabaqcadan hazırlanmış izahedici sualları nəzərdən keçirmək və müzakirə etmək üçün şagirdlərə təklif edir. İzahedici suallar mətnin məzmunu ilə bağlı olmalıdır. Onu həyata keçirmək üçün fərdi, qrup, kollektiv və ya cüt formasını tətbiq etmək olar.

Sinfi 4 qrupa bölün. İş vərəqlərində tapşırıqları verin. Mövzuya dair paylama materiallarından da istifadə edə bilərsiniz. Hər qrupun tapşırığına uyğun əvvəlcədən hazırlanmış və mənbələr yerləşdirilmiş (məsələn, qəzet materialı, şəkillər və s.) paylama materialları tərtib edin. Çalışın ki, orada xəritə də yerləşdirilsin.

**I qrup.** Müstəqilliyin ilk addımlarını müəyyənləşdirin. Şaxələndirmədən istifadə edin.

**II qrup.** Xalq nə üçün A.Mütəllibovun istefasını tələb edirdi. Müstəqilliyə gedən yolda onun mövqeyini dəyərləndirin. Əvvəlki mövzulara bir daha müraciət edin.

**III qrup.** Qarabağda aparılan müharibənin gedişi hakimiyyət dəyişikliyinə necə təsir göstərirdi. Xronoloji sxem-cədvəl çəkin.

**IV qrup.** Elçibəyin və Azərbaycan Xalq Cəbhəsinin iqtidar fəaliyyətini qiymətləndirin. Onların buraxdığı səhvlər nədə idi? Təhlil edin.

**V qrup.** Azərbaycan Respublikasının ilk illərini müasir dövrlə müqayisə edərək sinxron cədvəllər hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Bu mərhələdə müəyyən etdiyiniz zaman çərçivəsində şagirdlər verilmiş tapşırıqlara iş vərəqlərində cavab hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Müzakirə zamanı şagirdlər mücərrəd təsəvvürləri açıqlayır, məntiqi izahatda səhvləri və unudulanları görür, faktla nəticələr arasında fərqi üzə çıxarır, dəlillərin əhəmiyyətini qiymətləndirirlər. Müzakirə həyata keçirildikdən sonra qruplar qiymətləndirmə meyarı əsasında qiymətləndirilir. Bildiyiniz kimi, meyarlar öncədən lövhədə və ya divarda asılmalıdır.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması:** Bu mərhələni təhlil vasitəsilə əldə edin. Azərbaycanın müstəqilliyinin ilk illərində güclü, zəif tərəfləri nədən ibarət idi, imkanları necə idi, təhlükələr haradan gəlirdi? Bu suallara siniflə cavab tapdıqdan sonra ümumi nəticələr əldə etmək mümkündür. Tədqiqatın nəticəsində şagirdlər mənbələr əsasında Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində baş verən hadisələrə dair müqayisəli-sinxron cədvəllər hazırlayır, eyni zamanda müstəqilliyin ilk illərinə dair araşdırmalar aparır, proqnozlar verirlər. Əbülfəz Əliyevin (Elçibəyin) rolunu və fəaliyyətini dəyərləndirirlər. Dərsi ümumiləşdirib nəticəni çıxarmaq üçün sizə aşağıdakı suallar kömək edə bilər:

- Nə üçün Ulu öndər Heydər Əliyev A.Mütəllibovun yenidən hakimiyyətə qaytarılmasını xalqa qarşı cinayət adlandırırdı?
- Nəyə görə Əbülfəz Əliyevin (Elçibəyin) prezidentlik dövrü bir nəticə vermədi və tezliklə iflasa uğradı?
- Gəncədəki qiyam nəyə qarşı yönəlmişdi?

LAYİHƏ

- Hakimiyyət dəyişikliyi cəmiyyətdə hansı əhvali-ruhiyyə yarada bilərdi? Bir anlıq belə bir şəraitdə yaşadığınızı düşünün.
- Sabitliyə ehtiyac nədən irəli gəlirdi? Ölkədəki vəziyyət Qarabağdakı müharibənin gedişinə necə təsir göstərirdi? Fikirlərinizi əsaslandırın.
- Necə düşünürsünüz, ümumiyyətlə, dövlətdə sabitlik olmasa, nə baş verər?
- Müstəqilliyi qorumaq üçün nə etmək lazımdır?
- Azərbaycan Respublikasının ilk addımları necə oldu? Onlar nə ilə nəticələndi?

Meyarlar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib. | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |
| V | | | | | |

**Özünüqiymətləndirmə:**
Bu qiymətləndirmə fərdi xarakter daşıyır. Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda fəal idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

**Yaradıcı tətbiqetmə:** Bu mərhələdə siz şagirdlərə yaradıcı təfəkkürün inkişafına kömək olacaq hər hansı bir tapşırıq verə bilərsiniz. "Müstəqilliyin ilk illərində Azərbaycanın siyasi vəziyyətinə dair qrafik hazırlayın" tapşırığı bu mərhələ üçün nümunəvi tapşırıq ola bilər.

**Ev tapşırığı:** Mətndəki cədvələ uyğun olaraq Azərbaycan Respublikasının xarici siyasətini müasir dövrlə müqayisə edin və mühazirə şəklində ifadə edin. Bu zaman şagirdlər əlavə mənbələrdən istifadə etməklə ev tapşırığını hazırlaya bilərlər.

**Qiymətləndirmə meyarları:** sinxron cədvəllər hazırlama, proqnozvermə, dəyərləndirmə .
Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan Respublikasının ilk illərində baş verən hadisələrə dair mənbələr əsasında müqayisəli-sinxron cədvəllər hazırlamaqda çətinlik çəkir. | Azərbaycan Respublikasının ilk illərində baş verən hadisələrə dair mənbələr əsasında müəllimin köməyi ilə müqayisəli-sinxron cədvəllər hazırlayır. | Azərbaycan Respublikasının ilk illərində baş verən hadisələrə dair mənbələr əsasında bəzi səhvlərlə müqayisəli-sinxron cədvəllər hazırlayır. | Azərbaycan Respublikasının ilk illərində baş verən hadisələrə dair mənbələr əsasında sərbəst şəkildə müqayisəli-sinxron cədvəllər hazırlayır. |
| Müstəqilliyin ilk illərinə dair araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Müstəqilliyin ilk illərinə dair müəllimin köməyi ilə araşdırmalar aparır, proqnozlar verir. | Müstəqilliyin ilk illərinə dair bəzi səhvlərlə araşdırmalar aparır, proqnozlar verir. | Müstəqilliyin ilk illərinə dair sərbəst şəkildə araşdırmalar aparır, proqnozlar verir. |
| Əbülfəz Əliyevin (Elçibəyin) rolunu və fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Əbülfəz Əliyevin (Elçibəyin) rolunu və fəaliyyətini müəllimin köməyi ilə dəyərləndirir. | Əbülfəz Əliyevin (Elçibəyin) rolunu və fəaliyyətini bəzi səhvlərlə dəyərləndirir. | Əbülfəz Əliyevin (Elçibəyin) rolunu və fəaliyyətini sərbəst şəkildə dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 36. MİLLİ QURTULUŞ

**Alt standartlar:**

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır.

**Təlim məqsədləri:**

1. Milli Qurtuluş Gününə dair araşdırmalar aparır, proqnozlar verir.
2. Ümummilli lider Heydər Əliyev haqqında layihələr hazırlayır.

**İnteqrasiya:** Ümumi tarix – 4.1.2., Ədəbiyyat – 3.1.2.
**Təlim üsulu:** İNSERT, layihə, klaster
**Təlim forması:** böyük qruplarla və cütlərlə iş
**Resurslar:** kompüter, proyektor, iş vərəqləri, paylayıcı materiallar, dərslik, şəkillər, Ümummilli lider Heydər Əliyevin fəaliyyətini özündə əks etdirən filmlərdən bir fraqment və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Gəncədə baş verən hadisələr hansı fəsadlara gətirib çıxara bilərdi? Həmin hadisələri ifadə edən şəkillərdən, elektron resurslardan istifadə etmək olar. Bu sualı şagirdlər öz proqnozlarını verərək cavablandırırlar. Siz cavablara əsasən lövhədə ideyalar xəritəsi çəkməyə çalışın. Sinfə yönləndirici suallar verməklə mövzunun məzmununa doğru istiqamətləndirmə aparmaq olar. Şagirdlərin mülahizələri dinlənildikdən sonra məlum olur ki, vəziyyətin ağırlığı Azərbaycanın bir dövlət kimi varlığını təhlükə altına qoyurdu. Bunun üçün təcili tədbirlər görülməli idi. Bu nəticədən sonra da o dövrdən çox kiçik (1 dəqiqəlik) videoxronika nümayiş etdirmək olar.

**Tətqiqat sualı:** Milli Qurtuluş Günü dövlətçiliyimizin tarixində hansı əhəmiyyətli izi qoydu?

**Tətqiqatın aparılması:** Əgər motivasiyanız uğurlu alındısa, deməli, tədqiqata şərait yaranmışdır. Tədqiqat sualına cavab tapmaq üçün şagirdlərə müəyyən tapşırıqlar verilməli, lakin onların səviyyəsi, çətinlik dərəcəsi gözlənilməlidir. Adətən, sizdə belə fikir formalaşdırılıb ki, bütün qrupların və ya cütlərin tapşırıqlarının çəkisi eyni olmalıdır. Doğrudur, bu, keçərli haldır. Amma bir şeyi də qeyd edək ki, inklüzivliyin qorunmasını nəzərə alsaq, sinfin ən bacarıqlı və savadlı şagirdi və ya ən zəif, hətta fiziki qüsurlu şagirdi bu zaman obyektiv qiymətləndirilmir. Bu səbəbdən onların təlimə marağı da itə bilər. Ona görə də müəllim qrup işi apararkən və ya cütlərə iş verərkən inklüzivliyi nəzərə almalıdır. Sinifdə şagirdlərin bilik və bacarığı arasında kəskin fərq yoxdursa, o zaman hər kəsə ağırlıq dərəcəsi eyni olan tapşırıqlar verilə bilər.

Tədqiqatı aparmaq üçün bütün kollektivlə iş formasından istifadə etmək mümkündür. Sinfə müəyyən vaxt verin ki, məzmunla tanış olsun. **İNSERT** üsulundan istifadə etməklə oxu təşkil edin. Hər dəfə müəyyən məqamlar yetişdikcə sinfə suallarla müra-

LAYİHƏ

ciət edin. Oxu prosesi bitdikdən sonra sinfi cütlərə ayırın. **İNSERT** üsuluna müəyyən qədər vaxt getdiyi üçün bölgüyə zaman sərf etməyin. Şagirdlər elə öz parta yoldaşları ilə cüt yaratsınlar. Cütlərə aşağıdakı sualları verə bilərsiniz, lakin vaxta qənaət etmək üçün bunu əvvəlcədən hazırlanmış iş vərəqlərində etsəniz, daha yaxşı olar:

**I cüt.** Nə üçün Sədərək-Dilucu körpüsü "Ümid körpüsü" adlanırdı? Məzmundan irəli gələn mülahizələrinizi qeyd edin.

**II cüt.** Rus ordusunun əmlakının Naxçıvanda saxlanılması necə baş verdi? Bu hadisənin əhəmiyyəti nədən ibarət idi? Qeydlərinizi aparın və izah edin.

**III cüt.** Sübut etməyə çalışın ki, Azərbaycanın ilk ordu dəstələri əvvəlcə Naxçıvanda yaradılmışdır. Bu iddianın arxasında hansı faktlar dayanır? **Klaster** üsulundan istifadə edin.

**IV cüt.** Yeni Azərbaycan Partiyasının yaradılması hansı zərurətdən irəli gəldi? Azərbaycan Respublikasının ilk illərində onun tarixi rolu nədən ibarət oldu? Qeydlərinizi aparın.

**V cüt.** Ulu öndər Heydər Əliyev müstəqilliyin möhkəmləndirilməsi istiqamətində Azərbaycan xalqının qarşısında hansı vəzifələri görürdü? Mətndən Ulu öndər Heydər Əliyevin qeydlərini bir daha nəzərdən keçirərək mülahizələrinizi yazın.

**VI cüt.** Gəncədə baş verən qiyam Əbülfəz Əliyevin (Elçibəyin) hakimiyyətinə necə təsir etdi? Onun dövründə iqtidar hansı məsələləri həll edə bilmədi? **Klaster** üsulundan istifadə edin.

**VII cüt.** O dövrdəki hakimiyyət nümayəndələrinin ən böyük səhvləri nədən ibarət idi? Mətnin məzmununa əsaslanmaqla mülahizələrinizi qeyd edin.

**VIII cüt**. Nə üçün 15 iyun 1993-cü il Milli Qurtuluş Günü adlanır? Sübut edin ki, 1993-cü ildə xalqın Ümummilli lider Heydər Əliyevə daha çox ehtiyacı var idi. Mətnin məzmununa əsaslanmaqla mülahizələrinizi qeyd edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə cütlərin cavabları dinlənilir. Siniflə bərabər düzgün cavablar dəqiqləşdirilir, səhv cavablar düzəldilir. Mübadilə mərhələsi bitdikdən sonra şagirdlərlə bərabər aşağıdakı məsələni həll etməyə çalışın.

İdrak taksonomiyasının tələblərini nəzərə almaqla şagirdlərə elə tapşırıqlar vermək lazımdır ki, onların təfəkkürünü inkişaf etdirsin. Bir dərsdə təfəkkürün hər üç növünü inkişaf etdirməyə imkanınız varsa, bu, çox uğurlu nəticə deməkdir. Mövzunun tədrisi üçün cütlərə qabaqlayıcı, yaxud dərslikdəki materiallarla tanış olmaq tapşırığı verilə bilər. Bəzən şagirdlərə tapşırıq verilərkən müəllimlər onlardan kitab və dəftərlərini bağlamağı tələb edirlər. Lakin bu vacib deyil. Fəal interaktiv təlim mühiti və bacarıqların formalaşdırılmasını əsas tələb kimi qoyan yeni islahat dəftər-kitabın bağlanıb işin icrasını həyata keçirməyi zəruri saymır. Əksinə, şagird kitablardan və digər mənbələrdən araşdırma apararaq təhliletmə, sintezetmə və s. bacarıqları nəticəsində verilən tapşırığın icrasını sistemli şəkildə həyata keçirməyə cəhd göstərmiş olacaqdır. Əgər hafizəyönümlü tapşırıq verirsinizsə, o zaman dəftər-kitabı bağlamaq üçün göstəriş verə bilərsiniz. İdrak məktəbinin inkişafının önə çəkildiyi bir dövrdə hafizə məktəbinin nümunəsindən tamamilə imtina etmək heç də arzuolunan deyildir. Biz şagirdlərdə bilmə, anlama prosesini formalaşdırmasaq, nəticəyönümlü təhsilin istəklərinə çata bilmərik.

LAYİHƏ

Əgər təklif etdiyimiz inteqrasiya imkanlarının tətbiqini nəzərdə tutmusunuzsa, mütləq tövsiyə olunan standartın tələbinə baxın. Bu vaxt standartı, sadəcə, yazmaqla kifayətlənməyin. “Şagirdlərdə analizetmə, əlaqələndirmə, sintezetmə və dəyərləndirmə kimi bacarıqların formalaşmasında inteqrasiya vacib amillərdən biridir”, – desək, yanılmarıq. Unutmayın ki, dərs boyu tətbiq etdiyiniz bütün nüanslar qiymətləndirmə zamanı öz əksini tapmalıdır. Qiymətləndirmə dərsin əvvəlindən sonunadək bütün mərhələlər üzrə aparıla bilər. Ona görə də planlaşdırma zamanı diqqətli olun. Sinfin səviyyəsini nəzərə alın. Tapşırıqlar verərkən inteqrasiya edilmiş standartların tələblərini unutmayın.

**Məlumatın mübadiləsi və müzakirəsi***:* Cütlərin işi müzakirə olunarkən sual doğuran məqamlara aydınlıq gətirilərsə, işin səmərəli alınmasına şərait yaratmış olarsınız. Müzakirənin sonunda nəticə çıxarılır.

Cütlərə verilmiş tapşırıqlar sonda tədqiqat sualına cavab tapmaq üçün yardımçı olmalıdır. Hər bir cüt öz işini qısa və konkret şəkildə təqdim edərsə, düşündüyünüz vaxt problemi ilə üzləşməzsiniz. Cütlərin işi də mütləq meyarlar əsasında qiymətləndirilməlidir.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıqetmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirə etmə | Ümumi rəyə gəlmə |
|---|---|---|---|---|---|
| Turan | | | | | |
| Sevinc | | | | | |

Bu mövzunun tədrisi zamanı “4.1.2. Görkəmli tarixi şəxsiyyətlər haqqında layihələr hazırlayır” standartını reallaşdırmaq üçün şagirdlərə layihə verməyiniz mütləqdir. 45 dəqiqəlik zaman ərzində layihə hazırlamaq üçün, təbii ki, az olacaqdır. Ona görə də ya qabaqlayıcı tapşırıq, ya da layihənin hazırlanması üçün şagirdlərə təlimat verə bilərsiniz.

- “Azərbaycanın Milli Qurtuluş Günü və Ümummilli lider Heydər Əliyev” adlı layihə hazırlayın.

Layihənin hazırlanması üçün planı sinifdə tərtib etmək olar, amma layihə uzun müddət tələb etdiyindən bu tapşırığı evə verməniz daha məqsədəuyğundur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bəzən müəllimlər “nəticənin çıxarılması” dedikdə bunu gəldikləri nəticəni şagirdlərə çatdırmaq və ya dərslikdəki mövzuda yazılmış nəticəni təqdim etmək kimi başa düşürlər. Düzdür, ənənəvi təlim zamanı belə nəticə həyata keçirilirdi. Amma şəxsiyyətyönümlü təhsilin əsas götürüldüyü bir vaxtda belə nəticə çıxarmaq müəllimyönümlü olacaqdır. Nəticələrin çıxarılmasında mövzu və müəllim yardımçı qüvvə olsa da, burada məqsəd şagirdin gəldiyi nəticədir. Müəllim qarşıya qoyduğu məqsədə uyğun olaraq şagirdlərdə bilik və bacarıqların inikasını formalaşdırmalıdır.

Nəticədə şagirdlər Milli Qurtuluş Gününə dair araşdırmalar aparır, proqnozlar verirlər. Heydər Əliyevin siyasi xadim kimi fəaliyyətini araşdıraraq xalqımız üçün onun etdiklərini dəyərləndirir, Ulu öndərin fəaliyyətini özündə əks etdirən layihə hazırlamağı bacarırlar. Bu mərhələdə siz aşağıdakı suallardan istifadə edə bilərsiniz:

- Əbülfəz Əliyevin (Elçibəyin) hakimiyyətdən getməsinə səbəb nə oldu?
- Xalq nə üçün Heydər Əliyevi özünə rəhbər seçmək istəyirdi?

LAYİHƏ

- Nə üçün 15 iyun tarixdə Milli Qurtuluş Günü kimi tanınır?
- Milli Qurtuluş Günü xalqımıza və dövlətçiliyimizə hansı töhfələri verdi?
- Əgər Qurtuluş baş verməsəydi, o zaman xalqın və dövlətçiliyimizin aqibəti necə olacaqdı?

**Yaradıcı tətbiqetmə**: Milli Qurtuluş Günü və Ümummilli lider Heydər Əliyevin fəaliyyətini özündə əks etdirən cədvəl hazırlayın.

**Ev tapşırığı:** Ev tapşırığı kimi "Azərbaycanın Milli Qurtuluş Günü və Ümummilli lider Heydər Əliyev" adlı layihə işi tapşırın. Bunun həyata keçirilməsi üçün ayrıca bir vaxt təyin edin.

**Qiymətləndirmə meyarları:** araşdırma aparıb proqnozvermə, layihə hazırlama.

Şagirdləri qiymətləndirmək üçün aşağıdakı özünüqiymətləndirmə vərəqindən də istifadə edə bilərsiniz.

| **Soyad, ad, ata adı: Əhədova Ləman Şahin qızı**<br>**Tarix: 9 fevral 2018-ci il** | | | | | |
|---|---|---|---|---|---|
| **Tapşırığı başa düşdüm və fikrimi izah etdim.** | **Dərsdə diqqətli idim.** | **Məntiqli yanaşmam var idi.** | **Sual-cavabda aktiv idim.** | **Əməkdaşlıq etdim.** | **Etiket qaydalarına riayət etdim.** |
| | | | | | |

Məqsədəmüvafiq meyar əsasında şagirdlərin formativ qiymətləndirilməsi səviyyələr üzrə aparılmalıdır. Bu səviyyələr şagirdlərin bilik və bacarıqlarının nəticəsi olaraq 3 və ya 5 formada ola bilər.

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Milli Qurtuluş Gününə dair araşdırmalar aparmaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə Milli Qurtuluş Gününə dair araşdırmalar aparır. | Milli Qurtuluş Gününə dair araşdırmalar aparır. | Milli Qurtuluş Gününə dair araşdırmalar aparır, proqnozlar verir. |
| Heydər Əliyev haqqında layihələr hazırlamaqda çətinlik çəkir. | Heydər Əliyev haqqında sistemsiz layihələr hazırlayır. | Heydər Əliyev haqqında bəzi səhvlərlə layihələr hazırlayır. | Heydər Əliyev haqqında layihələr hazırlayır. |

LAYİHƏ

# XI FƏSİL. HÜQUQİ DEMOKRATİK DÖVLƏT QURUCULUĞU YOLUNDA

## MÖVZU 37. HÜQUQİ İSLAHATLAR VƏ DEMOKRATİK DÖVLƏT QURUCULUĞU

**Alt standartlar:**

1.1.2. Mənbələr əsasında Azərbaycanın tarixi keçmişi və müasir dövrlərinə aid müqayisəli-sinxron cədvəllər hazırlayır.

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Hüquqi dövlət quruculuğunun müqayisəli-sinxron cədvəlini hazırlayır.
2. Mənbələrə əsasən Azərbaycan Respublikasının hüquqi dəyişikliklərinə dair müxtəlif baxışları dəyərləndirir.
3. Müasir dünyada Azərbaycan dövlətinin apardığı siyasəti dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.2. , Azərbaycan dili – 1.1.1.
**Təlim forması:** fərdi və böyük qruplarla iş
**Təlim üsulu:** cədvəl, müzakirə
**Resurslar:** dövrə aid şəkillər və ya maket, Azərbaycan Respublikasının xəritəsi, iş vərəqi və elektron təqdimat, hüquqi sənədlər, paylama materialları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Bəzi dövlət atributlarından motivasiya kimi istifadə edə bilərsiniz. Lakin bu, çox sadə üsul olacaqdır. Bizə yaş səviyyəsini nəzərə almaqla şagirdlərə dövlət quruculuğunun əhəmiyyətini ifadə edən motivasiya vacibdir. Buna görə də dövlət quruculuğunun məzmununa uyğun suallar verməklə motivasiyanı başlaya bilərsiniz. Məsələn:

- Konstitusiyanın əhəmiyyəti nədən ibarətdir?
- Dövlət üçün başqa hansı əhəmiyyətli sahələr var? Hansı sahələr dövlətin əsasları hesab olunur?
- Bütün bunları qurmaq, yaratmaq üçün nə etmək lazımdır? və s.

Cavabları lövhədə qeyd edin. Sonra o qeydlərin üzərində bir daha dayanın və tədqiqat sualı üçün yönləndirici suallara müraciət edin.

**Tədqiqat sualı:** Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu hansı istiqamətdə həyata keçirildi?

LAYİHƏ

## Tədqiqatın aparılması:

Mövzunun tədrisi üçün **müzakirə** üsulundan istifadə etmək olar. Müzakirənin əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirənin aparılması dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir. Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirəni inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim prosesi tənzimləyir. Bu zaman cavabı “bəli” və ya “xeyr” olan qapalı suallar verməkməqsədəuyğun hesab edilmir.

Kiçik müzakirə ilə tədqiqata başlayın. İnkarı inkar etməklə gərəkli məqamları şagirdlərdən almağa çalışın. Məsələn: “Qanunsuz dövləti necə təsəvvür edirsiniz?”, “Qonşu dövlətlərlə dost olmamaq mümkündürmü?” və s. Bundan sonra mətnin məzmunu ilə tanış olmaq üçün sinfə müəyyən vaxt verin. Bu zaman **İNSERT** üsuluna da müraciət edə bilərsiniz. Şagirdlər oxuduqca maraq doğuran məqamlara sualla müraciət edin və cavabları gözləyin. Oxu prosesi bitdikdən sonra onlara səviyyələrinə görə fərqlənən sadədən mürəkkəbə qədər fərdi tapşırıqlar verin. Eyni tapşırığı müxtəlif şagirdlərə də təqdim edə bilərsiniz:

1. Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu siyasətini neçə yerə ayırmaq mümkündür? Cədvəl qurun və onu tamamlayın.
2. Konstitusiyanın qəbul olunmasının əhəmiyyəti nədən ibarət idi?
3. Necə düşünürsünüz, nə üçün Ümummilli lider Heydər Əliyev Konstitusiyanın hazırlanmasında şəxsən iştirak etmişdi? Qeydlər aparın.
4. Konstitusiya layihəsinin hazırlanmasında daha kimlər iştirak etmişlər? Bu zaman hansı çətinliklər ortaya çıxmışdır?
5. Konstitusiya necə və nə vaxt qəbul olundu? Onun qəbul edildiyi günün dövlət bayramı kimi qeyd edilməsinin əhəmiyyətini nədə görürsünüz? Qeydlərinizi aparın, mətnə müraciət edin.
6. Demokratik islahatların əhəmiyyəti nədə idi? Nə üçün Ulu öndər Heydər Əliyev demokratik islahatları zəruri hesab edirdi? Mülahizələrinizi mətnə əsaslanaraq qeyd edin.
7. Hansı qanunlar ölkəmizdə demokratik cəmiyyətin formalaşmasına böyük təsir göstərmişdir? Sadalayın.
8. Konstitusiyaya neçə dəfə dəyişiklik edilmişdir? Hansı əlavələr olmuşdur? Cədvəl qurun və onu tamamlayın.

| Konstitusiyaya edilən dəyişikliklərin tarixi | Məzmunu |
|---|---|
| | |
| | |

9. Konstitusiyaya edilən dəyişikliklər hansı zərurətdən yaranmışdır? Mülahizələrinizi qeyd edin.
10. Dünya ölkələri ilə münasibətlərini bərabərhüquqlu şəkildə qurmaq üçün Azərbaycanda daha hansı dəyişikliklərin ediləcəyini təxmin etmək mümkündür? Qeydlərinizi əsaslandırmaqla cədvəl şəklində verin.

LAYİHƏ

| Təxminlər | Əsaslar |
|---|---|
| | |
| | |

**Məlumatın mübadiləsi və müzakirəsi:** Vaxt bitdikdən sonra tapşırıqların cavablarını müzakirə şəklində təşkil edin. Şagirdlər öz cavablarını müstəqil ifadə etməlidirlər. Müəllim verilmiş tapşırıqların cavabını sinxron və məntiqi ardıcıllıqla soruşmalıdır. Lövhədə əvvəlcədən hazırlanmış cədvəllər asılarsa, vaxta qənaət etmiş olarsınız.

**Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi:**

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 bal sistemindən istifadə etmək məsləhət görülür.

İnformasiyanın təqdim edilməsi

| | |
|---|---|
| Həmişə dəqiqdir. | |
| Əsasən dəqiqdir. | |
| Kifayət qədər dəqiq deyil. | |
| Qeyri-dəqiqdir. | |
| İnformasiya yoxdur. | |

Dərsin gedişində inteqrasiya imkanlarını reallaşdırmağı unutmayın. Azərbaycan tarixi fənninin Ümumi tarix fənni ilə inteqrasiyası daha çox ardıcıl (sıralanmış) modelin tətbiqi nəticəsində mümkündür. Bu fənlərdə çoxlu oxşar bölmələr və mövzular vardır ki, ayrı-ayrılıqda tədris olunur. Lakin onları elə planlaşdırmaq olar ki, şagirdlərdə əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar inteqrativ şəkildə formalaşdırılsın. Bu zaman standartın standartla uyğunluğu mütləq nəzərə alınmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə sualları vasitəsilə ümumiləşdirmələr aparın və siniflə birgə nəticəyə gəlin. Nəticələr məqsədə görə dəqiq müəyyənləşdirilməlidir. Onların əldə olunmasında çətinlik çəkərkən yönləndirici suallardan istifadə edə bilərsiniz. Nəticədə şagirdlər Azərbaycan Respublikasının dövlət quruculuğunun müqayisəli-sinxron cədvəlini hazırlayırlar. Həmçinin mənbələrə əsasən, Azərbaycan Respublikasının hüquqi dəyişikliklərinə dair müxtəlif baxışlar dəyərləndirilir. Müasir dünyada Azərbaycan Respublikasının mövqeyini, statusunu, beynəlxalq münasibətlərdə qarşıya qoyduğu strateji mövqeyinin həyata keçirilməsi üçün gördüyü tədbirləri və apardığı siyasəti şərh edə bilir. Ümumiləşdirmə aparmaq üçün şagirdlərə “Azərbaycan Respublikasının Konstitusiyası nə zaman qəbul edildi?”, “Hüquqi dövlət statusunu əldə etmək üçün Azərbaycan hansı hüquqi sənədlərə imza atdı?” və s. kimi suallar verə bilərsiniz.

**Yaradıcı tətbiqetmə:** Azərbaycanda qadın hüquqları necə qorunur? Mətndən aldığınız məlumatlara müraciət etməklə həyatınızda rast gəldiyiniz faktlardan istifadə edin və esse yazın.

**Ev tapşırığı:** “Azərbaycan beynəlxalq aləmdə demokratik dövlət kimi tanınır” başlıqlı təqdimat hazırlayın.

LAYİHƏ

**Refleksiya və qiymətləndirmə:** Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər fərdi şəkildə qiymətləndirilir. Şagirdlərin fərdi qiymətləndirilməsinin aparılması üçün özünüqiymətləndirmə vərəqləri də təqdim etmək olar.

**Özünüqiymətləndirmə vərəqi**

| Soyad, ad, ata adı: Abdullayev Uğur Böyükağa oğlu<br>Tarix: 20 fevral 2018-ci il | | | | | |
|---|---|---|---|---|---|
| **Tapşırığı tam və düzgün yerinə yetirdim.** | **Dərsdə diqqətli idim.** | **Məntiqli yanaşmam var idi.** | **Sual-cavabda aktiv idim.** | **Əməkdaşlıq etdim.** | **Etiket qaydalarına riayət etdim.** |
| | | | | | |

**Qiymətləndirmə meyarları**: cədvəllər hazırlama, dəyərləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hüquqi dövlət quruculuğunun müqayisəli-sinxron cədvəlini hazırlamaqda çətinlik çəkir. | Hüquqi dövlət quruculuğunun müqayisəli-sinxron cədvəlini müəllimin köməyi ilə hazırlayır. | Hüquqi dövlət quruculuğunun müqayisəli-sinxron cədvəlini bəzi faktlarda sinxironluğu pozmaqla hazırlayır. | Hüquqi dövlət quruculuğunun müqayisəli-sinxron cədvəlini hazırlayır. |
| Azərbaycan Respublikasının hüquqi dəyişikliklərinə dair müxtəlif baxışları mənbələrə əsasən dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycan Respublikasının hüquqi dəyişikliklərinə dair müxtəlif baxışları mənbələrə əsasən suallar əsasında dəyərləndirir. | Azərbaycan Respublikasının hüquqi dəyişikliklərinə dair müxtəlif baxışları mənbələrə əsasən bəzi səhvlərlə dəyərləndirir. | Azərbaycan Respublikasının hüquqi dəyişikliklərinə dair müxtəlif baxışları mənbələrə əsasən dəyərləndirir. |
| Müasir dünyada Azərbaycan dövlətinin apardığı siyasəti dəyərləndirməkdə çətinlik çəkir. | Müasir dünyada Azərbaycan dövlətinin apardığı siyasəti suallar əsasında dəyərləndirir. | Müasir dünyada Azərbaycan dövlətinin apardığı siyasəti bəzi faktlarda səhvlər etməklə dəyərləndirir. | Müasir dünyada Azərbaycan dövlətinin apardığı siyasəti dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 38. XX ƏSRİN 90-cı İLLƏRİNDƏ HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ İSLAHATLAR

**Alt standartlar:**

2.1.2. Azərbaycanın geosiyasi mövqeyini nümayiş etdirən təqdimatlar hazırlayır.

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. İqtisadi islahatların Azərbaycana verdiyi töhfələr haqqında təqdimat hazırlayır.
2. Azərbaycanın qlobal iqtisadi siyasətini dəyərləndirir.
3. XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatların reallaşmasında Ulu öndər Heydər Əliyevin siyasətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 4.1.1.

**Təlim forması:** kiçik qruplarla iş

**Təlim üsulu:** təqdimat

**Resurslar:** dərslik, şəkillər, Ulu öndər Heydər Əliyevin nitqlərini nümayiş etdirən internet resurslar, videomateriallar, paylama materialları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** İnternetdən yoxsul və varlı ölkələrin insanlarını əks etdirən şəkillər nümayiş etdirin. Bu insanların nə üçün belə olduqlarını soruşun. Şagirdlərin əksəriyyəti səbəb olaraq ölkənin iqtisadi baxımdan zəifliyini göstərəcəklər. Siz başqa bir sualla müraciət edin: "İqtisadi cəhətdən zəif ölkələr başqa hansı təhlükələrlə üzləşə bilərlər?" Şagirdlər " işğal", "müstəqilliyin itirilməsi" kimi cavablar verəcəklər. Cavabları əsaslandırmaq üçün çox güclü, dünyada sözünü deyən böyük dövlətlərin siyasi mövqeyi haqqında qısa məlumat verə bilərsiniz. Bu zaman sual meydana çıxacaq: "Güclü dövlət olmaq üçün nə etmək lazımdır?" Şagirdlər fərziyyələrini irəli sürəcəklər. Təbii ki, cavablar iqtisadiyyatı gücləndirməklə nəticələnəcəkdir. Şagirdləri motivasiyadan sonra tədqiqata cəlb edib iqtisadi gücə malik olan Azərbaycanın keçdiyi yolları araşdırmağa yönləndirin.

**Tədqiqat sualı:** XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatların Azərbaycan Respublikası üçün əhəmiyyəti nədən ibarət oldu?

LAYİHƏ

**Tədqiqatın aparılması:**

Sinfi qruplara bölün. Həmişə eyni bölgü qaydalarından istifadə etməyin, bəzən burada da üsullarınızı dəyişin.

**I qrup.** Ulu öndər Heydər Əliyevin 1993–1994-cü illər ərzində dövlətçiliyin qorunub saxlanması və gücləndirilməsinə, iqtisadiyyatın sabitləşdirilməsinə və bazar iqtisadiyyatına keçilməsinə dair apardığı siyasətin başlıca istiqamətlərini müəyyənləşdirin. Şaxələndirmədən istifadə edin.

**II qrup.** Neft sənayesi ilə aqrar sənayenin müqayisə cədvəli vasitəsilə təhlilini aparın. Onların dövlətin inkişafında eyni dərəcədə əhəmiyyətli sahələr olduğunu sübut edin.

**III qrup.** Əsrin müqaviləsinə dair hansı tədbirlər həyata keçirildi? Bunun dövlətimiz üçün əhəmiyyəti nədən ibarət oldu? Cədvəl tərtib edin.

**IV qrup.** Neft sənayesi Azərbaycanda daha hansı sahələrin inkişafına şərait yaratdı? Bu sahələrin artmasının əhəmiyyətini nədə görürsünüz? Dəyərləndirmə aparın.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Mübadilə zamanı şagirdlərin diqqətinə qrup qiymətləndirmə meyarlarını çatdırın ki, onların rəqabət aparmalarına stimul olsun. Təbii ki, qruplar müəyyən edilmiş zaman ərzində cavabları hazırlayaraq qrup lideri vasitəsilə təqdim edirlər. Bu işlər təqdimat xarakterli olmalıdır. Təqdimatın hazırlanması üsulunu əvvəlcədən şagirdlərə izah etməyi unutmayın. Bu fənn üçün çox əlverişli metoddur və kiçik summativ qiymətləndirmələrə məqbul sayıla bilər. Təqdimatlar fərqli formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və s.) və müxtəlif xarakterli ola bilər. Təqdimatın həm fərdi, həm də qrup şəklində tapşırılması mümkündür. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul şagird özünüqiymətləndirməsində də səmərəlidir. Nəzərə almaq lazımdır ki, bu iş daha çox əmək tələb etdiyindən ona verilən vaxt da adekvat olmalıdır. Siz şagirdlərinizə müxtəlif mövzularla bağlı təqdimatların hazırlanmasını tapşıra bilərsiniz. Təqdim etdiyimiz qrup işləri tövsiyə xarakteri daşıyır. Əlbəttə ki, seçimlərinizdə, metodlarınızda müstəqilsiniz.

Məlumatın müzakirəsi zamanı icra edilmiş tapşırıqlar təhlil olunur, səhvlər və əlavələr qeyd edilir. Müzakirəni apararkən mütləq şagirdlərin müzakirədəki iştirakını təmin edin. Müzakirə bitdikdən sonra qruplar meyarlar cədvəli əsasında qiymətləndirilməlidir.

**Müzakirə sualları:**

- Aqrar islahatın mahiyyəti nədən ibarət idi? Onun əhəmiyyətini nədə görürsünüz?
- Nə üçün Ümummilli lider Heydər Əliyev maliyyə vəsaitinin artırılmasına çalışırdı?
- “Əsrin müqaviləsi” hansı ölkələrlə bağlanmışdır?
- Bu ölkələri xəritədə göstərməyə çalışaq. Xəritəyə əsasən müqavilənin coğrafiyası nə qədər genişdir?
- Azərbaycan “Əsrin müqaviləsi”ndə iştirakçı ölkələrlə başqa hansı əlaqələri qura bilər?
- Nə üçün bu müqaviləyə “Əsrin müqaviləsi” deyirdilər? Onun əhəmiyyəti nədə idi?
- Nə üçün Ümummilli lider Heydər Əliyev Azərbaycanın güclü iqtisadiyyatının olmasının vacibliyindən danışırdı?
- İqtisadiyyatın inkişafı ilə Qarabağ probleminin həllində hər hansı dəyişikliyin olmasının mümkünlüyünü açıqlamağa çalışın.

LAYİHƏ

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib. | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Qrup təqdimatında özünüqiymətləndirmə vərəqi:** Qiymətləndirmə zamanı 1-dən 5-dək ballar verin.

| Qrupun üzvləri | Hüseyn, Banu, Sevda, Uğur, Xanım, Rauf |
|---|---|
| Təqdimatın adı | |
| Qrup üzvlərinin hazırlığı və təşkili | |
| Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi. | |
| Hamı əlbir və ahəngdar işləyirdi. | |
| Qrup bütün sinfi fəal olmağa sövq edirdi. | |
| Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi. | |
| Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi. | |

Vaxtınız olacağı halda şagirdlərə fərdi iş kimi "İqtisadi sahədə aparılan tədbirlərin xronoloji sxemini tərtib edin" tapşırığını verə bilərsiniz. Bu zaman şagirdlər iqtisadi islahatların ardıcıllığını və məqsədyönlüyünü açıqlaya bilər.

**Soyad, ad, ata adı:** Vəzirova Bahar Elnur qızı

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

LAYİHƏ

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Şagirdlər sizin köməyinizlə ümumiləşdirmələr aparmalıdırlar. Başlıca məsələ məzmunu ifadə edən problemə uyğun məqsədə nail olmaqdır. Şagirdlər anlamalıdırlar ki, iqtisadiyyatı güclü olmayan ölkə müstəqil siyasət yürüdə bilməz və işğalçılara qarşı aciz olar. Onlar iqtisadi islahatların digər sahələrin də inkişafına təkan verdiyi qənaətinə gəlməlidirlər.

Araşdırma nəticəsində şagirdlər XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatların reallaşmasında Ulu öndər Heydər Əliyevin siyasətini, bununla yanaşı, Azərbaycanın qlobal iqtisadi siyasətini dəyərləndirirlər. Həmçinin iqtisadi islahatların Azərbaycana verdiyi töhfələr haqqında təqdimat hazırlamağı bacarırlar.

Bu mərhələdə şagirdlərə suallar verməklə ümumi nəticə çıxara bilərsiniz.

- İqtisadiyyatı gücləndirmək üçün Azərbaycan hökuməti və onun Prezidenti Heydər Əliyev 90-cı illərdə hansı tədbirlər görə bildi?
- İqtisadi inkişafla bağlı hansı rəsmi sənədlər imzalanmışdır? Bu sənədlərin əhəmiyyəti nə idi?
- İqtisadi durumun sosial vəziyyətlə nə kimi əlaqəsi var?
- Əhalinin sosial təminatında iqtisadi artımın rolunu necə qiymətləndirirsiniz?
- Neft ölkəsi olmağımızın geosiyasi əhəmiyyəti nədir? və s.

**Yaradıcı tətbiqetmə:** Azərbaycanın sosial-iqtisadi gücünü özündə əks etdirən şüarlar hazırlayın.

**Ev tapşırığı:** "Ulu öndər Heydər Əliyevin islahatları hansı nailiyyətlərin əldə olunmasına imkan verdi?" Bu sual ətrafında şagirdlərə layihə işi tapşırın. Mövzu geniş və əhatəlidir. Şagirdlər sonda Heydər Əliyevin başladığı iqtisadi islahatların nəticələrini bu gün də gördüklərini anlamalı, bu qənaətlərə onları həyatla əlaqələndirərək gəlməlidirlər. Buna görə də layihə işi cari mətnə uyğun standartların reallaşmasında daha məqsədəuyğundur. Şagirdlərə bir həftə vaxt verin. Layihə işini fərdi və ya qrup şəklində də tapşıra bilərsiniz. Qrup şəklində tapşırdığınız layihə üçün onların sizin köməyinizə ehtiyacları olacaqdır. Onlara əsas məqamları və fəaliyyətin nədən ibarət olacağını əvvəlcədən başa salmalısınız. Layihə təqdimat şəklində nümayış olunmalıdır. Bu mənada, işi həm də layihə-təqdimat kimi də tapşıra bilərsiniz.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təqdimat hazırlama.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İqtisadi islahatların Azərbaycana verdiyi töhfələr haqqında təqdimat hazırlamaqda çətinlik çəkir. | İqtisadi islahatların Azərbaycana verdiyi töhfələr haqqında müəllimin köməyi ilə təqdimat hazırlayır. | İqtisadi islahatların Azərbaycana verdiyi töhfələr haqqında bəzi səhvlər etməklə təqdimat hazırlayır. | İqtisadi islahatların Azərbaycana verdiyi töhfələr haqqında sərbəst şəkildə təqdimat hazırlayır. |
| Azərbaycanın qlobal iqtisadi siyasətini dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın qlobal iqtisadi siyasətini müəllimin köməyi ilə dəyərləndirir. | Azərbaycanın qlobal iqtisadi siyasətini bəzi səhvlər etməklə dəyərləndirir. | Azərbaycanın qlobal iqtisadi siyasətini sərbəst şəkildə dəyərləndirir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatların reallaşmasında Heydər Əliyevin siyasətini dəyərləndirməkdə çətinlik çəkir. | XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatların reallaşmasında Heydər Əliyevin siyasətini müəllimin köməyi ilə dəyərləndirir. | XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatların reallaşmasında Heydər Əliyevin siyasətini bəzi səhvlər etməklə dəyərləndirir. | XX əsrin 90-cı illərində həyata keçirilən sosial-iqtisadi islahatların reallaşmasında Heydər Əliyevin siyasətini sərbəst şəkildə dəyərləndirir. |

## MÖVZU 39. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ

**Alt standartlar:**

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Respublikasının xarici siyasətində geosiyasi mövqeyin əhəmiyyətini dəyərləndirir.
2. Mənbələr əsasında Azərbaycan Respublikasının xarici siyasətinin tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**İnteqrasiya:** Ümumi tarix – 3.1.3.
**Təlim forması**: böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** fasiləli oxu, interaktiv mühazirə, Venn diaqramı
**Resurslar**: dərslik, xəritələr, şəkillər, videomateriallar, mənbələr, paylama materialları və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiyanı həyata keçirmək üçün xəritə nümayiş etdirin. Bu zaman Azərbaycanın geosiyasi mövqeyini soruşun. Şagirdlər müxtəlif fikirlər söyləyəcəklər. Azərbaycanın tarixi keçmişinə müraciət edin və işğal olunduğu zamanlara qayıdın. Səbəbləri soruşun. İşğalçıların maraqlarını yenidən müəyyənləşdirin. Şagirdlərə bu problemlərin digər mümkün həlli yollarının olub-olmaması ilə bağlı suallar verin, mülahizələri dinləyin. Onların təxminləri əsaslandırması üçün şərait yaradın. Sonra suallarla müraciət edin.

Azərbaycanın xarici siyasətini özündə əks etdirən videomaterial və ya slayd təqdim etməklə də motivasiya yaratmaq olar. Motivasiya uzun vaxt aparmamalı, söylənilən fərziyyələrin problemdən uzaqlaşmasına imkan verilməməlidir. Araşdırılacaq problemlə bağlı motivasiya baş tutduqdan sonra tədqiqat sualını lövhədə və ya flipçartda yaza bilərsiniz.

LAYİHƏ

**Tədqiqat sualı:** Azərbaycanın beynəlxalq münasibətlərdə rolu və yeri nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

Tədqiqatın aparılması üçün qruplara tapşırıq vermək olar. Tədqiqat işlərinin əksəriyyətinin qrup işi olmasının səbəbi fəal-interaktiv təlim mühiti yaratmaq, qısa müddətdə lazımi məqsədə nail olmaqdır. Bildiyiniz kimi, araşdırılan mövzunun məzmunu ilə bağlı şagirdlər aşağı sinifdən müəyyən biliklərə malikdirlər. Onlar üçün qrupda işləmək və öz arqumentlərini qoymaqla qrup işi hazırlamaq rahat və səmərəli olacaqdır. Qrupların fəaliyyətə cəlb edilməsi taksonomik bilmə, anlama, tətbiq və s. idrak taksonomiyasına nail olmağa imkan verir. Qrupların fəaliyyəti üçün aşağıdakı tapşırığı vermək olar. Yaxud aşağıda təqdim olunan işi kollektiv və ya fərdi həyata keçirə bilərsiniz:

**I qrup.** Beynəlxalq təşkilatlar Qarabağ məsələsi ilə bağlı hansı qərarlar və qətnamələr qəbul etmişdir? Sadalayın. Onların təxmini məzmunu nədən ibarət idi? Dəyərləndirmə aparın.

**II qrup.** Mətndəki sxemə əsasən Azərbaycan Respublikasının xarici siyasət istiqamətləri haqqında qısa şəkildə interaktiv mühazirə hazırlayın. (İnteraktiv mühazirə tarix dərslərində istifadə olunan üsullardan biridir. Bu zaman şagird aldığı məlumatı sistemli şəkildə yazır və digərlərinə ötürmək üçün yazılı şəkildə izah edir.)

**III qrup.** Ulu öndər Heydər Əliyevlə ölkə Prezidenti İlham Əliyevin xarici siyasətini müqayisə edin (Venn diaqramından və ya müqayisə cədvəlindən istifadə edə bilərsiniz). Hansı oxşar tərəfləri görürsünüz? Bu sizə nə deyir?

| Heydər Əliyevin xarici siyasəti | Xarici siyasətlərin oxşar tərəfləri | İlham Əliyevin xarici siyasəti |
|---|---|---|
| | | |

**IV qrup.** Azərbaycan Respublikasının xarici siyasətində iqtisadi faktorların rolunu müəyyənləşdirin və şaxələndirmədən istifadə etməklə iqtisadi sahələrdə üstünlük verilən dövlətləri və regionları qeyd edin.

**Məlumatın mübadiləsi və müzakirəsi**: Müəyyən etdiyiniz vaxtdan sonra qruplar öz işlərini nümayiş etdirirlər. Düzəlişlər edilir, qüsurlar göstərilir. Bundan sonra ümumiləşməni aparmaq üçün müzakirə suallarına keçirsiniz. Məqsəd Azərbaycan Respublikasının xarici siyasətini yüksək dəyərləndirərək onun əsas istiqamətlərini müəyyənləşdirmək və dövlətinizin xarici siysət hədəflərini əsaslandırmaqdır. Şagirdlər özləri bu nəticələri əldə etməlidirlər. Buna görə də müzakirə suallarını dəqiq və düşünülmüş şəkildə, məntiqi ardıcıllığa və sinxronluğa uyğun verməlisiniz. Aşağıdakı suallardan istifadə edə bilərsiniz. Çalışın ki, suallarınız açıq olsun, qapalı suallardan daha çox müəyyən məqamlarda düzəlişlər edərkən istifadə etmək tövsiyə olunur.

- Paris Xartiyası nə deməkdir? Azərbaycan onu imzalamaqla dünya dövlətlərinə nə demək istəyirdi?
- Necə düşünürsünüz, nə üçün Qarabağ məsələsi Azərbaycan Respublikasının xarici siyasətinin əsasında dayanır?

LAYİHƏ

- Azərbaycanın ərazi bütövlüyü məsələsi ilə xarici siyasəti arasında hansı bağlılıqlar vardır?
- ABŞ-ın 907-ci düzəlişini hansı əsaslara görə qərəzli hesab etmək olar?
- Azərbaycan öz qonşuları ilə münasibətlərini necə qurmuşdur? Bu münasibətlərin dostluğa əsaslanması hansı məqsədlərə xidmət edir?
- Xəzər dənizi ilə bağlı hansı məsələlər ölkəmizin xarici siyasətində mühüm rol oynayır?
- Mübadilə və müzakirənin nəticəsi olaraq şagirdlərin təqdim etdiyi işləri də qiymətləndirməyi unutmayın.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| **Tapşırığı düzgün yerinə yetirmə** | | | | |
| **Tərtibat** | | | | |
| **Təqdimetmə** | | | | |
| **Əməkdaşlıq** | | | | |
| **Vaxta qənaət** | | | | |

Azərbaycanın beynəlxalq aləmdəki uğurlarının xronoloji sxem-cədvəlini tərtib edin.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər sizin köməyinizlə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərini dəqiqləşdirməli, bu istiqamətdə aparılan işləri dəyərləndirməlidirlər. Onlar müəyyənləşdirirlər ki, Qarabağ məsələsi, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi dövlətimizin beynəlxalq münasibətlərini müəyyənləşdirən əsas faktordur. Belə ki Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşdığı kimi, digərlərindən də bunu tələb edir və Qarabağın yenidən Azərbaycana birləşdirilməsinə çalışır. Son zamanlar qlobal münasibətlərdə iqtisadi sahənin də rolu artmışdır. Bunu dövlətimizin başçısı çox gözəl görür və bu istiqamətdə də müəyyən işlər aparılır. Şagirdlər dərsin sonunda standarta müvafiq məqsədə çatmaqla Azərbaycan Respublikasının xarici siyasətdə geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir, mənbələr əsasında Azərbaycan Respublikasının xarici siyasətinin tarixinə dair araşdırmalar aparır, proqnozlar verirlər.

Bunun üçün şagirdlərə aşağıdakı suallara oxşar suallar verin:

- Nə üçün xarici dövlətlər Azərbaycanla siyasi əlaqələrdə maraqlı olduqlarını nümayiş etdirirlər?
- Azərbaycan hansı sahələrə görə beynəlxalq aləmdə maraqlı ölkə kimi görünür?
- Müasir dövrdə Azərbaycanın beynəlxalq münasibətləri necədir? Bu istiqamətdə hansı işlər görülür?
- Azərbaycanın beynəlxalq aləmdə əsas tutduğu məsələlər hansılardır? və s.

**Yaradıcı tətbiqetmə:** Siz Qarabağ probleminin beynəlxalq səviyyədə həlli barədə hansı təkliflərlə çıxış edə bilərsiniz? Təkliflərinizi dövlətimizin xarici siyasətdəki addımları ilə məntiqi uzlaşdırın. (Bu tapşırığı sinifdə də qruplara verə bilərsiniz. Şagirdlərdən maraqlı təkliflər alınacaq).

LAYİHƏ

**Ev tapşırığı:** Təsəvvür edin ki, hər hansı bir xarici ölkədə ermənilərin təcavüzkar siyasətini özündə əks etdirən layihə ilə iştirak etməlisiniz. Layihənizin adı "Qarabağa ədalət"dir. Onu hazırlayın.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, proqnozvermə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan Respublikasının xarici siyasətində geosiyasi mövqeyin əhəmiyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycan Respublikasının xarici siyasətində geosiyasi mövqeyin əhəmiyyətini sinif yoldaşlarının köməyi ilə dəyərləndirir. | Azərbaycan Respublikasının xarici siyasətində geosiyasi mövqeyin əhəmiyyətini bəzi nöqsanlarla dəyərləndirir. | Azərbaycanın Respublikasının xarici siyasətində geosiyasi mövqeyin əhəmiyyətini dəyərləndirir. |
| Mənbələr əsasında Azərbaycan Respublikasının xarici siyasətinin tarixinə dair araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Mənbələr əsasında Azərbaycan Respublikasının xarici siyasətinin tarixinə dair araşdırmalar aparır, sinif yoldaşları ilə birgə proqnozlar verir. | Mənbələr əsasında Azərbaycan Respublikasının xarici siyasətinin tarixinə dair araşdırmalar aparır, bəzi nöqsanlarla proqnozlar verir. | Mənbələr əsasında Azərbaycan Respublikasının xarici siyasətinin tarixinə dair araşdırmalar aparır, proqnozlar verir. |

LAYİHƏ

## MÖVZU 40. YENİ MİNİLLİYƏ YENİ LİDERLƏ

**Alt standartlar:**

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Əliyev, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Mənbələr əsasında ölkə Prezidenti İlham Əliyevin siyasətinə dair araşdırmalar aparır, proqnozlar verir.
2. Ölkə rəhbəri İlham Əliyevin Azərbaycan tarixində rolunu və fəaliyyətini dəyərləndirir.

**İnteqrasiya:** Ümumi tarix – 4.1.1., Azərbaycan dili – 1.2.4.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulu:** Venn diaqramı, müzakirə, auksion, İNSERT

**Resurslar:** dərslik, şəkillər, videolar, internet resursları, İlham Əliyevin dünya ölkələrindəki diplomatik görüşləri və ya ölkəmizdə apardığı islahatlarla bağlı videomateriallar və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Motivasiya mərhələsini müxtəlif şəkillərdən istifadə etməklə reallaşdıra bilərsiniz. Şəkillərə əsasən motivasiya sizin üçün yetərli deyilsə, açar sözlərdən istifadə etməklə onu yaratmaq olar.

Motivasiya mərhələsini suallarla da həyata keçirə bilərsiniz. Aşağıdakı tövsiyə edilmiş motivasiya sualları və istiqamət sizin üçün yardımçı ola bilər.

- Hansı hallarda Ümummilli lider Heydər Əliyev prezident seçkilərinə getməkdən imtina edə bilərdi?

Şagirdlər, ilk növbədə, bu məsələni ya hüquqla, ya da səhhəti ilə əlaqələndirəcəklər.

Lakin bir müəllim kimi siz Heydər Əliyevin prezident seçkilərində iştirak etmək hüququnun olduğunu izah etməli, sonra da, əlbəttə ki, 2003-cü ildə səhhətinin pisləşdiyini bildirməlisiniz. Bu zaman həmin dövrləri özündə əks etdirən videolar nümayiş etdirmək olar. Əgər səhhəti pisləşməsəydi, Ümummilli lideri xalqına xidmət etməkdən heç nə döndərə bilməzdi. Bu zaman şagirdlərlə kiçik müzakirə də apara bilərsiniz ki, o nə üçün oğlu, o zaman Baş nazir vəzifəsində çalışan bugünkü Prezident İlham Əliyevin siyasətə gəlişini dəstəkləyirdi. Onun hansı keyfiyyətləri Liderin belə qərar verməsinə təsir etmişdir? Şagirdlər bildiklərini və təxminlərini siniflə bölüşə bilərlər. Bundan sonra sual ortaya çıxacaq: “İlham Əliyev Ümummilli lider Heydər Əliyevin işini davam etdirməkdə çətinlik çəkmədi ki? O, başqa hansı nailiyyətlərə imza ata bildi?”

**Tədqiqat sualı:** Ölkə rəhbəri İlham Əliyevin Azərbaycan Respublikasının inkişafında rolu nədən ibarət oldu?

LAYİHƏ

**Tədqiqatın aparılması:**

Şagirdlər öz fərziyyələrini irəli sürdükdə onların fikirlərini qeydə alın. Motivasiya baş tutduqdan sonra **İNSERT** üsulundan istifadə tövsiyə olunur. Dərslikdəki mövzunu şagirdlərə **İNSERT** üsulu vasitəsilə çatdırmaq onların inkişafına kömək edər. İşarələr sistemindən istifadə edib mətni başa düşmək üçün biliyini yoxlamaqla düzgün cavab axtarmaq üsulu olan **İNSERT**-in tətbiqi zamanı yeni dərsi oxumamışdan əvvəl müəllim şagirdləri cütlərə ayırır. Beş dəqiqə ərzində onlardan xahiş edir ki, Prezident İlham Əliyevin siyasi baxışları haqqında nə bilirlərsə, təsəvvürlərinə gələnləri qısa şəkildə yazsınlar. Müəllim bildirir: "Ola bilsin, sizin yazdıqlarınız dəqiq olmasın, buna bir o qədər də fikir verməyin, dərsin gedişi zamanı düzəliş aparacağıq. Prezident İlham Əliyev haqqında bildiklərinizi siyahı şəklində, alt-alta yazın". Bu barədə lövhədə qeyd edilir və ümumiləşdirilir. Bundan sonra mətn oxutdurulur, müəllim şagirdlərə müraciət edərək deyir: "Oxuduqca səhifələrin kənarında işarələr qoyacaqsınız, işarələr aşağıdakı kimi olmalıdır:

1. Əvvəl bildiyin məlumatı təsdiq edən informasiya varsa, qarşısında **(V)** işarəsini qoyun.
2. Oxuduğun bir informasiya əvvəllər bildiyini inkar edirsə, **(–)** işarəsi qoyun.
3. Rast gəldiyin informasiya sənin üçün təzədirsə, **(+)** işarəsi ilə göstərin.
4. Haqqında əlavə məlumat almaq istədiyin məsələ varsa, qarşısında **(?)** işarəsi qoyun".

Sinfi qruplara bölün. Bu zaman qrupların adlarını siz təyin edin. Çalışın ki, müasir günümüzlə, Prezident İlham Əliyevin nailiyyətləri ilə bağlı adlar olsun.

Hər bir qrup üçün iş vərəqləri hazırlayın. Vərəqlərdə əvvəlcədən hazırladığınız tapşırıqları qeyd edin. Tapşırıqlar aşağıdakı kimi ola bilər:

**I qrup.** Ulu öndər Heydər Əliyev hansı keyfiyyətlərinə görə İlham Əliyevin Azərbaycan xalqının yeni lideri olmasını tövsiyə etmişdir? Mətndəki mənbədən istifadə etməklə Prezident İlham Əliyevin şəxsi keyfiyyətlərini sxem şəklində qeyd edin.

**II qrup.** İlham Əliyev Prezident olmağa qərar verərkən öz qarşısına hansı mühüm vəzifələri qoymuşdu? Sxem şəklində ifadə edin.

**III qrup.** Ümummilli lider Heydər Əliyevlə İlham Əliyevin hüquqi dövlət quruculuğu siyasətini müqayisə etməyə çalışın. Venn diaqramı çəkin. Onlar hansı ümumi məqsədlərə xidmət edirdilər? Dəyərləndirin.

**IV qrup.** Ümummilli lider Heydər Əliyevlə İlham Əliyevin Qarabağ probleminin həlli istiqamətindəki siyasətini müqayisə etməyə çalışın. Venn diaqramından istifadə edin.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qruplar öz işlərini nümayiş etdirdikdən sonra səhvlər üzərində iş aparılır, düzgün cavablar isə dəqiqləşdirilir. Qrupları cavablarına görə qrup qiymətləndirmə meyarları ilə dəyərləndirə bilərsiniz.

LAYİHƏ

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

Sonra tədqiqatın ikinci mərhələsi başlayır. Bu zaman siz **müzakirə** üsulundan istifadə etməklə bütün siniflə işləyə bilərsiniz. Bu mərhələ ölkə Prezidenti İlham Əliyevin apardığı xarici və daxili siyasətin mühüm aspektlərini əhatə edəcəkdir. Bəzi suallar meydana gələcək, sizin işiniz onları düzgün şəkildə və məntiqi ardıcıllıqla şagirdlərə çatdırmaqdır. Çünki məhz bu sualların köməyi ilə ümumiləşdirmələr aparmaq və düzgün nəticə əldə etmək mümkündür. Əvvəlcə siniflə bərabər İlham Əliyevin prezidentliyi illərində aparılan işlərin xronoloji sxemini tərtib edin. Vaxta qənaət etmək üçün bu sxemin cizgilərini əvvəlcədən hazırlasanız, daha yaxşıdır. Sxem bu şəkildə olarsa, daha məqsədəmüvafiq olar:

(Cədvəldə müvafiq illərdə görülən əsas işlər qeyd oluna bilər).

- Ölkə rəhbəri İlham Əliyevin hakimiyyəti dövründə neft sektorunun gəliri haqqında nə deyə bilərsiniz?
- Prezident İlham Əliyev məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün hansı tədbirləri görmüşdür?
- Prezident İlham Əliyevin xarici siyasətinin əsas xətlərini müəyyənləşdirin. (Şagirdlərlə bərabər sxem çəkin. Sxemin tamamlanmasını onların öhdəsinə buraxın. Hər bir qrup hər hansı bir istiqamətin üzərində dayana bilər.)
- Ölkə rəhbəri İlham Əliyev təhsil və mədəniyyət sahəsində hansı işləri görmüşdür? Sadalayın. Bu zaman **auksion** üsulundan istifadə edə bilərsiniz. Şagirdlər gündəlik həyatları ilə bağlı məsələlərdən danışacaqlar. Üsulun şərtlərinə görə, sonuncu şagird qalib hesab olunur. Lakin İlham Əliyev hər gün fəaliyyətdədir və onun işləri bitmir. Buna görə də şagirdləri mükafatlandırmaq məqsədilə hamını qalib hesab edin.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Beləliklə, əsas məqsəd ölkə Prezidenti İlham Əliyevin Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı olmasını sübut etməkdir. Şagirdlər bu qənaətə özləri gəlirlər. Onlar İlham Əliyevin fəaliyyətini dəyərləndirir, onun xanımı, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın dəstəyini və əməyini yüksək qiymətləndirirlər. Şagirdlər mənbələr əsasında Prezident İlham Əliyevin siyasətinə dair araşdırmalar aparır, proqnozlar verir, Azərbaycan tarixində rolunu və fəaliyyətini dəyərləndirirlər.

Təlim fəaliyyətini ümumiləşdirmək üçün aşağıdakı suallardan yararlana bilərsiniz: “Necə oldu ki, ölkə rəhbəri İlham Əliyev Azərbaycan xalqının liderinə çevrilə bildi?”, “O, Azərbaycan Respublikasının Prezidenti kimi hansı uğurlara nail oldu?” və s.

**Yaradıcı tətbiqetmə:** Prezident İlham Əliyevin beynəlxalq aləmdəki fəaliyyətini özündə əks etdirən buklet hazırlayın.

**Ev tapşırığı:** Mövzunun davamlılığı göz qabağındadır. Ona görə də şagirdlərə təqdimat işi verin. Yaxşı olar ki, hər bir şagird Azərbaycan iqtisadiyyatının hər hansı bir sahəsini seçsin və bu sahədə aparılan inkişafyönümlü layihələr haqqında məlumatlar toplamaqla təqdimat hazırlasın.

LAYİHƏ

**Özünüqiymətləndirmə:** Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

**Soyad, ad, ata adı:** Bayramova Nigar Seymur qızı

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydaları-na riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

**Qiymətləndirmə meyarları:** proqnozvermə, dəyərləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mənbələr əsasında Prezident İlham Əliyevin siyasətinə dair araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə mənbələr əsasında Prezident İlham Əliyevin siyasətinə dair araşdırmalar aparır, proqnozlar verir. | Mənbələr əsasında Prezident İlham Əliyevin siyasətinə dair araşdırmalar aparır, cüzi səhvlərlə proqnozlar verir. | Mənbələr əsasında Prezident İlham Əliyevin siyasətinə dair müstəqil şəkildə araşdırmalar aparır, proqnozlar verir. |
| Prezident İlham Əliyevin Azərbaycan tarixində rolunu və fəaliyyətini dəyərləndirməkdə çətinlik çəkir. | Suallar vasitəsilə Prezident İlham Əliyevin Azərbaycan tarixindəki rolunu və fəaliyyətini dəyərləndirir. | Prezident İlham Əliyevin Azərbaycan tarixindəki rolunu və fəaliyyətini faktlarda səhvlərə yol verməklə dəyərləndirir. | Prezident İlham Əliyevin Azərbaycan tarixindəki rolunu və fəaliyyətini sərbəst dəyərləndirir. |

LAYİHƏ

## MÖVZU 41. QARABAĞ MÜNAQİŞƏSİ MÜASİR MƏRHƏLƏDƏ. QƏTİYYƏTİN NÜMAYİŞİ

**Alt standartlar:**

1.2.1. Mənbələrdəki eyni tarixi hadisə, proses və təzahürlər barədə müxtəlif baxışları dəyərləndirir.

1.2.2. Tarixi hadisə, proses və təzahürlərin öyrənilməsi üçün müvafiq mənbələri seçir.

3.1.3. Mənbələr əsasında Azərbaycanın dövlətçilik tarixinə dair araşdırmalar aparır, proqnozlar verir.

**Təlim məqsədləri:**

1. Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlərə dair müxtəlif baxışları dəyərləndirir.
2. Qarabağ münaqişəsinin müasir mərhələsinə dair müvafiq mənbələri seçir.
3. Mənbələr əsasında Qarabağ münaqişənin həllinə dair araşdırmalar aparır, proqnozlar verir.

**İnteqrasiya:** Ədəbiyyat – 1.1.4.
**Təlim forması:** böyük qruplarla iş
**Təlim üsulu:** akvarium
**Resurslar:** Azərbaycan Respublikasının xəritəsi, şəkillər, mənbələr, rəsmi sənədlərdən nümunələr, iş vərəqi və s.

**Dərsin mərhələləri**

**Motivasiya:** Bu mövzunun tədrisi üçün ilkin mərhələni – motivasiya mərhələsini həyata keçirmək məqsədilə müxtəlif vasitələrdən istifadə etmək olar. Elektron lövhədə və ya proyektorun köməyi ilə Azərbaycanın xəritəsini şagirdlərə göstərin. Orada işğal olunmuş bölgələr görünəcək. Bu haqda soruşun. Mümkünsə, işğal olunmuş bölgələrin tarixinə də müraciət edin. Sonra internetdən və ya digər vasitələrdən istifadə etməklə Qarabağ münaqişəsinə dair şəkilləri nümayiş etdirin. Mümkündürsə, video təqdim edin. Video çox qısa şəkildə olsun. Təxminən, 1 dəqiqə. Şagirdlərə "Bu torpaqları necə azad etmək olar" sualına cavab istədiyinizi deyin. Onlar öz təxminlərini söyləyəcəklər. Sonda sual yaranacaq: "Dövlətimiz bu sahədə hansı tədbirləri görür?" Sualların meydana çıxması, səsləndirilən suallar istiqamətində motivasiyanın baş tutması mərhələsindən sonra tədqiqat sualını verin.

**Tədqiqat sualı:** Azərbaycan Respublikası Qarabağ münaqişəsinin müasir mərhələsində hansı addımları atmışdır?

**Tətqiqatın aparılması:**

Bu mərhələdə **akvarium** üsulunu tətbiq etdiyimiz üçün sinfi iki qrupa bölün. Bu üsul diskussiya xarakterlidir. Onun üçün əvvəlcədən üsulun qaydalarını müəyyənləşdirin. Prosedurları başa salın. İki qrup dairə şəklində əyləşir. Onlardan biri kiçik dairədə – ortada,

LAYİHƏ

digəri isə böyük dairədə – kənarlarda. Əsas proseslər daxili dairədə baş verəcəkdir. Tapşırıqlar onlara verilir. Kənar dairənin (ekspert qrupunun) iştirakçıları isə daxili dairənin cavablarını dinlədikdən sonra öz iradlarını bildirməyə və sanki yoldaşlarını debata dəvət etməyə başlayırlar. Təbii olaraq, müəllimin işi bu prosesi nəzarətdə saxlamaq və məqsədə çatmaqdır. Lakin **"akvarium"a** başlamamışdan öncə sinfə mətnlə tanış olmaq imkanı verin. İstədiyiniz oxu strategiyasından istifadə edə biərsiniz. Lakin hal-hazırda **səssiz oxu** və ya **qruplarla müzakirəli oxu** daha əlverişlidir. Şagirdlərə bildirin ki, mətndəki faktlar onlara gərək olacaqdır. Vaxt bitdikdən sonra tapşırığınızı təqdim edin.

Şagirdlər elə təsəvvür etsinlər ki, Avropa Şurasında əyləşmisiniz. Daxili qrupun vəzifəsi Qarabağın işğal olunmasını, ərazilərinin qaytarılmasını danmaq, yurdlarından qaçqın düşmüş insanların hüquqlarını tələb edənlərə qarşı çıxmaqdır. Kənar dairənin vəzifəsi isə bacardıqca daxili qrupdakıların fikirlərinə qarşı arqumentlərlə çıxış etməkdən ibarətdir. Onlar, əksinə, öz dəlilləri ilə Qarabağda baş verənlərin cavabını, BMT qərarlarının yerinə yetirilməməsi və s. bu kimi məsələləri qaldıracaqlar.

Bu zaman müəllimin vəzifəsi nəzarəti əldən verməmək üçün diskussiyanı təşkil etməkdən ibarətdir. Buna xidmət edən müəyyən prosedurlar var. Bunlardan biri də oyuncaq mikrofondur. Mikrofonu kimə verirsinizsə, danışmaq hüququ onun olacaqdır. Sonda səsvermə keçirəcəksiniz. Kimin arqumentləri inandırıcı olacaqsa, həmin tərəf səs toplayacaq.

**Müzakirə vaxtı iştirakçılara kömək məqsədilə yönləndirici suallardan istifadə edə bilərsiniz:**

- Lissabon sammitinin əhəmiyyəti nədən ibarət olmuşdur?
- Nə üçün Ulu öndər Heydər Əliyevin bütün xarici səfərlərində Qarabağ məsələsi həmişə öndə olmuşdur?
- Ulu öndər Heydər Əliyev Qarabağ münaqişəsinin həlli yolunda hansı tədbirləri görmüşdür?
- Nə üçün Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışır?
- Mübariz İbrahimov nə üçün Milli Qəhrəman adına layiq görüldü? Onun nümunəsi bizə nəyi göstərdi?
- 2016-cı il aprelin 2-də baş vermiş döyüşlər Azərbaycana nə vəd edir? Azərbaycan bu döyüşlərdən nə qazandı?

**Özünüqiymətləndirmə vərəqi**

| Soyad, ad, ata adı: Bəhrəmli Ayxan Anar oğlu | | | | | |
|---|---|---|---|---|---|
| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
| | | | | | |

LAYİHƏ

**Məlumatın mübadiləsi və müzakirəsi:** Bu mərhələ müzakirələrlə başlayır. Başqa sözlə, tədqiqatın aparılması ilə mübadilə və müzakirə mərhələsi, demək olar ki, bir-biri ilə bərabər şəkildə gedir. Buna görə də debat bitdikdən sonra ümumiləşdirmələr aparılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Beləliklə, şagirdlər bilməlidirlər ki, dövlətimiz Qarabağ münaqişəsinin həlli yolunda əlindən gələni edir. Bu illər ərzində Qarabağ məsələsi bütün beynəlxalq danışıqların mərkəzində olmuşdur. Ulu öndər

Heydər Əliyevin başladığı bu siyasəti Prezident İlham Əliyev də davam etdirir. Azərbaycan problemi sülh yolu ilə həll etməyə çalışır. Lakin qarşı tərəf əks mövqedə dayandığından ordumuz gündən-günə gücləndirilir və Qarabağı əvvəl-axır sülh və ya müharibə yolu ilə alacağımız gün səbirsizliklə gözlənilir. Şagirdlər Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlərə dair müxtəlif baxışları dəyərləndirməklə yanaşı, Qarabağ münaqişəsinin müasir mərhələsinə dair müvafiq mənbələri seçirlər. Mənbələr əsasında münaqişənin həllinə dair araşdırmalar aparır, proqnozlar verirlər.

**Yaradıcı tətbiqetmə:** Qarabağ münaqişəsinin ermənilər tərəfindən ədalətsiz olmasını özündə əks etdirən buklet hazırlayın.

**Ev tapşırığı:** Qarabağ münaqişəsinin beynəlxalq vəziyyətinə dair şagirdlərə əlavə məlumatlar toplamağı tapşırın. Çünki sonrakı dərslərdə Xocalı faciəsi haqqında mövzu olacaq. Bu, şagirdlərə məsələ ilə daha yaxından tanış olmaq imkanı verəcəkdir.

Meyarlara uyğun səviyyələr aşağıdakı kimi ola bilər.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, mənbələr seçmə, proqnozvermə

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdlər bu mərhələdə fərdi şəkildə qiymətləndirilir. Bunun üçün əvvəlcədən müəyyən edilmiş meyarlar üzrə səviyyələr hazırlayın.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlərə dair müxtəlif baxışları dəyərləndirməkdə çətinlik çəkir. | Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlərə dair müxtəlif baxışları sualların köməyi ilə dəyərləndirir. | Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlərə dair müxtəlif baxışları bəzi səhvlərlə dəyərləndirir. | Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlərə dair müxtəlif baxışları müstəqil şəkildə dəyərləndirir. |
| Qarabağ münaqişəsinin müasir mərhələsinə dair müvafiq mənbələri seçməkdə çətinlik çəkir. | Qarabağ münaqişəsinin müasir mərhələsinə dair müvafiq mənbələri müəllimin köməyi ilə seçir. | Qarabağ münaqişəsinin müasir mərhələsinə dair müvafiq mənbələri sistemsiz seçir. | Qarabağ münaqişəsinin-müasir mərhələsinə dair müvafiq mənbələri müstəqil şəkildə seçir. |
| Qarabağ münaqişəsinin həllinə dair mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verməkdə çətinlik çəkir. | Mənbələr əsasında Qarabağ münaqişəsinin həllinə dair müəllimin köməyi ilə araşdırmalar aparır, proqnozlar verir. | Qarabağ münaqişəsinin həllinə dair mənbələr əsasında araşdırmalar aparır, yanlış proqnozlar verir. | Qarabağ münaqişəsinin-həllinə dair müstəqil şəkildə mənbələr əsasında araşdırmalar aparır, proqnozlar verir. |

LAYİHƏ

## MÖVZU 42. MƏDƏNİYYƏT

**Alt standartlar:**

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.

5.1.2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.

5.1.3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.

**Məqsədləri:**

1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.
2. Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi dəyərləndirir.
3. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim edir.

**İnteqrasiya:** Ümumi tarix – 5.1.3., Ədəbiyyat – 3.1.2.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulu:** sxem-cədvəl, müzakirə, Venn diaqramı

**Resurslar:** dərslik, şəkillər, sxemlər, illüstrasiyalar, xəritələr, elektron vəsait, paylama materialı, iş vərəqləri və s.

### Dərsin mərhələləri

**Motivasiya:** Bu mövzunun tədrisi zamanı müxtəlif vasitələrdən istifadə etməklə motivasiya qurmaq olar. Bunun üçün Azərbaycan mədəniyyətini əksetdirən fotolar və ya mədəniyyət abidələrindən nümunələr təqdim etmək və bu istiqamətdə suallar vermək mümkündür. Yaxud Azərbaycan mədəniyyətini özündə əks etdirən videoçarx göstərmək məqsədəmüvafiqdir. Digər bir forma isə slayd hazırlayıb şagirdlərə mədəniyyətlərdən nümunələr təqdim etməkdir. Bu zaman əsas məqsəd mexanizmi işə salmaq, şagirdlərin öz fərziyyələrini irəli sürmələri üçün imkan yaratmaqdır.

Müxtəlif sualların köməyi ilə də motivasiya yaratmaq mümkündür. Bu suallar aşağıdakı kimi ola bilər:

- Bizim həyatımız hansı fəaliyyətlərdən ibarətdir?
- Onları hansı əlamətlərinə görə qruplaşdırmaq olar?

Şagirdlər insan fəaliyyətlərini elm, təhsil, iqtisadi-təsərrüfat, siyasi əlamətlərinə görə fərqləndirəcəklər. Bu zaman siz sualla müraciət edə bilərsiniz:

- Cəmiyyətin inkişafına bunlar necə təsir göstərir?
- Bu sahələrin əhəmiyyəti nədən ibarətdir?
- Onlardan hansı daha vacibdir?
- Bu sahə zəif olarsa, hansı fəsadlara gətirib çıxarar?

Şagirdlər cavabları və təxminləri ilə maraqlı sualların meydana gəlməsinə şərait yaradacaqlar. Onları mədəniyyət mövzusuna istiqamətləndirin. Mədəniyyətin sahələrini bir-

LAYİHƏ

gə müəyyənləşdirin. Bu zaman şəkillərdən, internet-media resurslarından istifadə edə bilərsiniz. Şagirdlərə olimpiya oyunları, elm və təhsil, mədəniyyət xadimlərinin şəkillərini nümayiş etdirin. Azərbaycanın uğurlu layihələrdə iştirakını ifadə edən şəkil və ya videolar göstərin. Sual qoyun: "Mədəniyyətin inkişaf etməsinin əhəmiyyəti nədən ibarətdir?"

Şagirdlər öz fərziyyələrini irəli sürdükdən sonra tədqiqat işini təşkil edin.

**Tədqiqat sualı:** Müstəqil Azərbaycan mədəniyyətinin inkişafı hansı nailiyyətlərə gətirib çıxarmışdır?

**Tədqiqatın aparılması:**

Əgər siz hər hansı bir fənlə inteqrasiya imkanları tətbiq etməyi nəzərdə tutmusunuzsa, mütləq edin. Müasir təlim prosesində inteqrasiyanın həyata keçirilməsi əsasdır. Müxtəlif sualların köməyi ilə şagirdlərdən tədqiqat sualına cavab ala bilərsiniz. Şagird bildiyi informasiyanı ötürməklə bu taksonomik mərhələni aşmış hesab olunur. Kurikulumun, eləcə də fəal-interaktiv təlimin əsas məqsədi odur ki, şagird bilmə mərhələsini digər mərhələlərlə əvəzləyib təfəkkürünü inkişaf etdirsin. Onun öyrənməyə və həyati bacarıqlara yiyələnməyə marağını şərtləndirən fəal təlim prosesində aşağıdakı mərhələlər mühüm didaktik əhəmiyyət daşıyır:

- Düşünməyə yönəltmə mərhələsi;
- Düşünmə mərhələsi;
- Dərketmə mərhələsi;

Düşünməyə yönəltmə mərhələsində şagirdlər öyrəndikləri bilikləri təhlil etməyə və araşdıracaqları mövzu ətrafında düşünməyə sövq edilir. Şagird əvvəlcə mövzu ilə əlaqədar biliklərinin səviyyəsini müəyyənləşdirir və bəzi hallarda bunlara yeni əlavələr edir.

Bu mərhələləri əsas tutaraq verilmiş digər sual və tapşırıqları təhlil etsək, görərik ki, mövzu, doğrudan da, şagirdyönümlü və şəxsiyyətyönümlü şəkildə hazırlanmışdır. Sadəcə, sizin pedaqoji ustalığınız buna istiqamət verməlidir. Taksonomiyanın növbəti mərhələsi tətbiq mərhələsidir ki, bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığını tələb edir. Bura daxildir: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun nəticələrindən daha yüksək səviyyədə istifadə etmək qabiliyyətidir. Bu zaman şagirdləri tədqiqata cəlb etməklə aşağıda verilmiş qrup işlərinin tətbiqi üçün vasitə götürə bilərsiniz.

Sinfi 5 qrupa bölün. Qrupları mədəniyyət sahələrini ifadə edən müvafiq adlarla adlandırın.

**I qrup.** "Elm haqqında qanun"un əhəmiyyəti nədə idi? Onun qəbul edilməsi hansı proseslərdən sonra baş tutdu? Sxem-cədvəl hazırlayın.

**II qrup.** Dövlət İmtahan Mərkəzinin əhəmiyyətli fəaliyyəti nədən ibarətdir? Sovet illərində mövcud olmuş imtahan-qəbul sistemi haqqında nə bilirsiniz? Venn diaqramı vasitəsilə müqayisəli təhlil aparın.

**III qrup.** Azərbaycan hansı beynəlxalq mədəni tədbirlərdə iştirak etmişdir? Dəyərləndirmə apararaq cədvəl tərtib edin.

**IV qrup.** Ölkədə idman sahəsində hansı tədbirlər keçirilmişdir? Bu tədbirlərin nəticəsi olaraq dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirib cədvəl tərtib edin.

**V qrup.** Təhsil və mədəniyyət işçilərinə dövlətin qayğısı nədən ibarətdir? Dəyərləndirin.

LAYİHƏ

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qruplar məlumatlarla bölüşdükdən sonra cavabları dəqiqləşdirmək üçün onlara köməklik göstərin. Müzakirə təşkil edin. Müzakirəni təşkil etmək üçün əvvəlcədən mətnin məzmununa və fəaliyyətlərə uyğun suallar tərtib edin. Açıq suallara üstünlük verin. Qapalı sualları faktları dəqiqləşdirmək məqsədilə səsləndirə bilərsiniz. Müzakirə suallarını aşağıdakı şəkildə tərtib etmək olar.

Qrupların işini qrup qiymətləndirmə meyarları əsasında qiymətləndirin. Bunun üçün aşağıda təqdim edilən meyarlar sizin üçün yardımçı ola bilər:

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırıq vaxtında yerinə yetirilib. | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Şagirdlər sizin köməyinizlə ümumiləşdirmə aparmalı və nəticələr əldə etməlidirlər. Onlar anlamalıdırlar ki, mədəniyyət cəmiyyətin və dövlətin inkişafını göstərən əsas amillərdən biridir. Bu sahənin inkişafı digər sahələrin də inkişafına təkan verir. Buna görə də dövlətin mədəni sahələrin inkişafında marağı vardır. İqtisadi sahədə qazanılan uğurlar həm də mədəni sahədə gedən islahatların maliyyələşdirilməsinə kömək edir. Azərbaycan beynəlxalq mədəni tədbirlərdə uğurla çıxış edir. Bu uğurlar arasında musiqi, idman və elm sahələri üzrə əldə olunan nailiyyətləri qürurla göstərmək olar. Nəticədə şagirdlər əldə etdikləri bilik və bacarıqlar əsasında dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir, Azərbaycanın milli-mənəvi dəyərlərini xalqın dünya mədəniyyətinə töhfəsi kimi qiymətləndirir, Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, ümumiləşdirmələr təqdim edir. Ümumi nəticəyə gəlmək üçün aşağıdakı sualları da verə bilərsiniz.

- Azərbaycan Milli Elmlər Akademiyası haqqında nə bilirsiniz?
- Təhsil sahəsində hansı yeniliklər oldu?
- Nə üçün təhsil vacib sahə sayılır?
- Dövlət nəyə görə imtahanların şəffaf keçirilməsinə çalışır?
- Nə üçün dövlətimiz elm və təhsil, həmçinin mədəniyyət işçilərini dəyərləndirməkdə maraqlıdır?
- *Eurovision* mahnı müsabiqəsi haqqında nə bilirsiniz? O, Azərbaycanda nə zaman keçirildi?
- Avropa oyunları nə vaxt keçirilmişdir?
- İslam Həmrəyliyi oyunları nə vaxt keçirildi?
- Bu oyunlarda nə qədər ölkə iştirak etmişdir?

**Yaradıcı tətbiqetmə:** “İslam oyunları – 2017” adlı buklet hazırlayın.

LAYİHƏ

**Ev tapşırığı:** Tətbiqetmə kimi şagirdlərə təqdimat işi tapşırın. Bir həftə vaxt verin. Onlar "Müasir Azərbaycanın mədəni həyatına bir günlük baxış" və ya "Azərbaycanın mədəni uğurları" mövzularda təqdimat hazırlaya bilərlər. Şagirdlərə istiqamətlər verin ki, işin nədən ibarət olduğunu anlasınlar. Təqdimat məqsədilə ayrıca vaxt təyin edin. Bundan sonra şagird nailiyyətlərini qiymətləndirin.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təqdimetmə

Şagirdlərin dərsin gedişində öz şəxsi keyfiyyətlərini qiymətləndirməsinin aşağıdakı formada həyata keçirilməsi mümkündür.

| Meyarlar | A – əla | B – yaxşı | C – kafi | D – qeyri-kafi |
|---|---|---|---|---|
| Başqalarına hörmət | | | | |
| Başqalarına maraq | | | | |
| Dinləmək bacarığı | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşma | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |
| Əməkdaşlıq | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Düzlük | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Səhvin etirafı | | | | |

Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə şagirdləri fərdi şəkildə aşağıdakı səviyyələr üzrə qiymətləndirin.

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirməkdə çətinlik çəkir. | Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu müəllimin köməyi ilə dəyərləndir. | Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu düzgün dəyərləndir-məyə çalışır, bəzi nöqsanları var. | Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniy-yətinin rolunu düzgün dəyərləndirir. |
| Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniy-yətinə töhfəsi kimi dəyərləndirməkdə çətinlik çəkir. | Azərbaycanın milli-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi müəllimin köməyi ilə dəyərləndirir. | Azərbaycanın mil-li-mənəvi dəyərlərini Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi bəzi nöqsanlarla dəyərləndirir. | Azərbaycanın milli-mənəvi dəyərləri-ni Azərbaycan xalqının dünya mədəniyyətinə töhfəsi kimi müstəqil şəkildə dəyərləndirir, düzgün nəticələr çıxarır. |
| Azərbaycan mədəniyyəti-nin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri təqdim etməkdə çətinlik çəkir. | Azərbaycan mədəniy-yətinin dünya mədəniy-yətinə verdiyi töhfələrlə bağlı müəllimin köməyi ilə araşdırmalar aparır, nəticələri təqdim edir. | Azərbaycan mədəniyyə-tinin dünya mədəniyyə-tinə verdiyi töhfələrlə bağlı araşdırmalar aparır, nəticələri bəzi nöqsanlarla təqdim edir. | Azərbaycan mədəniy-yətinin dünya mədəniyyətinə verdiyi töhfələrlə bağlı müstəqil araşdırmalar aparır, düzgün nəticələri təqdim edir. |

LAYİHƏ

## SUMMATİV QİYMƏTLƏNDİRMƏ VASİTƏLƏRİNƏ DAİR NÜMUNƏ

Bildiyiniz kimi, summativ qiymətləndirmənin həyata keçirilməsi təkcə testlə nəticələnmir. Kiçik və ya böyük summativ qiymətləndirmənin həyata keçirilməsində təqdimatlar, layihələr də vasitə kimi rol oynayır. Bu zaman layihə və təqdimatları şagirdlərə tapşırmaqla qiymətləndirmə həyata keçirə bilərsiniz. Daima test nümunələri ilə işlədiyinizi və summativ qiymətləndirmənin həyata keçirilməsində daha çox bu vasitədən istifadə etdiyinizi nəzərə alaraq sizə digər vasitələrin nümunəsini təqdim edirik.

Summativ qiymətləndirməni həyata keçirmək üçün aşağıdakı layihəni təqdim edirik.

**LAYİHƏ: Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən istilasını tarixi fakt kimi dünya ölkələrinə çatdırmaq üçün Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən istilası ilə bağlı layihənin hazırlanması üçün sizə təqdim olunan mövzular əsasında araşdırmalar aparın.**

- Azərbaycan torpaqlarının işğalının başlanması tarixi fakt kimi;
- Cənubi Qafqaz uğrunda Rusiya–Qacarlar müharibələrinin Azərbaycan üçün nəticələri;
- Türkmənçay müqaviləsi ermənilərin tarixi Azərbaycan torpaqlarında məskunlaşmasının təsdiqi kimi;
- Rusiya–Qacarlar müharibəsinin nəticələrinin Azərbaycan üçün ədalətsiz müharibə olmasının təsdiqi.

**Layihənin icra planı:**

- Sizə təqdim edilmiş mövzulardan birini seçin. Seçiminizi müəllimlə müzakirə edin;
- Fərdi və yaxud qrupla işləyəcəyinizə qərar verin;
- Layihənin mərhələlərini və icrasına ayrılan vaxtı dəqiqləşdirin;
- Layihənin təqdimolunma formasını müəyyənləşdirin (Microsoft PowerPoint, Microsoft Word, model və s.);
- Seçdiyiniz mövzunu digər fənn müəllimləri və valideynlərlə də müzakirə edin;
- Mövzu ilə bağlı məlumat toplayın. Məlumatı müxtəlif mənbələrdən (dərslikdəki materiallardan, jurnal və internet resurslarından) əldə edə bilərsiniz.

Bildiyiniz kimi, layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsi deməkdir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Bunun üçün də siz layihənin mövzusunu summativ qiymətləndirmə tətbiq etməzdən bir neçə həftə əvvəl elan etməlisiniz. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Onlara müstəqil şəkildə fəaliyyət proqramlarını qurmağa, habelə vaxtlarını və işlərini qrafik üzrə planlaşdırmağa kömək edir. Layihələr hazırlanarkən mövzu və ya problemi müəllim müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem konkret olmalıdır. Müəllim və şagirdlər layihə üzərində işin başlama və başaçatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.), onları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa, qrup şəklində) birlikdə müəyyən edirlər. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

LAYİHƏ

## Təqdimat vasitəsilə summativ qiymətləndirmə

Bildiyiniz kimi, summativ qiymətləndirmənin həyata keçirilməsi üçün digər bir vasitə təqdimatlardır. Həm Kiçik summativ qiymətləndirmə, həm də böyük summativ qiymətləndirmə zamanı şagirdlərə təqdimat tapşırmaq mümkündür. Onların hazırladığı təqdimat əsasında summativ qiymətləndirməni keçirmək olar. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və s.) və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın həm fərdi, həm də qrup şəklində olması mümkündür. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul şagird özünüqiymətləndirməsində də səmərəlidir. Nəzərə almaq lazımdır ki, bu iş daha çox əmək tələb etdiyindən ona verilən vaxt da əvvəlcədən müəyyən olunmalıdır.

Təqdimat üçün aşağıdakı mövzuları sizə nümunə göstərə bilərik.

## TƏQDİMAT: Azərbaycan Xalq Cümhuriyyəti

- Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması
- Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasəti
- Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti
- Azərbaycan Xalq Cümhuriyyətinin süqutu

Layihədə olduğu kimi, təqdimatın icrasında da planın verilməsi işin səmərəli təşkilinə kömək etmiş olar.

## Təqdimatın icra planı

- Sizə təqdim edilmiş mövzulardan birini seçin. Seçiminizi müəllimlə müzakirə edin.
- Təqdimatın təqdimolunma formasını müəyyənləşdirin. (Microsoft Power Point, Microsoft Word, qəzet, buklet, kollaj və s.)
- Seçdiyiniz mövzunu digər fənn müəllimləri və valideynlərlə də müzakirə edin.
- Mövzu ilə bağlı məlumat toplayın. Məlumatı müxtəlif mənbələrdən (dərslikdəki materiallardan, jurnal və internet resurslarından) əldə edə bilərsiniz.
- Təqdimatın hazırlanması zamanı məntiqi ardıcıllığı gözləyin.
- Təqdimatı üçün ayrılacaq vaxtı nəzərə alın.

LAYİHƏ

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // "Azərbaycan məktəbi" jurnalı, 2013, №5.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. // "Kurikulum", 2009, №2.
3. Abbasov Ə. "Qiymətləndirmə keyfiyyətin idarə olunma vasitəsidir". // "Təhsil problemləri" qəzeti, 11–20 iyun, 2009.
4. Abbasov Ə. "Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri". // "Kurikulum" jurnalı, 2008, №1.
5. Abbasov Ə. "Kurikulum islahatının əsas istiqamətləri". // "Azərbaycan məktəbi" jurnalı.
6. Ağayev Əjdər. "Öyrədən öyrənən əməkdaşlığı interaktiv vasitə kimi". // "Təhsil" jurnalı 2016, №16
7. Ağayev S. Tarixin tədrisində interaktiv təlim metodunun tətbiqi təcrübəsindən. Bakı, 2009.
8. Bəylərov E. "Formativ qiymətləndirmə". // "Kurikulum" jurnalı, 2011, №3.
9. Bəylərov E. "Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair". // "Kurikulum" jurnalı, 2011, №2.
10. Cavadov İ. "Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsinə dair". // "Kurikulum" jurnalı, 2012, №2.
11. Cavadov İ. "Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar". // "Azərbaycan məktəbi" jurnalı, 2014, №4.
12. Cavadov İ. "Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. "Azərbaycan müəllimi" qəzeti, 2014, 30 may.
13. Cəbrayılov İ. "Azərbaycan tarixinin tədrisi metodikası", Bakı, 2006.
14. Əhmədov A. "Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru". // "Kurikulum" jurnalı, 2008, №1.
15. Əhmədov A., Şərifov T., Abbasov Ə. "Şagird nailiyyətlərinin qiymətləndirilməsi". // "Kurikulum " jurnalı, 2008, №1.
16. Əliyeva K. "Yekun (summativ) qiymətləndirmənin təşkili üsulları". // "Azərbaycan məktəbi" jurnalı, 2011, №5.
17. Əliyeva T. "Yeni qiymətləndirmə təhsildə inkişaf deməkdir". // "Azərbaycan müəllimi" qəzeti, 2013, 5 aprel.
18. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001.
19. Əsədova M. "Diaqnostik qiymətləndirmənin əsas mahiyyəti və ədəbiyyat dərslərində ondan istifadə". // "Azərbaycan müəllimi" qəzeti, 2012, 28 sentyabr.
20. Əsgərov R., Qurbanov M. "Qiymətləndirmə prosesi". // "Təhsil problemləri" qəzeti, 2015, 24–30 noyabr.


LAYİHƏ

21. Əsgərov R., Qurbanov M. “Qiymətləndirmə vasitələri”. // “Təhsil problemləri” qəzeti, 2014, 1 yanvar.
22. Əsgərov Ş. “Qiymətləndirmənin yeni kriteriyası, şagird-müəllim nisbəti prosesi”. // “Azərbaycan məktəbi” jurnalı, 2012, №2.
23. Hacıyeva T. “İbtidai təhsil pilləsində qiymətləndirmənin aparılması barədə”. // “Azərbaycan müəllimi” qəzeti, 2010, 29 oktyabr.
24. Hacıyeva T. “Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti”. // “Azərbaycan müəllimi” qəzeti, 2011, 18 mart.
25. Hüseynov E. “Fəal interaktiv təlimin üstünlükləri”. // Azərbaycan müəllimi qəzeti, 2016, 15 oktyabr.
26. Hüseynov R. “Azərbaycan tarixi tədrisinin bəzi məsələlərinə dair”. // “Azərbaycan məktəbi” jurnalı, 2010, №1.
27. “Hüseynov R. Formativ qiymətləndirmə sahəsində mövcud olan bəzi problemlər və onların aradan qaldırılması yolları”. // “Azərbaycan məktəbi” jurnalı, 2013, №4.
28. İnteraktiv təlim ensiklopediyası. Bakı, 2010.
29. Qəniyeva N. “Təlimdə səviyyəyə görə qiymətləndirmə”. // “Təhsil problemləri” qəzeti, 2015, 8 mart.
30. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı, “Azmaşkom-Tex” Ltd. MMC, 2007, 184 s.
31. Məlikov R., Nəcəfli T. Tarixin interaktiv təlimi. Bakı, 2002.
32. Paşayev T. Pedaqoji fəaliyyətin qiymətləndirilməsi. Bakı, 2011.
33. Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014.
34. Təhsil Qanunu. Bakı, 2009.
35. TGC. Təlim və İnkişaf Mərkəzi. Tarix fənni üzrə paylama materialı. Bakı, 2013.
36. “Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat”. // “Təhsil problemləri” qəzeti, 2013, 08–15 sentyabr.
37. “Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları”. // “Kurikulum” jurnalı, 2009, №4.
38. Veysova Z. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. UNECEF, 2007.

LAYİHƏ

## Rus dilində

39. Алексашкина Л.Н., Боголюбов Л.Н., Ворожейкина Н.И. Учебник стандарты школ России (государственнные общеобразовательные стандарты начального общего, основного общего и среднего (полного) общего образования). Книга первая. М., "Прометей", 1998 г.
40. Амонашвили Ш.А. Воспитательная и образовательная функция оценки учения школьников: Экспериментально-педагогическое исследование. М., "Педагогика", 1984. 296 с.
41. Амонашвили Ш.А. Основы гуманной педагогики. Книга четвертая. Об оценках, Москва, Амрита-Русь, 2012.
42. Анатолий Гин Приемы педагогической техники. Москва, 2013.
43. Безрукова В.С. Педагогика. Ростов-на-Дону, 2013.
44. Величко В.В., Карпиевич Е.Ф., Кирилюк Л.Г. Инновационные методы обучения в гражданском образовании. Минск, 2001.
45. Вяземский Е.Е. Историческое образование в современной России. Справочно-методическое пособие для учителей. М., 2002 г.
46. Крикунова Т.К. Практическая педагогика. М., 2001 г.
47. Никулина Н.Ю. Методика преподавания истории в средней школе: Учебное пособие, М., 2000 г.
48. Радугин А.А. Психология и педагогика. М., 2001 г.

## İngilis dilində

49. Borich.G.D. Effective teaching methods/Upper Saddle River, 1996.
50. Chris Husbands. What is History Teaching? Bristol, USA.1996.
51. History-social science framework for California Public schools. Education with Criteria for Instructional materials. Sacramento, 2005.
52. History 7–11 developing primary teaching skills. London, 1997.
53. Linda S. Levistik, Keith C. Barton. Doing history, New York, 2011.
54. Thomas G. Devine. Teaching student skills, Boston,1997.

## Saytlar

55. www. wikipedia.org
56. www. tarix.info
57. www. kayzen.az
58. www. edu.gov.az
59. www. kurikulum.az
60. www. musabiqe.gov.az
61. www. derslik.edu.gov.az


LAYİHƏ

## Buraxılış məlumatı

**AZƏRBAYCAN TARİXİ 11**

*Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün*
*Azərbaycan tarixi fənni üzrə dərsliyin*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Elnur Hüseynov**<br>**Sevil Bəhrəmova** |
| Buraxılışa məsul | **Sevil İsmayılova** |
| Baş redaktor | **Ülkər Məmmədova** |
| Üz qabığının dizaynı | **Nurlan Nəhmətov** |
| Dizayner və səhifələyici | **Eldəniz Xocazadə** |
| Redaktor | **Nərgiz Cabbarlı** |
| Korrektor | **Nübar Qarayeva** |
| Texniki redaktor | **Fəridə Səmədova** |
| Texniki direktor | **Xəqani Fərzalıyev** |
| Nəşriyyat direktoru | **Eldar Əliyev** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
*2018-157*



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 13. Formatı 70x100 1/16.
Səhifə sayı 208. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 4076. Pulsuz. Bakı – 2018.



LAYİHƏ



**"Şərq-Qərb" ASC**
**AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17.**

Pulsuz

LAYİHƏ